# QADIN HÜQUQLARI ÜZRƏ BƏLƏDÇİ

Bakı – 2012

Bu kitab Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyətinin (GIZ) maliyyə dəstəyi ilə dərc olunub.

The book is published with financial support of Deutsche Gesellschaft für Internationale Zusammenarbeit (GIZ).

**Qadın hüquqları üzrə bələdçi.** Bakı, 2012, 204 səh.

Müəlliflər: **Şəlalə Vəliyeva**
**Nərmin Kərimbəyova**
**Günel Quliyeva**
**Günel İsmixanova**
**Nigar Hüseynova**
**Arif Niftiyev**

© **2012**

## M Ü N D Ə R İ C A T

Ön söz ........................................................................................................................13

## AİLƏ MÜNASİBƏTLƏRİNDƏ QADINLARIN HÜQUQLARI

• Nikah ........................................................................................................................16
• Nikahın bağlanma qaydası və şərtləri ........................................................................................................................16
• Ər-arvadın əmlakının qanuni rejimi anlayışı ........................................................................................................................19
• Ər-arvadın birgə mülkiyyəti ........................................................................................................................19
• Ər-arvadın ümumi əmlakı üzrəində sahiblik, istifadə və sərəncam hüququ ........................................................................................................................19
• Ər-arvadının hər birinin mülkiyyəti ........................................................................................................................20
• Ər-arvadın hər birinin əmlakının onların birgə mülkiyyəti sayılması ........................................................................................................................20
• Ər-arvadın ümumi əmlakının bölünməsi ........................................................................................................................20
• Ər-arvadın ümumi əmlakının bölünməsi zamanı payların müəyyən edilməsi ........................................................................................................................21

**Nikah müqaviləsi**

• Nikah müqaviləsi və onun məzmunu ........................................................................................................................21
• Nikah müqaviləsinin bağlanma qaydası ........................................................................................................................22
• Nikah müqaviləsinin dəyişdirilməsi, pozulması və etibarsız sayılması ........................................................................................................................22
• Nikaha xitam verilməsi ........................................................................................................................25
Nikaha xitam verilməsinin əsasları ........................................................................................................................25
• Ərin nikahın pozulmasını tələb etmək hüququnun məhdudlaşdırılması ........................................................................................................................25
• Nikahın məhkəmə qaydasında pozulması ........................................................................................................................26
• Ərin (arvadın) razılığı olmadıqda nikahın məhkəmə qaydasında pozulması ........................................................................................................................26
• Ər-arvadın qarışılıqlı razılığı olduqda nikahın məhkəmə qaydasında pozulması ........................................................................................................................26
• Nikahın pozulması haqqında qətnamə qəbul etdikdə məhkəmənin həll etdiyi məsələlər ........................................................................................................................27
• Valideynlərin və uşaqların hüquq və vəzifələrinin yaranma əsasları ........................................................................................................................28
• Uşağın mənşəyinin müəyyən edilməsi ........................................................................................................................28
• Məhkəmə qaydasında atalığın və atalığın tanınması faktının müəyyən olunması ........................................................................................................................28

**Ailədə uşaqların hüquqları**

• Uşağın ailədə yaşamaq və tərbiyə olunmaq hüququ ........................................................................................................................29
• Uşağın öz valideynləri və başqa qohumları ilə ünsiyyətdə olmaq hüququ ........................................................................................................................29
• Uşağın müdafiə hüququ ........................................................................................................................30
• Uşağın öz fikrini bildirmək hüququ ........................................................................................................................30

**Valideynlərin və uşaqların aliment öhdəlikləri**

• Valideynlərin uşaqlarını saxlamaq vəzifəsi ........................................................................................................................31
• Uşaqlar üçün məhkəmə qaydasında tutulan alimentin miqdarı ........................................................................................................................31

• Uşaqların saxlanılması üçün alimentin sabit pul məbləğində tutulması ....................................31
• Əmək qabiliyyəti olmayan yetkinlik yaşına çatmış övladların aliment almaq hüququ .........32
• Valideynlərin uşaqlara görə əlavə xərclərdə iştirakı ....................................................................32
• Yetkinlik yaşına çatmış övladların valideynlərini saxlamaq vəzifəsi .........................................33

**Ər-arvadın və keçmiş ər-arvadın aliment öhdəlikləri**

• Ər-arvadın bir-birini saxlamaq vəzifəsi ........................................................................................34
• Nikah pozulduqdan sonra keçmiş ərin (arvadın) aliment almaq hüququ ...................................34
• Ərdən (arvaddan) və ya keçmiş ərdən (arvaddan) digərinə məhkəmə qaydasında tutulan alimentin miqdarı ...........................................................................................................34
• Ərin (arvadın) arvadı (əri) saxlamaq vəzifəsindən azad edilməsi və ya bu vəzifənin müddətlə məhdudlaşdırılması ..............................................................................35

**Ailənin başqa üzvlərinin aliment öhdəlikləri**

• Qardaş və bacıların yetkinlik yaşına çatmayan və ya əmək qabiliyyəti olmayan qardaş və bacılarını saxlamaq vəzifəsi ..............................................................................35
• Baba və nənənin nəvələrini saxlamaq vəzifəsi .............................................................................35
• Nəvələrin baba və nənəni saxlamaq vəzifəsi ................................................................................36
• Yetirmələrin öz faktik tərbiyəçilərini saxlamaq vəzifəsi .............................................................36
• Məhkəmənin qərarı ilə alimentin tutulması ...................................................................................36
• Aliment tutulması barədə tələbin verilməsi müddətləri ...............................................................36
• Mübahisənin məhkəmədə həllinə qədər alimentin tutulması .......................................................37
• Təşkilatın müdiriyyətinin aliment tutmaq vəzifəsi .......................................................................37
• Aliment ödənilməsi barədə saziş əsasında aliment tutulması .......................................................37
• Qəyyumluq və himayə İnstitutu: qanunvericilik və praktika .......................................................37
• Övladlığa götürülməsinə yol verilən uşaqlar .................................................................................41
• Övladlığa götürmə qaydası ..............................................................................................................41
• Övladlığa götürmək hüququ olan şəxslər .......................................................................................42
• Övladlığa götürülən uşaq ilə övladlığa götürən arasında yaş fərqi ..............................................42
• Azərbaycan Respublikasında ölkələrarası övladlığa götürmə prosessinin həyata keçirilmə qaydaları ..........................................................................................................................42
• Erkən nikahlar və ailənin kəbin əsasında qurulması: hüquqi problemlər .....................................43

## QADINLARIN SAĞLAMLIQ HÜQUQU

• Sağlamlığının vəziyyəti barədə vətəndaşların məlumat almaq hüququ .........................................52
• Süni mayalanma və embrionun implantasiyası ..............................................................................52
• Hamiləliyin süni surətdə pozulması ................................................................................................52
• Qadın və QİÇS ..................................................................................................................................53
• Qadın alveri QİÇS-in artmasını sürətləndirir .................................................................................54
• Qadınlar İİV-ə necə yoluxa bilərlər? ..............................................................................................54

**PENSİYA VƏ SOSİAL MÜAVİNƏTLƏR**

• Əmək pensiyası ...57
• Əmək pensiyasının növləri və tərkibi ...57
• Pensiya seçmək hüququ ...57
• Yaşa görə əmək pensiyası ...57
• Çoxuşaqlı qadınların yaşa görə əmək pensiyası ...58
• Sağlamlıq imkanları məhdud uşağı elan alanların yaşa görə əmək pensiyası ...58
• Uşaqlarını təkbaşına böyüdən ataların və qəyyumların yaşa görə əmək pensiyası ...58
• İş yerindən asılı olaraq güzəştli şərtələrlə əmək pensiyası hüququ ...58
• Fizioloji vəziyyətlə əlaqədar güzəştli şərtlərlə əmək pensiyası hüququ ...59
• Mülki aviasiya işçilərin güzəştli şərtlərlə əmək pensiyası hüququ ...59
• Prokurorluq işçilərin güzəştli şərtlərlə əmək pensiyası hüququ ...59
• Hərbi qulluqçuların güzəştli şərtlərlə əmək pensiyası hüququ ...59
• Ədliyyə orqanlarında qulluq keçmiş işçilərin güzəştli şərtlərlə əmək pensiyası hüququ ...60
• Əlilliyə görə əmək pensiyası ...60
• Əlilliyə görə əmək pensiyasının təyin edilməsi şərtləri ...61

**Ailə başçısını itirməyə görə əmək pensiyası**

• Ailə başçısını itirməyə görə əmək pensiyası hüququ olan ailə üzvləri ...62
• Ögey atanın, ögey ananın, ögey oğulun və ögey qızın əmək pensiyası hüququ ...62
• Övladlığa götürənlərin və övladlığa götürülənlərin əmək pensiyası hüququ ...63
• Ailə başçısını itirməyə görə əmək pensiyası təyinatının şərtləri ...63

**Sığorta stajı**

• Sığorta stajına daxil edilən iş və ya digər fəaliyyət müddətləri ...63
• Sığorta stajının hesablanması qaydası ...64
• Vətəndaşların başqa dövlətlərin ərazisində fəaliyyət dövrünün sığorta stajına daxil edilməsi şərtləri ...65
• Sığorta stajının hesablanmasında güzəştlər ...65
• Sığorta stajının təsdiq edilməsi qaydası ...65

**• Əmək pensiyasinin təyin edilməsi**

• Əmək pensiyasının bir növündən başqa növünə keçirilmə ...66
• Əlillik qrupu dəyişdikdə və ya əmək qabiliyyəti bərpa olunduqda, əmək pensiyasının verilməsi müddəti ...66
• Əlillərin, 18 yaşınadək sağlamlıq imkanları məhdud şəxslərin təkrar müayinə vaxtı ötürüldükdə, əmək pensiyasının verilməsinin dayandırılması və bərpa edilməsi ...67
• Xaricə köçmüş şəxslərə əmək pensiyasının ödənilməsi ...67

• Əmək pensiyaçısının dəfni üçün müavinət ....67
• Pensiyanın məbləği ....67
• Sosial müavinətlər ....68
• Müavinət seçmək hüququ ....69
• Müavinətlərin təyin edilməsi və ödənilməsi qaydaları ....73

## VƏRƏSƏLİK HÜQUQU

• Vərəsəlik nədir? ....77
• Qanunla vərəsəlik ....77
• Vəsiyyət üzrə vərəsəlik ....78
• Vərəsələrin payları ....79
• Vəsiyyətnamənin tərtibi ....79
• Vəsiyyətnamənin texniki vasitələrdən istifadə edilməklə tərtibi ....80
• Vəsiyyətin şahidləri ....81
• Vəsiyyətnamə sirri ....81
• Qapalı vəsiyyətnamə ....81
• Ehtiyat vərəsə ....81
• Mirasda məcburi pay ....82
• Boşanmış və faktiki ayrılmış şəxslərin vərəsəlik hüquqları ....83
• Nikahdan kənar doğulmuş uşağın vərəsəlik hüququ ....83
• Övladlığa götürülmüş və övladlığa götürülmüş şəxslərin hüquqları ....83

## QADINLARIN ƏMƏK HÜQUQLARI

• Əmək müqaviləsi nədir?....85
• Sərbəst iradə tələbi ....85
• Yaş həddi ....85
• Əmək müqaviləsinin müddəti ....86
• Əmək müqaviləsinin bağlanması ....86
• Əmək müqaviləsinə dəyişikliklər ....86
• Əmək müqaviləsi bağlanarkən işçinin təqdim etdiyi sənədlər ....87
• Əmək müqaviləsinin qüvvəyə minməsi ....87
• Məcburi əməyin qadağan edilməsi ....87
• Sinaq müddəti ....88
• İş və istirahət vaxtı ....89

• Gecə vaxtı iş ....90
• İstirahət və nahar üçün fasilə ....90
• Uşağı yedizdirmək üçün fasilə ....90
• İstirahət günləri ....91
• Qadınların həkim müayinəsi üçün ....91
• Qan donorları ....91
• Bayram günləri ....91
• Səsvermə günü ....91
• Ümumxalq hüzn günü....92
• Məzuniyyət hüququ....92
• Əmək məzuniyyəti ....93
• Sosial məzuniyyət ....96
• Təhsil və yaradıcılıq məzuniyyəti ....97
• Ödənişsiz məzuniyyətdən istifadə hüququ ....98
• Əmək müqaviləsinə xitam verilmə ....98
• Əmək mübahisəsi ....102
• İddia müddəti ....103
• İddia müddətinin bərpa edilməsi ....103
• Cinsə əsasən ayri-seçkiliyin qadağan olunması ....104
• Seksual qisnama ....105

## SAHİBKARLIQ FƏALİYYƏTİ

• Sahibkarlıq fəaliyyəti ....108
• Hüquqi şəxslər ....109
• Məişət zorakılığı nədir? ....111
• Zorakılığın qurbanına hansı ziyan vurulur? ....112
• Məişət zorakılığının növləri hansılardır? ....112
• Məişət zorakılığına görə kimlər məsuliyyət daşıya bilər? ....113
• Kimlər məişət zorakılığı barədə şikayət verə bilər? ....114
• Məişət zorakılığı ilə bağlı şikayətlərə baxılması ....114
• Şikayətin baxılmasına zərərçəkmiş şəxsin razılığı olmalıdırmı? ....115
• Maddi və mənəvi ziyanının ödənilməsi tələbi ....116
• Məişət zorakılığı ilə bağlı cinayət məsuliyyəti ....116
• Məişət zorakılığı ilə bağlı inzibati məsuliyyət ....118
• Məişət zorakılığı barədə şikayətə yerli icra hakimiyyəti orqanları tərəfindən baxılması ....119

• Məişət zorakılığı barədə şikayətə baxan yerli icra hakimiyyəti orqanı hansı qərar qərar qəbul edir? ....119
• Mühafizə orderləri ....120
• Məişət zorakılığının təkrarlanmaması barədə xəbərdarlıq və qısamüddətli mühafizə orderi ....120
• Qısamüddətli mühafizə orderində nələr nəzərdə tutulur? ....120
• Qısamüddətli mühafizə orderi hansı müddətə verilir? ....120
• Qısamüddətli mühafizə orderinin tələblərinə əməl edilməməsi nə ilə nəticələnə bilər? ....121
• Qısamüddətli mühafizə orderi necə icra olunmalıdır? ....121
• Qısamüddətli orderin icra olunmamasına görə hansı məsuliyyət nəzərdə tutulubmu? ....121
• Uzunmüddətli mühafizə orderi ....122
• Uzunmüddətli mühafizə orderində nələr nəzərdə tutulur? ....122
• Uzunmüddətli mühafizə orderinin verilməsi barədə ərizə ....122
• Uzunmüddətli mühafizə orderinin verilməsi barədə ərizəyə necə baxılır? ....123
• Məhkmənin qətnaməsindən şikayət vermək olarmı? ....124
• Uzunmüddətli order haçan qüvvəyə minir? ....124
• Uzunmüddətli mühafizə orderi hansı müddətə verilir? ....124
• Uzunmüddətli mühafizə orderi necə icra olunmalıdır? ....125
• Uzunmüddətli orderin icra olunmamasına görə məsuliyyət nəzərdə tutulubmu? ....125
• Yardım mərkəzləri....125
• Hansı müddətə şəxs yardım mərkəzinə yerləşdirilə bilər? ....127
• Zərər çəkmiş şəxslərə yardım göstərildikdə konfidensiallığın (gizliliyin) təmin edilməsi....127
• Zorakılığa yol vermiş şəxs barədə tədbirlər ....127
• Zorakılığa yol vermiş şəxsin zərərçəkmiş şəxsin mülkiyyətində olan evdən (mənzildən) çıxarılması ....128
• Zorakılığa yol vermiş şəxsin uşaqla ünsiyyəti ....129

## CİNAYƏT QANUNVERİCİLİYİ VƏ QADIN HÜQUQLARI

### I İNSAN ALVERİ

• İnsan alverinin anlayışı ....131
• İnsan alverçiləri hansı üsullardan isitifadə edir? ....133
• İnsanın istismarı nədir? ....134
• İnsan alverçiləri hansı yollarla qurbanları öz toruna salır? ....135

• İşləmək, təhsil almaq və ya nikah məqsədilə xaricə getmək təklif olunubsa ....................135
• İşləmək təhsil almaq və ya nikah məqsədilə xaricə getdikdə ..........................................136
• Xaricdə insan alveri ilə üzləşdikdə .......................................................................................138
• İnsan alveri ilə mübarizə .......................................................................................................138
• İnsan alveri qurbanlarının hüquq və mənafelərinin qorunması .......................................139
• İnsan alveri qurbanları üçün müvəqqəti sığınacaqlar .....................................................139
• İnsan alveri qurbanlarına yardım mərkəzləri. Hüquqi yardım .........................................140
• İnsan alveri qurbanlarının sosial reabilitasiyası ...............................................................141
• İnsan alverinin qurbanı olmuş uşaqlara yardım göstərilməsi ..........................................141
• İnsan alveri qurbanları barədə məlumatların gizliliyi .....................................................142
• İnsan alveri qurbanının təhlükəsizliyinin təmin edilməsi ................................................143
• İnsan alveri ilə bağlı işlərə məhkəmədə baxılmasının xüsusiyyətləri ..............................143
• İnsan alveri qurbanlarına müavinətin ödənilməsi ............................................................144
• İnsan alveri qurbanlarına dəymiş ziyanın ödənilməsi ......................................................144
• Məcburetmə, yaxud təhdid altında törədilən əməllər ......................................................144
• İnsan alveri qurbanı olan Azərbaycan vətəndaşlarının xaricdə müdafiəsi və həmin şəxslərə köməklik ..........................................................................................................144
• İnsan alveri qurbanı əcnəbi və vətəndaşlığı olmayan şəxsdirsə .......................................145
• İnsan alveri cinayətinin anlayışı ilə oxşar olan və ya üst-üstə düşən digər cinayətlər .....145

## II – CİNSİ AZADLIQ VƏ CİNSİ TOXUNULMAZLIQ ƏLEYHİNƏ OLAN CİNAYƏTLƏR

• Zorlama cinayəti ...................................................................................................................149
• Seksual xarakterli zorakılıq hərəkətləri ...............................................................................151
• Seksual xarakterli hərəkətlərə məcbur etmə .......................................................................152
• On altı yaşına çatmayan şəxslə cinsi əlaqədə olma və ya seksual xarakterli digər hərəkətlər etmə ......................................................................................................153
• Əxlaqsız hərəkətlər ................................................................................................................154

## III – REPRODUKTİV SAĞLAMLIQLA BAĞLI CİNAYƏTLƏR

• Abort – hamiləliyin süni surətdə pozulması .......................................................................154
• Abort üzrə əməliyyatlar harada həyata keçirilir? ................................................................155
• Qanunsuz abort etməyə görə cinayət məsuliyyəti .............................................................155
• Tibbi sterilizasiya ...................................................................................................................155

• Qanunsuz tibbi sterilizasiyaya görə cinayət məsuliyyəti ....156
• Süni mayalanma və embrionun implantasiyası ....156
• Qanunsuz süni mayalanma və embrionu implantasiya etməyə görə cinayət məsuliyyəti ....157

## IV – İNSAN HÜQUQ VƏ AZADLIQLARINA QARŞI CİNAYƏTLƏR

• Bərabərlik hüququ ....158
• Bərabərlik hüququnu pozmaya görə cinayət məsuliyyəti ....159
• Azadlıq hüququnun pozulması. Adam oğurluğu ....160
• Adam oğurluğuna görə cinayət məsuliyyəti ....160
• Hamilə qadının və ya himayəsində üç yaşınadək uşağı olan qadının əmək hüquqlarını pozmaya görə cinayət məsuliyyəti ....161

## V – YETKİNLİK YAŞINA ÇATMAYANLAR VƏ AİLƏ MÜNASİBƏTLƏRİ ƏLEYHİNƏ OLAN CİNAYƏTLƏR

• Özgənin uşağını dəyişdirmə ....162
• Uşaqlara kömək göstərməkdən qərəzli boyun qaçırma ....162
• Qadını nikaha daxil olmağa məcbur etmə ....162

## VI – PORNOQRAFİK MATERİALLARIN HAZIRLANMASI VƏ YAYIMI İLƏ BAĞLI VƏ ƏXLAQSIZLIQ YUVALARI SAXLAMAYA GÖRƏ CİNAYƏT MƏSULİYYƏTİ

• Pornoqrafik materiallarin hazirlanmasi və yayimi ilə bağli cinayət məsuliyyəti ....163
• Fahişəliyə cəlb etmə. Əxlaqsızlıq yuvaları saxlama ....163

## VII – CİNAYƏT MƏSULİYYƏTİ, CƏZA VƏ QADIN HÜQUQLARI

• Qadınlara cəzanın təyin olunması ....165
• Cəzanın təxirə salınması ....165

## VIII – QADINLARA MÜNASİBƏTDƏ CƏZANIN İCRASI

• Müxtəlif tipli cəzaçəkmə müəssisələrində cəzaların icrası ..............................................167
• Cəzaçəkmə müəssisəsindən kənarda yaşama ..................................................................169
• Hamilə və ya 3 yaşına çatmamış uşağı olan məhkum qadınların cəzaçəkmə müəssisələrində maddi-məişət şəraiti ilə təmin olunması ..............................................170
• Cəzaçəkmə müəssisəsinin hüdudlarından kənara qısa müddətli səfərlər
• Məhkum qadınların işləməsi .........................................................................................171
• Bağlama, sovqat və ya banderol alma. Ərzaq məhsulları və ən zəruri mallara xərcləmək üçün icazə verilən vəsaitin məbləği ..............................................................172
• Qazancdan, pensiyalardan və digər gəlirlərdən tutulmalar ..............................................172
• Azad edilən hamilə və ya 8 yaşına qədər uşağı olan məhkum qadınların yaşayış yerinə göndərilməsi ...............................................................................................173

## IX – AZƏRBAYCAN RESPUBLİKASINDA İNSAN HÜQUQLARININ MÜDAFİƏ EDƏN MİLLİ MEXANİZMLƏRİ

• Məhkəmədən kənar mexanizmilər ..................................................................................175
• Müvəkkilin aparatı .........................................................................................................176
• Şikayətin məzmunu .......................................................................................................177
• Komitənin yaranma tarixi və əsas fəaliyyət istiqamətləri ..............................................178
• Komitənin vəzifələri ......................................................................................................178
• Komitənin hüquqları ......................................................................................................180
• İnzibati orqana ərizənin verilməsi ..................................................................................182
• Ərizənin baxılmamış saxlanılması ..................................................................................182
• İnzibati orqana müraciət etmək hüququ ..........................................................................183
• İnzibati icraatda maraqlı şəxslərin iştirakı ......................................................................183
• İşə baxılmasında qərəzsizlik ..........................................................................................184
• İşin hallarının obyektiv araşdırılması .............................................................................184
• Məhkəmədə tərəflər .......................................................................................................185
• Azərbaycanda Məhkəmə Sistemi ....................................................................................185
• Qadınlara Qarşı Ayrı-Seçkiliyin Bütün Formalarının Ləğvi üzrə Komitə (CEDAW) ......187
**Prosedurun növü. Hesabat və Nəzarət**
• Prosedurdan istifadə imkanı ..........................................................................................190
• Nəzarət prosesinə buraxılma .........................................................................................190

• Sistemin iş prinsipi və hüquq müdafiəçilərinin rolu ........................................................191

**CEDAW Komitəsinə şikayət prosedurunun mərhələləri**

• Şikayətin verilməsi ..............................................................................................................192
• Şikayətin qəbul edilməməsinin meyarları ..........................................................................193

## AVROPA İNSAN HÜQUQLARI MƏHKƏMƏSİ (AİHM)

• Avropa İnsan Hüquqları Məhkəməsi nədir? .......................................................................193
• İnsan Hüquqları və Əsas Azadlıqların Müdafiəsi Haqqında Avropa Konvensiyası nə deməkdir? .......................................................................194
• Avropa İnsan Hüquqları Məhkəməsi nə edir? ....................................................................194
• Mən Avropa İnsan Hüquqları məhkəməsinə nə vaxt müraciət etmək olar? .....................194
• Konvensiya və onun Protokolları hansı hüququları müdafiə edir? ..................................195
• Konvensiya və onun Protokolları nəyi qadağan edir? ......................................................195
• Ərizə ilə məhkəməyə müraciət etmək üçün hansı təkəblər yerinə yetirilməlidir? ......................................................................195
• Avropa İnsan Hüquqları Məhkəməsinə müraciət etməzdən əvvəl milli məhkəmələrdə yerinə yetirilməsi vacib sayılan tələblər varmı? .......................................196
• Mən kimə qarşı şikayət ərizəsi ilə müraciət edə bilərəm? ................................................196
• Mən nədən şikayət edə bilərəm? ...........................................................................................197
• Əgər mən özümü Konvensiyada təsbit edilən hüquqların pozulması qurbanı hesab edirəmsə, məhkəməyə necə müraciət edə bilərəm? ..................................197
• Araşdırmanın əsas istiqamətləri nədən ibarətdir? ..............................................................198
• Məhkəmədə araşdırma necə aparılır? ..................................................................................199
• Mən nə qədər gözləməliyəm? ...............................................................................................199
• Mən nəyi əldə edəcəyimi ümid edə bilərəm? ......................................................................199
• AİHM mənim üçün nəyi edə bilməz? ..................................................................................200
• Azərbaycanda Qadın hüquqları ilə bağlı fəaliyyət göstərən QHT-lər ...............................200
• Ədəbiyyat siyahisi ...................................................................................................................201

## ÖN SÖZ

Azərbaycan Respublikası özünün dövlət müstəqilliyini bərpa etdikdən sonra insan hüquqlarının təmin olunması Ulu Öndər Heydər Əliyev tərəfindən qarşıya qoyulan prioritet vəzifələrdən biri olmuşdur. Həm Azərbaycan Respublikasının Konstitusiyası, həm də qəbul edilmiş qanunvericilik aktları və ölkəmizin qoşulduğu beynəlxalq-hüquqi aktlar və konvensiyalar insan hüquqlarının təmin edilməsinə şərait yaradır.

Bu siyasət Möhtərəm Prezidentimiz İlham Əliyev cənabları tərəfindən uğurla inkişaf etdirilir. Prezident İlham Əliyevin 27 dekabr 2011-ci il tarixli Sərəncamı ilə imzalanmış "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı" bütün vətəndaşların hüquqlarının qorunması istiqamətində atılan mühüm addım olmuşdur. İnsan hüquqlarının ayrılmaz hissəsi olan qadın hüquqları sahəsində də bir çox mühüm qanunvericilik aktları qəbul edilmişdir. Son illər bu sahədə görülmüş işlər sırasında "Məişət zorakılığının qarşısının alınması haqqında" Qanunun qəbulu, Ailə Məcəlləsinə edilən dəyişikliklər xüsusilə önəmlidir.

Qadın hüquqlarının təşviq edilməsi, onların cəmiyyətə bərabərhüquqlu üzvlər kimi inteqrasiyası sahəsində həm ictimai fəalliyyəti, həm də şəxsi nümunəsi ilə qadınlarımıza örnək olan Birinci Xanımımız, Heydər Əliyev Fondunun Prezidenti, millət vəkili Mehriban xanım Əliyeva mühüm işlər görür.

Son illər qadın hüquqlarının təbliği sahəsində geniş hüquqi maarifləndirmə tədbirləri həyata keçirilir.

Geniş oxucu kütləsinə – ünvanlanan "Qadın hüquqları üzrə bələdçi" adlı bu nəşr də qadın hüquqları sahəsində hüquqi maarifləndirmə işinə yardım edəcəkdir.

Səkkiz bölmədən ibarət kitabda ailə münasibətlərində qadınların hüquqları, qadınların əmək hüquqları, məişət zorakılığı və digər mühüm məsələlər işıqlandırılır. Oxuculara qadınların ailədə, işdə, cəmiyyətdə üzləşə biləcəkləri müxtəlif situasiyalarda necə hərəkət etməli olduğu izah edilir, qanunvericiliklə nəzərdə tutulmuş hüquqları haqqında onlara hərtərəfli bilgi verilir.

Kitabda nikahın bağlanması qaydası və şərtləri, nikah müqaviləsi, aliment, qəyyumluq və s. kimi məsələlər, qadınların öz sağlamlıqları haqqında məlumat almaq hüquqları, reproduktiv sağlamlıq haqqında məlumat verilir. Azərbaycan Respublikasında insan hüquqlarını müdafiə edən milli mexanizmlər, Qadınlara Qarşı Ayrı-seçkiliyin

Bütün Formalarının Ləğvi üzrə BMT Komitəsi, qadın hüquqları üzrə fəaliyyət göstərən QHT-lər haqqında danışılır. Habelə əmək müqaviləsi, məzuniyyət hüququ, əmək pensiyaları haqqında söz açılır. "Məişət zorakılığı və qadın hüquqları" bölməsində məişət zorakılığı ilə mübarizə və onun qurbanlarının müdafiəsi məsələləri açıqlanır. Kitabda həmçinin insan alveri, qadınlara verilən cəzanın icrası və s. haqqında ətraflı məlumat verilir.

Kitabın təhsilindən, sosial statusundan asılı olmayaraq hər kəsin anlaya biləcəyi sadə dildə yazılması, həyatdan örnəklər verilməsi, məntiqi fikir ardıcıllığı onun daha praktik və səmərəli olmasını şərtləndirir. Bu bələdçi həm hüquqi yardıma ehtiyacı olan, müəyyən çətinliklərlə üzləşmiş qadınlara, həm də bu işlə məşğul olan gənc hüquq müdafiəçilərinə kömək edə bilər. Ümid edirik ki, bu kitab qadınların hüquqi maarifləndirilməsi işinə, bütün qadınların cəmiyyətimizin tamhüquqlu üzvü olmasına, öz potensialını reallaşdırma imkanı əldə etməsinə yardım edəcəkdir.

**Hicran Hüseynova**

**Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri**



# AİLƏ MÜNASİBƏTLƏRİNDƏ QADINLARIN HÜQUQLARI

## Nikah

Nikah nədir? Kişi və qadın nikah əsasında yaranan hüquq və vəzifələrin təcəssümüdür. Azərbaycan Respublikası Konsititusiyasının 34-cü maddəsinə əsasən 18 yaşına çatmış hər bir şəxsin nikaha daxil olmaq hüququ vardır. Nikah könüllü razılıq əsasında bağlanır və heç kəs zorla evləndirilə (ərə verilə) bilməz. Nikah və ailə dövlətin himayəsindədir. Analıq, atalıq, uşaqlıq qanunla mühafizə edilir. Dövlət çoxuşaqlı ailələrə yardım edir. Ər və arvadın hüquqları bərabərdir. Uşaqlara qayğı göstərmək və onları tərbiyə etmək valideynlərin həm hüququ, həm də vəzifəsidir. Valideynlərə hörmət etmək və onların qayğısına qalmaq uşaqların borcudur. 18 yaşına çatmış əmək qabiliyyətli uşaqlar əmək qabiliyyəti olmayan valideynlərini saxlamağa borcludurlar. Nikah hər kəsin təbii və ayrılmaz hüququdur. Nikah və ailə münasibətləri Azərbaycan Respublikası 1999-cu il 28 dekabr tarixli Ailə Məcəlləsinə görə tənzimlənir. Ailə Məcəlləsinin 2.3-cü maddəsinə əsasən nikah kişi ilə qadının ailə qurmaq məqsədilə müvafiq icra hakimiyyəti orqanında (Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin və Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin rayon, şəhər qeydiyyat şöbələri rayon tabeli şəhərlərdə, qəsəbələrdə və kəndlərdə, rayon, şəhər rayonu icra hakimiyyəti nümayəndəlikləri tərəfindən qeydiyyata alınan könüllü ittifaqdır. Məcəllənin 2.4-cü maddəsinə əsasən isə nikaha daxil olarkən və ailə münasibətlərində sosial, milli, irqi, dini və dil mənsubiyyətinə görə vətəndaşların hüquqlarını hər hansı formada məhdudlaşdırmaq qadağandır[1].

## Nikahın bağlanma qaydası və şərtləri

Nikah nikaha daxil olmaq istəyən şəxslərin bu barədə ərizə verdikləri gündən 1 ay sonra onların iştirakı ilə bağlanır. Üzrlü səbəblər olduqda nikahın bağlanma müddəti müvafiq icra hakimiyyəti orqanı tərəfindən azaldıla və 1 aydan çox müddətə artırıla bilər. Xüsusi hallarda (hamiləlik, uşağın doğulması və digər hallarda) nikah ərizənin verildiyi gün bağlana bilər. Ər və arvadın hüquq və vəzifələri nikahın bağlanılmasının dövlət qeydiyyatı günündən yaranır. Nikahı qeydə alan müvafiq icra hakimiyyəti orqanı əgər nikahı qeydə almaqdan imtina edərsə, nikaha daxil olmaq istəyən şəxslər (onlardan biri) məhkəməyə şikayət edə bilər. Azərbaycan Respublikası Ailə Məcəlləsinə görə 18 yaş oğlanlar üçün, 18 yaş qızlar üçün nikaha daxil olmaq üçün minimum yaş



**1. Azərbaycan Respublikası Ailə Məcəlləsi 2011-ci il Qanun Nəşrlər evi səh 2.4 maddəsi.**

həddidir. Üzrlü səbəblər olduqda nikaha daxil olmaq istəyən şəxslər yaşadıqları ərazinin yerli icra hakimiyyəti orqanının xahişi ilə nikah yaşını 1 ilədək azalda bilər. Nikahın bağlanma şərtləri nikaha daxil olmaq istəyən şəxslərin yazılı razılığı ilə bağlanır.

Nikah bağlanılmasına mane olan hallara gəldikdə isə bunlar aşağıdakılardır:

Ailə Məcəlləsinə görə **nikahın bağlanmasına mane olan hallar aşağıdakılar hesab olunur.**

Aşağıdakı şəxslər arasında nikahın bağlanmasına yol verilmir:

– yaxın qohumlar (valideynlər və uşaqlar, baba-nənə və nəvələr, doğma və ögey (ümumi ata və ya anası olan) qardaş və bacılar;

– övladlığa götürənlər və övladlığa götürülənlər;

– ikisindən biri və ya hər ikisi başqası ilə nikahda olan şəxslər;

– ikisindən biri və ya hər ikisi ruhi xəstəlik və ya kəmağıllıq nəticəsində məhkəmə tərəfindən fəaliyyət qabiliyyəti olmayan hesab edilən şəxslər.

**Nikaha daxil olan şəxslərin tibbi müayinəsi hazırkı** Ailə Məcəlləsinə görə məcburi deyil. Lakin Milli Məclisin Sosial siyasət komitəsinin Ailə Məcəlləsinə təklif olunan dəyişikliyə görə, nikaha daxil olan şəxslər bir-birlərinin sağlamlıq vəziyyəti barədə məlumat əldə etmək məqsədilə vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı orqanlarına tibbi müayinədən keçmələri haqqında arayış təqdim etməlidirlər, bununla da qanunvericilik daha da ciddiləşəcək və inzibati xarakter alacaq. "Nikah öncəsi tibbi müayinə” pulsuz aparılması nəzərdə tutulur[1].

Qanunun digər müddəası isə ondan ibarətdir ki, ailə quran tərəflərdən birinin xəstəliyini gizlətməsi faktı aşkar olunduqda qarşı tərəf nikah müqaviləsinin etibarsız sayılması üçün məhkəməyə müraciət edə bilər". Məcəlləyə olan təklifdə nikaha daxil olan şəxslərin tibbi müayinəsinin nəticələri barədə peşə və xidməti fəaliyyəti ilə bağlı məlumata malik olan şəxslər bu məlumatları sirr olaraq saxlamalıdırlar. Həmin şəxslər bu məlumatları açıqlayacaqları halda, qanunvericilikdə müəyyən olunmuş qaydada məsuliyyətə cəlb olunacaqlar. Ailə Məcəlləsinə olunan dəyişikliklərlə bağlı təkliflərdə, nikaha daxil olan şəxslərin tibbi müayinəsi, ailə planlaşdırılması məsələləri üzrə məsləhət verilməsi tibb müəssisələrində pulsuz həyata keçirilir. Qeyd olunur ki, nikaha daxil olan şəxslərdən biri özündə müəyyən edilmiş xəstəliklərin olmasını gizlətdikdə digər tərəf nikahın etibarsız sayılması tələbi ilə məhkəməyə müraciət edə bilər.

**1. http://xeber.azeri.net/gundem/azerbaycanda aile quranlar tibbi muayine edile biler.**

Nikaha daxil olan şəxslərin tibbi müayinəsinin nəticələri həkim sirridir. Nikaha daxil olan şəxslərdən biri özündə dəri-zöhrəvi xəstəliyinin və insanın immunçatışmazlığı virusunun törətdiyi xəstəliyin (AİDS) olmasını o birindən gizlətdikdə, digər tərəf nikahın etibarsız sayılması tələbi ilə məhkəməyə müraciət edə bilər. Ailə Məcəlləsinə təklif olunan dəyişikliyə görə (11.03.2011-ci il) nikaha daxil olan şəxslər bir-birlərinin sağlamlıq vəziyyəti barədə məlumat əldə etmək məqsədilə vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı orqanlarına tibbi müayinədən keçmələri haqqında arayış təqdim etməlidirlər.Nikaha daxil olan şəxslərin tibbi müayinəsinin nəticələri barədə peşə və xidməti fəaliyyəti ilə bağlı məlumata malik olan şəxslər bu məlumatları sirr olaraq saxlamalıdırlar. Həmin şəxslər bu məlumatları açıqlayacaqları halda, qanunvericilikdə müəyyən olunmuş qaydada məsuliyyətə cəlb olunacaqlar. Hazırda mövcud qanunvericilikdə nikaha daxil olanların sadəcə bir-birini məlumatlandırması ilə bağlı müddəa var. Lakin təklif olunan dəyişikliklə bu maddə "...ciddiləşəcək və icbari xarakter daşıyacaq", hazırda yalnız şizofreniya və ruhi xəstəliyi olanların nikaha girməsi qadağandır, lakin nəzərə almaq lazımdır ki, cəmiyyət üçün bilərəkdən xəstə uşaq dünyaya gətirmək özü də cinayətdir. **Ər və arvadın şəxsi hüquq və vəzifələri**

Ailə Məcəlləsində ər və arvad ailə münasibətlərində bərabər şəxsi və əmlak hüquqlarına malikdirlər. Analıq, atalıq uşaqların tərbiyəsi və təhsili eləcədə ailənin digər məsələləri ər-arvadın hüquq bərabərliyi prinsiplərinə uyğun olaraq birgə həll edilir. Ər və arvad özünə məşğuliyyət, sənət və yaşayış yeri seçməkdə sərbəstdirlər.

Ər və arvadın soyad seçmək hüququ Ailə Məcəlləyə görə onların birinin soyadını özləri üçün ümumi soyad seçə və ya nikahdan əvvəlki soyadını saxlaya və ya soyadlarını birləşdirə bilərlər. Ər və arvadın birinin soyadının dəyişməsi o birinin soyadını dəyişdirməsinə səbəb olmur. Bəzi dövlətlərdə soyad seçmək hüququ məhduddur, qadın ailə qurarkən avtomatik olaraq ərinin soyadını qəbul edir. Əks təqdirdə bu nikah vətəndaş nikahı sayılır və onlar rəsmi olaraq, ər və arvad kimi qəbul edilmir. Azərbaycan qanunvericiliyində qadına bu sahədə azad seçim etmək imkanı verilir. Hətta kişi də qadının soyadını qəbul etmək hüququ da təsbit olunmuşdur.

Ər-arvadın əmlak rejimi isə Məcəlləyə əsasən, nikah müddətində ər və arvadın birgə əldə etdikləri mülkiyyət onların ümumi mülkiyyəti sayılır. Ər və arvad nikaha daxil olanadək və nikah dövründə hədiyyə şəklində və ya vərəsəlik qaydasında əldə etdikləri əmlak onların özünə məxsusdur. Məcəllənin 56-cı maddəsində isə valideynlər öz uşaqları barəsində bərabər hüquq və vəzifələr malik olması göstərilib, həmçinin valideynlər öz uşaqlarının təhsilində, tərbiyəsində, fiziki və mənəvi inkişafına görə bərabər iştirak etməlidirlər.

## Ər-arvadın əmlakının qanuni rejimi anlayışı

Ər-arvadın birgə mülkiyyətinin rejimi onların əmlakının qanuni rejimi hesab olunur.

Nikah müqaviləsində başqa hal nəzərdə tutulmayıbsa, ər-arvadın əmlakının qanuni rejimi fəaliyyət göstərir.

Ailə kəndli təsərrüfatı üzvlərinin birgə mülkiyyəti üzərində ər-arvadın istifadə, sahiblik və sərəncam hüquqları Azərbaycan Respublikasının mülki qanunvericiliyinə uyğun olaraq müəyyən olunur.

## Ər-arvadın birgə mülkiyyəti

Nikah müddətində ər-arvadın əldə etdikləri əmlak onların ümumi birgə mülkiyyəti sayılır.

Ər-arvadın ümumi birgə mülkiyyətinə:

onların hər birinin əmək, sahibkarlıq və intellektual fəaliyyəti nəticəsində əldə etdikləri gəlirlər, aldıqları pensiya və müavinətlər, eləcə də xüsusi təyinatı olmayan digər pul ödəmələri (şikəstlik, sağlamlığın bu və ya digər formada pozulması nəticəsində əmək qabiliyyətinin itirilməsinə görə ödənilən məbləğ, maddi yardımın məbləği və s.);

ər-arvadın ümumi gəlirləri hesabına əldə edilən daşınar və daşınmaz əşyalar, qiymətli kağızlar, kredit idarələrinə və ya sair kommersiya təşkilatlarına qoyulmuş paylar, əmanətlər, kapitaldan olan paylar və əmlakın ər-arvaddan kimin adına əldə olunmasından, yaxud əmanətin kimin adına və ya kim tərəfindən qoyulmasından asılı olmayaraq nikah dövründə ər-arvadın qazandığı hər hansı sair əmlak daxildir.

Nikah dövründə ev təsərrüfatı ilə, uşaqlara qulluq etməklə məşğul olduğundan və ya digər üzrlü səbəblərə görə müstəqil qazancı olmayan ər (arvad) da ümumi əmlak üzərində hüquqa malikdir.

## Ər-arvadın ümumi əmlakı üzərində sahiblik, istifadə və sərəncam hüququ

Ər-arvadın ümumi əmlakı üzərində sahiblik, istifadə və sərəncam hüququ onların qarşılıqlı razılığı əsasında həyata keçirilir.

Ər-arvadın rəsmi reyestrdə qeydə alınmalı olmayan ümumi daşınar əmlakı üzərində sərəncam əqdini onlardan biri həyata keçirirsə, bu halda güman edilir ki, o, digərinin razılığı ilə hərəkət edir.

Ər-arvaddan biri digərinin razılığı olmadan onların ümumi əmlakı üzərində sərəncam əqdi bağlamışsa və əqdin iştirakçısı olan digər tərəf bu cür razılığın olmadığını bilirdisə və ya bilməli idisə, əqd bağlanmasına razılığı olmayan ər (arvad) tərəfindən mübahisələndirilə bilər.

Ər-arvaddan birinin daşınmaz əmlak üzərində sərəncam vermək barədə notariat qaydasında təsdiq edilən və (və ya) qeydiyyata alınan əqdlər bağlanması üçün digər tərəfin notariat qaydasında təsdiq edilmiş razılığı lazımdır. Ərin (arvadın) bu barədə notariat qaydasında təsdiq olunmuş razılığı olmadıqda, bu əqd Azərbaycan Respublikasının Mülki Məcəlləsi ilə müəyyən olunmuş müddətdə mübahisələndirilə bilər.

## Ər-arvadın hər birinin mülkiyyəti

Nikaha daxil olanadək onlara məxsus olan əmlak, habelə nikah dövründə hədiyyə şəklində və ya vərəsəlik qaydasında, digər əvəzsiz əqdlər üzrə əldə etdikləri əmlak ər-arvadın hər birinin ayrıca mülkiyyətindədir (ər-arvadın hər birinin əmlakıdır).

Zinət əşyaları istisna olmaqla, fərdi istifadə şeyləri (geyim, ayaqqabı və s.) nikah zamanı ər-arvadın ümumi vəsaiti hesabına əldə edilsə də, ər-arvaddan kimin istifadəsində olubsa, ona məxsusdur[1].

## Ər-arvadın hər birinin əmlakının onların birgə mülkiyyəti sayılması

Nikahda olduqları dövrdə ər-arvadın ümumi əmlakı və ya hər birinin əmlakı, yaxud da ər-arvadın hansınınsa əməyi hesabına ər-arvadın hər birinin əmlakının dəyərini xeyli artıran vəsaitin qoyulması (əsaslı təmir, yenidən quraşdırma, avadanlığı dəyişdirmə və s.) müəyyən edilərsə, həmin əmlak onların birgə mülkiyyəti sayıla bilər.

## Ər-arvadın ümumi əmlakının bölünməsi

Ər-arvadın ümumi əmlakının bölünməsi nikah dövründə, eləcə də onlardan birinin tələbi ilə nikah pozulduqdan sonra, habelə kreditor ödəməni ər-arvadın ümumi əmlakında olan onlardan birinin payına yönəltmək üçün ümumi əmlakın bölünməsi tələbi barədə ərizə verdikdə həyata keçirilir.

Ər-arvadın ümumi əmlakı onların sazişi əsasında bölünə bilər. Belə saziş ər-arvadın arzusu ilə notariat qaydasında təsdiq edilə bilər.

Mübahisə olduqda, ər-arvadın ümumi əmlakının bölünməsi, eləcə də bu əmlakda ər-arvadın paylarının müəyyən olunması məhkəmə qaydasında həyata keçirilir.



**1. Azərbaycan Respublikası Ailə Məcəlləsi 2011 ci il Qanun nəşrlər evi səh 36.6 maddə.**

Məhkəmə ər-arvadın ümumi əmlakını bölərkən onların tələbi ilə hər birinə çatacaq əmlakı müəyyən edir. Ər-arvaddan birinə, dəyəri ona çatası payın dəyərini aşan əmlak verildikdə, bunun əvəzində digərinə müvafiq məbləğdə pul və ya başqa kompensasiya verilə bilər.

Məhkəmə ər-arvadın ailə münasibətlərinə xitam verdiyi və ayrı yaşadığı dövrdə hər birinin qazandığı əmlakı onların hər birinin mülkiyyəti hesab edə bilər.

Yetkinlik yaşına çatmayan uşaqların tələbatını ödəmək üçün əldə olunan şeylər (geyim, paltar, ayaqqabı, məktəbli və idman ləvazimatları, musiqi alətləri, uşaq kitabxanası və s.) bölünmür və əvəzi ödənilmədən uşaqları ilə birgə yaşayan valideynə verilir.

Ər-arvadın ümumi əmlakı hesabına yetkinlik yaşına çatmayan ümumi uşaqların adına qoyulmuş əmanətlər həmin uşaqlara məxsus hesab edilir və ümumi əmlakın bölünməsi zamanı nəzərə alınmır.

Ər-arvadın ümumi əmlakı bölündükdə, nikah dövründə həmin əmlakın bölünməmiş hissəsi, eləcə də nikah dövründə sonradan qazanılmış əmlak onların birgə mülkiyyətini təşkil edir.

Nikah pozulduqda ər-arvadın ümumi əmlakının bölünməsi haqqında onların tələbinə 3 illik iddia müddəti tətbiq olunur.

## Ər-arvadın ümumi əmlakının bölünməsi zamanı payların müəyyən edilməsi

Ər-arvad arasındakı müqavilədə başqa hal nəzərdə tutulmayıbsa, onların ümumi əmlakının bölünməsi zamanı bu əmlakdakı payları bərabər hesab edilir.

Ayrı-ayrı hallarda məhkəmə yetkinlik yaşına çatmayan uşaqların mənafeyini və (və ya) ərin (arvadın) diqqətəlayiq mənafeyini, o cümlədən ər-arvaddan biri üzrsüz səbəbdən gəlir əldə etmədiyi və ya birgə mülkiyyəti ailənin mənafeyinə zidd olaraq sərf etdiyi hallarda nəzərə alıb onların birgə mülkiyyətinin bölünməsi zamanı payları bərabər bölməyə bilər.

Ümumi əmlak bölünərkən ər-arvadın ümumi borcları onların payına uyğun olaraq müəyyən edilir.

## Nikah müqaviləsi
## Nikah müqaviləsi və onun məzmunu

Nikah müqaviləsi nikaha daxil olan şəxslər arasında bağlanan, nikah dövründə və (və ya) nikah pozulduqda ər-arvadın əmlak hüquqlarını və vəzifələrini müəyyən edən sazişdir.

Nikah müqaviləsi ilə ər-arvad birgə mülkiyyətin qanunla müəyyən olunmuş rejimini dəyişərək, ümumi əmlaka, onun ayrı-ayrı növlərinə və ya ər-arvadın hər birinin əmlakına birgə, paylı və ya ayrıca mülkiyyət rejimi tətbiq edə bilərlər.

Nikah müqaviləsi ər-arvadın mövcud olan və gələcəkdə əldə edəcəkləri əmlaka dair bağlana bilər.

Ər-arvad nikah müqaviləsində bir-birinin qarşılıqlı saxlanması, bir-birinin gəlirlərində iştirak üsulları, hər birinin ailə xərclərində iştirakı qaydası ilə bağlı hüquq və vəzifələrini, nikah pozulduqda hər birinə düşəcək əmlakı və ər-arvadın əmlak münasibətlərinə dair hər hansı başqa müddəanı müəyyənləşdirmək hüququna malikdirlər.

Nikah müqaviləsində nəzərdə tutulmuş hüquq və vəzifələr müəyyən müddətlərlə məhdudlaşa bilər, müxtəlif şəraitin yaranıb-yaranmamasından asılı ola bilər[1].

Nikah müqaviləsində ər-arvadın hüquq və fəaliyyət qabiliyyətini, öz hüquqlarının müdafiəsi üçün məhkəməyə müraciət etmək hüququnu, uşaqlara münasibətdə hüquq və vəzifələrini, eləcə də ər-arvad arasındakı şəxsi qeyri-əmlak münasibətlərini tənzimləyən, ehtiyacı olan və əmək qabiliyyəti olmayan ərin(arvadın) saxlanılması üçün vəsait almaq hüququnu məhdudlaşdıran, ər-arvaddan birini çox əlverişsiz vəziyyətə salan və ailə qanunvericiliyinin əsaslarına zidd olan müddəalar nəzərdə tutula bilməz.

## Nikah müqaviləsinin bağlanma qaydası

Nikah müqaviləsi nikahın bağlanmasının dövlət qeydiyyatına qədər, eləcə də nikah dövründə istənilən vaxtda bağlana bilər.

Nikahın bağlanmasının dövlət qeydiyyatına qədər bağlanmış nikah müqaviləsi nikahın bağlanmasının dövlət qeydiyyatına alındığı gündən qüvvəyə minir.

Nikah müqaviləsi yazılı formada bağlanır və notariat qaydasında təsdiq olunur.

## Nikah müqaviləsinin dəyişdirilməsi, pozulması və etibarsız hesab edilməsi

Nikah müqaviləsi ər-arvadın razılığı ilə istənilən vaxt Ailə Məcəllənin 39.3-cü maddəsində göstərilən qaydada dəyişdirilə və ya pozula bilər.

Nikah müqaviləsinin icrasından birtərəfli qaydada imtina etməyə yol verilmir.

Ərin (arvadın) tələbinə əsasən məhkəmənin qətnaməsi ilə nikah müqaviləsi Azərbaycan Respublikasının Mülki Məcəlləsi ilə müqavilələrin dəyişdirilməsi və pozulması üçün nəzərdə tutulmuş əsaslarla və qaydada dəyişdirilə və ya pozula bilər.



**1. Azərbaycan Respublikası Ailə Məcəlləsi 2011 ci il Qanun nəşrlər evi səh 39.3 maddə.**

Nikah müqaviləsində nikah pozulduqdan sonrakı dövr üçün nəzərdə tutulan vəzifələr istisna olmaqla, nikaha xitam verilməsi anından nikah müqaviləsinə də xitam verilir.

Nikah müqaviləsi Azərbaycan Respublikasının Mülki Məcəlləsi ilə əqdlərin etibarsız hesab edilməsi üçün nəzərdə tutulmuş əsaslarla məhkəmə tərəfindən tamamilə və ya qismən etibarsız hesab edilə bilər.

Müqavilənin şərtləri əri (arvadı) çox əlverişsiz vəziyyətə saldıqda nikah müqaviləsi onun tərəfindən mübahisələndirilə bilər. Nikah müqaviləsinin və Ailə Məcəllәsnin 38.6-cı maddəsinin digər tələblərini pozan şərtləri əhəmiyyətsizdir və müqavilənin bağlandığı andan etibarsız hesab edilir.

Azərbaycanda nikah müqaviləsinin məcburi bağlanması barədə qanunvericiliyə dəyişiklik təklif olunub. Milli Məclisin Sosial siyasət komitəsi tərəfindən nikah müqaviləsinin məcburi bağlanması barədə Ailə Məcəlləsinə ayrıca müddəanın əlavə edilməsi təklif olunub və bu məsələ hazırda gündəmdədir. Həmin müqavilənin nikah bağlanarkən notarial qaydada təsdiq olunması nəzərdə tutulur. Lakin respublikanın bütün rayonlarında notariusların fəaliyyət göstərməməsi vətəndaşlar üçün problemlər yarada bilər[1].

Belə ki, notarius fəaliyyət göstərməyən rayonun sakinləri nikaha girərkən belə bir müqaviləni rəsmiləşdirmək üçün qonşu rayona getmək məcburiyyətində qalacaqlar. Vətəndaşlıq Vəziyyəti Aktlarının Qeydiyyatı (VVAQ) şöbələrinin səlahiyyətləri icra nümayəndəliyinə verildiyi kimi, notariusu olmayan rayonlarda da icra nümayəndələrinə bu səlahiyyəti verməklə problemi həll etmək olar. Komitənin təklifinə görə, bu müqavilə hədiyyə müqaviləsi formasında bağlana bilər. "Nikaha girən tərəflər əsasən hədiyyələrin siyahısını tutur və təsdiq edirlər. Bu hal şəriət nikahında – kəbində də var idi və hazırda bəzi rayonlarda rast gəlinir. Qadın və kişi nə verib, nə aparıbsa, siyahısı tutulurdu. Komitənin bildirdiyinə görə, mülkiyyətin bölüşdürülməsi məsələsi qanunvericilik yolu ilə həll olunduğundan, bu məsələnin nikah müqaviləsinə daxil edilməsinə ehtiyac yoxdur. "Qanunvericiliyə görə, ər-arvadın nikah dövründə birgə qazandığı əmlak onların birgə mülkiyyətidir və boşanma zamanı onlar arasında bərabər bölünür. Nikahdan əvvəl qazandıqları əmlak isə onların yalnız özünə məxsusdur. Azərbaycanda bəzi hüquqşünaslar fikrincə nikah müqavilənin bağlanmasının məcburiləşdirilməsini imperativ norma şəklinə salınmasının tərəfdarı olduqları halda, digərləri bunun əleyhinədirlər. Məsələn, bəzi hüquqşünaslar hesab edir ki, müqavilənin məcburiləşdirilməsi müqavilə azadlığı prinsipinə ziddir. Həm də belə hesab olunur ki, müqavilənin hüquqi əsasları qanundan daha zəifdir.

---

**1. http://95.86.135.60/news/society/62889.html.**

Qanunvericilikdə ər ilə arvadın mənafeyini müdafiə edən kifayət qədər müddəa var. Dünya praktikasında nikah müqaviləsinin məcburi bağlanması praktikasının olmadığını deyən bəzi hüquqşünaslar boşanandan sonra evziz-eşiksiz qalan qadınların problemini geniş mənada həll etmək lazımdır. "Qadınların mənzillə təminatı, sosial təminatı, qadınların təhsil, işsizlik kimi problemlərini həll etməklə bütün bu problemin həllinə nail olmaq mümkündür. Qadının problemini onun ərini müqavilə bağlamağa məcbur etməklə həll etmək olmaz. Bu müqavilənin bağlanması qadının çöldə qalmamasına kömək etməyəcəkdir. "Hər şeyi milli mentalitetlə bağlamaq düzgün deyil, necə olur ki, milli mentalitet nikah müqaviləsi bağlamağa mane olur, amma sonradan adi bir qızıl əşyasına görə aylarla məhkəmədə üz-üzə gəlməyə "afərin" deyir. Bu hüquq düşüncəsinin problemidir."

Nikah müqaviləsi yazılı formada bağlanır və notariat qaydasında təsdiq olunur. Nikah müqaviləsində tərəflərin bir-birini qarşılıqlı saxlaması, bir-birinin gəlirlərində iştirak üsulları, bir-birinin ailə xərclərində iştirak qaydası ilə bağlı hüquq və vəzifələri, nikah pozulduqda hər birinə düşəcək əmlakı müəyyənləşdirmək hüququ müəyyən edilir. Nikah müqaviləsi ər-arvadın mövcud olan və gələcəkdə əldə edəcəkləri əmlaka dair bağlana bilər. Nikah müqaviləsi nikaha qədər və nikahdan sonra da bağlana bilər. Müqavilə nikaha qədər bağlansa da, bu nikah qeydə alındığı gündən qüvvəyə minir. Müqavilədə əmlakın hüquqi rejimi müəyyən olunur. Ötən ilin 6 ayı ilə müqayisədə bu il nikaha girən tərəflər arasında bağlanan nikah müqavilələrinin sayı 4 dəfə artıb. Ötən ilin 6 ayında 13 nikah müqaviləsi bağlandığı halda, bu ilin 6 ayında 42 müqavilə bağlanıb[1].

Bu gün Azərbaycanda boşanmış qadınların əsas problemi boşanandan sonra yaşamağa yerlərinin olmamasıdır. Qadınlar boşanandan sonra yaşamağa yer tapmır uşaqlar çox vaxt boşanma zamanı anaya verilir və yaşamağa evi olmayan qadın bu səbəbdən uşaqlarını uşaq evlərinə vermək məcburiyyətində qalır. Nikah müqaviləsi boşanma zamanı yaranan problemlərin sivil qaydada həllinə imkan verir. Müqavilə mövcud qanunvericiliyin tələblərinə uyğun olmalıdır. Belə bir stereotip var ki, nikaha girən tərəf müqavilənin bağlanmasını tələb edirsə, bu qarşı tərəfə etibarsızlıq kimi qiymətləndirilir.

Əksər dünya ölkələrində yeni ailə quranlar nikah müqaviləsi bağlamaqla, ailə həyatlarının əsas məqamlarını, əsasən də əmlak məsələlərini nizama salmağa üstünlük verirlər. Azərbaycanda isə, nikah müqaviləsinin bağlanmasına demək olar ki, çox az təsadüf edilir.

---



1. **http://www.dolu.biz/main/women/meslehetler/print:page,1,3321-nikah-mgqaviljsi-yoxsa-el-adjti-hansd-daha.html.**

Bəs, nikah müqavilənin məzmununda nə göstərilir, onun şərtlərini kim müəyyən edir? Nikah müqaviləsi nikaha daxil olan şəxslər arasında bağlanan sazişdir. Bu müqavilə istər nikaha daxil olanadək, istərsə də nikaha daxil olandan sonra, nikah dövründə bağlana bilər. Nikah müqaviləsi yazılı formada bağlanmalı və notariat qaydasında təsdiq olunmalıdır.

Ər-arvad nikah müqaviləsi bağlamaqla nikah dövründə və (və ya) nikahları pozulduqda özlərinin əmlak hüquqlarını və vəzifələrini müəyyən edə bilərlər. Müqavilənin şərtlərini onu ər-arvad özləri müəyyən etməlidir. Onlar öz razılaşmalarına uyğun istənilən şərti müqaviləyə daxil edə bilərlər. Ər-arvad nikah müqaviləsində bir-birinin qarşılıqlı saxlanması, bir-birinin gəlirlərində iştirak üsulları, hər birinin ailə xərclərində iştirakı qaydası ilə bağlı hüquq və vəzifələrini, nikah pozulduqda hər birinə düşəcək əmlakı və ər-arvadın əmlak münasibətlərinə dair hər hansı başqa müddəanı müəyyənləşdirmək hüququna malikdirlər.

Hazırda nikaha daxil olmaq üçün 11 manat məbləğində dövlət rüsumu ödəmək tələb olunur.

## Nikaha xitam verilməsi

## Nikaha xitam verilməsinin əsasları

Ər (arvad) öldükdə, yaxud məhkəmə qaydasında ölmüş elan edildikdə nikaha xitam verilir.

Ərin (arvadın) və ya onların hər ikisinin ərizəsi əsasında, eləcə də məhkəmə qaydasında fəaliyyət qabiliyyəti olmayan hesab edilən ərin (arvadın) qəyyumunun ərizəsi əsasında nikaha xitam verilə bilər.

## Ərin nikahın pozulmasını tələb etmək hüququnun məhdudlaşdırılması

Arvadın hamiləliyi dövründə və ya uşağın doğulmasından sonra 1 il müddətində arvadın razılığı olmadan ər nikaha xitam verilməsi barədə iddia qaldıra bilməz. Bu müddəa qadınlara verilən əlavə preventiv hüquqdur, çünki qadın anadır.

**Müvafiq icra hakimiyyəti orqanında nikaha xitam verilməsi**

Ər-arvadın yetkinlik yaşına çatmayan ümumi uşaqları olmadıqda, nikaha onların razılığı əsasında müvafiq icra hakimiyyəti orqanında xitam verilə bilər.

Yetkinlik yaşına çatmayan ümumi uşaqlarının olmasından asılı olmayaraq ərin (arvadın) ərizəsi əsasında nikaha xitam verilməsi aşağıdakı hallarda müvafiq icra hakimiyyəti orqanında aparılır:

ər (arvad) məhkəmə qaydasında itkin düşmüş hesab edildikdə;

ər (arvad) məhkəmə qaydasında fəaliyyət qabiliyyəti olmayan hesab edildikdə;

ər (arvad) cinayət törətməyə görə ən azı 3 il müddətinə azadlıqdan məhrum olunduqda.

## Nikahın məhkəmə qaydasında pozulması

Ər-arvadın yetkinlik yaşına çatmayan ümumi uşaqları olduqda və ya ər (arvad) nikahın pozulmasına razı olmadıqda nikah məhkəmə qaydasında pozulur.

Ər-arvadın razılığı olduqda, lakin onlardan biri müvafiq icra hakimiyyəti orqanında nikahın pozulmasından yayındıqda (ərizə verməkdən imtina etdikdə, nikahın pozulmasının dövlət qeydiyyatı üçün gəlmədikdə və s.) nikahın pozulması məhkəmə qaydasında həyata keçirilir.

## Ərin (arvadın) razılığı olmadıqda nikahın məhkəmə qaydasında pozulması

Ər-arvadın birgə yaşamasının və ailənin saxlanmasının qeyri-mümkünlüyü məhkəmə tərəfindən müəyyən edildikdə, nikah məhkəmə qaydasında pozulur.

Tərəflərdən birinin nikahın pozulması haqqında razılığı olmadıqda, məhkəmə ər-arvadın barışması üçün 3 ay müddət müəyyən etməklə işi təxirə sala bilər. Barışıq olmadıqda və ya onlar (onlardan biri) nikahın pozulmasına təkid etdikdə nikah pozulur.

## Ər-arvadın qarşılıqlı razılığı olduqda nikahın məhkəmə qaydasında pozulması

Yetkinlik yaşına çatmayan ümumi uşaqları olan ər-arvadın nikahın pozulmasına qarşılıqlı razılığı olduqda, eləcə də bu Məcəllənin 19.2-ci maddəsində göstərilən hallarda nikah onun pozulma səbəbləri məhkəmə qaydasında araşdırılmadan pozulur.

Ər-arvad Ailə Məcəlləsinin 22.1-ci maddəsinə uyğun olaraq uşaqları barədə sazişi baxılmaq üçün məhkəməyə təqdim etmək hüququna malikdirlər. Bu saziş olmadıqda və ya həmin saziş uşaqların maraqlarını pozduqda məhkəmə bu Məcəllənin 22.2-ci maddəsində nəzərdə tutulan qaydada onların mənafeyinin müdafiəsi üçün tədbirlər görür.

Nikahın məhkəmə qaydasında pozulması ər-arvadın bu barədə ərizə verdikləri gündən 1 aydan tez olmayaraq həyata keçirilir.

## Nikahın pozulması haqqında qətnamə qəbul etdikdə məhkəmənin həll etdiyi məsələlər

Nikah məhkəmə qaydasında pozularkən, ər-arvad məhkəməyə yetkinlik yaşına çatmayan uşaqlarının kiminlə qaldığını, uşaqların və (və ya) ehtiyacı olan və əmək qabiliyyəti olmayan ərin (arvadın) saxlanması üçün vəsaitin ödənilmə qaydasını, bu vəsaitin miqdarını və ər-arvadın ümumi birgə mülkiyyətinin bölünməsini müəyyən edən saziş təqdim edə bilərlər.

Bu Məcəllənin 22.1-ci maddəsində göstərilən məsələlər üzrə ər-arvad arasında saziş olmadıqda, eləcə də bu saziş uşaqların və ya tərəflərdən birinin marağını pozduqda, məhkəmə:

boşanmadan sonra yetkinlik yaşına çatmayan uşaqların valideynlərindən hansının yanında qaldığını müəyyən etməli;

uşaqlar üçün alimentin hansı valideyndən və hansı miqdarda tutulduğunu müəyyən etməli;

ər-arvadın (onlardan birinin) tələbi ilə onların birgə mülkiyyətində olan əmlakın bölgüsünü aparmalı;

ərindən (arvadından) saxlanması üçün vəsait almaq hüququna malik olan arvadın (ərin) tələbi ilə ərdən (arvaddan) tutulmalı olan vəsaitin miqdarını müəyyən etməlidir.

Əmlak bölgüsü üçüncü şəxsin mənafeyinə toxunduqda, məhkəmə

əmlak bölgüsü haqqında tələbi ayrıca icraata ayıra bilər.

Bu ilin ilk doqquz ayı ərzində Azərbaycanda boşanma hallarının sayı nikahdan az olub. Dövlət Statistika Komitəsindən verilən məlumata görə, ilin əvvəlindən rəsmi orqanlar tərəfindən ölkədə 53 min nikah və 6,5 min boşanma halları qeydə alınıb[1].

2009-cu ilin müvafiq dövrünə nisbətən əhalinin hər 1 000 nəfərinə hesabı ilə nikahların sayı 8,1-dən 7,9-a qədər azalıb, boşanmaların sayı isə 0,9-dan 1-ə qədər artıb. Birinci nikaha daxil olanların orta yaş həddi kişilər arasında 27, qadınlar arasında 23 yaş təşkil edir.

**Xarici vətəndaşlarla nikaha girən qadınlarla bağlı ciddi problemlərə də rast gəlinir. Xarici vətəndaşlarla nikahda olan qızlar boşanarkən həm maddi, həm də mənəvi problemlərlə üzləşirlər. Çox vaxt nikah pozularkən onların uşaqları da əllərindən alınır. "Əcnəbi vətəndaşlarla nikaha girən qızlar həmin ölkənin qanunvericiliyini bilməlidirlər. Əks halda, nikah pozularkən ciddi problemlərlə üzləşirlər**

1. http://www.dolu.biz/main/women/meslehetler/print:page,1,3321-nikah-mgqaviljsi-yoxsa-el-adjti-hansd-daha.html.

## Valideynlərin və uşaqların hüquq və vəzifələrinin yaranma əsasları

Valideynlərin və uşaqların hüquq və vəzifələri qanunvericiliklə müəyyən olunmuş qaydada uşağın mənşəyinin təsdiq olunmasına əsaslanır.

## Uşağın mənşəyinin müəyyən edilməsi

Uşağın anadan mənşəyi (analıq) ananın uşağı tibb müəssisəsində doğmasını təsdiq edən sənəd əsasında, uşaq tibb müəssisəsindən kənarda anadan olduqda doğuma kömək göstərmiş həkimin sənədi əsasında müvafiq icra hakimiyyəti orqanı tərəfindən, bu sənədlər olmadıqda isə şahid ifadələri və digər sübutlar əsasında məhkəmə tərəfindən müəyyən olunur.

Uşaq, aralarında nikah bağlanmış şəxslərdən olduqda, eləcə də nikahın pozulması və ya etibarsız sayılması vaxtından və ya uşağın atasının ölümündən 300 gün ərzində doğulduqda, başqa sübutlar yoxdursa, uşağın atası ananın əri (keçmiş əri) hesab olunur. Atalıq ərlə ananın nikahı haqqında qeydə təsdiq olunur.

Uşağın anası ilə nikahda olmayan şəxsin atalığı uşağın atasının və anasının müvafiq icra hakimiyyəti orqanına birgə ərizə vermələri ilə müəyyən olunur.

Ana öldükdə, fəaliyyət qabiliyyəti olmayan hesab edildikdə, ananın yerini müəyyən etmək mümkün olmadıqda və ya o, valideynlik hüquqlarından məhrum edildikdə, atalıq müvafiq icra hakimiyyəti orqanının razılığı ilə uşağın atasının ərizəsi əsasında, bu razılıq olmadıqda isə məhkəmənin qərarı ilə müəyyən olunur.

Atalığın müəyyən olunması haqqında birgə ərizə verməyin uşağın doğulmasından sonra qeyri-mümkünlüyü və ya çətinliyi güman olunduğu hallarda gələcək uşağın öz aralarında nikahda olmayan valideynləri bu ərizəni müvafiq icra hakimiyyəti orqanına ananın hamiləliyi dövründə vermək hüququna malikdirlər. Uşağın valideynləri haqqında qeyd uşaq doğulduqdan sonra aparılır.

Yetkinlik yaşına çatmış şəxs barədə atalığın müəyyən olunmasına yalnız onun razılığı ilə, həmin şəxs fəaliyyət qabiliyyəti olmayan hesab edildikdə isə onun qəyyumu və ya müvafiq icra hakimiyyəti orqanının razılığı ilə yol verilir.

## Məhkəmə qaydasında atalığın və atalığın tanınması faktının müəyyən olunması



Uşaq, aralarında nikah olmayan şəxslərdən olduqda və valideynlərin birgə ərizəsi və ya uşağın atasının ərizəsi olmadıqda, atalıq uşağın valideynlərindən birinin, uşağın

qəyyumunun (himayəçisinin), uşağı saxlayanın, habelə uşaq yetkinlik yaşına çatdıqda onun özünün ərizəsi əsasında məhkəmə qaydasında müəyyən olunur. Bu zaman məhkəmə uşağın konkret şəxsdən törəməsi ilə əlaqədar istənilən sübutun mötəbərliyini nəzərə ala bilər.

Uşağın anası ilə nikaha daxil olmayan, lakin özünü uşağın atası hesab edən şəxs öldükdə, atalığın tanınması faktı Azərbaycan Respublikasının mülki-prosessual qanunvericiliyinə uyğun olaraq məhkəmə qaydasında müəyyən oluna bilər.

## Ailədə uşaqların hüquqları

### Uşağın ailədə yaşamaq və tərbiyə olunmaq hüququ

18 yaşına (yetkinlik yaşına) çatmayan və tam fəaliyyət qabiliyyəti əldə etməyən şəxslər uşaq hesab olunurlar.

Hər bir uşaq ailədə yaşamaq və tərbiyə almaq, öz valideynlərini tanımaq və onların qayğısından istifadə etmək, uşağın maraqlarına zidd olan hallar istisna olmaqla, onlarla birgə yaşamaq hüququna malikdir.

Uşaq öz valideynləri tərəfindən tərbiyə olunmaq, öz maraqlarının təmin olunması, hərtərəfli inkişafı, onun ləyaqətinə hörmət olunması hüququna malikdir.

Valideynlər olmadıqda, onlar valideynlik hüquqlarından məhrum olunduqda və ya uşaq valideyn himayəsini itirdiyi digər hallarda, uşağın ailədə tərbiyəsi bu Məcəllənin 18-ci fəslində müəyyən olunmuş qaydada müvafiq icra hakimiyyəti orqanı tərəfindən təmin edilir.

Uşaq hüquqları haqqında 19 may 1998-ci il Qanununa əsasən uşaqların aşağıdakı hüquq və vəzifələri vardır.

### Uşağın öz valideynləri və başqa qohumları ilə ünsiyyətdə olmaq hüququ

Uşaq valideynləri, babaları, nənələri, qardaşları, bacıları və başqa qohumları ilə ünsiyyətdə olmaq hüququna malikdir.

Valideynlərinin nikahının pozulması və ya etibarsız sayılması, valideynlərinin ayrı yaşaması uşağın hüquqlarına təsir etmir.

Valideynlər ayrı yaşadıqda uşaq onların hər biri ilə ünsiyyət hüququna malikdir.

Valideynlər müxtəlif dövlətlərdə yaşadıqda da uşaq öz valideynləri ilə ünsiyyətdə olmaq hüququna malikdir.

Uşaq ekstremal hallarda (tutulduqda, həbs olunduqda, saxlanıldıqda, müalicə müəssisələrində yerləşdirildikdə və s.) qanunvericiliklə müəyyən olunmuş qaydada öz valideynləri və qohumları ilə ünsiyyətdə olmaq hüququna malikdir.

## Uşağın müdafiə hüququ

Uşaq öz hüquqlarının və qanuni mənafelərinin müdafiəsi hüququna malikdir.

Uşağın hüquqlarının və qanuni mənafelərinin müdafiəsi valideynlər (onları əvəz edən şəxslər) Ailə Məcəllə ilə nəzərdə tutulmuş hallarda isə müvafiq icra hakimiyyəti orqanı və məhkəmə tərəfindən həyata keçirilir.

Qanunvericiliyə uyğun olaraq yetkinlik yaşına çatana qədər tam fəaliyyət qabiliyyətli hesab edilən şəxslər öz hüquq və vəzifələrini, o cümlədən müdafiə hüququnu müstəqil həyata keçirirlər.

Uşağın valideynləri (onları əvəz edən şəxslər) tərəfindən sui-istifadə etmə hallarından müdafiə olunmaq hüququ vardır.

Uşağın hüquqları və qanuni mənafeləri pozulduqda, o cümlədən valideynləri (onlardan biri) uşağın təhsili, tərbiyəsi üzrə vəzifələrini yerinə yetirmədikdə və ya valideynlik hüquqlarından sui-istifadə etdikdə, uşaq öz hüquqlarını qorumaq üçün müvafiq icra hakimiyyəti orqanına, 14 yaşına çatdıqda isə məhkəməyə müraciət etmək hüququna malikdir.

Uşağın həyat və sağlamlığının təhlükədə olması, onun həyatına, sağlamlığına və ya mənəviyyatına təhlükə törədə bilən fəaliyyətə cəlb olunması, hüquqlarının və qanuni mənafelərinin pozulması barədə məlumatı olan vəzifəli şəxslər və digər vətəndaşlar bu barədə uşağın faktiki olduğu yerin müvafiq icra hakimiyyəti orqanına məlumat verməyə borcludurlar. Müvafiq icra hakimiyyəti orqanı bu cür məlumat aldıqda uşağın hüquqlarının və qanuni mənafelərinin müdafiəsi üçün zəruri tədbirlər görməyə borcludur.

Uşaq hüquqlarının həyata keçirilməsinə müvafiq icra hakimiyyəti orqanları nəzarət edirlər.

## Uşağın öz fikrini bildirmək hüququ

Uşaq ailədə onun maraqlarına toxunan istənilən məsələnin həlli zamanı öz fikrini bildirmək, habelə məhkəmə istintaqı və inzibati araşdırmaların gedişində dinlənilmək hüququna malikdir. Onun maraqlarına zidd olan hallar istisna olunmaqla, 10 yaşına çatmış uşağın fikri mütləq nəzərə alınmalıdır. Bu Məcəllə ilə nəzərdə tutulmuş hal-

larda məhkəmə və ya qəyyumluq və himayə orqanı yalnız 10 yaşına çatmış uşağın razılığı ilə qərar qəbul edə bilər[1].

## Valideynlərin və uşaqların aliment öhdəlikləri
## Valideynlərin uşaqlarını saxlamaq vəzifəsi

Valideynlər uşaqlarını saxlamağa borcludurlar.

Uşaqlarını saxlamağın qayda və formasını valideynlər müstəqil müəyyən edirlər.

Valideynlər uşaqlarını saxlamadıqda uşaqların saxlanması üçün vəsait (aliment) valideynlərdən məhkəmə qaydasında tutulur.

Aliment ödənilməsi barədə valideynlər arasında saziş olmadıqda, valideynlər (onlardan biri) uşaqları saxlamadıqda və məhkəməyə bu barədə iddia verilmədikdə müvafiq icra hakimiyyəti orqanı yetkinlik yaşına çatmayan uşaqlar üçün aliment tutulması barədə valideynlərə (onlardan birinə) qarşı iddia qaldırmaq hüququna malikdir.

## Uşaqlar üçün məhkəmə qaydasında tutulan alimentin miqdarı

Aliment ödənilməsi barədə razılıq olmadıqda uşaqlar üçün onların valideynlərindən məhkəmə tərəfindən hər ay aşağıdakı miqdarda aliment tutulur:

uşağa görə – qazancın və (və ya) valideynlərin başqa gəlirlərinin dörddə bir hissəsi;

uşağa görə – qazancın (başqa gəlirlərin) üçdə bir hissəsi;

və daha çox uşağa görə – qazancın (başqa gəlirlərin) yarısı.

Bu payların miqdarı məhkəmə tərəfindən tərəflərin ailə və maddi vəziyyəti, eləcə də diqqətəlayiq olan başqa hallar nəzərə alınmaqla azaldıla və artırıla bilər.

Uşaqlar üçün aliment tutulan əmək haqqının və (və ya) başqa gəlirlərin növləri

Uşaqlar üçün valideynlərinin aliment tutulan, manat və xarici valyuta ilə aldıqları əmək haqqının və (və ya) başqa gəlirlərinin növləri müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunur.

## Uşaqların saxlanılması üçün alimentin sabit pul məbləğində tutulması

Valideynlər arasında yetkinlik yaşına çatmayan uşaqlara aliment ödənilməsi barədə saziş yoxdursa, eləcə də aliment verməyə borclu olan valideynin qazancı (gəliri) qey-

**1. Azərbaycan Respublikasının Ailə Məcəlləsi 2011-ci il Qanun Nəşrlər evi səh 47.**

ri-müntəzəm, dəyişən olarsa, ya da qazancın (gəlirin) hamısını və ya bir hissəsini həmin valideyn natura və ya xarici valyuta ilə alırsa, yaxud onun qazancı və ya sair gəliri yoxdursa, habelə alimentin valideynin qazancından (gəlirindən) müəyyən hissə kimi tutulması mümkün olmadığı, çətinlik törətdiyi və tərəflərdən birinin marağını əhəmiyyətli dərəcədə pozduğu başqa hallarda, uşaqların saxlanması üçün vəsait tutulmasını tələb edən şəxsin xahişi ilə alimentin miqdarı məhkəmə tərəfindən hər ay ödənilməli olan sabit pul məbləğində və ya eyni zamanda, həm sabit pul məbləğində, həm də Ailə Məcəllənin 76-cı maddəsinə uyğun olaraq qazancın (gəlirin) müəyyən hissəsi kimi müəyyən edilə bilər.

Sabit pul məbləğinin miqdarı məhkəmə tərəfindən tərəflərin maddi və ailə vəziyyəti, diqqətəlayiq olan digər hallar nəzərə alınmaqla uşağın əvvəlki təminatının səviyyəsinin mümkün qədər maksimal saxlanması əsas tutularaq müəyyən edilir.

Tərəflərdən hər biri ilə uşaq qalıbsa, bir valideyndən az, təminatlı digər valideynin xeyrinə hər ay tutulan alimentin miqdarı bu Məcəllənin 78.2-ci maddəsinə uyğun olaraq məhkəmə tərəfindən sabit pul məbləğində müəyyən edilir.

Valideyn himayəsindən məhrum olmuş və tərbiyə, müalicə, əhalinin sosial müdafiəsi müəssisələrində və digər analoji müəssisələrdə yerləşdirilən uşaqların valideynlərindən tutulan aliment həmin müəssisələrin hesabına keçirilir və hər bir uşağın özünə xərclənir.

Göstərilən müəssisələr həmin məbləğləri bankda saxlaya bilər. Məbləğlərin dövriyyəsindən alınan gəlirin 50 faizi uşaqların saxlanmasına sərf olunur. Uşaq bu müəssisələri tərk etdikdə aliment məbləğlərinin cəmi və alimentin dövriyyəsindən əldə olunan gəlirin 50 faizi uşağın adına bankda açılan hesaba köçürülür.

## Əmək qabiliyyəti olmayan yetkinlik yaşına çatmış övladların aliment almaq hüququ

Valideynlər əmək qabiliyyəti olmayan və maddi yardıma ehtiyacı olan yetkinlik yaşına çatmış övladlarını saxlamağa borcludurlar.

Aliment ödənilməsi barədə saziş olmadıqda, əmək qabiliyyəti olmayan yetkinlik yaşına çatmış övladların saxlanması üçün alimentin miqdarı, tərəflərin ailə və maddi vəziyyəti, diqqətəlayiq olan digər maraqları nəzərə alınmaqla, məhkəmə tərəfindən hər ay ödənilməli olan sabit pul məbləğində müəyyən edilir.

## Valideynlərin uşaqlara görə əlavə xərclərdə iştirakı



Alimentin tutulması barədə saziş olmadıqda və ya sazişdə müstəsna hallarla (ağır xəstə, şikəst olan uşaqlara, habelə əmək qabiliyyəti olmayan və maddi yardıma ehti-

yacı olan yetkinlik yaşına çatmış övladlara göstərilən kənar xidmətin haqqının ödənilməsi ilə əlaqədar və digər hallarda) əlaqədar yaranmış xərclərin ödənilməsi qaydası müəyyən edilməmişsə, valideynlərdən hər biri məhkəmə tərəfindən əlavə xərclərin ödənilməsinə cəlb oluna bilər.

Valideynlərin əlavə xərclərə cəlb olunması qaydasını məhkəmə müəyyən edir. Bu xərclərin miqdarı məhkəmə tərəfindən valideynlərin və uşaqların ailə və maddi vəziyyəti, eləcə də tərəflərin diqqətəlayiq olan digər maraqları nəzərə alınmaqla, hər ay ödənilməli olan sabit pul məbləğində müəyyən olunur.

Məhkəmə valideynləri faktiki çəkilmiş əlavə xərclərə, eləcə də gələcəkdə çəkilməsi zəruri olan xərclərə cəlb edə bilər.

## Yetkinlik yaşına çatmış övladların valideynlərini saxlamaq vəzifəsi

Əmək qabiliyyəti olan yetkinlik yaşına çatmış övladlar maddi yardıma ehtiyacı olan əmək qabiliyyəti olmayan valideynlərini saxlamağa və onlara qayğı göstərməyə borcludurlar.

Aliment ödənilməsi barədə saziş olmadıqda, əmək qabiliyyəti olmayan və maddi yardıma ehtiyacı olan valideynlər üçün aliment əmək qabiliyyəti olan və yetkinlik yaşına çatmış övladlardan məhkəmə qaydasında tutulur.

Övladların hər birindən tutulan alimentin həcmi məhkəmə tərəfindən valideynlərin və övladların maddi vəziyyəti, ailə vəziyyəti və tərəflərin diqqətəlayiq digər maraqları nəzərə alınmaqla, hər ay ödənilməli olan sabit pul məbləğində müəyyən edilir.

Alimentin miqdarı müəyyən olunarkən məhkəmə tələbin valideynlərin əmək qabiliyyəti olan və yetkinlik yaşına çatmış övladlarından hamısına, birinə və ya bir neçəsinə verildiyindən asılı olmayaraq, onların hamısını nəzərə almağa haqlıdır.

Valideynlərin öz valideynlik vəzifələrini yerinə yetirməməsi məhkəmə tərəfindən müəyyən olunarsa, uşaqlar əmək qabiliyyəti olmayan və maddi yardıma ehtiyacı olan valideynlərini saxlamaq vəzifəsindən azad edilə bilərlər[1].

Uşaqlar valideynlik hüquqlarından məhrum edilən valideynlərinə aliment ödəməkdən azad edilirlər.

---

**1. Azərbaycan Respublikasının Ailə Məcəlləsi 2011-ci il Qanun Nəşrlər evi səh 49.**

## Ər-arvadın və keçmiş ər-arvadın aliment öhdəlikləri
## Ər-arvadın bir-birini saxlamaq vəzifəsi

Ər və arvad bir-birinə maddi cəhətdən kömək etməlidirlər.

Bu köməyin göstərilməsindən imtina edildikdə və ər-arvad arasında alimentin ödənilməsi barədə saziş olmadıqda, aşağıdakılar buna zəruri vəsaitə malik olan digər tərəfin aliment ödəməsini məhkəmə qaydasında tələb etmək hüququna malikdirlər:

əmək qabiliyyəti olmayan və maddi yardıma ehtiyacı olan ər və ya arvad;

hamiləliyi dövründə və ümumi uşaqlarının doğulduğu gündən üç il ərzində arvad;

sağlamlıq imkanları məhdud ümumi uşağa qulluq edən və ehtiyacı olan ər və ya arvad – uşaq 18 yaşına çatana qədər;

18 yaşından yuxarı I qrup əlil ümumi uşağa qulluq edən və ehtiyacı olan ər və ya arvad. (11)

## Nikah pozulduqdan sonra keçmiş ərin (arvadın) aliment almaq hüququ

Aşağıdakı şəxslər nikah pozulduqdan sonra məhkəmə qaydasında buna zəruri vəsaitə malik olan keçmiş ərdən (arvaddan) aliment ödəməyi tələb etmək hüququna malikdirlər:

hamiləlik dövründə və ümumi uşaqlarının doğulduğu gündən 3 il ərzində keçmiş arvad; sağlamlıq imkanları məhdud ümumi uşağa və ya 18 yaşına çatanadək sağlamlıq imkanlarının məhdudluğu müəyyən olunmuş 18 yaşından yuxarı I qrup əlil olan ümumi uşağa qulluq edən və maddi yardıma ehtiyacı olan keçmiş ər (arvad);

nikah pozulana qədər və ya nikah pozulduğu gündən bir il ərzində əmək qabiliyyətini itirən və maddi yardıma ehtiyacı olan keçmiş ər (arvad);

ər-arvad uzun müddət nikahda olmuşlarsa, nikah pozulduğu andan 5 il müddətindən gec olmayaraq pensiya yaşına çatan və maddi yardıma ehtiyacı olan keçmiş ər (arvad).

Alimentin miqdarı və nikah pozulduqdan sonra onun keçmiş ərə (arvada) ödənilməsi qaydası keçmiş ər-arvad arasındakı sazişlə müəyyən edilə bilər. (11)

## Ərdən (arvaddan) və ya keçmiş ərdən (arvaddan) digərinə məhkəmə qaydasında tutulan alimentin miqdarı



Aliment ödənilməsi barədə ər-arvad və ya keçmiş ər-arvad arasında saziş olmadıqda, məhkəmə qaydasında ərə (arvada) və ya keçmiş ərə (arvada) ödənilməli olan alimentin

miqdarı məhkəmə tərəfindən keçmiş ərin (arvadın) ailə və maddi vəziyyəti, tərəflərin digər diqqətəlayiq olan maraqları nəzərə alınmaqla, hər ay ödənilməli olan sabit pul məbləği formasında müəyyən edilir.

### Ərin (arvadın) arvadı (əri) saxlamaq vəzifəsindən azad edilməsi və ya bu vəzifənin müddətlə məhdudlaşdırılması

Məhkəmə aşağıdakı hallarda əri (arvadı) nikah dövründə və nikah pozulduqdan sonra maddi yardıma ehtiyacı olan və əmək qabiliyyəti olmayan arvadı (əri) saxlamaq vəzifəsindən azad edə və bu vəzifəni müəyyən müddətlə məhdudlaşdıra bilər:

maddi yardıma ehtiyacı olan ər (arvad) əmək qabiliyyətini spirtli içkilərin, narkotik vasitələrin, psixotrop maddələrin qəbulu və ya qəsdən törətdiyi cinayət əməli nəticəsində itirdikdə;

aliment ödənilməsini tələb edən ər (arvad) ailədə ləyaqətsiz davrandıqda;

nikah çox çəkmədikdə. (10)

### Ailənin başqa üzvlərinin aliment öhdəlikləri

### Qardaş və bacıların yetkinlik yaşına çatmayan və ya əmək qabiliyyəti olmayan qardaş və bacılarını saxlamaq vəzifəsi

Yetkinlik yaşına çatmayan və yardıma ehtiyacı olub valideynlərindən saxlanılması üçün yardım ala bilməyən qardaş və bacılar buna zəruri vəsaitə malik yetkinlik yaşına çatmış qardaş və bacılardan məhkəmə qaydasında aliment almaq hüququna malikdirlər. Əmək qabiliyyəti olmayan və yardıma ehtiyacı olan yetkinlik yaşına çatmış qardaş və bacılar valideynlərindən, yaxud da ərindən (arvadından) və ya yetkinlik yaşına çatan uşaqlarından saxlanmaq üçün maddi yardım ala bilmədikdə, onlara da eyni hüquq verilir.

### Baba və nənənin nəvələrini saxlamaq vəzifəsi

Yardıma ehtiyacı olan yetkinlik yaşına çatmayan nəvələr saxlanmaq üçün öz valideynlərindən maddi yardım ala bilmədikdə, buna zəruri vəsaitə malik baba və nənədən məhkəmə qaydasında aliment almaq hüququna malikdirlər. Əmək qabiliyyəti olmayan və yardıma ehtiyacı olan yetkinlik yaşına çatan nəvələr saxlanmaq üçün valideynlərindən, yaxud da ərdən (arvaddan) maddi yardım ala bilmədikdə, onlara da eyni hüquq verilir.

## Nəvələrin baba və nənəni saxlamaq vəzifəsi

Əmək qabiliyyəti olmayan və yardıma ehtiyacı olan baba və nənə saxlanmaq üçün yetkinlik yaşına çatan övladlarından və ya ərindən (arvadından) maddi yardım ala bilmədikdə, buna zəruri vəsaitə malik nəvələrdən məhkəmə qaydasında aliment verilməsini tələb etmək hüququna malikdirlər.

## Yetirmələrin öz faktik tərbiyəçilərini saxlamaq vəzifəsi

Yetkinlik yaşına çatmayan uşaqları faktik tərbiyə etmiş və saxlamış əmək qabiliyyəti olmayan və yardıma ehtiyacı olan şəxslər, öz yetkinlik yaşına çatmış övladlarından və ya ərlərindən (arvadlarından) təminat ala bilmədikdə, yetkinlik yaşına çatmış öz əmək qabiliyyətli yetirmələrindən məhkəmə qaydasında aliment verilməsini tələb etmək hüququna malikdirlər.

Faktik tərbiyəçilər öz yetirmələrini 5 ildən az müddətdə tərbiyə etdiyi və saxladığı, yaxud lazımınca tərbiyə etmədiyi və ya saxlamadığı hallarda məhkəmə onları saxlamaq vəzifəsindən yetirmələri azad edə bilər.

## Məhkəmənin qərarı ilə alimentin tutulması

Ailə üzvləri arasında aliment ödənilməsi barədə saziş olmadıqda, Ailə Məcəlləsnin 13-16-cı fəsillərində göstərilmiş şəxslər aliment tutulması barədə məhkəməyə müraciət edə bilərlər.

## Aliment tutulması barədə tələbin verilməsi müddətləri

Aliment almaq hüququ olan şəxs, aliment ödənilməsi barədə saziş üzrə əvvəllər ona aliment ödənilməmişsə, aliment almaq hüququnun yarandığı vaxtdan asılı olmayaraq istənilən müddətdə məhkəməyə aliment tutulması barədə ərizə ilə müraciət etmək hüququna malikdir.

Aliment məhkəməyə müraciət edildiyi vaxtdan tutulur.

Məhkəmə iddiaçının aliment almaq üçün məhkəməyə müraciət edənədək tədbirlər gördüyünü, lakin aliment ödəməli olan şəxsin onu verməkdən boyun qaçırması nəticəsində alimentin alınmadığını müəyyən edərsə, əvvəlki dövr üçün aliment 3 illik müddət həddində verilə bilər.

## Mübahisənin məhkəmədə həllinə qədər alimentin tutulması

Məhkəmənin aliment tutulması barədə çıxardığı qətnamə qanuni qüvvəyə minənədək (uşaqlar üçün aliment tutularkən məhkəmənin aliment tutulması barədə qətnaməsi çıxarılanadək) məhkəmə Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsi ilə nəzərdə tutulmuş qaydada alimentin müvəqqəti tutulmasını qət edə bilər.

Məhkəmə alimentin miqdarını müəyyən edərkən tərəflərin maddi və ailə vəziyyətlərini nəzərə almalıdır. Yetkinlik yaşına çatmayanlar üçün alimentin miqdarı Ailə Məcəlləsinin 76-cı maddəsinə uyğun müəyyən edilir.

## Təşkilatın müdiriyyətinin aliment tutmaq vəzifəsi

Şəxsin işlədiyi təşkilatın müdiriyyəti notariat qaydasında təsdiq edilən aliment ödənilməsi barədə saziş əsasında və ya icra vərəqəsi əsasında hər ay onun əmək haqqından və (və ya) başqa gəlirindən aliment tutmağa və onu icra vərəqəsində və ya sazişdə göstərilmiş şəxsə əmək haqqı və (və ya) başqa gəlirlər verilən gündən sonra ən geci 3 gün müddətində verməyə və ya aliment tutulan şəxsin vəsaiti hesabına göndərməyə borcludur.

## Aliment ödənilməsi barədə saziş əsasında aliment tutulması

Aliment ödənilməsi barədə saziş və (və ya) icra vərəqəsi əsasında tutulan ümumi məbləğ aliment ödəməyə borclu olan şəxsin əmək haqqının və (və ya) başqa gəlirlərinin 50 faizindən çox olduqda da aliment notariat qaydasında təsdiq olunmuş saziş əsasında tutulur.

## Qəyyumluq və himayə İnstitutu: qanunvericilik və praktika

Azərbaycan Respublikası Mülki Məcəlləsinin III fəsli fiziki şəxslər bölməsinə həsr olunmuşdur. Fiziki şəxs hüquq münasibətlərində öz adından iştirak edən insan fərdidir. Mülki Məcəlləyə görə qəyyumluq və himayəçilik fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli fiziki şəxslərin hüquq və mənafelərinin müdafiəsi üçün təyin edilir. Fiziki şəxsin mülki hüquq qabiliyyəti insanın mülki hüquqlara malik olmaq və mülki hüquq vəzifələri daşımaq qabiliyyətidir. Fiziki şəxsin hüquq qabiliyyəti onun doğulduğu an əmələ gəlir və ölümü ilə xətm edilir. Fiziki şəxsin mülki hüquqi fəaliyyət qabiliyyəti isə şəxsin öz hərəkətləri ilə mülki hüquqlar əldə etmək

və həyata keçirmək, özü üçün mülki vəzifələr yaratmaq və icra etmək qabiliyyətidir. Şəxs 18 yaşına çatdıqda onun mülki hüquq fəaliyyət qabiliyyəti tam həcmdə yaranır. 7 yaşınadək olan uşaqların fəaliyyət qabiliyyəti yoxdur. 7 yaşdan 18 yaşadək uşaqların məhdud fəaliyyət qabiliyyəti vardır. Göründüyü kimi mülki hüquq mülki hüquq qabiliyyəti ilə mülki fəaliyyət qabiliyyəti arasında fərq müəyyən etmişdir. Məlumdur ki, mülki hüquq qabiliyyəti bütün fiziki şəxslər üçün yaşından və psixi vəziyyətindən asılı olmayaraq bərabər şəkildə və eyni dərəcədə tanınır. Mülki qanunvericilik bütün fiziki şəxslərə eyni dərəcədə mülki hüquq və vəzifələrə malik olmaq üçün hər hansı amildən asılı olmayaraq eyni cür imkanlar yaradır. Bunun üçün də qanunvericilik onlara öz hərəkətləri ilə bu hüquq və vəzifələri əldə etmək imkanı verən fəaliyyət qabiliyyəti imkanı verir. Lakin şəxsin fəaliyyət qabiliyyəti yuxarıda göstərdiyimiz kimi bir sıra amillərlə məhdudlaşdırılır. Buraya həm yaş həm də psixi sağlamlıq vəziyyəti daxildir. Hüquq ədəbiyyatlarında və qanunvericilikdə fəaliyyət qabiliyyətinin yaranması dövrünü yuxarıda göstərdiyimiz kimi 3 mərhələyə bölürlər. 1) 7 yaşına çatmayan, ağıl zəifliyi və ruhi xəstəlik nəticəsində öz hərəkətlərinin mənasını başa düşməyən və ya öz hərəkətlərinə rəhbərlik edə bilməyən şəxslərin mülki fəaliyyət qabiliyyəti tanınmır. 2) 7 yaşdan 14 yaşadək yetkinlik yaşına çatmayan şəxslər qismən fəaliyyət qabiliyyətli hesab olunurlar. 3) 14 yaşdan 18 yaşadək olan şəxslər isə nisbi fəaliyyət qabiliyyətli şəxslər hesab olunurlar. Mülki qanunvericilik, şəxsin mülki fəaliyyət qabiliyyətinin bəzi hallarda yaşından asılı olmayaraq məhdudlaşdırılması imkanını nəzərdə tutur. Belə ki, Mülki Məcəllənin 32-ci maddəsinə əsasən spirtli içkilərdən, narkotik vasitələrdən və ya psixotrop maddələrdən sui-istifadə etməsi, habelə qumara qurşanması nəticəsində öz ailəsini ağır maddi vəziyyətə salan fiziki şəxsin fəaliyyət qabiliyyəti məhkəmə tərəfindən məhdudlaşdırıla bilər. Belə şəxslərin üzərində himayəçilik təyin edilir. O, yalnız himayəçinin razılığı ilə əqdlər bağlaya bilər, yalnız xırda məişət əqdlərinin bağlamaqda sərbəstdir.

Məhkəmə praktikasında bəzi hallarda qəyyumluq və himayə məsələlərinin tənzimlənməsi sahəsində bir sıra problemlər yaranır. Müvafiq icra hakimiyyəti orqanlarının nəzdində yaradılan qəyyumluq və himayə komissiyaları bir çox hallarda vəzifələrinin öhdəsindən lazımınca gələ bilmirlər. Yerli İcra Hakimiyyətlərinin nəzdində yaradılan bu komissiyaların sədirləri və üzvləri bütün hallarda həmin orqanda başqa vəzifələr tutan şəxslərdən formalaşdırılır. Bu da komissiyaların operativ işləməsinə maneçilik törədir. Mülki qanunvericiliyə görə rayon ərazisində olan kimsəsiz uşağın qəyyumu bir başa olaraq həmin komissiyadır. Kimsəsiz uşaq barəsində məlumat alan komissiya ilk növbədə uşağın bir sıra mənafelərini müdafiə etmək üçün onun barəsində hansısa profilaktik tədbirlər görməlidir. Mülki Məcəllənin 35-ci maddəsində göstərilir ki, «qəyyumluğa və himayəçiliyə ehtiyacı olan şəxsə qəyyum və himayəçi təyin edilə-

nədək qəyyum və himayəçi vəzifələrini qəyyumluq və himayəçilik orqanı icra edir». Hazırki günə kimi bu orqanların fəaliyyətlərini nizama salacaq əsasnamə və digər hüquqi sənədlər hazırlanmamışdır. Bu da onların fəaliyyətlərində çətinlik yaradan səbəblərdəndir. Bir çox qəyyumluq və himayə orqanları formal olaraq yaradılmaş və onun fəaliyyətini bir nəfər şəxs icra edir. Bu şəxs ya psixoloq ya da komissiyanın katibi olur. Nəzərə alsaq ki, bu komissyaların işi yalnız qəyyum və himayəçi təyin etməklə bitmir görərik ki, həqiqətən də bu orqanların müstəqil və sərbəst fəaliyyətlərini təmin etmək üçün hansısa addımlar atılmalıdır. Belə ki, qəyyum və himayəçi təyin olunduqdan sonra bu komissiyalar daimi olaraq həmin şəxslərə nəzarət etməlidir. Onların əmlaklarının idarə olunmasında, onlar barəsində qəyyumun və ya himayəçinin verməli olduğu mühüm qərarlarda bu komissiyalar qərar vermək hüququna malikdirlər. Belə ki, Mülki Məcəllənin 34.3-cü maddəsinə görə «qəyyumluqda olanların yaşayış yeri üzrə qəyyumluq və himayəçilik orqanı onların qəyyumlarının və himayəçilərinin fəaliyyətinə nəzarət edir». Qəyyum və himayəçilər yetkinlik yaşına çatmaış fəaliyyət qabiliyyətli fiziki şəxslərdən təyin edilirlər. Valideyinlik hüquqlarından məhrum edilmiş, qəyyum və hzimayəçilikdən məhrum edilmiş, spirtil içkilərdən və narkotik vasitələrdən istifadə edən şəxslər qəyyum və himayəçi təyin oluna bilməzlər. Qəyyum və ya himayəçi təyin olunması üçün müraciət edən şəxslər qəyyumluq və himayə orqanları ha belə məhkəmə tərəfindən dərindən araşdırılmalı, həmin şəxslərin bütün şəxsi və digər keyfiyyətləri nəzərə alınmalıdır. Azərbaycan Respublikası Ailə Məcəlləsinin 136-cı maddəsinə görə qəyyumluq və himayə valideynlərini itirmiş uşaqlara onların saxlanılması, tərbiyə olunması, habelə onların hüquq və vəzifələrinin qorunması məqsədi ilə müəyyən olunur. Qəyyumluq 14 yaşınadək, himayəçilik 18 yaşınadək olan uşaqlara təyin olunur. Uşaqlara qəyyum təyin olunarkən, qəyyumun əxlaqi və başqa keyfiyyətləri, onun qəyyumluq vəzifəsini yerinə yetirə bilməsi, onun və ailəsinin uşaqla ünsiyyəti və münasibəti, habelə mümkünsə uşağın öz arzusu nəzərə alınmalıdır. Sadalanan bütün bu şərtlər valideynlərinin himayəsindən məhrum olmuş uşağın ailə mühitində tərbiyə edilməsi üçün əlverişli şəraitin yaradılması ilə birbaşa əlaqəlidir. Belə ki, qəyyum olmaq istəyən şəxsin hərəkətləri mənəviyyata ziddirsə, onda insanlara qarşı qəddarlıq, rəhimsizlik, laqeydlik və digər bu kimi keyfiyyətlər varsa, o, əlbətdə ki, qəyyum təyin oluna bilməz. Şəxsin qəyyum vəzifəsindən kənarlaşdırılması tez-tez baş verən hal deyildir. Bununla belə qeyd etmək lazımdır ki, qəyyumun seçilməsində bir sıra hallarda səhvlər olur, nəzərə alsaq ki, qəyyum təyin olunması vaxtı məhdud olduğu şəraitdə, yəni qəyyum uşaq üzərində qəyyumluğun təcili təyin olunmasına ehtiyac olduğu şəraitdə təyin olunur. Bu da təyin olunan qəyyumun şəxsi keyfiyyətlərinin yetərincə araşdırılmasına mane olan haldır. Qəyyumluq

dedikdə, tam mülki fəaliyyət qabiliyyətli qəyyumun həyata keçirdiyi elə bir hüquqi akt başa düşülür ki, onun nəticəsində mülki fəaliyyət qabiliyyəti olmayan və ya qismən fəaliyyət qabiliyyəti olan şəxslərin hüquq və mənafelərinin müdafiəsi təmin olunur. O, yaş və ya psixi-ruhi sağlamlıq vəziyyətinə görə mülki fəaliyyət qabiliyyəti olmayan və ya qismən fəaliyyət qabiliyyəti olan və buna görə də müstəqil surətdə mülki hüquq münasibətlərində iştirak etmək imkanlarını itirən fiziki şəxslər üzərində təyin edilir. Qəyyumluq on dörd yaşı tamam olmamış yetkinlik yaşına çatmayan şəxslər üzərində, yəni bu şəxslərin valideynləri və onları övladlığa götürənlər olmadıqda; valideynlər məhkəmə tərəfindən valideynlik hüquqlarından məhrum edildikdə; valideynləri onları tərbiyələndirməkdən və ya hüquq və mənafelərini müdafiə etməkdən boyun qaçırdıqda; başqa səbəblərə görə həmin şəxslər valideyn himayəsindən məhrum olunduqda; psixi xəstəliyə görə məhkəmə tərəfindən fəaliyyət qabiliyyəti olmayan sayılmış fiziki şəxslər üzərində təyin olunur. Göstərilən şəxslər qəyyumluq altında olan şəxslər sayılır. Onların bütün hüquq və vəzifələrini qəyyumlar həyata keçirir. Qəyyum mülki hüquq münasibətlərində iştirak edərək, qəyyumluq altında olan şəxsləri tam əvəz edir və onların yerini tutur. Qəyyum xüsusi olaraq təyin edilən şəxsdir. O, qəyyumluq altında olan şəxslərin hesabına, bu şəxslərin adından və onların mənafeyi üçün bütün zəruri əqdləri bağlayır, hüquqi əhəmiyyəti olan digər hərəkətləri edir. Yalnız qəyyumun vasitəsi ilə onlar əqdlər bağlaya bilərlər. Bağlanılan əqd qəyyum üçün yox, qəyyumluq altında olanq şəxslər üçün hüquq və vəzifələr yaradır, dəyişdirir və ya onlara xitam verir, yəni bu şəxslər üçün hüquqi nəticə doğurur. Məsələn, qəyyum özünün qəyyumluğu altında olan 13 yaşlı uşaq üçün yaşayış evinin alqı-satqı müqaviləsini imzalayır. Evi satan şəxs bilir ki, ev uşaq üçün alınır. Qəyyum yalnız alqı-satqı hüquq münasibətində uşağın təmsilçisi, yəni nümayəndəsi rolunda çıxış edir. Burada mülkiyyət hüququ qəyyumluq altında olan şəxsə keçir. Qəyyumlar qəyyumluğu altında olan şəxslərin hüquq və mənafelərini istənilən instansiyalarda, o cümlədən məhkəmədə qorumağa haqlıdırlar. Bunun üçün qəyyumun qəyyumluqda olandan hər-hansı səlahiyyət verici sənəd almasına ehtiyac yoxdur. Qəyyumluq aktını həyata keçirmək üçün mülki qanunvericilik qəyyumları müvafiq lazımi hüquq və vəzifələrlə təmin edir. Ruhi xəstə və ya kəmağıllılar üzərində təyin edilmiş qəyyumun, hər şeydən əvvəl vəzifəsidir ki, özünün qəyyumluğu altında olan şəxsin sağlamlığı barəsində qayğı göstərsin, müntəzəm surətdə həkim müşahidəsi altında olmağa və ona vaxtlı-vaxtında lazımi tibbi yardım göstərilməsini təmin etsin[1].



**1. http://www.azhumanrights.az/analytics/187-q601yyumluq-v601-himay601-304nstitutu.html Mahmudov Cahangir Fəxrəddin oğlu məqaləsi Əsasında.**

## Övladlığa götürülməsinə yol verilən uşaqlar

Övladlığa götürməyə yetkinlik yaşına çatmayanlar barəsində və yalnız onların mənafeyi naminə uşağın doğumu müvafiq icra hakimiyyəti orqanında qeydə alındıqdan sonra yol verilir.

Bir uşaq iki şəxs tərəfindən (ər-arvaddan başqa) övladlığa götürülə bilməz.

Ər (arvad) özünün nikahdan olmayan uşağını və ya arvadının (ərinin) uşağını övladlığa götürə bilər.

Uşağın mənafeyinə cavab verən hallar istisna olmaqla, qardaş və bacıların müxtəlif şəxslər tərəfindən övladlığa götürülməsinə yol verilmir.

Əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər tərəfindən uşaqların övladlığa götürülməsinə, həmin uşaqları Azərbaycan Respublikası ərazisində daimi yaşayan Azərbaycan Respublikası vətəndaşlarının ailələrinə tərbiyəyə vermək mümkün olmadıqda və ya vətəndaşlığından və yaşayış yerindən asılı olmayaraq qohumları (bacıları, qardaşları, nənələri, babaları, valideynlərinin bacıları, qardaşları, onların övladları) övladlığa götürmədikdə icazə verilir.

## Övladlığa götürmə qaydası

Övladlığa götürmə uşağı övladlığa götürmək istəyən şəxsin (şəxslərin) verdiyi ərizə əsasında məhkəmə tərəfindən həyata keçirilir. Məhkəmədə övladlığa götürmə barədə işə müvafiq icra hakimiyyəti orqanının iştirakı ilə mülki prosessual qanunvericilikdə nəzərdə tutulmuş xüsusi icraat qaydasında baxılır.

Övladlığa götürənlərin və övladlığa götürülən uşaqların hüquq və vəzifələri məhkəmənin uşağın övladlığa götürülməsinin müəyyən olunması barədə qətnaməsinin qanuni qüvvəyə mindiyi gündən yaranır.

Məhkəmə uşağın övladlığa götürülməsi barədə qətnamənin qüvvəyə mindiyi gündən 3 gün müddətində bu qətnamədən çıxarışı müvafiq icra hakimiyyəti orqanına göndərməyə borcludur.

Uşağın övladlığa götürülməsi vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı üçün müəyyən olunmuş qaydada qeydiyyata alınır.

Hər hansı şərtlər altında, hər hansı müddətə və ya nümayəndələr vasitəsi ilə övladlığa götürmək yolverilməzdir.

Uşaq öldükdə övladlığa götürməyə yol verilmir.

Azərbaycan Respublikası vətəndaşı olan uşaqlar əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən övladlığa götürüldükdə, övladlığa götürənlərə hüquqi yardım akkreditə edilmiş orqan tərəfindən həyata keçirilir.

Akkreditə edilmiş orqan müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

## Övladlığa götürmək hüququ olan şəxslər

Aşağıdakılar istisna olmaqla, hər iki cinsdən olan yetkinlik yaşına çatmış şəxslər övladlığa götürən ola bilərlər:

məhkəmə tərəfindən fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli hesab edilən şəxslər;

məhkəmə tərəfindən valideynlik hüquqlarından məhrum edilmiş və ya valideynlik hüquqları məhdudlaşdırılmış şəxslər;

qanunla üzərinə qoyulan vəzifəni yerinə yetirmədiyinə görə qəyyum və ya himayəçi vəzifələrindən kənarlaşdırılmış şəxslər;

əvvəllər məhkəmə tərəfindən təqsirkar bilinərək bu hüququ ləğv edilmiş şəxslər;

səhhətinə görə valideyn vəzifələrini həyata keçirə bilməyən şəxslər.

Övladlığa götürməyə, qəyyumluğa və himayəyə qəbul etməyə imkan verməyən xəstəliklərin siyahısı müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunur.

Aralarında nikah olmayan şəxslər birlikdə eyni uşağı övladlığa götürə bilməzlər.

## Övladlığa götürülən uşaq ilə övladlığa götürən arasında yaş fərqi

Övladlığa götürən şəxs nikahda deyilsə, onunla övladlığa götürülən uşağın yaş fərqi 16-dan az olmamalıdır. Məhkəmə tərəfindən üzrlü hesab edilən səbəb olduqda, yaş fərqi qısaldıla bilər.

Ümumiyyətlə Azərbaycanda uşaq hüquqlarının müdafiəsi və ölkələrarası övladlığa götürmə Azərbaycan Respublikasının Konstitusiyası, Ailə Məcəlləsi, Mülki Prosessual Məcəllə müvafiq qaydada tənzimlənir.

## Azərbaycan Respublikasında ölkələrarası övladlığa götürmə prosessinin həyata keçirilmə qaydaları



Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 20 sentyabr tarixli 172 nömrəli qərarı ilə təsdiq edilmiş “Valideyn himayəsindən məhrum olan və övladlığa

götürülən uşaqların uçot qaydaları uşaqları övladlığa götürməni arzu edən əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin uçot qaydasına əsasən valideyn himayəsindən məhrum olan uşaqların uçotunu yerli icra hakimiyyətlərinin qəyyumluq və himayə orqanları mərkəzləşdirilmiş uşotunu 3 yaşından yuxarı olan uşaqlar üzrə isə Azərbaycan Respublikasının Təhsil Nazirliyi aparır.

Azərbaycan Respublikası Mülki Prosessual Məcəllənin 350-ci maddəsinə görə məhkəmələr uşağı övladlığa verərkən uşağın sonrakı taleyinə nəzarət etməklə bağlı tələblər qoyurlar. Belə ki, uşağı övladlığa götürən ailə, Ailə Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin tələbi ilə 3 il ərzində hər 6 aydan bir olmaqla ildə iki dəfə uşağı həyat və şəraiti, inkişafı, təhsili və s. barədə məlumatları hesabat formasında Komitəyə təqdim etməlidirlər. Bu hesabatlarda həmin uşaqların həyat tərzini, yaşayışını özündə əks etdirən foto şəkillər, video görüntülər və rəsmi orqanlara bu uşaqların sağlamlığı həyatı və s. haqqında sənədlər daxil olur ki bunula da həmin uşaqlar barədə məlumatların olması təsdiqlənir.

## Erkən nikahlar və ailənin kəbin əsasında qurulması: hüquqi problemlər

Ailə Məcəlləsinin müvafiq maddəsinə görə Azərbaycan Respublikasında nikah yaşı kişilər üçün18, qadınlar üçün 17-dir. Lakin üzrlü səbəb olduqda nikah yaşı 1 il azaldıla bilər. Qanunvericilkdə belə norma nəzərdə tutulsa da lakin real hətta təəssüf ki, bəzi hallarda biz bunun tam əksini görürük. Çox vaxt xüsusilə qızlar erkən nikaha daxil olurlar çox vaxt bu ya sosial durumdan ya da lokal adətlərdən irəli gəlir. Xüsusilə də regionlarda daha konkret Cənub regionunda qızlar daha erkən hətta 13-14 yaşında ərə verilir. Bu zaman onların təhsil hüququndan tutmuş demək olar ki, əksər hüquqları tapdalanır. Lakin burada dövlət təəssüf ki, müdaxilə edə bilmir. Belə hallar çoxdur və mənim fikrimcə bu vəziyyətin qarşısı alınmalıdır. Bu yaxınlarda www.gender-az.org saytında gedən məlumata görə, Səudiyyə Ərəbistanında 8 yaşlı qızın 50 yaşlı kişiyə ərə verilməsi ilə bağlı beynəlxalq ictimaiyyət rəsmən etiraz bildirmiş və nəhayət ölkə bu qədər erkən hətta uşaq yaşında qızın ərə verilməsinin qarşısını almaq üçün, öz qanunvericiliyində dəyişklik etməli olmuşdur. Əslində bəzi müsəlman dövlətlərində dini nikah əsas sənəd kimi qəbul olunduğundan, yaş məhdudiyyəti olmur. Amma, Azərbaycan dünyəvi dövlətdir və bu ölkədə əsas sənəd dövlətin qeydiyyata aldığı nikahdır ki, burada qanuna görə qoyulan əsas şərtlərdən biri də məhz yetkinlik yaşına, yəni 18 yaşına çatmaq vacib şərtlərdəndir. Azərbaycanda erkən nikahlar regionlarda xüsusilə, Cənub Regionunda: Lənkəran, Astara və Masallı rayonlarında daha geniş yayılıb. Erkən nikahların yaratdığı fəsadlar çoxdur və onlardan biri də hüquqi problemlərdir. İlk növbədə erkən ailə qurmuş qızlar təhsildən kənarda qalır.

İkincisi bu nikah dövlət tərəfindən qeydə alınmır. Çünki, yaş məhdudiyyəti var və çox vaxt dini, yəni kəbin kəsmə ilə edilir. Digər problemlər uşaq dünyaya gələn zaman yaranır: Birinci, bu uşaq ailəsinin ata-anasının rəsmi nikahı olmadığı üçün qeydiyyat problemi yaranır. Yəni, uşaqla bağlı şəhadətnamədə ananın adı yazılır. Bu həm uşağın doğulduğu tibb müəssisəsində, əgər uşaq tibb müəssisəsindən kənarda doğulubsa, doğuma kömək göstərmiş həkimin sənədi əsasında müvafiq icra hakimiyyəti orqanın qeydiyyat şöbələri tərəfindən, əgər o da olmazasa şahid ifadələrinə əsasən məhkəmə tərəfindən müəyyən olunur. Ancaq, atalığın müəyyən olunması şəxsin özü və ya uşağın anası tərəfindən məhkəməyə ərizə verilərək, müəyyən olunur. Əgər ailə dağılar və tərəflər ayrılmaq istəyərsə, daha bir hüquqi problem, tərəflər arasında mülkiyyətin bölüşdürülməsi ilə bağlı yaranır. Belə ki, qadın hər bir halda əldə heç nə etməyən, ayrılmış, heç bir yerdə qeydiyyatı olmayan və uşaqlarını saxlamaq üçün təhsili olmayan tərəf olur. Ümumiyyətlə, erkən nikahlar və onun doğurduğu hüquqi fəsadlar çoxdur. Qadın erkən yaşda ailə qurduğu üçün orqanizm hələ uşaq olarkən uşaq dünyaya gətirir. Bu da həm ananın, həm də uşağın səhhətinə mənfi təsir edir. Ən pis halda ölüm riski çoxalır. Bu, həm də sağlamlıq hüququnun pozulması deməkdir. Tez ailə quran qızlar ailədə də zorakılığa, digərlərinə nisbətən daha çox məruz qalır və yoxsulluğa məhkum ola bilirlər. Bir sözlə, erkən nikah bir-birinə bağlı xoşagəlməz hadisələr zənciridir. Lakin, biz qadınlar xüsusilə maarifləndirmə yolu ilə, bu halların qarşısını tam ala bilməsək də, nə isə əldə edə bilərik. Əks halda cəmiyyətimizdə çoxlu sayda savadsız, öz hüququnu bilməyən xəstə analar və onların dünyaya gətirdiyi uşaqlar çoxala bilərlər. Doğrudur, burada faiz o qədər dəhşətli deyil. Amma, faktlar var və məncə belə faktlar kifayət qədərdir. Hətta, bəzi regionlar vardır ki, burada 18 yaşlı qıza el arasında “qarımış qız” deyə də xitab edirlər. Halbuki, bu qız yetkinlik yaşına yeni çatıb. Bu sterotipləri bir günə və ya bir ilə yıxıb atmaq olmaz. Amma, KİV vasitəsi ilə, regionlarda qadın və qızlar arasında, hüquqi maarifləndirmə tipli işlərin görülməsilə tədricən belə problemləri qismən də olsa həll etmək olar. Əslində yuxarıda sadaladıqlarım erkən nikahlar və onların acı fəsadları, sabah cəmiyyətimiz üçün çox ağır və həll olunması müşkülə çevrilən problemlər yarada bilər. Bunun üçün təkcə dövlət yox, eləcə də qadın hüquqları, gender məsələləri ilə məşğul olan QHT-lər birlikdə işləməli və problemin böyüməsinə imkan verməməli və son nəticədə bütöv cəmiyyət böyük rəqəmləri minimuma endirməyi bacarmalıdır.

Nikah yaşının aşağılığı, özəlliklə kişi və qadınlar üçün onun fərqli olmasını zaman-zaman beynəlxalq təşkilatlar insan hüquqları baxımından mənfi qiymətləndiriblər.



Erkən nikah qanunvericiliyin müəyyən etdiyi minimal yaşın həddini keçmədən qurulan bütün ailələri əhatə edir. Qanunvericilikdə yaş həddi on səkkizdir.

Belə ailələrin sayı konkret bilinməsə də, dövlət rəsmilərinin, bu sahə ilə məşğul olan Qeyri Hökumət Təşkilatarının dilə gətirdikləri narahatlıqlar sayın hədsiz çox olduğunu yazmağa əsas verir. (UNİCEF-in Azərbaycanda həddi-buluğa çatmayanlar arasında nikahların sayının artmasından narahatlıq ifadə edən hesabatında bildirilir ki, Azərbaycanda aparılan araşdırmalar bu təbəqədə hər səkkiz nəfərdən birinin on səkkiz yaşına çatmamış evləndiyini və ya ərə getdiyini göstərir)[1].

Nikahda iki tərəf – kişi və qadın iştirak etsə də, "erkən nikah" dedikdə beyinlərdə qız uşaqlarının yetkinlik yaşına çatmamış ərə verilməsi canlanır. Bu əlbəttə təsadüfi deyil. Çox təəssüf ki, Ailə Məcəlləsinə qızların nikah yaşı ilə bağlı təklif edilən dəyişiklər qəbul edilsə belə, vəziyyətin düzələcəyi haqda yekdil və qüvvətli inam yoxdur. "Qanunvericilikdə yaş həddini artırmaqla erkən nikahın qarşısını almaq qeyri-mümkündür. Bunun üçün azyaşlıların təhsildən yayındırılmasına və erkən nikahların yaranmasına səbəb olan problemlər aradan qaldırılmalıdır. Bu problemlər ilk növbədə sosial sfera ilə bağlıdır. Ailələrdə işsizlik aradan qaldırılmasa, ailə büdcəsinin gəlirləri tələbata uyğun səviyyədə artmasa, erkən nikah problem olaraq qalacaq. Belə halda nikah üçün yaş həddini 20-yə də qaldırsaq, heç bir nəticəsi olmayacaq. Bu halda da qeyri-rəsmi və erkən nikahların sayı artacaq. Ona görə, biz qanunlarımızı hansısa ölkənin qanunvericiliyinə uyğunlaşdırmaq əvəzinə, sosial problemlərin aradan qaldırılmasına çalışmalıyıq".

Bəzi deputatlar qanunvericilikdə sərt dəyişikliklər etməyin tərəfdarıdır və inanır ki, belə olan halda daha effektiv nəticə əldə etmək realdır: "... burada valideynlərin məsuliyyəti də çox böyükdür. Övladlarını təhsildən yayındıran valideynlər ciddi məsuliyyət, o cümlədən cinayət məsuliyyəti daşımalıdır. Valideynlər anlamalıdırlar ki, övladlarını təhsildən ayırmaqla, məcburən ərə verməklə onların hüquqlarını pozurlar və bu qanun pozuntusu məhz cinayət məsuliyyətilə tənzimlənməlidir".

Əvvəllər erkən nikahların respublikanın cənub rayonları üçün spesifik olduğu düşünülsə də, indi onun sərhədləri şimal rayonlarına qədər xeyli genişlənib. Hələlik qərb rayonları bu tendensiyadan özünü müəyyən qədər qoruya bilir. Təsirli tədbirlərin olmayacağı təqdirdə yetkinlik yaşına çatmadan ailə qurmaların bu ərazidə də vüsət alacağı şəksizdir.

Erkən nikahların yaranması sırasında hər nə qədər sosilal-iqtisadi amillər qabardılsa da, burda mövhumat və feodal ənənələrin təsiri danılmaz üstünlüyə malikdir.

TQDK sədri Məleykə Abbaszadənin inanclı insanların çoxluq təşkil etdiyi rayonlar haqqında dediyi "Cənub rayonlarında ali məktəblərə sənəd verən abituriyentlərin cəmi 10 faizini qızlar təşkil edir[2].

---

**1. www.genderbasedviolence.az.**
**2. http://www.ayna.az/2009-12-26/cemiyyet/1612-TQDK-yekun-gender.**

Yardımlı rayonunda ötən il 479 abituriyent sənəd verib, onların yalnız 45-i qız olub. Lerikdə isə 469 abituriyentdən 81-i qızlardı” kimi fikirləri də elə belə qatlayıb kənara qoymaq olmaz.Köhnə ənənələrin dirçəlməsi də erkən nikahlara oksigen balışı kimi təsir edib. Gerilikçi düşüncədə olan bir çoxları hesab edir ki, qızlar “ayılmadan” ərə getməlidir, onların formalaşması ərin sərt nəzarəti altında baş verməldir. Sanki valideynlər qız uşaqlarının məsuliyyətini tezliklə çiyinlərindən ər evi üstünə atmağın əzabını yaşayırlar. Guya ki, yetkin qız bir az özü ilə baş-başa qalsa, nəsə xata çıxarda bilər. Erkən nikahlara meyillərin belə artdığı vaxtda “madam ki, xalqın bu qədər istəyi var, ona qarşı çıxmağa dəyərmi” bir sual kimi ola bilsin, aktuallıq qazanıb. Ona görə “nə üçün erkən nikahlara qarşı çıxılır sualını” aydınlaşdırmalıyıq. Lap sadə, ancaq ciddi səbəblərdən birincisi odur ki, erkən nikah fizioloji olaraq qadınların istismar edilməsi, onun tükəndirilməsidir. Həmin yaş həddində orqanizm törətmək potensialında olsa da, hələ formalaşma tam başa çatmayıb. Buna görə hormonal sistem pozğunluğu baş verir, nəticədə gənc ana bir sıra daxili problemlərlə, eləcə də vaxtsız qocalma ilə baş-başa qalır. İstisnaları çıxmaq şərti ilə mütəxəssislər erkən yaşda ana olmuş qadınların yeni missiyaya psixoloji hazırlığının aşağılığını da vurğulayırlar. Bu isə cəmiyyət üçün yetişdiriləcək fərdin normal tərbiyə-təlimdən məhrum edilməsinə yol açır. Ən nəhayət, 13-16 yaşda olan qızların insan haqqı var ki, ömürlərinin bu müddətini bir başa özlərinə, təhsillərinə, əyləncələrinə sərf edib, bu dövrdə ailənin nə olması haqda heç olmaya nəzəri biliklərə yiyələnsinlər. Erkən nikah qızların ali təhsil almasında da mənfi rol oynayır. Lakin, kiminsə ali təhsil almaq üçün biliyi və həvəsi yoxdursa, bu qətiyyən “daha nə gözləyirsən, çıx ərə get” əmrinə uymasına səbəb ola bilməz. Ona görə bəzən tək təhsil məsələsini əsas tutub erkən nikahın üzərinə gedənlərin əks cəbhə tərəfindən tərki-silah edilməsi asan olur. Erkən nikahın hazırda cəmiyyətimizin problemə çevirildiyini danmaq olmaz. Lakin, o qətiyyən qarşısında əli-qolu sallaq vəziyyətdə durduğumuz problemlərdən deyil. Yaxın tarix sübut edir ki, ölkədə ciddi şəkildə qanunun aliliyini və işləkliyini təmin etməklə, maarifçilik və vətəndaş məsuliyyətini artırmaqla bu problemə əlvida demək mümkündür.

Məsələn belə hadisələri onlarladır. Onu ərə verəndə 15 yaşı təzəcə tamam olmuşdu. Fikrində yalnız məktəbi qurtarmaq, tanıdığı qızlardan fərqli olaraq ali təhsil almaq, həyatda özünü təsdiq etmək idi. O, məhz bu arzularla yaşayır, böyüyürdü. Amma bir gün bütün bu arzuları məhv olur. Bundan sonra o nə məktəbi bitirəcək, nə ali təhsil alacaq, nə də istədiyi mövqe tuta biləcəkdi. O, fərqlənmək istədiyi həmin qızlardan biri olacaqdı. Sıradan bir evdar qadın. Kəmalə (bütün adlar şərtidir – X. M) Masallı rayonunun X. kəndində (kəndin adı gizli saxlanılır) anadan olub, elə oradaca yaşayırdı.

Tezliklə məktəbi qurtarıb Bakıya gəlmək və burada institutların birində təhsilini davam etdirmək fikrində idi. Amma yuxarıda qeyd etdiyimiz kimi, onun bu arzusu gözündə qalır. Bir gün evə qayıdanda onun razılığını almadan, fikrini belə soruşmadan onu qonşuluqda yaşayan özündən 10 yaş böyük Samirlə nişanladıqları xəbərini eşidir. Artıq edəcək heç nə qalmamışdı. Babalar işi düzüb qoşmuşdular. Sevginin, ailənin nə olduğunu bilməyən Kəmalənin "əmrə" tabe olmaqdan, bu qərara boyun əyməkdən başqa əlacı yox idi. Doğru-düzgün tanımadığı, heç üzünə də baxmadığı Samirə ərə getməli idi. Adət-ənənədən kənara çıxmamalı idi. Beləcə, 15 yaşı tamam olan kimi onların toyu olur. Ancaq toydan sonra heç də hər şey valideynlərinin gözlədiyi kimi olmur. Kəmalə mütəmadi olaraq əri tərəfindən döyülür, müxtəlif növ zorakılıq hallarına məruz qalır. Bunu görən Kəmalənin atası ailədə münaqişənin qarşısını almaq və yardım etmək məqsədilə onlar üçün ev də tikməli olur. Lakin bu da baş verəcəklərin qarşısını ala bilmir. Kəmalə 6 il ərzində ərinin bütün zülmlərinə dözərək valideynlərinə heç bir şikayət etmir. Bir çox Azərbaycan qadınları kimi susaraq dözür. Yəqin elə sükutlar, cəzasızlıq Samiri daha da qudurdur. 2009-cu ildə ailə münaqişəsi kəskinləşərək özünün pik nöqtəsinə çatır. Avqustun 18-də Kəmalə valideynlərinə zəng edərək, bir neçə gündür onlarda qalan övladlarını görmək istədiyini deyir. Ana qızının səsindən sanki nəsə sezir. Evə çatanda qapının arxasından ağlamaq səsi eşidir. Zorla qapını açdırıb içəri girərkən qızının boynunda və əlində bıçaq yarası olduğunu görür. Belə ki, Kəmalə ərinin inəyi satmaq istəyinə etiraz etdiyi üçün onun qəzəbinə səbəb olub. Hətta o dərəcədə hirslənib ki, əri onun başını kəsmək istəyib. O isə yalvararaq, ona rəhm etməyi, heç olmasa sonuncu dəfə uşaqlarını görməyə icazə verməyi xahiş edib. Kəmalənin anasına zəng vurub uşaqları görmək istəməsinin səbəbi elə burdan qaynaqlanırmış. Bundan bir gün sonra avqustun 19-da axşam radələrində isə ağlasığmaz hadisə baş verir. Samir bəlkə də indiyədək görülməyən, insanlığa sığmayan bir vəhşilik törədir. 8 aylıq hamilə olan arvadından onunla cinsi əlaqədə olmağı tələb edir. Kəmalə həkimin ona hazırda cinsi əlaqəyə girməyi qadağan etdiyini deyəndə yenə mübahisə başlayır. Səhər saat 6 radələrində Samir həyat yoldaşını yuxudan oyadaraq onu xəyanətdə suçlayır, hətta uşağın da ondan yox, kənd məscidinin mollasından olduğunu deyir. Heç nə anlamayan bədbəxt qadın ərinə yalvarmağa başlayır. Lakin gözü dönmüş kişi arvadının göz yaşlarına, yalvarışlarına məhəl qoymadan onu vəhşicəsinə döyməkdə davam edir. Daha sonra isə arvadının hər iki əlini çarpayının dirsəklərinə bağlayır. O, əlini qadının cinsi orqanına salıb, hələ dünyaya gəlməyən günahsız körpəni ana bətnindən çıxarmağa cəhd göstərir. Ən acınacaqlısı da odur ki, bu hadisə onların 6 və 5 yaşlı övladlarının gözü qarşısında

baş verir. Uşaqların, ananın qışqırıq, ağlamaq səslərini eşidən qonşular qapını sındıraraq otağa daxil olur və Kəmaləni çarpayıda əlləri bağlı qan içində görürlər. Onu təcili olaraq xəstəxanaya çatdırırlar. Lakin artıq gec idi. Həkimlərin müdaxiləsi zamanı məlum olur ki, uşaq sağ olsa da, ananın məruz qaldığı işgəncələr zamanı şikəst edilib, qolu sındırılıb, başı əzilib, gözü çıxıb. Belə zədələrlə anadan olmuş uşaq 2 saat ağlayıb çığırdıqdan sonra vəfat edir. Belə dəhşətli bir hadisədən sonra Kəmalənin özü və valideynləri polisə şikayət etmədiyi üçün Samir kənddə hələ də azad gəzib-dolaşırmış. Yalnız hadisədən 22 gün sonra əlində balta qayınatasının evinə gələrək, "arvadımı və uşaqlarımı verin" – deyə tələb etdikdə hüquq mühafizə orqanlarına şikayət edilib. Bu il yanvarın 25-dən məhkəmə prosesi başlayıb. Kəmalənin "Təmiz dünya" təşkilatı tərəfindən təyin olunan müdafiəçisi Gülayə Səfərovanın Lent.az-a verdiyi məlumata görə, son məhkəmə prosesində təkrar ekspertiza keçirilməsi üçün vəsatət qaldırılıb: "Ekspert rəyi oldu ki, guya kişi anlaqsız vəziyyətdə olub. Ancaq şahidlərin və qızın özünün dediklərinə əsasən onun anlaqsız vəziyyətdə olması şübhə doğurduğu üçün təkrar ekspertizaya göndərilməsi üçün vəsatət qaldırdıq. Vəsatət qəbul olundu. Bizim özümüz də rayona sorğular göndərmişik. Ekspertin təkrar rəyindən sonra növbəti məhkəmə prosesi olacaq".

Bu da erkən nikahın qurbanı olanlardan birinin acınacaqlı həyatı. Hər halda bu cür hadisələr barmaqla sayılası qədər az deyil. Rəqəmlər də göstərir ki, Azərbaycanda erkən nikahların sayı azalmaqdansa, artmağa doğru gedir. Dövlət Statistika Komitəsinin məlumatına əsasən, ötən il erkən nikaha (18 yaşa qədər) daxil olan qadınların sayı əvvəlki ilə nisbətən 10,4 faiz artaraq 6,9 faizə çatıb[1].

Ağsu, Şamaxı, Qəbələ, Göyçay, Hacıqabul, Siyəzən, Quba, Zərdab, Masallı rayonlarında erkən yaşda nikaha daxil olan qadınların sayı digər rayonlara nisbətən daha çoxdur. "O qızlarda analıq hissi yerli-dibli inkişaf etmir". Cənub bölgəsində erkən yaşda ərə verilən qızların müraciətləri daha çox üstünlük təşkil edir. Başqa bir misal: Qızın hələ 13 yaşı tamam olmayanda onu nişanlamışdılar. Amma qızda təbii menstruasiya prosesi başlamadığına görə, hər iki tərəf hələ toy etmirdi. 14 yaşında bu proses baş verdi. Ondan sonra ailə qurdular. İki il ərzində qızda hamiləlik baş vermədi. Sonra hamilə qaldı və çox ağır gedişli hamiləliyi oldu. Hamiləliyini heç sona çatdıra bilmədi. 8 ayında uşaq doğulub öldü. Qızın özünün vəziyyəti də çox ağır idi və güclü stress keçirmişdi. Bundan sonra ailədə böyük qalmaqal yaşandı. Nəticədə qızı atası evinə qovdular. Bizə müraciət edəndə artıq 18 yaşı vardı. Ərindən ayrılmaq istəyirdi. O zaman məlum oldu ki, ayrılmağa heç ehtiyac da yoxdur. Çünki ümumiyyətlə, kə-



**1. www.azstat.org.**

binləri olmayıb. Qıza hüquqşünas kömək etməli oldu. Amma nə qədər kömək etsə də, məsələ qızın istədiyi qədər xeyrinə həll olunmadı. Evdən pay ala bilmədi. Məlum məsələdir ki, erkən nikahların heç birində rəsmi dövlət nikahı olmur. Əksər ailələr söz verirlər ki, vaxtı çatan kimi nikah bağlanacaq. Amma o yaş gəlib çatanda heç yada da düşmür və beləcə illər keçir". Ərə getmək üçün qızların orqanizmi müəyyən qədər formalaşmalı, endokren orqanlar öz funksiyasını tamamlamalıdır. Bu baxımdan hələ 17 yaşı tamam olmayan bir qız ərə gedən zaman orqanizmdə reproduktiv funksiyanı yerinə yetirən, bir başa beyinlə əlaqədar olan endokren orqanlar öz funksiyasını hələ tam şəkildə başa çatdırmamış olur. Ona görə də belə qızlarda bir sıra fəsadlar üzə çıxır: Məsələn, 10 ildən sonra həmyaşıdları ilə müqayisədə belə qızlar xeyli yaşlı görünürlər. Hamiləliyi erkən taksikoz və başqa bir sıra fəsadlarla müşayiət olunur. Doğuş zamanı qanaxmalar çox rast gəlinən patologiyalardan biridir. Doğuşu həyata keçirən həkim də başa düşməlidir ki, bu, digər doğuşlardan daha artıq məsuliyyətli, ciddi işdir. Bir neçə dəfə bu faktla da qarşılaşmışıq ki, o analar dünyaya gətirdikləri uşaqlara qarşı həddsiz dərəcədə laqeyd olurlar. Bu, hətta ətrafdakılara da qəribə görünür. Tibb bacısı uşağı anaya təqdim edəndə əli ilə körpəni kənara tullayır ki, "başım ağrıyır, halım yoxdur, sonra gətirərsiniz". O, sadəcə olaraq, uşağa yaxın durmaq, üzünə belə baxmaq istəmir. Özü hələ uşaq olan, gəlinciklərlə oynamaqdan doymayan bir insanın özünün övladı dünyaya gələndə o uşaq ona artıq kimi görünür. Analıq hissini qətiyyən dərk etmirlər. O qızlarda analıq hissi yerli-dibli inkişaf etmir. Analıq hissinin inkişafı üçün qadına müəyyən yaş həddi lazımdır. Həmin yaş həddi yetişmədiyinə görə, ana olmaq onlar üçün psixoloji zərbədir. Başqa bir misalda: Yeni doğulmuş uşağını hər yanına gətirəndə ana ağlayır və deyirdi ki, "bir də o uşağı gətirsəz, ya onu öldürəcəm, ya da özümü. Mən onu görmək istəmirəm. Qısa və konkret". Doğum evindən çıxanda da uşağı qaynanasına təhvil verdilər. Qız qabaqda gedirdi, uşağı isə arxada aparırdılar. Erkən yaşda ərə gedən qızların ana olması onlar uçün birbaşa psixoloji zərbədir. Sonrakı mərhələdə də aydındır ki, uşağa normal baxa, qulluq edə bilmirlər". Mama-ginekoloq fizioloji və psixoloji baxımdan qızların ailə qurması üçün ən yaxşı yaş həddinin 20-30 yaş arası olduğunu vurğulayır.

"Bir neçə ildən sonra o, ərini bir qadın kimi də maraqlandırmaya bilər"

Psixoloq Azad İsazadə isə erkən nikahların psixoloji yöndən hansı fəsadlar törədəcəyindən söhbət açdı. Onun sözlərinə görə, insan olaraq fizioloji, bioloji daha tez inkişaf edirik. Arxasınca isə insanın psixikası, psixologiyası formalaşır: "İstər oğlan, istərsə də qız bioloji cəhətdən daha tez ana-ata ola bilir. Psixoloji baxımdan isə hələ vaxt lazımdır ki, bir insan kimi tam formalaşaq, böyük adam olaq. Bu baxımdan hesab edirəm ki, erkən nikahla ailə qurmağa hazır olmayan insanı faktiki bunu etməyə məcbur edirik. İkincisi, onlar hələ tam real qərar qəbul edə bilmirlər. Deməli, onların

əvəzinə kimsə qərar qəbul edir. Bu kimsə adətən ata-ana olur. Demirəm ki, ata-ana pis qərar qəbul edəcək. Amma razılaşaq ki, bu, insanın öz həyatıdır və onun öz həyatında heç olmasa hansısa düşünülmüş formada iştirak etməyə ehtiyac var. Bu baxımdan mən tam razıyam ki, erkən nikahların sonradan "N" qədər fəsadları çıxır. Qız uşağı ərə gedərkən onda heç emosiyalar da oyanmır. Ərə gedəndən 5-6 il sonra tam formalaşanda ona sevgi də gələ bilər. Mütləq deyil ki, bu sevgi həyat yoldaşına qarşı olacaq. Hansısa ayrı adama yox. Bu da sabah real böyük problemlərə gətirib çıxarır". Psixoloq erkən ərə gedən qızların ana olan zaman öz uşaqlarına qarşı laqeyd yanaşmasının real problem olduğunu deyir: "Çünki onun özü hələ uşaqdır. Ana ilə uşaq arasında 14-15 yaş fərq olur. Bacı-qardaş arasında da belə fərq ola bilər. Həm də onların emosiyası da tam böyük insanın emosiyası deyil. Onlar üçün orta rəng yoxdur. Həyat ya qara, ya ağ, yaxşı, ya da pisdir. Ona görə də reaksiyaları bəzən çox kəskin olur. O cümlədən öz uşaqlarına qarşı. Bu cür ailələrdə hətta ər-arvad arasında da problem yaranır. Çünki bir müddətdən sonra belə qadın artıq ərinə maraqlı olmur. Nə məktəbi normal qurtarıb, nə institutda oxuyub, nə də özülə məşğul olub. Ərə gedən kimi uşaq doğub, uşağa baxıb. Sözsüz ki, bir neçə ildən sonra o, ərini bir qadın kimi də maraqlandırmaya bilər. Bunun özü də problemdir."Bu cür problemlərin ciddi psixi pozğunluğa gətirib çıxara biləcəyini vurğulayan Azad İsazadənin sözlərinə görə, sırf psixoloji cəhətdən ailə qurmaq üçün 30 yaş və bir az çox optimal sayılır. Amma: "O zaman fizioloji baxımdan problemlər çıxır, qadının hansısa xəstəlikləri yarana bilir. Sonra uşağı tam böyüdüb boya başa çatdırmaq qabiliyyətində olmur. Bütün amilləri nəzərə alsaq, 19-25 yaşa qədər optimal hədd sayılır. Ancaq sırf psixoloji baxımdan 30 yaş yaxşı ola bilər. Çünki artıq o yaşda ana bir insan kimi tam formalaşır". Qanunların təkmilləşdirilməsi və möhkəmlənməsi problemin həllinə 60-70 faiz kömək edə bilər "Milli Məclisin Sosial Siyasət Komitəsinin üzvü, millət vəkili Məlahət Həsənovanın sözlərinə görə, Azərbaycanda erkən nikaha getmə halları var, lakin, bu rəqəm çox deyil: "Hər halda bir faktın olması da XXI əsrdə yaşayan hər bir ziyalı üçün xəbərdaredici siqnaldır. Ona görə də bu hadisənin artmaması, qarşısının alınması üçün əlimizdən gələn hər bir şeyi – ictimai səfərbərlikdən, ictimai qınaqdan tutmuş qanunlarımızın təkmilləşməsinə və möhkəmlənməsinə qədər bütün işlər görülməlidir. Erkən nikah elə məsələdir ki, ən ciddi, ağır cəza da tətbiq olunsa, bu yolla qarşısını almaq qeyri-mümkündür. Biz maarifləndirmə, bölgələrdə, ictimaiyyət arasında güclü təbliğat aparmalıyıq. XXI əsrdə yaşayırıq. Qızlarımıza yüksək təhsil almaq üçün imkan yaratmalıyıq. Qızlarımız da oğlanlarımızla bərabər inkişaf etməlidir. Bu gün qadın-kişi hüquqlarının bərabərliyindən danışırıq, qadınlara bərabər imkanlar, bərabər nəticələr verilməsini tələb edirik. Amma qızlarımız təhsildən yayınıb erkən nikaha gedirsə, bundan necə danışa bilərik. Ona görə də biz bununla bağlı bütün istiqamətlərdə işimizi gücləndirməliyik".



# QADINLARIN SAĞLAMLIQ HÜQUQU

## Sağlamlığının vəziyyəti barədə vətəndaşların məlumat almaq hüququ

Hər bir vətəndaş müayinənin nəticəsi, xəstəliyin diaqnoz və proqnozu, müalicə üsulları və bununla bağlı risk dərəcələri, aparılmış müalicənin nəticəsi haqqında məlumatlar da daxil olmaqla sağlamlığının vəziyyəti barədə Özü üçün səmərəli formada məlumat almaq hüququna malikdir. Vətəndaşın sağlamlığının vəziyyəti barədə məlumat onun özünə, qanunvericilikdə müəyyən edilmiş qaydada fəaliyyət qabiliyyəti olmayan hesab edilən şəxslərin və ya yetkinlik yaşına çatmayanların sağlamlıqlarının vəziyyəti barədə məlumat isə onların valideynlərinə və ya qanuni nümayəndələrinə müayinə və müalicədə bilavasitə iştirak edən mütəxəssislər tərəfindən verilir. Xəstəliyin inkişaf proqnozu mənfi olduqda bu barədə məlumat xəstənin yaxın qohumlarına və ya qanuni nümayəndələrinə, xəstə tələb etdikdə isə bu məlumat ehtiyatlı formada onun Özünə çatdırıla bilər. Vətəndaş onun sağlamlığının vəziyyətini əks etdirən tibbi sənədlərlə bilavasitə tanış olmaq və onlarla bağlı başqa mütəxəssislərdən məsləhət almaq hüququna malikdir. Vətəndaşın tələbi ilə ona sağlamlığının vəziyyətini əks etdirən tibbi sənədlərin surətləri təqdim olunur.

## Süni mayalanma və embrionun implantasiyası

Yetkinlik yaşına çatan hər bir qadının süni mayalanma və ona embrionun implantasiyası hüququ vardır. Süni mayalanma və embrionun implantasiyası ər və arvadın (tənha qadının) rəsmi razılığı olduqda aparılır. Süni mayalanma, embrionun implantasiyası, eləcə də donorun şəxsiyyəti həkim sirridir. Qadın süni mayalanmanın, embrionun implantasiyasının tibbi və hüquqi nəticələri, tibbi-genetik müayinə donorun milliyyəti, xarici görkəmi barədə məlumat almaq hüququna malikdir və bu məlumat tibbi müdaxilə aparan həkim tərəfindən verilir. Qanunsuz süni mayalanmada və embrionun implantasiyasında təqsiri olan şəxslər qanunvericilikdə müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar.

## Hamiləliyin süni surətdə pozulması

Hər bir qadının analıq barədə məsələni təkbaşına həll etmək hüququ vardır. Hamiləliyin süni surətdə pozulması qadının arzusu ilə hamiləliyin 12 həftəlik müddətinədək aparılır. Sosial göstərişlər üzrə süni pozulma hamiləliyin 22 həftəliyinədək aparıla bilər. Tibbi göstərişlərə əsasən və qadının razılığı olduqda hamiləlik, müddətindən asılı olmayaraq, süni surətdə pozula bilər. Hamiləliyin süni surətdə pozulması dövlət və qeyri-dövlət tibb müəssisələrində ixtisaslı həkimlər tərəfindən aparılır. Hamiləliyin

süni surətdə pozulmasına dair tibbi və sosial göstərişlərin siyahıları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyənləşdirilir. Həkim tərəfindən xəstəxanalardan və ya başqa tibb müəssisələrindən kənarda hamiləliyin süni surətdə pozulması qadağandır.

## CƏMİ 50 FAİZ KÖRPƏSİNƏ ANA SÜDÜ VERİR

Statistik rəqəmlərə görə, Azərbaycanda hazırda 50 faizə yaxın ana 1 yaşına qədər körpəsinə ana südü verir. 1992-ci ildəsə bu rəqəm 25 faiz olub:[1]

«Dünyada ana südünün əvəzedicisi yoxdur. Alimlər süni olaraq ana südü yaratmağa cəhdlər eləsələr də, bu mümkün olmayıb, bundan sonra da olmayacaq. Çünki ana südü canlı orqanizmdə yaranır. Ana südü alan uşağın böyümə və inkişafı normal getməklə bərabər onu xəstəliklərdən də qoruyur. Tibdə belə bir ifadə var ki, körpələrin ilk peyvəndi ağız südüylə baş verir. Dünyada çoxdan sübut olunub ki, ana südüylə qidalanan uşaqların intellektual və fiziki sağlamlıq göstəriciləri digərlərindən dəfələrlə yüksək olur».Uşağına süd verməyən 50 faizin tərkibinə aiddir.

## Qadın və QİÇS (Qazanılmış İmmun Çatışmazlığı Sindromu)

İnsanın immunçatışmazlığı virusunun törətdiyi xəstəliklə mübarizə haqqında

Azərbaycan Respublikası 11 may 2010-cu il Qanunun da QİÇS xəstələrinin hüquqları təsbit olunmuşdur.

BMT-nin HİV/AİDS üzrə birgə sProqramının (UNAİDS) və Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) məlumatına görə təkcə 2007-ci il ərzində dünyada 2,5 milyon insan HİV-ə yoluxmuşdur və hal-hazırda dünyada HİV/AİDS-lə yaşayan insanların sayı 33,2 milyon təşkil edir. HİV/AİDS-li xəstələrin ömrünü uzadan antiretrovirus terapiyasının tətbiqi nəticəsində AİDS-dən vəfat edən insanların sayı son iki il ərzində azalmış və 2007-ci ildə 2,1 milyon nəfər təşkil etmişdir.

Statistik məlumatlar göstərirlər ki, qadınlar İİV-ə kişilərə nisbətən daha tez yoluxurlar. İİV/QİÇS hamıya aiddir və hər kəs ona yoluxa bilər.

***Qeyd:*** *AİDS inglis dilində Acquired İmmune Deficiency Syndrome deməkdir və sözlərin baş hərfləri götürülüb. Azərbaycan dilində tərcümədə Qazanılmış İmmun Çatışmazlığı Sindromu deməkdir və QİÇS olaraq qısaldılır.*

---

**1. http://anayam.az/content.php?page=123&nid=97.**

*İnglis dilində HİV – human immunodeficiency virus, azərbaycan dilində İİV – insanın immunmçatışmazlığı virusu deməkdir.*

## Qadın alveri QİÇS-in artmasını sürətləndirir

Ölkədə qadın alveri digər dəhşətli bəlanın – QİÇS xəstəliyinin artmasına rəvac verir. Azərbaycan eyni zamanda xarici ölkələrdən deportasiya edilmiş fahişələrin və QİÇS-li xəstələrin tranzit xəttdir. Bu il təkcə Türkiyə sərhədlərində tutulmuş qadının nəyə görə məhz Azərbaycana deportasiya edilməsi də maraq doğuran sualdır. Xarici ölkələrdən Azərbaycana deportasiya edilən fahişələrin tibbi müayinədən keçmədən sərbəst buraxılması bu daşıyıcıların sayının günü-gündən artmasına səbəb olur.

1988-ci ildə təsis edilmiş QİÇS (AİDS) günü bu il artıq 21-ci dəfə keçirilir.

## Qadınlar İİV-ə necə yoluxa bilərlər?

1. İİV-ə yoluxmuş şəxslə prezervativsiz cinsi əlaqədə olduqda.

2. İİV-ə yoluxmuş şəxsin qanı vasitəsilə:

• İİV-ə yoluxmuş qanın köçürülməsi zamanı.

• Eyni şpris və iynələrlə müxtəlif dərman və narkotiklərin yeridilməsi zamanı.

• İİV-ə yoluxmuş insanın qanı ilə təmasda olmuş tibbi alətlərdən istifadə zamanı (qadın, diş həkimlərinə və s. müraciət edərkən).

• Gözəllik salonlarında İİV-ə yoluxmuş insanın qanı ilə təmasda olmuş kəsici alətlərdən istifadə zamanı (manikür, tatuaj, qulaq deşmə və s.)[1].

3. İİV-ə yoluxmuş qadından uşağa:

• Hamiləlik zamanı.

• Doğuş zamanı.

• Ana südü ilə qidalanma zamanı.

“Psixoloji yardım və psixoloji xidmət haqqında” Azərbaycan Respublikasının Qanunu 24 aprel 2010-cu ildə qəbul olunub.



---

**1. www.Biologiya.org.**

Hər bir kəsin fərqi yoxdur uşaq, qadın və ya kişi psixoloq xidmətindən istifadə etmək hüququ vardır. Psixoloji yardım və xidmətin məqsədi insanın psixi inkişafına, onun bu və ya digər fəaliyyət növünə hazırlanmasına peşəkar xidmətin göstərilməsidir.

Psixoloji yardım və xidmətin əsas istiqamətlərini psixoloji yardım, sosial, inzibati və xəbərdaredici tədbirlər təşkil edir.

Psixoloji yardım və xidmətə ehtiyacı olan şəxslərə Psixoloji yardım və xidmətin göstərilməsi qanunçuluq, humanistlik, insan və vətəndaş hüquqlarına və azadlıqlarına əməl edilməsi əsasında həyata keçirilir.

Adətən qadınlar və ümumiyyətlə bütün insanlarda psixoloq yanına getmək, məsləhət almaqda çətinliklər olur və çox insan öz problemlərini kiməsə deməyə çəkinir və bəzən bunu hər kəsdən gizlətəməyə üstünlük verir ki, bu da sonradan depressiya düşür. Amma psixoloq yanına gələn hər bir insan bilməlidir ki, onun söylədiyi fikir və onun problemləri psixoloq sirri olaraq konfidensial qalacaq.

Bu gün cəmiyyətimizdə ən çox psixoloji problem yaşayan qadınlar boşanmış və ailədaxili zorakılığa məruz qalmış qadınlardır ki, onların psixoloq köməyinə daha çox ehtiyacı vardır. Hər bir boşanmış və tək ana olan qadın psixoloji tərəfdən bir çox təzyiqlərə məruz qaldığı və cəmiyyətdə tək analara münasibət ikili olduğu üçün bu qadınlar bir çox maneələrlə üzləşirlər. Tək ana olan hər bir qadın maddi durumu aşağı olduğu halda öz övladlarını internat evlərinə və uşaq evlərinə vermək məcburiyyətində qalır və bu Azərbaycanda sosial kimsəsiz uşaqların sayının artmasına səbəb olur. Bundan əlavə bir çox boşanmış qadınlar tək qaldığı halda psixoloji, fiziki, seksual və sair kimi təcavüzlərə məruz qalır və köməksiz olduqları üçün əksər məqamlara dözməli olurlar. Bu isə öz novbəsində qadının hüquqlarının pozulması deməkdir. Cəmiyyət tərəfindən lazimi qədər dəstək ala bilməyən boşanmış qadın ən azından dünyada narkomaniyadan sonra ikinci ən mühüm bəla sayılan insan alverinin qurbanına çevrilmək təhlükəsi ilə üz-üzə qalır. Öz hüquqlarını bilməyən və sosial təminatı olmayan boşanmış qadınların uşaqları psixolojı və mənəvi cəhətdən sarsıntıya məruz qaldığı üçün küçə uşaqlarının sıralarına qoşulurlar və cinayət qruplarının subyektlərinə çevirirlər. Bütün yuxarıda göstərilənləri nəzərə alaraq belə bir qənaətə gəlmək olar ki, boşanmış qadınların hüquqi və psixoloji sahələrdə yardıma böyük ehtiyacları var. Ölkəmizdə son dövrlərdə artan boşanma halları ata qayğısından məhrum olan uşaqların təlim-tərbiyəsi, sosial durumlarının təmin olunmasının öhdəsindən təkbaşına gəlməli olan anaların da sayını artırıb.



# PENSİYA VƏ SOSİAL MÜAVİNƏTLƏR

## Əmək pensiyası

Əmək pensiyası vətəndaşların əmək stajı və işlədiyi dövrdə aldığı maaş və ya ödədiyi sığorta haqqı nəzərə alınmaqla ödənilən aylıq ödənişdir.

**Məcburi dövlət sosial sığortası**

Azərbaycan Respublikasında məcburi dövlət sosial sığortası sistemi mövcuddur. İşə qəbul edilən və əmək müqaviləsi bağlayan istənilən şəxs işəgötürən tərəfindən sığortalanır. İşəgötürən Dövlət Sosial Müdafiə Fonduna hər işçi üçün sığorta haqqı ödəyir. Bu sığorta haqqından gələcəkdə işçinin pensiya ödənilməsi üçün istifadə edilir.

## Əmək pensiyasının növləri və tərkibi

4.1. Əmək pensiyasının aşağıdakı növləri müəyyən edilir:

– yaşa görə əmək pensiyası;

– əlilliyə görə əmək pensiyası;

– ailə başçısını itirməyə görə əmək pensiyası

## Pensiya seçmək hüququ

Azərbaycan Respublikasında müxtəlif pensiya hüququ olan şəxslərə öz arzulan ilə yalnız bir pensiya təyin edilir.

## YAŞA GÖRƏ ƏMƏK PENSİYASI

Yaşa görə əmək pensiyasını 62 yaşına çatmış kişilər və 57 yaşına çatmış qadınlar azı 12 il sığorta stajı olduqda alırlar.

Bu yaş həddi 2010-cu il yanvarın 1-dən başlayaraq 2012-ci ilin yanvarın 1-dək, qadınların yaş həddi isə 2010-cu ilin yanvarın 1-dən başlayaraq 2016-cı ilin yanvarın 1-dək hər il altı ay artırılır.

Müəyyən şəxslər üçün yaşa görə əmək pensiyasının alınmasında güzəştlər müəyyən edilir.

## Çoxuşaqlı qadınların yaşa görə əmək pensiyası

Beş və daha çox uşaq doğub onları səkkiz yaşınadək tərbiyə etmiş qadınlara azı 10 il sığorta stajı olduğu halda əmək pensiyası ödənilir. Bundan əlavə onların pensiya yaş həddi hər uşağa görə 1 il azaldılır.

## Sağlamlıq imkanları məhdud uşağı olan anaların yaşa görə əmək pensiyası

Sağlamlıq imkanları məhdud uşağını səkkiz yaşınadək tərbiyə etmiş anaların azı 10 il sığorta stajı olduğu halda əmək pensiyası almaq hüququ vardır. Bundan əlavə onların pensiya yaş həddi 5 il azaldılır.

## Uşaqlarını təkbaşına böyüdən ataların və qəyyumların yaşa görə əmək pensiyası

Aşağıdakı şəxslərin azı 10 il sığorta stajına malik olduqda və pensiya yaş həddi 5 il azaldılmaqla yaşa görə əmək pensiyası hüququ vardır:

– Ana vəfat etdiyinə və ya ana ilə nikaha xitam verildiyinə, yaxud ana valideynlik hüququndan məhrum edildiyinə görə 5 və daha çox uşağı növbəti nikah bağlamadan, təkbaşına səkkiz yaşınadək böyüdən atalar

– 5 və daha çox uşağı övladlığa götürüb təkbaşına səkkiz yaşınadək böyüdən atalar

– 5 və daha çox uşağı səkkiz yaşınadək böyüdən qəyyum kişilər

## İş yerindən asılı olaraq güzəştli şərtlərlə əmək pensiyası hüququ

Axırıncı iş yerindən asılı olmayaraq yeraltı işlərdə, incəsənətin xüsusi sahələrində, həmçinin əmək şəraiti xüsusilə zərərli və ağır olan işlərdə çalışan şəxslərin güzəştli şərtlərlə əmək pensiyası hüququ vardır.

Bu işlərdə çalışan kişilərin 57 yaşına çatdıqda, azı 25 il sığorta stajına malik olduqda və bu müddətin azı 12 il 6 ayını həmin işlərdə, qadınlar isə 52 yaşına çatdıqda, azı 20 il sığorta stajına malik olduqda və bu müddətin azı 10 ilini həmin işlərdə çalışmışlarsa, əmək şəraitinə görə güzəştli şərtlərlə yaşa görə əmək pensiyası hüququ vardır.

## Fizioloji vəziyyətlə əlaqədar güzəştli şərtlərlə əmək pensiyası hüququ

Hipovizqanizm xəstəliyinə tutulan şəxslər (liliputlar) və mütənasibliyi pozulmuş cırtdanboylar – kişilər 47, qadınlar 42 yaşına çatdıqda və həmin şəxslərin azı 5 il sığorta stajı olduqda yaşa görə əmək pensiyası hüququna malikdir.

## Mülki aviasiya işçilərin güzəştli şərtlərlə əmək pensiyası hüququ

Mülki aviasiya uçuş və uçuş-sınaq heyətində işlə əlaqədar vəzifələrdə kişilərin azı 25 il, qadınların azı 20 il sığorta stajı olduqda, səhhətinə görə uçuş işindən azad olunmuş kişilərin həmin işlər üzrə azı 20 il, qadınların isə azı 15 il sığorta stajı olduqda yaşa görə əmək pensiyası hüququ vardır.

## Prokurorluq işçilərin güzəştli şərtlərlə əmək pensiyası hüququ

Prokurorluq orqanlarında qulluq etmiş aşağıdakı şəxslərin yaşa görə əmək pensiyası hüququ vardır:

– Prokurorluq orqanlarında azı 25 il qulluq etmiş prokurorluq işçiləri

– Yaşa görə prokurorluq orqanlarında qulluğuna xitam verilmiş, 25 il və daha çox ümumi iş stajı olan, bu stajın azı 12 il 6 ayını prokurorluq orqanlarında qulluq etmiş prokurorluq işçiləri

## Hərbi qulluqçuların güzəştli şərtlərlə əmək pensiyası hüququ

Aşağıdakı hərbi qulluqçuların hərbi qulluqçu kimi yaşa görə əmək pensiyası hüququ vardır:

– Hərbi xidmətdən buraxılanadək 20 təqvim ili və daha çox hərbi xidmət etmiş hərbi qulluqçular;

– Hərbi xidmətdən yaşa görə buraxılmış, 25 təqvim ili və daha çox ümumi iş stajı olan, bu stajın azı 12 il 6 ayını hərbi xidmətdə keçirmiş şəxslər;

– Hərbi xidmətdən xəstəliyinə və ya səhhətinin məhdud imkanlarına, habelə ştatların ixtisarına görə buraxılmış və buraxıldığı gün 45 və daha çox yaşı, 25 təqvim ili və daha çox ümumi iş stajı olan, bu stajın azı 12 il 6 ayını hərbi xidmətdə keçirmiş şəxslər;

– Hərbi xidmət müddəti 15 il və daha çox olmaqla Çernobıl AES-də qəzanın nəticələrinin aradan qaldırılması işlərində köçürmə zonasında iştirak etmiş hərbi qulluqçular.

Hərbi qulluqçu kimi yaşa görə əmək pensiyası hüququ hərbi rütbələrdən məhrum edilmiş hərbi qulluqçular və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçulara şamil edilmir.

Hərbi qulluqçu kimi yaşa görə əmək pensiyası hərbi xidmət dövründə deyil, hərbi xidmətdən buraxıldıqdan sonra təyin olunur.

### Ədliyyə orqanlarında qulluq keçmiş işçilərin güzəştli şərtlərlə əmək pensiyası hüququ

Ədliyyə orqanlarında qulluq keçmiş aşağıdakı şəxslərin yaşa görə əmək pensiyası hüququ vardır:

– Ədliyyə orqanlarında xüsusi rütbələr nəzərdə tutulan vəzifələrdə azı 25 il qulluq stajı olan ədliyyə işçiləri;

– Miqrasiya orqanlarında xüsusi rütbələr nəzərdə tutulan vəzifələrdə azı 25 il qulluq stajı olan miqrasiya işçilərinin;

– Cəzaçəkmə müəssisələrində, istintaq təcridxanalarında və azadlıqdan məhrum edilmiş şəxslər üçün nəzərdə tutulmuş müalicə müəssisələrində məhkumlarla və həbsdə olan şəxslərlə işləyən mülki işçilərin. Bu şəxslər üçün aşağıdakı yaş həddi və staj müəyyən edilir:

a) Kişilər üçün – 55 yaş həddi və ümumi əmək stajı ən azı 25 il, bu stajın azı 15 təqvim ilini məhkumlarla və həbsdə olan şəxslərlə işləmək şərti ilə;

b) Qadınlar üçün – 50 yaş həddi, ümumi əmək stajı ən azı 20 il, bu stajın azı 10 təqvim ilini məhkumlarla və həbsdə olan şəxslərlə işləmək şərti ilə.

## ƏLİLLİYƏ GÖRƏ ƏMƏK PENSİYASI

Əlilliyə görə əmək pensiyası şəxsin xəstəlik və ya xəsarət nəticəsində yaranan əqli və ya fiziki qüsurlara görə əmək qabiliyyətinin məhdudlaşması ilə əlaqədar təyin edilir. Əlillik qrupları, əlilliyin və ya 18 yaşınadək sağlamlıq imkanları məhdudluğunun səbəbləri, habelə onların başvermə müddəti Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən müəyyən olunur.

Hərbi qulluqçular (hərbi rütbələrdən məhrum edilmiş hərbi qulluqçular, müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla) sırasından olan əlillər aşağıdakı kateqoriyalara bölünürlər:

**Müharibə əlilləri** – əlillik hərbi xidmət vəzifələrini (xidməti vəzifələri) yerinə yetirərkən alınmış xəsarət (yaralanma, travma, kontuziya), yaxud cəbhədə olmaqla və ya döyüş əməliyyatları aparılan ölkələrdə beynəlmiləl borcu yerinə yetirməklə bağlı xəstəlik nəticəsində üz verərsə;

**Hərbi qulluqçular sırasından digər əlillər** – əlillik hərbi xidmət vəzifələrini (xidməti vəzifələri) yerinə yetirməklə bağlı olmayan bədbəxt hadisə nəticəsində alınmış xəsarət (yaralanma, travma, kontuziya), yaxud cəbhədə olmaqla və ya döyüş əməliyyatları aparılan ölkələrdə beynəlmiləl borcu yerinə yetirməklə bağlı olmayan xəstəlik nəticəsində üz verərsə.

Müddətli həqiqi hərbi (alternativ) xidmətdə olan şəxslərin əlilliyi həqiqi hərbi və ya alternativ xidmət vəzifələrini yerinə yetirərkən yaralanma, kontuziya, zədələnmə nəticəsində, yaxud cəbhədə olmaqla və ya döyüş əməliyyatı aparan ölkədə hərbi xidmət borcunun yerinə yetirilməsi ilə bağlı xəstəlik nəticəsində üz verərsə, onlar müharibə əlili hesab edilirlər.

## Əlilliyə görə əmək pensiyasının təyin edilməsi şərtləri

Əlilliyə görə əmək pensiyası əlil və ya sağlamlıq imkanları məhdud şəxslərə ümumilikdə sığorta stajı 5 ildən az olmamaq şərtilə əmək qabiliyyətli yaş dövrünün hər tam ili üçün 4 ay sığorta stajı olduqda təyin edilir.

Hərbi qulluqçulara (hərbi rütbələrdən məhrum edilmiş hərbi qulluqçular, müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla) əlilliyə görə əmək pensiyaları xidmət müddətindən asılı olmayaraq, əlillik hərbi qulluqçuların xidmət etdiyi dövrdə və ya xidmətdən buraxıldıqdan sonra 3 aydan gec olmayaraq üz verdikdə, yaxud əlillik bu müddətdən sonra, lakin xidmət dövründə alınmış xəsarət (yaralanma, travma, kontuziya), xəstəlik nəticəsində üz verdikdə təyin edilir.

# AİLƏ BAŞÇISINI İTİRMƏYƏ GÖRƏ ƏMƏK PENSİYASI

## Ailə başçısını itirməyə görə əmək pensiyası hüququ olan ailə üzvləri

Vəfat etmiş və ya həlak olmuş ailə başçısının öhdəsində olan ailə üzvləri ailə başçısını itirməyə görə əmək pensiyası hüququna malikdir. Bu hüquq ailə üzvlərinin vəfat edənin tam təminatında olan və ya ondan özlərinin yaşayışı üçün daimi və əsas vəsait mənbəyi kimi kömək alan və aşağıda sadalanan ailə üzvlərinə məxsusdur:

1. vəfat etmiş və ya həlak olmuş şəxslərin övladları:

– 18 yaşına çatmamış;

– 18 yaşına çatanadək sağlamlıq imkanlarının məhdudluğu müəyyən olunmuş 18 yaşından yuxarı əlil;

– təhsil müəssisələrinin əyani şöbəsində təhsil alanlar, lakin ən çoxu 23 yaşına çatanadək;

2. ata, ana, ər, arvad (əgər müəyyən edilmiş pensiya yaşına çatmışdırsa, yaxud I və ya II qrup əlildirsə);

3. yaşından və əmək qabiliyyətindən asılı olmayaraq valideynlərdən biri və ya ər (arvad), yaxud baba, nənə, qardaş, bacı vəfat etmiş və ya həlak olmuş ailə başçısının 8 yaşına çatmamış uşaqlarına, qardaşlarına, bacılarına, nəvələrinə baxırsa və işləmirsə.

Sığortaolunan qanunvericilikdə nəzərdə tutulmuş qaydada xəbərsiz itkin düşmüş və ya ölmüş elan edildiyi halda, onun ailə üzvləri vəfat etmiş və ya həlak olmuş ailə başçısının ailə üzvləri ilə bərabər əsaslarla ailə başçısını itirməyə görə əmək pensiyası hüququna malikdirlər.

Xəbərsiz itkin düşmüş və ya ölmüş elan edilən sığortaolunan qayıtdıqda və ya onun olduğu yer aşkar edildikdə, onun ailə üzvlərinə ödənilən ailə başçısını itirməyə görə əmək pensiyası dayandırılır.

## Ögey atanın, ögey ananın, ögey oğulun və ögey qızın əmək pensiyası hüququ

Ögey ata və ögey ana vəfat etmiş ögey oğlunu və ya ögey qızını azı beş il tərbiyə etmiş və saxlamışdırsa, doğma valideynlərlə bir səviyyədə əmək pensiyası hüququna malikdirlər. Ögey oğulun, ögey qızın doğma övladlarla bir səviyyədə ailə başçısını itirməyə görə əmək pensiyası hüququ vardır.

### Övladlığa götürənlərin və övladlığa götürülənlərin əmək pensiyası hüququ

Övladlığa götürənlərin doğma valideynlərlə, övladlığa götürülənlərin isə doğma uşaqlarla bir səviyyədə əmək pensiyası hüququ vardır.

### Ailə başçısını itirməyə görə əmək pensiyası təyinatının şərtləri

Ailə başçısını itirməyə görə əmək pensiyası ölüm gününədək ailə başçısının ən azı 5 il sığorta stajı olduqda təyin olunur.

Lakin, hərbi qulluqçuların (hərbi rütbələrdən məhrum edilmiş hərbi qulluqçular, müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla) ailə üzvlərinə ailə başçısını itirməyə görə əmək pensiyaları hərbi qulluqçunun xidmət müddətindən asılı olmayaraq təyin edilir.

Hərbi qulluqçuların ailə üzvlərinə ailə başçısını itirməyə görə əmək pensiyası aşağıdakı hallarda verilir:

– Hərbi qulluqçu xidmət etdiyi dövrdə vəfat edibsə

– Hərbi qulluqçu xidmətdən buraxıldıqdan sonra 3 ay müddətində vəfat edibsə

– Hərbi qulluqçu xidmətdən buraxıldıqdan sonra 3 aydan daha çox müddət keçdikdə vəfat etsə, əgər onun vəfat etməsi xidmət etdiyi dövrdə aldığı xəsarət və ya xəstəlik nəticəsində baş veribsə

## SIĞORTA STAJI

### Sığorta stajına daxil edilən iş və ya digər fəaliyyət müddətləri

Məcburi dövlət sosial sığorta haqlarının ödənilməsi şərtilə müəssisə, idarə və təşkilatlarda əmək müqaviləsi (kontraktı) əsasında işləyənlərin, hərbi qulluqçuların, eləcə də hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərin, vəzifəyə seçilmiş və ya təyin edilmiş şəxslərin iş, hərbi xidmət və ya digər fəaliyyət müddətləri sığorta stajına daxil edilir.

Bundan əlavə, sığorta stajına aşağıdakı müddətlər daxil edilir:

1. işçinin işəgötürən tərəfindən hesablanmış əməkhaqqına məcburi dövlət sosial sığorta haqqı ödənilən hər hansı işinin müddəti;

2. yaradıcılıq ittifaqlarının və peşəkar birliklərin üzvlərinin yaradıcılıq fəaliyyətinə başladıqdan sonrakı dövr, 1991-ci il yanvarın 1-dən isə müvafiq icra hakimiyyəti orqanına məcburi dövlət sosial sığorta haqları ödədikləri müddət;

3. müddətli həqiqi hərbi (alternativ) xidmət (1992-ci il yanvarın 1-dək keçmiş SSRİ-nin ərazisində müddətli həqiqi hərbi xidmət dövrü daxil olmaqla) və müvafiq icra hakimiyyəti orqanında qeydiyyatdan keçmiş özünümüdafiə dəstələrində və birləşmələrində olduğu müddət, müvafiq icra hakimiyyəti orqanlarında xidmət müddəti;

4. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada hesablanan I qrup əlilə və ya sağlamlıq imkanları məhdud 18 yaşınadək uşağa, habelə 70 yaşına çatmış qocalara qulluq edilməsi müddəti;

5. işsizlik müavinətinin verildiyi müddət, yaxud işsizin yenidən peşə hazırlığı keçdiyi və ya təhsil aldığı müddət;

6. əmək vəzifələrini yerinə yetirərkən xəsarət alıb şikəst olmuş və bu səbəbdən, eləcə də peşə xəstəliyi nəticəsində işləməyən I və II qrup əlillərin və ya 18 yaşınadək sağlamlıq imkanları məhdud şəxslərin yaşa görə pensiya hüququ çatanadək pensiyada olduqları müddət;

7. zabit heyəti, gizir, miçman və müddətindən artıq qulluqda olan hərbi qulluqçuların arvadlarının öz ixtisası üzrə işə düzəlmək imkanı olmadığı yerlərdə ərləri ilə yaşadıqları müddət;

8. şəxsin qanunsuz tutulma, həbsdə olma və cəzaçəkmə müddətləri, eləcə də qeyri-qanuni olaraq işdən (vəzifədən) kənarlaşdırılması ilə əlaqədar işləmədiyi müddət;

9. əmək qabiliyyətinin müvəqqəti itirilməsi müddəti ərzində həm işəgötürənin vəsaiti, həm də məcburi dövlət sosial sığortası vəsaitləri hesabına müavinət alındığı müddət;

10. mülkiyyətində kənd təsərrüfatına yararlı torpaq sahəsi olan şəxslərin həmin torpaq sahəsinə görə qanunvericiliklə müəyyən olunmuş qaydada məcburi dövlət sosial sığorta haqları ödədiyi müddət.

11. hərbi xidmət müddəti (1992-ci il yanvarın 1-dək keçmiş SSRİ-nin ərazisində hərbi xidmət dövrü daxil olmaqla).

## Sığorta stajının hesablanması qaydası



Əmək pensiyası hüququ verən sığorta stajının hesablanması təqvim (illər, aylar, günlər) əsasında həyata keçirilir. Sığortaolunanın ayrı-ayrı fəaliyyət dövrlərinin hər

hansı biri digəri ilə üst-üstə düşdükdə, onun seçimi əsasında həmin müddətlərdən biri hesablanır.

## Vətəndaşların başqa dövlətlərin ərazisində fəaliyyət dövrünün sığorta stajına daxil edilməsi şərtləri

Vətəndaşların başqa dövlətlərin ərazisində iş dövrü, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə və ya həmin dövlətlərlə bağlanmış dövlətlərarası müqavilələrdə başqa hal nəzərdə tutulmayıbsa, məcburi dövlət sosial sığorta haqları ödənildikdə, sığorta stajına daxil edilir.

1992-ci il yanvarın 1-dək keçmiş SSRİ-nin ərazisində qazanılmış əmək stajı bu maddədə göstərilən şərt nəzərə alınmadan ümumi qaydada sığorta stajına daxil edilir.

## Sığorta stajının hesablanmasında güzəştlər

Əmək pensiyası hüququ verən sığorta stajına aşağıdakı dövrlər güzəştli şərtlərlə daxil edilir:

döyüş əməliyyatları dövründə döyüşən ordunun tərkibində xidmət və muzdla iş dövrü, eləcə də qanuni özünümüdafiə dəstələrində və birləşmələrində olmaq müddəti ikiqat ölçüdə;

şəxsin qanunsuz saxlanılma, həbsdə olma və cəzaçəkmə müddətləri – ikiqat ölçüdə;

cüzam və taun əleyhinə müəssisələrdə iş müddəti – ikiqat ölçüdə;

əməliyyat-axtarış fəaliyyəti subyektləri ilə əməkdaşlıq edən şəxslərin cinayətkar qruplara və ya kriminogen obyektlərə daxil edilməsi ilə əlaqədar vəzifələrinin yerinə yetirilməsi müddəti – üçqat ölçüdə.

## Sığorta stajının təsdiq edilməsi qaydası

Sığorta stajı məcburi dövlət sosial sığorta haqlarının ödənilməsi barədə verilən sənədlə təsdiq olunur.

# ƏMƏK PENSİYASININ TƏYİN EDİLMƏSİ

Əmək pensiyası şəxsin daimi yaşadığı yer, qaçqın və məcburi köçkünlərə isə məskunlaşdıqları yer üzrə Dövlət Sosial Müdafiə Fondun yerli orqanları tərəfindən təyin edilir.

Əmək pensiyası hüququ olan şəxslər əmək pensiyası hüququnun yarandığı gündən sonra istənilən vaxt əmək pensiyasının təyin olunması üçün ərizə ilə daimi yaşadıqları yer, qaçqın və məcburi köçkünlər isə məskunlaşdıqları yer üzrə Dövlət Sosial Müdafiə Fondun yerli orqanlarına müraciət edirlər. Bu müraciət onların adından vəkalət (notariusda təsdiq edilən etibarnamə) verdikləri nümayəndələri tərəfindən də edilə bilər.

Müraciət edən şəxsin əmək pensiyası hüququ olmadığı hallarda əmək pensiyası təyin edən orqan pensiya təyin olunmasından imtina edilməsi barədə qərarı 5 gün ərzində imtinanın səbəblərini göstərmək şərtilə bütün sənədlərlə birlikdə ərizəçiyə göndərir.

Əmək pensiyasını təyin edən orqanın qərarından Dövlət Sosial Müdafiə Fondun nəzdində və (və ya) məhkəməyə şikayət edilə bilər.

## Əmək pensiyasının bir növündən başqa növünə keçirilmə

Pensiyaçı əmək pensiyasının bir növündən başqa növünə keçmə hüququna malikdir. Lakin, yaşa görə əmək pensiyası növündən əlilliyə görə əmək pensiyası növünə keçirilməyə icazə verilmir.

Pensiyanın bir növündən başqa bir növünə keçirilmə üçün ərizəçi yeni əmək pensiyasının təyin edilməsi üçün zəruri sənədlər təqdim etməlidir.

## Əlillik qrupu dəyişdikdə və ya əmək qabiliyyəti bərpa olunduqda, əmək pensiyasının verilməsi müddəti

Əlillik qrupu dəyişdikdə, əmək pensiyasının məbləği əlillik qrupunun dəyişdiyi aydan sonrakı ayın 1-dən yenidən təyin edilir.

Təkrar müayinədən keçirilən əmək pensiyaçısı əmək qabiliyyətli hesab edildikdə, əmək pensiyasının verilməsi əmək qabiliyyətli hesab edildiyi aydan sonrakı ayın 1-dən dayandırılır.

## Əlillərin, 18 yaşınadək sağlamlıq imkanları məhdud şəxslərin təkrar müayinə vaxtı ötürüldükdə, əmək pensiyasının verilməsinin dayandırılması və bərpa edilməsi

Əlil, sağlamlıq imkanları məhdud şəxs təkrar müayinə üçün təyin edilmiş vaxtda Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə gəlmədikdə, əmək pensiyasının ödənilməsi dayandırılır.

O, yenidən əlil, sağlamlıq imkanları məhdud hesab edilərsə, əmək pensiyasının verilməsi yenidən əlil, sağlamlıq imkanları məhdud hesab edildiyi gündən bərpa edilir.

Təkrar müayinə vaxtı üzrlü səbəbdən ötürüldükdə, bu müddət ərzində əmək pensiyası bir aydan çox olmayan müddət üçün ödənilir.

## Xaricə köçmüş şəxslərə əmək pensiyasının ödənilməsi

Azərbaycan Respublikasının vətəndaşlığını saxlamış şəxslərin xaricdə olduqları müddətdə onlara Azərbaycan Respublikasında təyin edilmiş əmək pensiyası arzularına əsasən Azərbaycan Respublikasının banklarında olan şəxsi hesablarına və ya öz vəsaitləri hesablarına yaşadıqları digər dövlətlərə köçürülür.

Azərbaycan Respublikası vətəndaşlığından çıxmış şəxslər xaricdə olduqları müddətdə onlara yalnız əmək zədəsi və ya peşə xəstəliyi nəticəsində təyin edilmiş pensiyalar ödənilir.

### Əmək pensiyaçısının dəfni üçün müavinət

Əmək pensiyaçısı vəfat etdikdə, onun ailəsinə pensiyaçının vəfatı tarixinə yaşa görə əmək pensiyasının baza hissəsinin üç misli məbləğində dəfn üçün müavinət verilir.

Əmək pensiyaçısını onun ailə üzvlərinə aid olmayan şəxslər dəfn etdikdə, dəfn üçün müavinət həmin şəxslərə ödənilir.

### Pensiyanın məbləği

Qanunvericiyə əsasən yaşa görə əmək pensiyası baza, sığorta və yığım hissəsindən, əlilliyə görə əmək pensiyası baza, sığorta və yığım hissəsindən və ailə başçısını itirməyə görə əmək pensiyası baza və sığorta hissəsindən ibarətdir.

Pensiyanın baza hissəsi Azərbaycan Respublikası Prezidenti tərəfindən müəyyən edilir.

Pensiyanın siğorta və yığım hissəsi isə işçinin fərdi hesabı vasitəsilə müəyyən edilir. Belə ki, işçi ilk dəfə əmək fəaliyyətinə başlayarkən və işəgötürən tərəfindən sığortalanarkən, Dövlət Sosial Müdafiə Fondu sığortaolunan şəxsə (işçiyə) daimi sosial sığorta nömrəsi ilə fərdi şəxsi hesab açır.

Beləliklə, əmək müqaviləsi bağlayan hər bir şəxsə əmək fəaliyyətinin əvvəlində Dövlət Sosial Müdafiə Fondunda fərdi şəxsi hesab açılır. Həmin hesabda sığorta olunan (işçi) haqqında məlumatların uçotu aparılır və gələcəkdə həmin şəxsə pensiyanın təyin edilməsi üçün həmin məlumatlardan istifadə edilir.

Pensiyanın sığorta və yığım hissəsi haqqında məlumat həmin fərdi şəxsi hesaba daxil edilir. Pensiyanın məbləği fərdi hesabda yığılan məbləğdən asılıdır. Məbləğ nə qədək yüksək olsa, pensiya da o qədər yüksək olur. Beləliklə, pensiyanın təyin edilməsində həm Azərbaycan Respublikası Prezidenti tərəfindən müəyyən edilmiş ümumi məbləğ (baza hissəsi), həm də hər bir şəxsin fərdi hesabda yığılan pul vəsaiti nəzərə alınır.

Hər bir sığorta Dövlət Sosial Müdafiə Fondunun yaşayış və ya iş yeri üzrə şöbəsindən fərdi şəxsi hesabında əks olunan məlumatları almaq hüququna malikdir. Bundan əlavə, əgər şəxs fərdi şəxsi hesabında əks olunan məlumatlarla razı deyilsə, həmin halda o, həmin məlumatların dəqiqləşdirilməsi barədə Dövlət Sosial Müdafiə Fonduna və ya sığorta edənə ərizə ilə müraciət edə bilər.

## Sosial müavinətlər

Sosial müavinətlər ayrı-ayrı kateqoriya şəxslərə sosial yardım göstərilməsi məqsədilə aylıq və ya birdəfəlik ödənilən pul vəsaitidir. Social müavinətlər aylıq və birdəfəlik müavinətlərə bölünür.

**Aylıq müavinətlərin aşağıdakı növləri mövcuddur:**

1. dövlət qulluqçularına ömürlük müavinət;
2. yaşa görə müavinət;
3. əlilliyə görə müavinət;
4. sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlara müavinət;
5. ailə başçısını itirməyə görə müavinət;
6. bəzi kateqoriya şəxslərə kommunal, nəqliyyat və digər xidmətlərə görə müavinət;

7. üç yaşınadək uşağa qulluğa görə müavinət;

8. prezident tərəfindən müəyyən edilmiş bəzi kateqoriya şəxslərin 16 yaşadək (ümumtəhsil müəssisələrində əyani təhsil alanlar üçün 18 yaşadək) uşaqlarına müavinət;

9. valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların qəyyumlarına (himayəçilərinə) müavinət:

10. bir yaşınadək uşağı olan aztəminatlı ailələrə müavinət.

## Birdəfəlik müavinətlər asağıdakı növlərə bölünür:

1. radiasiya qəzası nəticəsində zərər çəkmiş şəxslərə hər il müalicə üçün müavinət:
2. uşağın anadan olmasına görə müavinət:
3. dəfn üçün müavinət.

## Müavinət seçmək hüququ

Aylıq müavinətlərdən bir neçəsini almaq hüququ olan şəxslər öz arzusuna əsasən bir növ aylıq müavinət seçə bilərlər.

### Dövlət qulluqçularına ömürlük müavinət

Bu müavinət inzibati və yardımçı vəzifələri tutan dövlət qulluqçuları pensiya yaşına çatmasına və ya əlilliyinə görə könüllü işdən çıxdıqda və dövlət qulluğunda xidmət illərinin minimum həddinə (5 il) və əmək pensiyası almaq hüququna malik olmadıqda ödənilir.

### Yaşa görə müavinət

Yaşa görə müavinət pensiya yaşına çatmış şəxsin əmək pensiyası hüququ olmadıqda və işləmədikdə ödənilir. Yaşa görə müavinət ömürlük təyin olunur.

### Əlilliyə görə müavinət

Əlilliyə görə müavinət əmək qabiliyyəti olmayan şəxsin əmək pensiyası hüququ olmadıqda ödənilir. Əlilliyə görə müavinət əlillik müddətinə təyin olunur.

### Sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlara müavinət

Bu müavinət sağlamlıq imkanlarının məhdudluğu müəyyən edilmiş və əmək pensiyası hüququ olmayan şəxslərə sağlamlıq imkanlarının məhdudluğu müddətinə ödənilir.

**Ailə başçısını itirməyə görə müavinət**

Ailə başçısını itirməyə görə müavinət bu şəxslərə ödənilir:

a) əmək qabiliyyəti və əmək pensiyası hüququ olmayan şəxslərə;

b) vəfat etmiş şəxsin 8 yaşınadək uşaqlarına baxan valideynlərdən, qardaş, bacı, baba və nənələrdən birinə, həmin şəxsin yaşından və əmək qabiliyyətindən asılı olmayaraq

**Kommunal, nəqliyyat və digər xidmətlərə görə müavinət**

Əmək pensiyası hüququ olmayan bəzi kateqoriya şəxslərə kommunal, nəqliyyat və digər xidmətlərə görə müavinət ödənilir. Bu müavinət almaq hüququ olan şəxslərin siyahısı Azərbaycan Respublikası Prezidenti tərəfindən müəyyən edilir. Hazırda bu cür müavinət almaq hüququna malik şəxslər aşağıdakılardı:

Azərbaycan dövlətinin ərazi bütövlüyünün, müstəqilliyinin və Konstitusiya quruluşunun müdafiəsi zamanı əlil olanlara, 1990-cı il 20 Yanvar hadisələri zamanı əlil olanlara, Böyük Vətən müharibəsi əlillərinə, müharibə əlillərinə bərabər tutulanlara, həqiqi hərbi xidmət dövründə Çernobıl qəzası nəticəsində zərər çəkmiş hərbi qulluqçulara – 130,0 min manat məbləğində;

Böyük Vətən müharibəsi iştirakçılarına

Həlak olmuş döyüşçülərin dul arvadlarına

Sovet İttifaqı və Sosialist Əməyi Qəhrəmanlarına, üç dərəcəli Şöhrət ordeninin hər hansı bir dərəcəsi ilə təltif edilmiş şəxslərə

Böyük Vətən müharibəsindən sonra vəfat etmiş döyüşçülərin dul arvadlarına- 60,0 min manat, şəhid ailəsi üzvlərinin hər birinə

Çernobıl qəzası əlillərinə (həqiqi hərbi xidmət dövründə Çernobıl qəzası nəticəsində zərər çəkmiş hərbi qulluqçular istisna olmaqla), I və II qrup əlillərə (müharibə əlilləri və onlara bərabər tutulanlar istisna olmaqla), sosial pensiyaçılara

Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlara, məcburi köçkünlərə və məskunlaşmamış qaçqınlara

**3 yaşınadək uşağa qulluğa görə müavinət**



3 yaşınadək uşağa qulluq göstərən şəxs qismən ödənişli sosial məzuniyyətdə olduqda 3 yaşınadək uşağa qulluğa görə müavinət almaq hüququna malikdir.

**16 yaşadək (ümumtəhsil müəssisələrində əyani təhsil alanlar üçün 18 yaşadək) uşaqlara müavinət**

Prezident tərəfindən müəyyən edilmiş bəzi kateqoriya şəxslərin 16 yaşadək (ümumtəhsil müəssisələrində əyani təhsil alanlar üçün 18 yaşadək) uşaqlarına müavinət verilir. Hazırda bu müavinətin müddətli həqiqi hərbi xidmət çəkən hərbi qulluqçuların uşaqlarına verilməsi nəzərdə tutulur.

**Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların qəyyumlarına (himayəçilərinə) müavinət**

Bu müavinət qəyyum və ya himayəçi təyin edilmiş şəxslərin sosial yardım almaq hüququ olduqda və barəsində qəyyumluq (himayəçilik) təyin edilmiş uşaqlar tam dövlət təminatında olmadıqda ödənilir.

Sosial yardım hüququna orta aylıq gəliri onlardan asılı olmayan səbəblərdən (ailə üzvlərinin əmək qabiliyyətsiz olması, ailənin əmək qabiliyyətli üzvünün işsiz kimi qeydə alınması, vəfat etməsi, məhkəmə tərəfindən itkin düşmüş və yaxud ölmüş hesab edilməsi, azadlıqdan məhrum edilməsi, ailə üzvünün olduğu yerin məlum olmaması və s.) hər bir ailə üzvü üçün ehtiyac meyarının məcmusundan aşağı olan aztəminatlı ailələr malikdirlər. 2011-ci ildə ehtiyac meyarının həddi 75 manatdır.

**Bir yaşınadək uşağı olan aztəminatlı ailələrə müavinət**

Bu müavinət bir yaşınadək uşağı olan aztəminatlı ailələrə ödənilir. «Ünvanlı dövlət sosial yardımı haqqında» Azərbaycan Respublikası Qanununa əsasən orta aylıq gəlirləri hər bir ailə üzvü üçün ehtiyac meyarının məcmusundan aşağı olan ailə aztəminatlı ailə hesab edilir. 2011-ci ildə ehtiyac meyarının həddi 75 manatdır.

**Radiasiya qəzası nəticəsində zərər çəkmiş şəxslərə birdəfəlik müavinət**

Radiasiya qəzası nəticəsində zərər çəkmiş şəxslərə hər il müalicə üçün müavinət ödənilir. Bu müavinət şəxsin radiasiya qəzası nəticəsində əlil olduğu və Çernobıl AES qəzası nəticəsində zərər çəkmiş şəxslərin 18 yaşınadək uşaqlarının qəza nəticəsində sağlamlıq imkanlarının məhdudlaşdığı halda ödənilir.

**Uşağın anadan olmasına görə müavinət**

Uşağın anadan olmasına görə müavinət Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin və Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri, Azərbaycan Respublikasının xaricdəki konsulluq idarələri, rayon tabeli şəhərlərdə (qəsəbələrdə) və kəndlərdə rayon, şəhər, şəhər rayonu icra hakimiyyəti nümayəndikləri tərəfindən verilən arayış təqdim edildikdə verilir.

**Dəfn üçün müavinət** dövlət qulluqçularına ömürlük müavinət, yaşa görə müavinət, əlilliyə görə müavinət, sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlara müavinət və ya ailə başçısını itirməyə görə müavinət alan şəxslər vəfat etdikdə ödənilir.

**Ünvanlı dövlət sosial yardımı**

Ünvanlı dövlət sosial yardım – aztəminatlı ailələrə dövlət tərəfindən göstərilən pul yardımıdır.

Sosial yardım hüququna orta aylıq gəliri onlardan asılı olmayan səbəblərdən (ailə üzvlərinin əmək qabiliyyətsiz olması, ailənin əmək qabiliyyətli üzvünün müvafiq icra hakimiyyəti orqanında işsiz kimi qeydə alınması, vəfat etməsi, məhkəmə tərəfindən itkin düşmüş və yaxud ölmüş hesab edilməsi, azadlıqdan məhrum edilməsi, ailə üzvünün olduğu yerin məlum olmaması və s.) hər bir ailə üzvü üçün ehtiyac meyarının məcmusundan aşağı olan aztəminatlı ailələr malikdirlər. 2011-ci ildə ehtiyac meyarının həddi 75 manatdır.

Sosial yardım aztəminatlı ailələrə yaşayış yeri üzrə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Təminat Xidmətinin şəhər (rayon) əhalinin sosial müdafiəsi mərkəzləri tərəfindən təyin olunur.

Sosial yardımın məbləği ailənin orta aylıq gəliri ilə hər bir ailə üzvü üçün ehtiyac meyarının məcmusu arasında yaranan fərq məbləğində hesablanır.

Sosial yardım onu almaq üçün müraciət edilən ayın 1-dən etibarən 1 il müddətinə təyin olunur. Aztəminatlı ailə sosial yardım almaq üçün təkrar müraciət etmək hüququna malikdir.

Sosial yardımın təyin olunması zamanı yardımın verilməsi üçün ailə tərkibində bu şəxslər nəzərə alınmır: tam dövlət təminatında olan şəxslər (uşaq evi və internatlarda, qocalar, əlillər və ya sağlamlıq imkanları məhdud uşaqlar üçün internat evlərində, xüsusi təhsil müəssisələrində yaşayan şəxslər); müddətli həqiqi hərbi xidmətdə olan şəxslər; cəzaçəkmə müəssisələrində cəza çəkən şəxslər; axtarışda olan şəxslər və Azərbaycan Respublikasının ərazisində yaşamayan Azərbaycan Respublikası vətəndaşları.

## Müavinətlərin təyin edilməsi və ödənilməsi qaydaları

Müavinətlər şəxsin yaşayış yeri üzrə Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin rayon (şəhər) əhalinin sosial müdafiəsi mərkəzləri və ya Azərbaycan Respublikası Dövlət Sosial Müdafiə Fondunun rayon (şəhər) şöbələri tərəfindən təyin edilir və ödənilir.

3 yaşınadək uşağa qulluğa görə müavinət, uşağın anadan olmasına görə müavinət və dəfn üçün müavinət Azərbaycan Respublikası Dövlət Sosial Müdafiə Fondunun rayon (şəhər) şöbələri tərəfindən təyin edilir və ödənilir.

Bütün digər müavinətlər Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin rayon (şəhər) əhalinin sosial müdafiəsi mərkəzləri tərəfindən təyin edilir və ödənilir.

Müavinət təyinatı barədə qərar şəxsin həmin dövlət qurumlarına müraciət etdiyi gündən sonra 10 gün müddətində qəbul edilir. Müavinət almaq üçün ərizənin zəruri sənədlərlə (yaşı, əlilliyi, ailə başçısının itirilməsini və sairə təsdiq edən sənədlər) birlikdə təqdim edildiyi gün müavinət təyin olunması üçün müraciət edilən gün hesab olunur.

Müavinət təyin olunmasından imtina edilməsi barədə qərar qəbul edildikdə, müraciət edən şəxsə 5 gün müddətində rəsmi məlumat verir. Həmin məlumatlda müavinətin verilməsindən imtinanın səbəbləri göstərilməlidir.

Müavinət təyinatından imtina edilməsi barədə qərardan inzibati qaydada, qərarın qəbul etdiyi orqandan asılı olaraq Azərbaycan Respublikası Dövlət Sosial Müdafiə Fondu və ya Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi şikayət verilə bilər. Eyni zaman həmin qərardan məhkəmə qaydasında şikayətin veriməsi mümkündür.

Əlavə məlumat almaq üçün Dövlət Social Müdafiə Fondu və Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin internet səhifələrindən və həmçinin bu dövlət qurumlarına bilavasitə müraciət etməklə əldə edə bilərsiz.

## DÖVLƏT SOSİAL MÜDAFİƏ FONDU

ÜNVAN:
AZ 1122 BAKI şəhəri, H. Zərdabi prospekti, 80
TELEFON: (+994 12) 434 60 18
FAKS:(+994 12) 434 55 87
Internet səhifəsi: www.sspf.gov.az

**Vətəndaşların qəbulu**

Azərbaycan Respublikası Dövlət Sosial Müdafiə Fondunda qəbul əlaqə telefonları vasitəsilə qəbula yazılmaqla aparılır. Vətəndaşların qəbulu Fondun sədri tərəfindən hər həftənin cümə günü, digər vəzifəli şəxslər tərəfindən isə həftənin iş günləri həyata keçirilir.

Fondun Əmək pensiyaları şöbəsinin mütəxəssisləri tərəfindən həftənin bütün iş günləri saat **16.00-dan 18.00-dək** (zəruri hallarda dərhal) vətəndaşların qəbulu həyata keçirilir və onları maraqlandıran sualların birbaşa cavablandırılması təmin olunur.

Dövlət Sosial Müdafiə Fondu həmçinin müraciətlərin elektron poçt vasitəsilə qəbulu da həyata keçirilir. Elektron formada daxil olan müraciətlər prosedur qaydalar gözlənilməklə elektron poçt vasitəsilə cavablandırılr. Elektron poçta məktubun göndərilməsi üçün Fondun internet səhifəsinə daxil olmalısız.

**“190” nömrəli telefon məlumat xidməti**

Bu telefon məlumat xidməti canlı və avtomatik rejimdə olmaqla fasiləsiz fəaliyyət göstərir. Canlı rejim həftənin iş günləri olan dövrü əhatə edir və bu zaman sorğu və müraciətlər birbaşa olaraq müfəttiş-operatorlar tərəfindən cavablandırılır. Canlı rejimdə göstərilən telefon xidməti iş günü ərzində fasiləsiz, saat **09.00**-dan **13.00**-dək və **14.00-**dan **18.00**-dək olmaqla iki növbəli xidmət əsasında həyata keçirilir. **13.00-**dan **14.00**-dək nahar fasiləsi olduğundan, telefon məlumat xidməti canlı iş rejimindən avtomatik iş rejiminə keçir. Bu zaman suallar avtomatik olaraq robot tərəfindən standart formada cavablandırılır. Avtomatik iş rejimi həmçinin iş vaxtından sonrakı saatlarda, nahar fasiləsi zamanı, həftənin qeyri-iş günləri və bayram günlərində fəaliyyət göstərir.

## ƏMƏK VƏ ƏHALİNİN SOSİAL MÜDAFİƏSİ NAZİRLİYİ

ÜNVAN:
Bakı, AZ 1009, Salatın Əsgərova küç., 85
TEL.: (+994 12) 596 50 33;
FAKS: (+994 12) 596 5034
Internet səhifəsi: http://mlspp.gov.az

**QƏBUL GÜNLƏRİ**

Bütün iş günləri ərzində nazirlikdə vətəndaşların qəbulu təşkil edilir. Bunun üçün ayrıca otaq ayrılmışdır. Ümumi şöbə tərəfindən tərtib olunmuş xüsusi qrafik əsasında mütəxəssislərin iştirakı ilə vətəndaşların qəbulu təşkil edilir, onların şikayətləri dinlənilərək müvafiq tədbir görülür.

Vətəndaşlar bazar ertəsi Nazir, çərşənbə axşamı və cümə günü isə nazir müavinləri tərəfindən qəbul edilir. Vətəndaşların rəhbərlik tərəfindən qəbulu zamanı hər bir vətəndaş üçün qeydiyyat-nəzarət vərəqi doldurulur, dərkənar qoyulduqdan sonra müvafiq şöbələrə göndərilərək vaxtında icra olunmasına nəzarət olunur.

**Etimad xətti" – 142**

Nazirlikdə "Etimad xətti" fəaliyyət göstərir. Etimad telefonuna nazirliyin əsas fəaliyyətinə aid olan 4 sahə üzrə zənglər daxil olur. Vətəndaşlar 142 nömrəsini yığdıqdan sonra əmək qanunvericiliyi ilə əlaqədar sorğuların cavablandılması üçün 101, ünvanlı dövlət sosial yardımı və sosial müavinətlərlə əlaqədar sorğuların cavablandılması üçün 102, əlillik dərəcələrinin verilməsi və reabilitasiyası ilə əlaqədar sorğuların cavablandılması üçün 103, iş yerləri, məşğulluğun təminatı,əmək miqrasiyası ilə əlaqədar sorğuların cavablandılması üçün 104 nömrəsini yığmaqla aidiyyatı üzrə mütəxəssislər tərəfindən sorğularına cavab ala bilərlər.

Etimad xətti həftənin 5 iş günü ərzində saat 10-dan saat 6-dək işləyir (saat 13.00-dan saat 14.00-dək nahar fasiləsi istisna olmaqla).



# VƏRƏSƏLİK HÜQUQU

## Vərəsəlik nədir?

Ölmüş şəxsin əmlakının digər şəxslərin mülkiyyətinə keçməsi vərəsəlik adlandırılır. Ölmüş şəxs miras qoyan hesab edilir, onun əmlakını alan şəxs isə vərəsə hesab edilir.

Vərəsəliyin iki forması mövcuddur:

– Qanun üzrə vərəsəlik

– Vəsiyyətnamə üzrə vərəsəlik

Vərəsəlik həmçinin hər iki əsasla həyata keçirilə bilər, yəni ki, əmlakın bir hissəsi qanunla müəyyən edilmiş vərəsə və ya vərəsələrə, digər hissəsi isə vəsiyyətnamə ilə müəyyən edilən vərəsə və ya vərəsələrin mülkiyyətinə keçə bilər.

Vərəsələri olmayan əmlak adətən dövlətə keçir. Miras qoyan şəxs qocalar, əlillər və sağlamlıq imkanları məhdud uşaqlar üçün müəssisələrin, müalicə, tərbiyə və sosial təminat müəssisələrinin təminatında olmuşdursa, belə halda bu əmlak həmin müəssisələrin mülkiyyətinə keçir.

## Qanunla vərəsəlik

Qanun üzrə vərəsəlik dedikdə, ölmüş şəxsin əmlakının qanunda göstərilmiş şəxslərə keçməsi nəzərdə tutulur.

Miras qoyan şəxsin əmlakı qanunda göstərilmiş şəxslərə o zaman keçir ki, miras qoyan vəsiyyətnamə qoymasın və ya vəsiyyətnamə mirasın yalnız bir hissəsini əhatə etsin. Vəsiyyətnamə tamamilə və ya qismən etibarsız sayıldığı halda da miras qanunda göstərilən şəxslərin mülkiyyətinə keçir.

Qanun üzrə vərəsələr beş növbəyə bölünür. Əvvəlki növbənin vərəsələrindən, heç olmasa, birinin mövcudluğu sonrakı növbənin vərəsəliyini istisna edir.

Qanun aşağıdakı şəxsləri vərəsə qismində tanıyır:

Birinci növbədə vərəsələr:

– ölənin uşaqları (həmçinin miras qoyanın ölümündən sonra doğulmuş uşaq və övladlığa götürülmüş uşaq)

– arvad (ər),

– valideynlər (övladlığa götürənlər).

İkinci növbədə vərəsələr:

– ölənin bacıları və qardaşları

Miras qoyanın bacısı uşaqları və qardaşı uşaqları və onların uşaqları o halda qanun üzrə vərəsə sayılırlar ki, mirasın açıldığı vaxt miras qoyanın vərəsəsi olacaq valideynləri sağ olmasın. Onlar qanun üzrə vərəsəlik zamanı onların ölmüş valideyninə çatası miras payını bərabər olaraq miras alırlar.

Üçüncü növbədə vərəsələr:

– nənə və baba (həm ana tərəfdən, həm də ata tərəfdən)

– nənə və babanın anası və atası. Nənənin anası və atası, babanın anası və atası o halda qanun üzrə vərəsə sayılırlar ki, mirasın açıldığı vaxt nənə və baba sağ olmasın.

Dördüncü növbədə vərəsələr:

– xalalar və bibilər, dayılar və əmilər

Beşinci növbədə vərəsələr

– xala uşaqları və bibi uşaqları, dayı uşaqları və əmi uşaqları, onlar sağ olmadıqda isə onların uşaqları.

Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən miras qoyanın himayəsində olmuş və özlərini müstəqil saxlaya bilməyən əmək qabiliyyəti olmayan şəxslər mirasdan dolanacaq təminatı (alimentlər) tələb edə bilərlər. Dolanacaq təminatı kimi ödənilməli məbləğin ölçüsü miras aktivinin həcmi nəzərə alınmaqla azaldıla bilər.

## Vəsiyyət üzrə vərəsəlik

Hər bir şəxs ölümündən sonra öz əmlakını və ya onun bir hissəsini vəsiyyətnamə tərtib etməklə həm vərəsələr sırasından, həm də kənar adamlar sırasından bir və ya bir neçə şəxsə qoya (vəsiyyət edə) bilər.

Vəsiyyət edən qanun üzrə vərəsələrdən birini, bir neçəsini və ya hamısını heç bir əsas göstərilmədən vəsiyyətnamə ilə mirasdan məhrum edə bilər.

Vəsiyyətnamənin tərtib edildiyi məqamda öz hərəkətləri barəsində şüurlu mühakimə yürüdə bilən və öz iradəsini aydın ifadə edə bilən yetkinlik yaşına çatmış fəaliyyət qabiliyyətli hər bir şəxs vəsiyyət edə bilər.

## Vərəsələrin payları

Əgər vəsiyyətnamə ilə bir neçə vərəsə təyin edilmişdirsə, vəsiyyət edən vəsiyyətnamədə hansı vərəsəyə hansı əmlakın verildiyini konkret göstərə bilər. Əgər vəsiyyətnamədə bu cür göstəriş yoxdursa, miras vərəsələr arasında bərabər bölüşdürülür. Əgər vəsiyyətnamədə yalnız bir vərəsənin payı müəyyənləşdirilmişdirsə, digər vərəsələr qalan əmlakı bərabər alırlar. Əgər vəsiyyətnamə ilə bir neçə vərəsə təyin edilmişdirsə və vərəsələrdən birinə təyin edilmiş pay mirasın hamısından ibarətdirsə, vəsiyyət üzrə bütün vərəsələr bərabər paylar almalıdırlar.

Vəsiyyətnamə mirasın hamısını əhatə etmədiyi halda, vəsiyyətnamədən kənarda qalmış əmlak qanun üzrə vərəsələrə çatır.

Vəsiyyətnamədə bütün miras əmlakın vəsiyyət üzrə vərəsələr arasında bölüşdürüldüyü və mirasın açıldığı vaxt vərəsələrdən birinin sağ olmadığı halda onun əmlak payını vəsiyyət üzrə digər vərəsələr paylarına mütənasib surətdə alırlar.

## Vəsiyyətnamənin tərtibi

Vəsiyyətnaməni şəxsən vəsiyyət edən tərtib etməlidir. Vəsiyyətnamənin nümayəndə vasitəsilə tərtibinə yol verilmir. Bundan əlavə, vəsiyyətnamə yalnız bir miras qoyan tərəfindən tərtib edilir və onun iki və ya daha çox şəxs tərəfindən birgə tərtibinə yol verilmir. Yalnız ərlə arvad qarşılıqlı vərəsəlik haqqında birgə vəsiyyətnamə tərtib edə bilərlər. Bu vəsiyyətnamə ərin və ya arvadın tələbi ilə, lakin onların hər ikisinin sağlığında ləğv edilə bilər.

Vəsiyyətnamə yazılı formada tərtib edilməlidir. Qanunvericiliyə əsasən həm notariat formasında və ya bunsuz yazılı vəsiyyətnaməyə yol verilir.

Notariat forması tələb edir ki, vəsiyyətnaməni vəsiyyət edən tərtib etsin və imzalasın, notarius, notariusun olmadığı yerlərdə isə yerli özünüidarə orqanı təsdiqləsin. Eyni zaman vəsiyyətnaməni vəsiyyət edənin sözlərindən notariusun iki şahidin yanında yazmasına yol verilir. Vəsiyyət edənin sözlərindən notariusun yazdığı vəsiyyətnaməni vəsiyyət edən oxumalı və notariusun, şahidlərin yanında imzalamalıdır. Əgər vəsiyyət edən hər hansı səbəbdən vəsiyyətnaməni özü imzalaya bilmirsə, onun xahişi ilə başqa fiziki şəxs imzalaya bilər. Bu zaman vəsiyyət edənin hansı səbəbdən vəsiyyətnaməni imzalaya bilmədiyi göstərilməlidir.

Vəsiyyətnamə təsdiqlənərkən aşağıdakı şəxslər notariusa bərabər tutulurlar:

1. xəstəxananın, hospitalın, digər müalicə müəssisəsinin, sanatoriyanın baş həkimi, rəisi, onların tibbi hissə üzrə müavinləri və növbətçi həkimi və ya əlillər, sağlamlıq imkanları məhdud uşaqlar, qocalar evinin baş həkimi, xüsusi təhsil müəssisəsinin rəhbəri – əgər vəsiyyət edən bu müəssisədə müalicə edilirsə və ya yaşayırsa;

2. axtarış, coğrafi və digər bu cür ekspedisiyaların rəisi – əgər vəsiyyət edən belə ekspedisiyadadırsa;

3. dəniz və ya hava gəmisinin kapitanı – əgər vəsiyyət edən dəniz və ya hava gəmisindədirsə;

4. hərbi hissənin, birləşmənin, müəssisənin və məktəbin komandiri (rəisi) – əgər hərbi hissənin yerləşdiyi məntəqədə notarius yoxdursa və əgər vəsiyyət edən hərbi hissədə hərbi qulluqçudursa və ya həmin hissədə qulluq edən mülki şəxs, yaxud onun ailə üzvüdürsə;

5. azadlıqdan məhrumetmə yerinin rəisi – əgər vəsiyyət edən azadlıqdan məhrumetmə yerindədirsə.

## Vəsiyyətnamənin texniki vasitələrdən istifadə edilməklə tərtibi

Vəsiyyətnamənin mətni qəbul olunmuş texniki vasitənin köməyi ilə ifadə edilə bilər, lakin imzanı vəsiyyət edən qoymalıdır. Bu halda vəsiyyət edən vəsiyyətnaməni iki şahidin yanında tərtib etməli və imzalamalıdır. Həmin şahidlər təsdiq etməlidirlər ki, vəsiyyətnamə onların yanında texniki vasitədən istifadə edilməklə tərtib olunmuşdur. Vəsiyyət edən vəsiyyətnaməni imzaladıqdan dərhal sonra şahidlər vəsiyyətnamədə öz adlarını, soyadlarını və yaşayış yerlərini göstərməklə müvafiq qeyd vasitəsilə vəsiyyətnaməni təsdiqləməlidirlər.

## Lal-kar və kor şəxsin vəsiyyətnaməsi

Əgər vəsiyyət edən lal-kardırsa və ya lal-kar və savadsızdırsa, vəsiyyət sərəncamını o, notariusda iki şahidin və işin məğzini ona izah edə bilən və vəsiyyətnamənin məzmununun vəsiyyət edənin iradəsinə uyğunluğunu öz imzası ilə təsdiqləyə bilən bir nəfər şəxsin yanında tərtib etməlidir.

Kor və ya savadsız olan vəsiyyət edən vəsiyyət sərəncamını notariusda üç şahidin yanında tərtib etməlidir. Bu barədə müvafiq qeyd yazılıb ona oxunmalıdır.

Əgər vəsiyyət edən lal-kar-kordursa və ya lal-kar-kor və savadsızdırsa, vəsiyyət sərəncamını notariusda dörd şahidin və işin məğzini ona izah edə bilən və vəsiyyətnamənin məzmununun vəsiyyət edənin iradəsinə uyğunluğunu öz imzası ilə təsdiqləyə bilən bir nəfər şəxsin yanında tərtib etməlidir. Vəsiyyətnaməni şahidlər yaza və oxuya bilərlər, lakin vəsiyyətnaməni onu yazan oxumamalıdır.

Qeyddə onu kimin yazdığı və vəsiyyət edənə oxuduğu göstərilməlidir. Qeyd şahidlər tərəfindən imzalanmalı və notarius tərəfindən təsdiqlənməlidir.

## Vəsiyyətin şahidləri

Yetkinlik yaşına çatmayanlar, fəaliyyət qabiliyyəti olmayan sayılmış şəxslər, vəsiyyət üzrə vərəsələr və onların yüksələn və enən xətt üzrə qohumları, bacıları, qardaşları, arvadı (əri) və vəsiyyət tapşırığını alan şəxslər vəsiyyətin şahidləri ola bilməzlər.

## Vəsiyyətnamə sirri

Notarius, vəsiyyətnaməni təsdiqləmiş digər şəxs, şahid, habelə vəsiyyətnaməni vəsiyyət edənin əvəzinə imzalamış şəxslər vəsiyyətnamənin məzmununa, tərtibinə, dəyişdirilməsinə və ya ləğvinə aid məlumatları miras açılanadək açıqlaya bilməzlər.

## Qapalı vəsiyyətnamə

Vəsiyyət edənin arzusu ilə şahidlər vəsiyyətnaməni onun məzmunu ilə tanış olmadan (qapalı vəsiyyət) təsdiqləməlidirlər. Bu halda şahidlər vəsiyyətnamənin tərtibi zamanı vəsiyyət edənin yanında olmalıdırlar.

Qapalı vəsiyyətnaməni təsdiqləyərkən şahidlər vəsiyyətnamənin vəsiyyət edən tərəfindən onların yanında tərtib edildiyini, lakin vəsiyyətnamənin məzmununu bilmədiklərini göstərməlidirlər.

## Ehtiyat vərəsə

Vəsiyyət edən özünün təyin etdiyi vərəsənin miras açılanadək ölməsi və ya mirası qəbul etməməsi, yaxud vərəsəlik hüququndan məhrum edilməsi halı üçün vəsiyyətnamədə başqa vərəsənin (ehtiyat vərəsənin) adını göstərə bilər.

## Mirasda məcburi pay

Vəsiyyət edənin uşaqlarının, valideynlərinin və arvadının (ərinin) vəsiyyətnamənin məzmunundan asılı olmayaraq mirasda məcburi payı vardır. Bu pay qanun üzrə vərəsəlik zamanı onlara çatası payın yarısını (məcburi pay) təşkil etməlidir.

Məcburi payı tələb etmək hüququ mirasın açıldığı an əmələ gəlir. Bu cür tələb hüququ vərəsəlik üzrə keçir. Məcburi payı tələb etmək hüququ olan şəxs qarşısında digər vərəsələr birgə borclu kimi çıxış edirlər.

Məcburi payın tam həcmi vəsiyyət tapşırığını və ya ümumi faydalı məqsədlər üçün hər hansı hərəkəti yerinə yetirməkdən ötrü nəzərdə tutulan əmlak da daxil olmaqla, bütün mirasdan müəyyənləşdirilir.

Vərəsələrdən hər birinin məcburi payı müəyyənləşdirilərkən əgər vəsiyyətnamə olmasaydı, miras almağa çağırıla biləcək qanun üzrə vərəsələrin hamısı nəzərə alınır, vəsiyyət üzrə vərəsələr isə nəzərə alınmır.

Məcburi pay almaq hüququ olan şəxs miras qoyanın sağlığında ondan məcburi paya daxil edilmək şərti ilə aldıqlarının hamısını məcburi paya daxil etməyə borcludur.

Məcburi pay almaq hüququ olan vərəsə onu qəbul etməkdən imtina edə bilər, lakin bu imtina digər vərəsələrin məcburi payının artmasına səbəb olmur. Onun payı vəsiyyət üzrə vərəsələrə keçir.

Məcburi payın qəbul edilməsi və ya ondan imtina olunması mirasın qəbul edilməsi və ya ondan imtina olunması üçün müəyyənləşdirilmiş vaxt ərzində həyata keçirilməlidir.

Məcburi pay almaq hüququndan məhrumetmə, ümumiyyətlə, vərəsəlik hüququndan məhrumetməyə səbəb olan hallar olduqda mümkündür.

Məcburi pay almaq hüququndan məhrumetməni miras qoyan hələ öz sağlığında məhkəməyə müraciət etmək yolu ilə həyata keçirə bilər.

Məcburi pay almaq hüququndan məhrumetmə barəsində məhkəmənin çıxardığı qərar mirasın açıldığı andan qüvvədə olur. Miras qoyanın hələ öz sağlığında məhkəməyə müraciət etdiyi, lakin qərarın onun ölümündən sonra qəbul edildiyi halda da bu cür nəticə baş verir.

**Boşanmış və faktiki ayrılmış şəxslərin vərəsəlik hüquqları**

Qanunvericiliyə əsasən nikahı ləğv etmiş ər-arvad bir-birindən sonra vərəsə ola bilməzlər.

Əgər arvadın (ərin) miras qoyanla nikahına mirasın açılmasından azı üç il əvvəl faktiki xitam verildiyi və ərlə arvadın ayrı yaşadıqları təsdiq edilərsə, məhkəmənin qərarı ilə arvad (ər) qanun üzrə vərəsəlik hüququndan məhrum edilə bilər.

**Nikahdan kənar doğulmuş uşağın vərəsəlik hüququ**

Nikahdankənar uşaq o halda atasının vərəsəsi sayılır ki, atalıq qanunda nəzərdə tutulmuş qaydada müəyyənləşdirilmiş olsun. Əgər həmin uşaq atasından əvvəl ölərsə, onun uşaqları atalarına çatası mirasdan pay tələb edə bilərlər.

**Övladlığa götürülən və övladlığa götürən şəxslərin hüquqları**

Övladlığa götürülən və onun övladları övladlığa götürənin vərəsələri və ya qohumları kimi övladlığa götürənin uşaqlarına və onların övladlarına bərabər tutulurlar.

Övladlığa götürən və onun qohumları övladlığa götürülənin və onun övladlarının vərəsələri kimi övladlığa götürülənin valideynlərinə və digər qan qohumlarına bərabər tutulurlar. Övladlığa götürülən və ya onun övladları öldükdən sonra övladlığa götürülənin valideynlərinə, onun yüksələn xətt üzrə digər qan qohumlarına, bacı və qardaşlarına qanun üzrə vərəsəlik hüququ daha mənsub olmur.




**QADINLARIN ƏMƏK HÜQUQU**

## ƏMƏK MÜQAVİLƏSİ

**Əmək müqaviləsi nədir?**

Əmək müqaviləsi işəgötürənlə işçi arasında bağlanan və əmək münasibətlərinin əsas şərtlərini, tərəflərin hüquq və vəzifələrini müəyyən edən müqavilədir. Bu müqavilə bağlanarkən tərəflər arasında əmək münasibətləri yaranır. Əmək müqaviləsi yazılı formada bağlanır. Bu müqavilə iki nüsxədən az olmayaraq tərtib olunub tərəflərin imzası ilə təsdiq edilir və onun bir nüsxəsi işçidə, digər nüsxəsi isə işəgötürəndə saxlanılır.

**Sərbəst iradə tələbi**

Əmək müqavilələri tərəflərin sərbəst razılığı əsasında bağlanır. Əmək münasibətləri yaratmayan və ya yaratmaq istəməyən heç kəs əmək müqaviləsi bağlamağa məcbur edilə bilməz. Əmək müqaviləsinin şərtləri birtərəfli qaydada dəyişdirilə bilməz.

**Yaş həddi**

Azərbaycan Respublikasında əmək münasibətləri yalnız on beş yaşına çatmış şəxslə yaradıla bilər. Beləliklə, on beş yaşına çatmış istənilən şəxs işçi qismində əmək müqaviləsi bağlaya bilər. 15 yaşına çatmamış şəxslərlə bağlanılan əmək müqaviləsi etibarsız sayılır. On beş yaşından on səkkiz yaşınadək olan şəxslərlə əmək müqaviləsi bağlanarkən onların valideynlərindən və ya övladlığa götürənlərdən (qəyyumlarından) birinin və yaxud qanunla onları əvəz edən şəxslərin yazılı razılığı alınmalıdır.

**DİQQƏT EDİN!**

İşçilərin əmək hüquqlarının minimum səviyyəsi qanunvericiliklə müəyyən edilir. Bu səbəbdən əmək müqaviləsində işçilər üçün qanunvericiliklə müəyyən edilmiş hüquq və təminatların səviyyəsi azaldıla bilməz. Beləliklə, əmək müqaviləsində qanunvericiliklə nəzərdə tutulan hüquqların məhdudlaşdırılması qadağandır. Eyni zaman əmək müqaviləsi əmək qanunvericiliyinə nisbətən daha geniş hüquq və təminatlar nəzərdə tuta bilər.

**Əmək müqaviləsinin müddəti**

Əmək müqaviləsi müəyyən müddətə və ya müddətsiz bağlanıla bilər. Əmək müqaviləsində onun hansı müddətə bağlanması göstərilməmişdirsə, həmin müqavilə müddətsiz bağlanmış hesab edilir. Müddətli əmək müqaviləsi beş ilədək müddətə bağlanıla bilər. Əgər müddətli əmək müqaviləsi fasiləsiz olaraq 5 ildən artıq müddətə davam edərsə, bu halda o, müddətsiz əmək müqaviləsi hesab edilir.

**DİQQƏT EDİN!**

Müddəti müəyyən edilmədən bağlanmış əmək müqaviləsi hər iki tərəfin razılığı olmadan birtərəfli qaydada müddətli əmək müqaviləsi ilə əvəz edilə bilməz.

**Əmək müqaviləsinin bağlanması**

Əmək müqaviləsi əmək şəraitinin şərtləri, habelə tərəflərin razılaşdıqları əlavə şərtlər, işçinin əmək funksiyası və tərəflərin öhdəlikləri göstərilməklə fərdi qaydada bağlanılır. Əmək müqaviləsi kollektiv qaydada da bağlanıla bilər. Müvafiq işlərin görülməsi, xidmətlərin göstərilməsi (tikinti-təmir, yükləmə-boşaltma, məişət, ticarət, əkin-biçin, heyvandarlıq işləri) iki və daha çox işçi qrupu tərəfindən kollektiv halında həyata keçirilməklə əmək müqaviləsinin bağlanması kollektivin (briqadanın, işçi qrupunun) hər bir üzvünün yazılı razılığı ilə yol verilir. Bu halda işçilər, işəgötürənlə kollektiv əmək müqaviləsi bağlamaq üçün bir nümayəndəsini müvəkkil edir. Kollektiv əmək müqaviləsi bağlanılan hallarda işəgötürən kollektivin hər bir üzvü qarşısında qanunvericilik və əmək müqaviləsi ilə müəyyən edilmiş öhdəliklərini yerinə yetirməlidir.

**DİQQƏT EDİN!**

Hamilə və ya 3 yaşına çatmamış uşağın olması səbəbinə görə qadınla əmək müqaviləsinin bağlanmasından imtina etmək yolverilməzdir. İşəgötürən hamilə və ya 3 yaşına çatmamış uşağı olan qadınla bu səbəblərə görə əmək müqaviləsi bağlamaqdan imtina etdikdə, qadın imtinanın səbəbi barədə işəgötürəndən yazılı cavab verilməsini tələb etmək hüququna malikdir.

**Əmək müqaviləsinə dəyişikliklər**

Əmək müqaviləsinə dəyişikliklər yalnız tərəflərin razılığı ilə edilir. Razılaşdırılmış dəyişikliklər əmək müqaviləsinə daxil edilir. Həcmcə çox olduğuna görə dəyişiklikləri əmək müqaviləsinə daxil etmək mümkün olmadıqda ilkin əmək müqaviləsi yenidən tərtib edilir, yaxud həmin dəyişikliklər ayrılıqda tərtib edilib təsdiqlənirlər.

**Əmək müqaviləsi bağlanarkən işçinin təqdim etdiyi sənədlər**

Əmək müqaviləsi bağlanarkən işçi əmək kitabçası, habelə şəxsiyyətini təsdiq edən sənədi və dövlət sosial sığorta şəhadətnaməsini (ilk dəfə əmək fəaliyyətinə başlayanlar istisna olmaqla) təqdim edir. Əmək müqaviləsinin bağlanması işçinin müvafiq yaşayış məntəqəsində qeydiyyatının olub-olmaması ilə şərtləndirilə bilməz. Məcburi köçkün, onlara bərabər tutulan şəxs və ya qaçqın statusu olan, habelə Azərbaycan Respublikasında ilk dəfə əmək fəaliyyətinə başlayan işçilərlə, əcnəbilərlə və vətəndaşlığı olmayan şəxslərlə əmək kitabçası təqdim edilmədən əmək müqaviləsi bağlanıla bilər. Əmək müqaviləsi bağlanılarkən işçinin əmək funksiyasının xüsusiyyətlərinə uyğun olan peşə hazırlığının və ya təhsilin olması zəruri sayılan hallarda işəgötürənə təhsili barədə müvafiq sənəd təqdim edilir.

İşçinin səhhətinə, sağlamlığına mənfi təsir göstərən amillər olan ağır, zərərli və təhlükəli əmək şəraitli iş yerlərində, habelə əhalinin sağlamlığının mühafizəsi məqsədi ilə yeyinti sənayesi, ictimai iaşə, səhiyyə, ticarət və bu qəbildən olan digər iş yerlərində əmək müqaviləsi bağlanılarkən işçilər sağlamlığı haqqında tibbi arayış təqdim etməlidirlər.

**DİQQƏT EDİN!**

Əmək münasibətlərinə girən işçidən qanunvericilikdə nəzərdə tutulmamış, habelə işin (vəzifənin) xüsusiyyətlərinə uyğun gəlməyən əlavə sənədlərin tələb edilməsi qadağandır.

**Əmək müqaviləsinin qüvvəyə minməsi**

Əmək müqaviləsində başqa hal nəzərdə tutulmayıbsa, o, tərəflərin imzaladığı gündən qüvvəyə minir. İşçi qanunvericiliyin tələbləri pozularaq, yazılı əmək müqaviləsi olmadan, lakin əvvəlcədən işəgötürənin razılığı (tapşırığı) ilə faktiki olaraq işə başlamışsa, həmin andan əmək müqaviləsi bağlanmış hesab olunur və bu halda ən gec üç gün müddətində yazılı əmək müqaviləsi tərtib edilməlidir. Əmək müqaviləsinin hər hansı dövlət orqanında və ya digər qurumlarda qeydiyyata alınması, təsdiq edilməsi yolverilməzdir.

**Məcburi əməyin qadağan edilməsi**

Işçinin əmək funksiyası əmək müqaviləsi ilə müəyyən edilir. Hər hansı qayda və üsulla zor işlətməklə, həmçinin əmək müqaviləsinə xitam veriləcəyi hədə-qorxusu

ilə işçini əmək funksiyasına daxil olmayan işi (xidməti) yerinə yetirməyə məcbur etmək qadağandır. İşçini məcburi əməyə cəlb edən təqsirkar şəxslər məsuliyyətə cəlb edilirlər.

## SINAQ MÜDDƏTİ

İşçinin peşəkarlıq səviyyəsi və müvafiq əmək funksiyasını icra etmək bacarığını yoxlamaq məqsədi ilə əmək müqaviləsi bağlanarkən sınaq müddəti müəyyən edilə bilər. Sınaq müddəti 3 aydan artıq olmamalıdır. Sınaq müddəti işçinin faktiki olaraq əmək funksiyasını icra etdiyi iş vaxtından ibarətdir. Sınaq müddəti nəzərdə tutulduğu halda, bu barədə əmək müqaviləsində qeyd olmalıdır. Sınaq müddəti göstərilməyən əmək müqaviləsi sınaq müəyyən edilmədən bağlanmış hesab olunur.

Əmək müqaviləsində sınaq müddəti müəyyən edilərkən həmin müddət ərzində işçinin sınaq zamanı özünü doğrultmadığına görə işəgötürən tərəfindən əmək müqaviləsinə xitam verilməsi şərti göstərilməlidir.

Aşağıdakı hallarda sınaq müddətinin müəyyən edilməsi yolverilməzdir:

– yaşı 18-dən az olan şəxslərlə;

– müsabiqə yolu ilə müvafiq vəzifəni tutanlarla;

– hamilə və üç yaşına çatmamış uşağı olan qadınlara, habelə üç yaşınadək uşağını təkbaşına böyüdən kişilərə;

– təhsil müəssisələrini bitirdiyi ildə ixtisası (peşəsi) üzrə ilk dəfə işə götürülən şəxslərə;

– ödənişli seçkili vəzifəyə seçilmiş şəxslərə;

– iki ay müddətinədək əmək müqaviləsi bağlanılan şəxslərə;

Sınaq müddəti qurtaranadək tərəflərdən biri digərinə üç gün əvvəl yazılı xəbərdarlıq etməklə əmək müqaviləsini poza bilər. Sınaq müddəti qurtaranadək tərəflərdən biri əmək müqaviləsinin xitamını tələb etməyibsə, işçi sınaqdan çıxmış hesab edilir. Sınaq müddətində özünü doğrultmamış işçinin əmək müqaviləsinə işəgötürənin əsaslandırılmış əmri ilə xitam verilə bilər.

## İŞ VƏ İSTİRAHƏT VAXTI

**Tam iş vaxtı**

İş vaxtının müddəti əmək müqaviləsi ilə müəyyən edilir. Lakin, hər bir halda tam iş vaxtının müddəti gün ərzində **səkkiz saatdan**, həftə ərzində isə **40 saatdan** artıq müəyyən edilə bilməz. Bir qayda olaraq, hər bir işçi iki istirahət günündən istifadə etmək hüququna malikdir. Lakin, müəyyən hallarda, işin xarakterindən asılı olaraq altıgünlük iş həftəsi müəyyən edə bilər. Altıgünlük iş həftəsi müəyyən edildiyi hallarda, həftəlik iş vaxtının müddəti 40 saatdan artıq olmamaq şərti ilə gündəlik iş vaxtının müddəti 7 saatdan çox ola bilməz.

İş günü hesab edilməyən bayram günləri və ümumxalq hüzn günü qabağı iş gününün müddəti həftəlik iş günlərinin sayından asılı olmayaraq bir saat qısaldılır.

### Qısaldılmış iş vaxtı

İşçilərin ayrı-ayrı kateqoriyalarına, onların yaşı, səhhəti, əmək şəraiti, əmək funksiyasının xüsusiyyətləri nəzərə alınaraq qısaldılmış iş vaxtı müəyyən edilə bilər (misal üçün həkimlərə, müəllimlərə, elektrotexniki qurğularda, cihazlarda və qanunvericilikdə nəzərdə tutulan digər iş yerlərində işləyənlərə). Qısaldılmış iş vaxtının müddəti həftə ərzində 16 yaşınadək işçilər üçün 24 saatdan, 16 yaşdan 18 yaşadək işçilər və 1-ci, 2-ci qrup əlil olan işçilər üçün, həmçinin hamilə və yaşyarımadək uşağı olan qadınlar üçün 36 saatdan artıq olmamalıdır.

### Natamam iş vaxtı

İşəgötürən işçi ilə qarşılıqlı razılığa gələrkən işçi üçün natamam iş vaxtı müəyyən edə bilər. Natamam iş vaxtı əməyin ödənilməsi ya əmək funksiyasının icrasına sərf olunan vaxta mütənasib, ya da tərəflərin qarşılıqlı razılığı ilə müəyyən edilir.

Aşağıdakı hallarda işəgötürən işçinin xahişi ilə natamam iş vaxtı müəyyən etməyə borcludur:

– İşçinin səhhəti və fizioloji vəziyyəti (əlillik, 18 yaşınadək sağlamlıq imkanlarının məhdudluğu), habelə xroniki xəstəliyi olan uşağının və digər ailə üzvünün səhhəti müvafiq tibbi rəyə görə əmək funksiyasının natamam iş vaxtında yerinə yetirilməsini tələb edərsə, işəgötürən natamam iş günü və ya natamam iş həftəsi müəyyən etməlidir.

– Hamilə, 14 yaşına çatmamış uşağı, yaxud sağlamlıq imkanları məhdud uşağı olan, habelə tibbi rəy əsasında xəstə ailə üzvünə qulluq edən qadınların xahişi ilə işəgötürən onlara işlənmiş vaxta mütənasib əmək haqqı ödənilən natamam iş günü və ya natamam iş həftəsi müəyyən etməlidir. Bu halda qadının gündəlik və ya həftəlik iş vaxtının müddəti tərəflərin razılığı ilə müəyyən edilir.

**DİQQƏT EDİN!**

Əmək funksiyasını natamam iş vaxtında yerinə yetirən işçilərin əmək hüquqlarının məhdudlaşdırılması yolverilməzdir.

## Gecə vaxtı iş

Saat 22-dən səhər saat 6-dək olan müddət gecə vaxtı sayılır. Əgər işçinin gündəlik iş vaxtının ən azı yarısı gecə vaxtına düşərsə, onda həmin iş vaxtının gecə vaxtına düşən hissəsi bir saat qısaldılır.

**DIQQƏT EDİN!**

Gecə vaxtı görülən işlərə hamilə və üç yaşınadək uşağı olan qadınların, yaşı on səkkizdən az olan işçilərin cəlb edilməsinə yol verilmir.

**İstirahət və nahar üçün fasilə**

İş günü ərzində işçilərə istirahət və nahar etmək üçün fasilə verilməlidir. Əmək şəraitinin xarakterinə görə işi dayandırmaqla fasilənin vaxtını və davamiyyətini müəyyən etmək mümkün olmadıqda, işəgötürən işçiyə nahar etməyə şərait yaratmalıdır. İstirahət və nahar fasilələrinin müddəti iş vaxtına daxil edilmir. İstirahət və nahar fasilələrindən işçi öz mülahizəsi ilə istədiyi kimi istifadə edə bilər.

**Uşağı yedizdirmək üçün fasilə**

Yaş yarımına çatmamış uşağı olan qadınlara iş vaxtı ərzində istirahət və yemək üçün verilən ümumi fasilədən başqa, həm də uşağını yedizdirmək (əmizdirmək) üçün əlavə fasilələr verilməlidir. Bu fasilələrin hərəsi azı 30 dəqiqə olmaqla, hər 3 saatdan bir verilir. Qadının yaş yarımına çatmamış iki və daha çox uşağı olduqda hər fasilənin müddəti azı bir saat müəyyən edilir.

**DİQQƏT EDİN!**

Uşağın yedizdirilməsi ilə əlaqədar fasilələr iş vaxtına daxil edilir. Qadının istəyi ilə uşağın yedizdirilməsi üçün fasilələr cəmlənərək nahar və istirahət vaxtına birləşdirilə,

habelə iş vaxtının (növbəsinin) əvvəlində, yaxud axırında istifadə edilə bilər. Əgər qadın uşağın yedizdirilməsi üçün fasilələri cəmləyərək iş vaxtının sonunda istifadə etmək istəsə, onda onun iş günü həmin fasilələrin müddəti qədər qısaldılır.

## İstirahət günləri

Hər bir işçiyə həftələrarası fasiləsiz istirahət günlərindən istifadə etməyə şərait yaradılmalıdır. Həftələrarası istirahət günlərinin sayı beşgünlük iş həftəsində iki gün, altıgünlük iş həftəsində isə bir gün olmalıdır.

### Qadınların həkim müayinəsi üçün

– Hamilə və 3 yaşınadək uşağı olan qadınların həm özünün, həm də uşağının tibb müəssisələrində dispanser və ambulator müayinələrinin keçirildiyi, həkim məsləhətləri aparıldığı günlərdə orta əmək haqqı saxlanılır. Belə müayinələrin keçirilməsi üçün işəgötürən hökmən hamilə qadınlara zəruri şərait yaratmalıdır.

### Qan donorlarına

– Hər dəfə qan və ya qan komponentlərini təmənnasız verən donorlara orta əmək haqqı saxlanılmaqla əlavə istirahət günü verilir. Həmin istirahət günü donorun arzusu ilə onun illik məzuniyyətinə əlavə edilə və ya il ərzində istənilən vaxtda istifadə edilə bilər.

### Bayram günləri

Hazırda Azərbaycanda 21 bayram günü qeyri-iş günü hesab edilir. Yeni il bayramı, Qadınlar günü, Faşizm üzərində qələbə günü, Respublika günü, Azərbaycan xalqının milli qurtuluş günü, Azərbaycan Respublikasının Silahlı Qüvvələri günü, Azərbaycan Respublikasının Dövlət bayrağı günü, Dünya azərbaycanlılarının həmrəyliyi günü, Novruz bayramı, Qurban bayramı, Ramazan bayramı günləri iş günü hesab edilmir.

Həftələrarası istirahət günləri və iş günü hesab olunmayan bayram günləri üst-üstə düşərsə, həmin istirahət günü bilavasitə bayram günündən sonrakı iş gününə keçirilir. Yalnız Qurban və Ramazan bayramları iş günü hesab olunmayan başqa bayram günü ilə üst-üstə düşdükdə növbəti iş günü istirahət günü hesab edilir.

### Səsvermə günü

Azərbaycan Respublikası Milli Məclisi deputatlarının, Azərbaycan Respublikası Prezidentinin, Azərbaycan Respublikasında bələdiyyə üzvlərinin seçkiləri, həmçinin

referendum zamanı səsvermə günü seçki (referendum) keçirilən ərazidə iş günü hesab edilmir.

**<u>Ümumxalq hüzn günü</u>**

Hər il yanvarın 20-si – Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda həlak olmuş şəhidlərin xatirəsini yad etmə günü – ümumxalq hüzn günüdür.

**DIQQƏT EDİN!**

Bir qayda olaraq istirahət, səsvermə, bayram günlərində və ümumxalq hüzn günü işçilərin işə cəlb olunması yolverilməzdir. Belə günlərdə işçilərin işə cəlb edilməsində yalnız müstəsna hallarda icazə verilir. Hamilə qadınların və 3 yaşına çatmamış uşağı olan qadınların istirahət, iş günü hesab edilməyən bayram və digər günlərdə işə cəlb edilməsinə yol verilmir. 3 yaşından 14 yaşınadək uşağı olan, həmçinin sağlamlıq imkanları məhdud uşağı olan qadınların iş vaxtından artıq işlərə, istirahət, bayram və iş günü hesab olunmayan digər günlərdə işə cəlb edilməsinə yalnız onların razılığı ilə yol verilir.

## MƏZUNİYYƏT HÜQUQU

Hər bir işçi vəzifəsindən, peşəsindən, əmək şəraitindən və əmək müqaviləsinin müddətindən asılı olmayaraq, məzuniyyət hüququna malikdir.

**DİQQƏT EDİN!**

İşəgötürən tərəfindən işçiyə əmək məzuniyyətinin verilməməyi qadağandır. İşçi müvafiq iş ilində əmək məzuniyyətindən istənilən səbəbdən istifadə etmədikdə ona həmin iş ili və ya iş illəri üçün istifadə edilməmiş əmək məzuniyyətinə görə kompensasiya ödənilir.

Birinci dəfə əmək məzuniyyətindən istifadə etmək hüququ əmək müqaviləsinin bağlandığı andan etibarən altı ay sonra əmələ gəlir. Lakin, aşağıdakı kateqoriya işçilər bu müddətin keçməsindən əvvəl məzuniyyətə çıxa bilər:

a) qadınlar hamiləliyə və doğuşa görə – sosial məzuniyyətdən bilavasitə əvvəl, yaxud sonra;



b) on səkkiz yaşına çatmamış işçilər;

c) müddətli hərbi xidmətdən buraxıldıqdan 3 ay keçənədək işə götürülən işçilər;

ç) əsas iş yerində məzuniyyətə çıxan əvəzçilik üzrə işləyənlərin;

d) hərbi qulluqçu arvadının (ərinin);

e) təhsil müəssisələrində oxuyan şəxslərin – kurs işlərinin və ya imtahanların verildiyi, diplomun müdafiə edildiyi vaxtda;

ə) əlillərin.

Məzuniyyətin növləri:

a) əmək məzuniyyəti

b) sosial məzuniyyət

c) təhsilini və yaradıcılıq məzuniyyəti;

ç) ödənişsiz məzuniyyət

**A) Əmək məzuniyyəti**

Əmək məzuniyyəti hər il müvafiq iş ili üçün verilir. İş ili işçinin işə götürüldüyü gündən başlanır və növbəti ilin həmin günü başa çatır. Əmək məzuniyyəti əsas və əlavə məzuniyyətlərdən ibarətdir.

Əsas məzuniyyət 21 təqvim günündən az olmayaraq verilməlidir. Müəyyən işçilərə işin mahiyyəti ilə bağlı olaraq əsas məzuniyyət daha artıq müddətlərdə verilir:

<u>30 təqvim günü müddətində məzuniyyət hüququ olan işçilər:</u>

a) kənd təsərrüfatı məhsullarının istehsalında çalışanlar;

b) məsul vəzifələrdə (vəzifənin məsulluğu işin xüsusiyyətləri nəzərə alınmaqla işə-götürən tərəfindən müəyyən edilir) qulluq keçən dövlət qulluqçularına, müəssisənin rəhbər işçilər və mütəxəssislər;

c) xüsusi təhsil müəssisələri istisna olmaqla, təhsil müəssisəsində pedaqoji iş aparmayan rəhbər işçilərə və inzibati-tədris heyəti işçilərinə, habelə məktəbdənkənar uşaq müəssisələrinin rəhbərləri;

ç) təhsil müəssisələrinin metodistlərinə, baş ustalarına, istehsalat təlimi ustalarına, təlimatçılarına, kitabxanaçılarına, laborantlarına, emalatxana rəhbərlərinə, dayələrə, dəyişək xidmətçilərinə, bədii rəhbərləri;

d) elmi dərəcəsi olmayan elmi işçilər;

e) həkimlər, orta tibb işçiləri və əczaçılar.

56 təqvim günü müddətində məzuniyyət hüququ olan işçilər:

a) illik normanın üçdə bir hissəsindən az olmamaqla pedaqoji iş aparan təhsil müəssisələrinin rəhbər işçilərinə, tərbiyəçilərinə, təlimatçılarına, dərnək və musiqi rəhbərlərinə, konsertmeysterlərə, akkompaniatorlara, xormeysterlərə və başqa musiqi işçilərinə;

b) bütün ixtisas və adlardan olan müəllimlərə (məşqçi müəllimlərdən başqa);

c) uşaq birliyi rəhbərlərinə, magistrlərinə, praktik psixoloqlara, loqopedlərə, surdopedaqoqlara;

ç) təhsil müəssisələrinin tərbiyəçilərinə (ümumtəhsil internat məktəbləri, xüsusi məktəblər və xüsusi internat məktəblərinin tərbiyəçilərindən başqa), eşitmə kabinetlərinin təlimatçılarına, dərnək rəhbərlərinə, hərbi rəhbərlərə, bədən tərbiyəsi rəhbərlərinə;

d) sosial müdafiə orqanlarının və səhiyyə təşkilatlarının bilavasitə pedaqoji fəaliyyətlə məşğul olan işçilərinə;

e) elmi tədqiqat müəssisələrinin, habelə ali təhsil müəssisələrinin elmi tədqiqat bölmələrinin elmlər doktoru elmi dərəcəsi olan əməkdaşlarına, rəhbərlərinə və onların elmi işlər üzrə müavinlərinə, elmi katiblərinə;

ə) müvafiq elmi şuranın qərarı əsasında müstəqil elmi tədqiqat işləri aparan elmi işçilərə.

42 təqvim günü müddətində məzuniyyət hüququ olan işçilər:

a) uşaq evlərinin, məktəbəqədər uşaq tərbiyə müəssisələrinin rəhbər işçilərinə, tərbiyəçilərinə, musiqi rəhbərlərinə, praktik psixoloqlara;

b) metodika kabinetlərinin və mərkəzlərinin rəhbərlərinə, metodistlərinə və təlimatçılarına;

c) ümumtəhsil internat məktəbləri, xüsusi məktəblər və xüsusi internat məktəblərinin tərbiyəçilərinə;

ç) məktəbdənkənar uşaq müəssisələrinin dərnək rəhbərlərinə, kütləvi işçilərinə;

d) məşqçi müəllimlərə;

e) elmi tədqiqat müəssisələrinin, habelə ali təhsil müəssisələrinin elmi tədqiqat bölmələrinin fəlsəfə doktoru elmi dərəcəsi olan əməkdaşlarına, rəhbərlərinə və onların elmi işlər üzrə müavinlərinə, elmi katiblərinə.



Fizioloji keyfiyyətləri ilə bağlı işçilərin məzuniyyətlərinin müddətləri

Yaşla bağlı:

Yaşı 16-dan az olan işçilərə əmək məzuniyyəti 42 təqvim günündən, 16 yaşından 18 yaşınadək işçilərə isə 35 təqvim günündən az olmamalıdır.

Səhhətlə bağlı:

Əlilliyin qrupundan, səbəbindən və müddətindən asılı olmayaraq işləyən əlillərə və sağlamlıq imkanları məhdud olan 18 yaşınadək işçilərə əmək məzuniyyəti 42 təqvim günündən az olmayaraq verilir.

<u>Azərbaycan xalqı qarşısında xüsusi xidmətləri olan işçilərin əmək məzuniyyətinin müddəti</u>

Azərbaycan Respublikasının azadlığı, suverenliyi və ərazi bütövlüyü uğrunda xəsarət (yaralanma, travma, kontuziya) alan işçilərə, Azərbaycanın Milli Qəhrəmanlarına, Sovet İttifaqı Qəhrəmanlarına, 1941-1945-ci illər müharibəsində döyüş əməliyyatlarında iştirak etmiş, habelə hərbi xidmətdə olmuş, lakin döyüş əməliyyatlarında iştirak etməmiş hərbi qulluqçulara, İstiqlal ordeni ilə, habelə Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünün müdafiəsi ilə bağlı digər dövlət təltifləri ilə təltif olunmuş işçilərə məzuniyyət 46 təqvim günündən az olmayaraq verilir.

<u>Teatr-tamaşa və bunlara uyğun digər müəssisələrin işçilərinin əmək məzuniyyətləri</u>

Teatr-tamaşa müəssisələrinin, televiziya, radio və kinematoqrafiya qurumlarının bədii və artist heyətlərinə əmək məzuniyyəti 42 təqvim günü, bilavasitə səhnəyə xidmət edən işçilərinə isə 35 təqvim günü müddətində verilir.

Əlavə məzuniyyətin növləri:

– Əmək şəraitinə və əmək funksiyasının xüsusiyyətlərinə görə

Yeraltı işlərdə çalışan, əmək şəraiti zərərli və ağır, habelə əmək funksiyası yüksək həssaslıq, həyəcan, zehni və fiziki gərginliklə bağlı olan işçilərə əməyin şəraitinə və əmək funksiyasının xüsusiyyətlərinə görə əlavə məzuniyyətlər verilir. Əmək şəraitinə və əmək funksiyasının xüsusiyyətlərinə görə əlavə məzuniyyətin müddəti 6 təqvim günündən az olmamalıdır.

– Əmək stajına görə

Əmək stajından asılı olaraq işçilərə:

beş ildən on ilədək əmək stajı olduqda – 2 təqvim günü;

on ildən on beş ilədək əmək stajı olduqda – 4 təqvim günü;

on beş ildən çox əmək stajı olduqda – 6 təqvim günü müddətində əlavə məzuniyyət verilir.

– Uşaqlı qadınların əlavə məzuniyyətləri

Əsas və əlavə məzuniyyətlərin müddətindən asılı olmayaraq, 14 yaşınadək iki uşağı olan qadınlara 2 təqvim günü, bu yaşda üç və daha çox uşağı olan, həmçinin sağlamlıq imkanları məhdud uşağı olan qadınlara isə 5 təqvim günü müddətində əlavə məzuniyyət verilir. Uşaqlarını təkbaşına böyüdən ataların, həmçinin uşaqları övladlığa götürmüş şəxslərin bu maddənin birinci hissəsində nəzərdə tutulan əlavə məzuniyyət hüququ vardır.

**B) Sosial məzuniyyət**

– Hamiləliyə və doğuşa görə məzuniyyət

Hamiləlik dövründə və doğuşdan sonrakı dövr üçün işləyən qadınlara 126 təqvim günü (doğuşdan əvvəl 70 təqvim günü və doğuşdan sonra 56 təqvim günü) müddətində ödənişli məzuniyyət verilir. Doğuş çətin olduqda, iki və daha çox uşaq doğulduqda doğuşdan sonrakı məzuniyyət 70 təqvim günü müddətində verilir.

Kənd təsərrüfatı istehsalında çalışan qadınlara hamiləliyə və doğuşa görə məzuniyyət aşağıdakı müddətlərdə verilir:

a) normal doğuşda 140 təqvim günü (doğuşdan əvvəl 70 təqvim günü və doğuşdan sonra 70 təqvim günü);

b) doğuş çətin olduqda 156 təqvim günü (doğuşdan əvvəl 70 təqvim günü və doğuşdan sonra 86 təqvim günü);

c) iki və daha çox uşaq doğulduqda 180 təqvim günü (doğuşdan əvvəl 70 təqvim günü və doğuşdan sonra 110 təqvim günü).

– Uşaqları övladlığa götürmüş qadınların məzuniyyət hüquqları

İki aylığadək yaşında uşağı övladlığa götürən, yaxud övladlığa götürmədən böyüdən qadınlar doğuşdan sonra müəyyən edilmiş 56 günlük sosial məzuniyyətdən, həmçinin bu Məcəllənin 117-ci maddəsi ilə müəyyən edilmiş əlavə və 127-ci maddəsində nəzərdə tutulmuş qismən ödənişli məzuniyyətlərdən istifadə etmək hüququna malikdirlər.

– Qismən ödənişli sosial məzuniyyət hüququ və ondan istifadə qaydaları

Uşağa bilavasitə qulluq edən valideynlərdən biri, yaxud ailənin başqa üzvü uşağın üç yaşı tamam olanadək ona qulluq etməkdən ötrü qanunvericiliklə müəyyən edilmiş məbləğdə müavinət verilən qismən ödənişli sosial məzuniyyət almaq hüququna malikdirlər. Uşağa qulluq edən işçi yazılı ərizəsi əsasında qismən ödənişli sosial məzuniyyət hüququndan tam, yaxud hissə-hissə istifadə edə bilər.

**<u>C) Təhsil və yaradıcılıq məzuniyyəti</u>**

Əmək münasibətlərində olmaqla yanaşı doktoranturada müvafiq elmi dərəcə almaq üçün təhsilini davam etdirən işçilərə dissertasiya işlərini tamamlamaq, həmçinin müəlliflərə dərsliklər və ya dərs vəsaiti yazmaq üçün ödənişli yaradıcılıq məzuniyyətləri verilə bilər. Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün dissertasiya işini tamamlamaqdan ötrü iki təqvim ayınadək, elmlər doktoru elmi dərəcəsi almaq üçün dissertasiya işini tamamlamaqdan ötrü isə üç təqvim ayınadək ödənişli yaradıcılıq məzuniyyəti verilir. Bu yaradıcılıq məzuniyyətlərindən işçi müvafiq elmi şuranın qərarına uyğun olaraq ona verilən arayış əsasında istifadə edir.

İşləməklə yanaşı doktoranturada təhsil alan (o cümlədən doktoranturaya daxil olmaq üçün) işçilərə hər tədris ilində 30 təqvim günü ödənişli məzuniyyət verilir. Dərsliklər və ya dərs vəsaitləri yazmaqla məşğul olan işçilərə 3 ayadək ödənişli yaradıcılıq məzuniyyəti verilə bilər.

Ödənişli təhsil məzuniyyətləri

İşləməklə yanaşı təhsil alan işçilərə aşağıdakı ödənişli təhsil məzuniyyətləri verilir:

a) müvafiq tədris mövsümü sessiyalarında tədris-təlimdə iştirak etmək, laboratoriya işlərini yerinə yetirmək, yoxlamaları və imtahanları vermək üçün;

b) dövlət imtahanlarını vermək üçün;

c) diplom layihəsini (işini) hazırlamaq və müdafiə etmək üçün.

Ali təhsil müəssisələrinin qiyabi şöbələrində oxuyan işçilərə laboratoriya işlərini yerinə yetirdikləri, yoxlama və imtahan verdikləri dövrdə hər tədris ilində birinci və ikinci kurslarda 30 təqvim günü, qalan kurslarda 40 təqvim günü, orta ixtisas təhsili

müəssisələrinin qiyabi şöbələrində oxuyan işçilərə isə birinci və ikinci kurslarda 20 təqvim günü, digər kurslarda 30 təqvim günü müddətində məzuniyyət verilir.

Ali və orta ixtisas təhsili müəssisələrinin qiyabi şöbələrində təhsil alan işçilərə dövlət imtahanları dövründə 30 təqvim günü müddətində məzuniyyət verilir. Diplom işinin hazırlandığı və müdafiə edildiyi dövrdə ali təhsil müəssisələrinin qiyabi şöbələrində təhsil alan işçilərə 4 təqvim ayınadək, orta ixtisas təhsili müəssisələrinin qiyabi şöbələrində təhsil alan işçilərə isə 2 təqvim ayınadək məzuniyyət verilir. Peşə məktəblərində, peşə litseylərində istehsalatdan ayrılmadan təhsil alan işçilərə imtahanlara hazırlaşmaq və imtahanları vermək üçün tədris ilində 30 təqvim günü müddətində məzuniyyət verilir.

Ümumtəhsil müəssisələrinin qiyabi qruplarında təhsil alan işçilərə buraxılış siniflərində imtahanlarını vermək üçün 20 təqvim günü müddətində məzuniyyət verilir.

**ç) Ödənişsiz məzuniyyətdən istifadə hüququ**

Qohumluq borcunun yerinə yetirilməsi ilə bağlı ailə, məişət və başqa sosial məsələləri təxirə salmadan həll etmək, təhsil almaq, yaradıcı elmi işlə məşğul olmaq üçün, habelə yaşına, fizioloji keyfiyyətlərinə görə işdən ayrılmaq zərurəti olduqda işçinin ödənişsiz məzuniyyətlərdən istifadə etmək hüququ vardır. Ödənişsiz məzuniyyətlər işçi və işəgötürənin qarşılıqlı razılığı ilə verilir.

## ƏMƏK MÜQAVİLƏSİNƏ XİTAM VERİLMƏ

Əmək müqaviləsinə yalnız bu hallarda xitam verilə bilər:

a) tərəflərdən birinin təşəbbüsü ilə

b) əmək müqaviləsinin müddətinin qurtarması halında

c) əmək şəraitinin şərtlərinin dəyişdirilməsi

ç) müəssisənin mülkiyyətçisinin dəyişməsi ilə əlaqədar (yalnız bəzi işçilərə aiddir);

d) tərəflərin iradəsindən asılı olmayan hallar;

e) tərəflərin əmək müqaviləsində müəyyən etdiyi hallar.

a) Tərəflərdən birinin təşəbbüsü ilə

Əmək müqaviləsinin işçi tərəfindən ləğv edilməsi qaydası

İşçi bir təqvim ayı qabaqcadan işəgötürəni yazılı ərizəsi ilə xəbərdar etməklə əmək müqaviləsini ləğv edə bilər. Ərizə verildiyi gündən bir təqvim ayı bitdikdən sonra işçi işə çıxmamaq və son haqq-hesabının aparılmasını tələb etmək hüququna malikdir. Bu halda işəgötürən işçinin tələblərini yerinə yetirməyə borcludur.

İşçi yaşa, əlilliyə görə təqaüdə çıxdıqda, təhsilini davam etdirmək üçün müvafiq təhsil müəssisəsinə daxil olduqda, yeni yaşayış yerinə köçdükdə, başqa işəgötürənlə əmək müqaviləsi bağladıqda, seksual qısnamaya məruz qaldıqda hallarda ərizəsində göstərdiyi gün əmək müqaviləsi ləğv edilə bilər.

Əmək müqaviləsini ləğv etmək barədə ərizə vermiş işçi xəbərdarlıq müddəti bitənədək istədiyi vaxt ərizəsini geri götürə və ya onu etibarsız hesab etmək barədə işəgötürənə yeni ərizə verə bilər. Bu halda əmək müqaviləsi ləğv edilə bilməz, bu şərtlə ki, işəgötürən həmin vəzifəyə (peşəyə) yeni işçinin götürülməsi barədə işçiyə rəsmi qaydada yazılı xəbərdarlıq etməmiş olsun.

İşəgötürən tərəfindən əmək müqaviləsinin ləğv edilmə

Əmək müqaviləsi işəgötürən tərəfindən aşağıdakı əsaslarla ləğv edilə bilər:

a) müəssisə ləğv edildikdə;

b) işçilərin sayı və ya ştatları ixtisar edildikdə;

c) peşəkarlıq səviyyəsinin, ixtisasının (peşəsinin) kifayət dərəcədə olmadığına görə işçinin tutduğu vəzifəyə uyğun gəlmədiyi barədə səlahiyyətli orqan tərəfindən müvafiq qərar qəbul edildikdə;

ç) işçi özünün əmək funksiyasını və ya əmək müqaviləsi üzrə öhdəliklərini yerinə yetirmədikdə, yaxud bu Məcəllənin əmək vəzifələrini kobud şəkildə pozduqda (add);

d) sınaq müddəti ərzində işçi özünü doğrultmadıqda;

e) dövlət büdcəsindən maliyyələşən müəssisənin işçisi çalışmanın yaş həddinə çatdıqda.

İşçilərin sayı azaldıqda və ya ştatları ixtisar olunduqda işəgötürən əmək müqaviləsini ləğv etməzdən azı iki ay əvvəl işçini rəsmi xəbərdar etməlidir. Xəbərdarlıq müddəti ərzində hər iş həftəsində əmək haqqı saxlanılmaqla iş axtarmağa imkan yaradılması məqsədi ilə işçi azı bir iş günü əmək funksiyasının icrasından azad edilir.

**b) əmək müqaviləsinin müddətinin qurtarması halında**

Müddətli əmək müqaviləsinin müddəti qurtardıqda ona xitam verilir. Müddətli əmək müqaviləsində göstərilən müddət qurtardıqda əmək münasibətləri davam etdirilərsə və müddət bitdikdən sonrakı bir həftə ərzində tərəflərdən heç biri müqaviləyə xitam verilməsini tələb etmirsə, həmin əmək müqaviləsi əvvəl müəyyən olunmuş müddətə uzadılmış hesab olunur.

İşçinin müəyyən üzürlü səbəbdən (misal üçün xəstələnməsi, ezamiyyətdə, məzuniyyətdə olması) iş yerində olmadığı dövrdə müddətli əmək müqaviləsinin müddəti qurtardığı hallarda həmin müqaviləyə işçi işə çıxdıqdan sonra işəgötürənin müəyyən etdiyi gündə, lakin onun işə çıxdığı gündən bir təqvim həftəsi keçməmiş xitam verilə bilər.

**c) əmək şəraitinin şərtlərinin dəyişdirilməsi**

İstehsalın və əməyin təşkilində dəyişikliklər edilməsi zəruriyyəti olduqda işçinin peşəsi, ixtisası və vəzifəsi üzrə işi davam etdirməklə əmək şəraitinin şərtlərinin dəyişdirilməsinə yol verilir.

İşəgötürən əmək şəraitinin şərtlərini dəyişdirməzdən azı bir ay əvvəl işçini yazılı məlumatı və ya əmri (sərəncamı) ilə xəbərdar etməlidir. Əgər işçi yeni əmək şəraiti ilə işi davam etdirməyə razılıq vermirsə, onda o, başqa vəzifəyə keçirilməli, bu mümkün olmadıqda isə əmək şəraitinin şərtlərinin dəyişdirilməsi səbəbindən əmək müqaviləsinə xitam verilə bilər.

**ç) müəssisənin mülkiyyətçisinin dəyişməsi ilə əlaqədar**

Yeni mülkiyyətçi tərəfindən müəssisənin işəgötürəninin (rəhbərinin), onun müavinlərinin, baş mühasibin və bilavasitə idarəetmə funksiyasını yerinə yetirən digər struktur bölmələrin rəhbərlərinin əmək müqavilələrinə mülkiyyətçinin dəyişməsi ilə əlaqədar xitam verilə bilər.

**d) tərəflərin iradəsindən asılı olmayan hallar**

Tərəflərin iradəsindən asılı olmayan hallarda əmək müqaviləsinə xitam verilmə

Tərəflərin iradəsindən və ya istəyindən asılı olmayaraq əmək müqaviləsinə aşağıdakı hallarda xitam verilir:

a) işçi hərbi və ya alternativ xidmətə çağırıldıqda;

b) əvvəllər müvafiq işdə (vəzifədə) çalışan işçinin işinə (vəzifəsinə) bərpa edilməsi barədə məhkəmənin qanuni qüvvəyə minmiş qətnaməsi (qərarı) olduqda.

c) qanunvericiliklə daha uzun müddət müəyyən edilməyibsə, əmək qabiliyyətinin fasiləsiz olaraq altı aydan çox müddətə tam itirilməsi ilə əlaqədar işçi əmək funksiyasını yerinə yetirə bilmədikdə;

ç) İşçinin nəqliyyat vasitəsini idarəetmə hüququndan məhrum etmə, müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə, müəyyən müddətə azadlıqdan məhrum etmə və ya ömürlük azadlıqdan məhrum etmə cəzasına məhkum edildiyi barədə məhkəmənin hökmü qanuni qüvvəyə mindikdə;

d) məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə işçinin fəaliyyət qabiliyyətsizliyi təsdiq edildikdə;

e) işçi vəfat etdikdə;

ə) əvvəllər həmin müəssisədə çalışan işçi müddətli həqiqi hərbi xidmətdən ehtiyata buraxıldıqdan sonra öz iş yerinə (vəzifəsinə) qayıtmaq hüququndan istifadə edildikdə.

**İxtisarı zamanı işdə saxlanmağa üstünlüyü olan şəxslər**

Müvafiq hallarda işçilərin sayı azaldılarkən və ya ştatların ixtisarı həyata keçirilərkən müəyyən vəzifələr üzrə əmək funksiyasının icrası üçün tələb olunan ixtisasın (peşəsinin) və peşəkarlıq səviyyəsinin daha yüksəyinə malik olan işçilər işdə saxlanılır. İşçinin peşəkarlıq səviyyəsini işəgötürən müəyyən edir.

İşəgötürən ixtisasları (peşələri) və ya peşəkarlıq səviyyələri eyni olduqda aşağıdakı şəxslərin işdə saxlanmasına üstünlük verir:

şəhid ailəsinin üzvlərinə;

müharibə iştirakçılarına;

əsgər və zabitlərin arvadına (ərinə);

öhdəsində iki və daha çox 16 yaşınadək uşağı olanlara;

həmin müəssisədə əmək şikəstliyi almış və ya peşə xəstəliyinə tutulmuşlara;

xüsusi məcburi köçkün, onlara bərabər tutulan şəxs və qaçqın statusu olan şəxslərə;

kollektiv müqavilələrdə və ya əmək müqavilələrində nəzərdə tutulan digər şəxslərə.

**DİQQƏT EDİN!**

Aşağıda göstərilən hallarda işəgötürən əmək müqaviləsinin ləğv edə bilməz (Müəssisə ləğv edildiyi və müqavilənin bitməsi halları istisna olmaqla):

– Əgər işçi hamilə, habelə üç yaşınadək uşağı olan qadın və ya üç yaşınadək uşağını təkbaşına böyüdən kişidirsə;

– Əgər işçi məktəb yaşınadək uşağını təkbaşına böyüdürsə və yeganə qazanc yeri işlədiyi müəssisədirsə

– Əgər işçi əmək qabiliyyətini müvəqqəti itiribsə

– İşçinin şəkərli diabetlə xəstə olması səbəbinə görə

– həmkarlar ittifaqları təşkilatının və ya hər hansı siyasi partiyanın üzvü olması motivinə görə

– əgər sağlamlıq imkanları məhdud 18 yaşınadək və ya I qrup əlil ailə üzvü işçinin öhdəsindədir;

– məzuniyyətdə, ezamiyyətdə olduğu vaxtda

## ƏMƏK MÜBAHİSƏSİ

Əmək mübahisəsi iş münasibətlərində işəgötürənlə işçi arasında yaranan fikir ayrılığıdır. Eyni zaman, əmək mübahisəsi işə götürməkdən imtina ilə bağlı da ola bilər. Əmək mübahisələrinə bilavasitə məhkəmələr tərəfindən baxılır, əgər əmək müqaviləsində başqa qaydalar müəyyən edilməyibsə. Əmək mübahisələrinə məhkəmələrdə baxılması qaydası əsasən Azərbaycan Respublikasının Əmək Məcəlləsi, Mülki-Prosesual Məcəlləsi ilə tənzimlənir.

**<u>İddia müddətləri</u>**

Bir qayda olaraq fərdi əmək mübahisəsinin həll edilməsi üçün işçi hüququnun pozulduğunu aşkar etdiyi gündən etibarən 1 təqvim ayı ərzində məhkəməyə müraciət edə bilər. Hüququnun pozulmasının aşkar edildiyi gün, işçiyə müvafiq əmrin, (sərəncamın, qərarın), əmək kitabçasının, haqq-hesab sənədlərinin (kitabçasının, vərəqəsinin, çekinin) verildiyi, həmçinin əmək müqaviləsinin şərtlərinin işəgötürən tərəfindən müvafiq qaydada sənədləşdirilmədən bilə-bilə qəsdən pozulduğu gündür.

**DİQQƏT EDİN!**

İşçilərin həyatına və sağlamlığına vurulmuş zərərin ödənilməsi haqqında tələblərə iddia müddəti şamil edilmir.

Pul və digər əmlak tələbləri ilə əlaqədar, həmçinin ziyan vurulmaqla bağlı yaranmış əmək mübahisələrinin həlli üçün işçi, hüququnun pozulduğunu aşkar etdiyi gündən etibarən 1 il ərzində məhkəməyə müraciət edə bilər.

## İDDİA MÜDDƏTİNİN BƏRPA EDİLMƏSİ

Əmək mübahisəsinin həll edilməsi məqsədilə məhkəməyə müraciət üçün göstərilən müddətlər üzrlü səbəblərdən – iddiaçının xəstələnməsi, ezamiyyətdə, yaşayış yerindən kənarda məzuniyyətdə olması, yaxın qohumunun ölməsi və digər obyektiv hallarla bağlı səbəblərdən ötürülərsə, fərdi əmək mübahisəsinə baxan orqan buraxılmış müddəti bərpa edərək mübahisəyə mahiyyəti üzrə baxa bilər.

**<u>Əmək müqaviləsinin ləğv edilməsi qaydalarına işəgötürən tərəfindən əməl olunmamasının hüquqi nəticələri</u>**

Əgər, işəgötürən əmək müqaviləsini pozarkən qanunvericilik tələblərinə əməl etməyibsə, bu halda əmək mübahisəsini həll edən məhkəmə iddia ərizəsini və işin faktiki hallarını araşdıraraq məcburi iş buraxma müddəti üçün əmək haqqı ödənilməklə işçinin vəzifəsinə bərpa edilməsi barədə qətnamə çıxara bilər. Məhkəmə qətnamədə işçiyə iddiası üzrə dəymiş zərərin məbləğinin işəgötürən tərəfindən ödənilməsini də nəzərdə tuta bilər.

«Dəymiş zərərin məbləği» dedikdə işçinin işdən çıxarılması ilə əlaqədar işləmədiyi müddətin orta əmək haqqı, fərdi əmək mübahisəsinə məhkəmədə baxılması ilə əlaqədar məhkəmədə hüququnun müdafiəsi üçün vəkil (müdafiəçi) tutması ilə əlaqədar çəkdiyi xərclərin məbləği, eləcə də işçinin iddia ərizəsi ilə tələb etdiyi mənəvi ziyanın, işsiz qalması ilə əlaqədar borc alması, şəxsi əşyalarının satılması nəticəsində çəkdiyi, habelə digər xərclərin məcmusu başa düşülməlidir.

İşəgötürən və işçi fərdi əmək mübahisəsinin məhkəmədə həlli prosesində qarşılıqlı razılıqla yazılı barışıq sazişi bağlayarlarsa, hakim tərəflərin həmin sazişlə müəyyən edilmiş öhdəliklərin icrasının təmin edilməsi barədə qərardad qəbul edir.

**Əmək mübahisələri üzrə qərarların və qətnamələrin icrası qaydaları**

Fərdi əmək mübahisəsinin həlli barədə məhkəmə qərarı, onun məzmununda başqa hal nəzərdə tutulmayıbsa, bu qərar qanuni qüvvəyə mindiyi gündə dərhal icra edilməlidir.

Məhkəmənin fərdi əmək mübahisəsinin həlli barədə çıxardığı qərar cavabdeh tərəfindən icra edilmədikdə, yaxud icraya müvafiq vəzifəli şəxs və digər fiziki şəxs tərəfindən mane olunduqda bununla əlaqədar işçiyə dəyən maddi ziyanın ödənilməsi üçün hakim tərəfindən tədbirlər görülməlidir.

## CİNSƏ ƏSASƏN AYRI-SEÇKİLİYİN QADAĞAN OLUNMASI

Azərbaycan Respublikasında kişi ilə qadın eyni hüquq və azadlıqlara malikdir. Əmək münasibətlərində cinsə, ailə vəziyyətinə, həmçinin işçinin işgüzar keyfiyyətləri, peşəkarlıq səriştəsi, əməyinin nəticələri ilə bağlı olmayan digər amillərə görə işçilər arasında hər hansı ayrı-seçkiliyə yol verilməsi, həmin amillər zəminində imtiyazların və güzəştlərin müəyyən edilməsi, habelə hüquqlarının məhdudlaşdırılması qəti qadağandır.

Qadınlara, əlillərə, yaşı 18-dən az olan və sosial müdafiəyə ehtiyacı olan digər şəxslərə əmək münasibətlərində güzəştlərin, imtiyazların və əlavə təminatların müəyyən edilməsi ayrı-seçkilik hesab edilmir.

Qadınların səhhətini qorumaq məqsədilə qanunvericilik müəyyən işlərdə qadın əməyinin istifadəsinə icazə vermir. Belə ki, əmək şəraiti ağır, zərərli olan iş yerlərində, habelə yeraltı tunellərdə, şaxtalarda və digər yeraltı işlərdə qadın əməyinin tətbiqi qadağandır.

Bundan əlavə qadınların əmək funksiyasına yalnız aşağıdakı normalar həddində ümumi çəkisi olan ağır şeylərin əl ilə qaldırılması və daşınması işlərinin görülməsi daxil edilə bilər:

a) başqa işləri görməklə yanaşı eyni zamanda ümumi çəkisi 15 kiloqramdan çox olmayan əşyaların əl ilə qaldırılaraq başqa yerə daşınması;

b) ümumi çəkisi 10 kiloqramdan çox olmayan əşyanın bir metr yarımdan artıq hündürlüyə qaldırılması;

c) bütün iş günü (iş növbəsi) ərzində müntəzəm olaraq ümumi çəkisi 10 kiloqramdan çox olmayan əşyanın əl ilə qaldırılıb başqa yerə daşınması;

ç) 15 kiloqramdan artıq gücün sərf edilməsi tələb olunan yüklənmiş təkərli araba və ya hərəkət edən digər vasitələrlə əşyaların daşınması.

Hamilə və 3 yaşınadək uşağı olan qadınların isə yükün daşınması ilə bağlı işlərin görülməsinə cəlb olunması qadağandır.

Əmək münasibətləri prosesində işçilər arasında ayrı-seçkiliyə yol verən işəgötürən və ya digər fiziki şəxs qanunvericilikdə nəzərdə tutulmuş qaydada müvafiq məsuliyyət daşıyır. Ayrı-seçkiliyə məruz qalan işçi pozulmuş hüququnun bərpa edilməsi tələbi ilə məhkəməyə müraciət edə bilər.

## SEKSUAL QISNAMA

Seksual qısnama cinsi mənsubiyyətə görə ayrı-seçkiliyin bir növüdür. Seksual qısnama əmək və ya xidmət münasibətlərində şəxsi alçaldan və təhqir edən, başqa cinsə mənsubiyyətdən irəli gələn və fiziki hərəkətlərdə (toxunma, əllə vurma), ədəbsiz sözlərdə, jestlərdə, hədələrdə, ləkələyici təkliflərdə və ya dəvətlərdə təzahür edən əxlaqsız davranışda ifadə olunur. O, cinsi əlamətə görə hüquqların bərabər həyata keçirilməsinə və normal iş şəraitinin qurulmasına maneə olur. Azərbaycan qanunvericiliyi seksual qısnamanı qadağan edir.

Seksual qısnamanın növləri:

– Fiziki hərəkətlərdə ifadə olunan seksual qısnama. Bu cür seksual qısnama toxunma, əllə vurma və digər fiziki hərəkətlərdə ifadə olunur.

– Sözlərlə ifadə olunan seksual qısnama. Bu cür seksual qısnama ədəbsiz sözlərdə, ləkələyici təkliflərdə və ya dəvətlərdə təzahür oluna bilər.

– Jestlərlə ifadə olunan seksual qısnama ədəbsiz və xoşagəlməz jest, o cümlədən qadının təqib edilməsində ifadə oluna bilər.

**DİQQƏT EDİN!**

Seksual qısnama qadağandır. Qanunvericiliyə əsasən həm işəgötürən, həm də hər hansı digər işçi tərəfindən seksual qısnamanın törədilməsi qadağan edilir.

**İşəgötürənin vəzifələri və məsuliyyəti**

İşəgötürənin seksual qısnamanın qarşısını almaq və baş vermiş seksual qısnamaya dair tədbir görmək vəzifəsi daşıyır. Seksual qısnamanın qarşısını almaq üçün işəgötürən cinsindən asılı olmayaraq eyni işlə məşğul olan işçilərə eyni iş şəraitini yaratmaq, eyni pozuntuya görə işçilərə fərqli intizam tənbehi tədbirini tətbiq etməmək, cinsi mənsubiyyətə görə ayrı-seçkiliyin və seksual qısnamanın qarşısını almaq üçün lazımi tədbirlər görmək.

**DİQQƏT EDİN!**

Seksual qısnama ilə bağlı şikayət edən şəxsə qarşı təzyiqin göstərilməsi qadağandır. Belə təzyiq bu cür ifadə oluna bilər: ödənişsiz məzuniyyətə çıxmaq tələbi, istəmədiyiniz digər işə keçirilməyiniz və ya əmək müqaviləsinə xitam verilmə. Seksual qısnamaya məruz qalmış və seksual qısnamaya görə işəgötürəndən və ya rəhbərindən şikayət etmiş işçiyə qarşı təzyiqin göstərilməsinə və ya işçinin təqib olunmasına görə vəzifəli şəxslər inzibati məsuliyyətə cəlb edilir və onlara cərimə tətbiq edilir.



## SAHİBKARLIQ FƏALİYYƏTİ

## SAHİBKARLIQ FƏALİYYƏTİ

Sahibkarlıq fəaliyyəti şəxsin müstəqil surətdə həyata keçirdiyi, əsas məqsədi əmlak istifadəsindən, əmtəə satışından, işlər görülməsindən və ya xidmətlər göstərilməsindən mənfəət götürülməsi olan fəaliyyətdir.

Qanunvericiliyə əsasən, Azərbaycan Respublikasının fəaliyyət qabiliyyətli hər bir vətəndaşı sahibkarlıq fəaliyyəti ilə məşğul ola bilər. Sahibkarlıq fəaliyyəti iki formada həyata keçirilə bilər:

– hüquqi şəxs yaratmadan (fərdi sahibkarlıq)

– hüquqi şəxs yaradılmaqla

**Fərdi sahibkarlıq –** hüquqi şəxs yaratmadan fiziki şəxslərin gəlir əldə etmək məqsədi ilə yaratdıqları sahibkarlıq fəaliyyətinin bir növüdür. Bu növ fəaliyyət həmin şəxslərin mülkiyyətə əsaslanaraq, risk və məsuliyyəti öz boynuna götürməklə həyata keçirilir.

Hüquqi şəxs yaratmadan sahibkarlıqla məşğul olan şəxs qanunvericiliklə qadağan edilməyən istənilən sahibkarlıq fəaliyyəti ilə məşğul ola bilər. Bunun üçün şəxs yerli vergi orqanlarında qeydiyyatdan keçməli və qanunla müəyyən olunmuş həcmdə vergi ödəməlidir. Eyni zaman müəyyən fəaliyyət növləri ilə məşğul olmaq üçün şəxsin lisenziya alması tələb edilir.

Sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər qeydiyyatdan öz ərizələrinə əsasən çıxa bilərlər.

Azərbaycan Respublikasında sahibkarlıq fəaliyyətinin bəzi növləri "lisenziya" adlandırılan xüsusi razılıq əsasında həyata keçirilə bilər. Lisenziyalar fəaliyyətin növündən asılı olaraq müxtəlif dövlət orqanları tərəfindən verilir. Lisenziya tələb olunan fəaliyyət növləri və onları verən icra orqanlarının siyahısı Azərbaycan Respublikası Prezidenti tərəfindən müəyyən edilir.

**Hüquqi şəxslər**

Hüquqi şəxs dövlət qeydiyyatından keçmiş, ayrıca əmlaka malik olan, öz adından hüquqlar həyata keçirən və vəzifələr daşıyan bir qurumdur.

Hüquqi şəxslər məqsədlərindən asılı olaraq kommersiya və qeyri-kommersiya hüquqi şəxslərə bölünür.

Kommersiya hüquqi şəxslərin fəaliyyətinin əsas məqsədi mənfəət götürməkdir. Kommersiya hüquqi şəxslərin formaları:

– Tam ortaqlıqlar

– Kommandit ortaqlığı

– Məhdud Məsuliyyətli Cəmiyyət

– Səhmdar Cəmiyyəti

– Kooperativ

Kommersiya hüquqi şəxslərdən fərqli olaraq, qeyri-kommersiya hüquqi şəxslərin məqsədi mənfəət götürmək deyil. Bu təşkilatlar sosial, xeyriyyə, mədəni, təhsil, elm və idarəetmə sahələrində müəyyən məqsədlərə nail olmaq, bədən tərbiyəsi və idmanın inkişafı, vətəndaşların mənəvi tələbatlarının ödənilməsi, insan hüquqlarını qorunması və ictimai mənafelərə yönəlmiş digər məqsədlərlə yaradılır.

Qeyri-kommersiya ictimai birliklər, fondlar, hüquqi şəxslərin ittifaqları və digər formalarda yaradıla bilər.



# MƏİŞƏT ZORAKILIĞI VƏ QADIN HÜQUQLARI

Bir şəxsin digərinə qarşı zorakı davranması ciddi hüquq pozuntusudur. Zorakılıq çox vaxt yaxın insanlar arasında baş verir, misal üçün, ər və arvad, valideyin və uşaq, birgə yaşayan digər qohumlar, rəsmi nikah olmadan yaşayan kişi və qadın arasında və sair. Bu çür zorakılığa "məişət zorakılığı" deyilir.

Məişət zorakılığına hər bir insan məruz qala bilər, amma dünya təcrübəsi göstərir ki, əsasən qadınlar və qız uşaqları məişət zorakılığının qurbanı olur. Qadınların məişətdə qarşılaşdığı zorakılıq həm ləyaqətin alçaldılmasıdır, həm də gender bərabərsizliyi problemidir. Bütün dünyada məhz qadın olduğuna, kişi ilə bərabərhüquqlu sayılmadığına görə döyülən, psixoloji təzyiqə məruz qalan, sosial-iqtisadi, mülki və siyasi hüquqları pozulan, hətta həyatını itirən qadınların sayı bu problemin olduqca ciddi olmasını göstərir. Qadınlara qarşı ayrı-seçkilik və zorakılıq bir çox beynəlxalq təşkilatların, o cümlədən Birləşmiş Millətlər Təşkilatının mübarizə apardığı əsas məsələlərdən biridir.

Əgər evdə kişi arvadını və ya qızını döyürsə, təhqir edirsə, bu "ailənin daxili məsələsi" sayılmamalıdır, çünki dövlət hər kəsin pis rəftara məruz qalmamaq hüququnu tanıyır, fərqi yoxdur, pis rəftar ictimai yerdə və ya evlərdə, qapılar arxasında baş verir. Hər kəs zorakılıqdan, o cümlədəm məişət zorakılığından qorunmalıdır.

2010-cu ildə "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikası Qanunu qəbul edilib. Həmin qanun məişət zorakılığının qarşısının alınması, məişət zorakılığı ilə mübarizənin və qurbanların müdafiəsinin güclənməsi məqsədini daşıyır.

**<u>Məişət zorakılığı nədir?</u>**

"Məişət zorakılığının qarşısının alınması haqqında" Qanuna əsasən[1], **məişət zorakılığı** deyiləndə, yaxın qohumluq münasibətlərindən, birgə və ya əvvəllər birgə yaşamaqlarından sui-istifadə etməklə, bir şəxsin digərinə qəsdən fiziki və ya mənəvi zərər vurması başa düşülür.

Zorakılıq tək fiziki güc tətbiq etməklə (məsələn, döyməklə) deyil, həmçinin sözlə (məsələn, söyüş, təhqir, hədə-qorxu, şantajla) və hərəkətsizliklə (məsələn, məktəbə və ya işə getməyə içazə verməməklə, xəstə ailə üzvünü həkimə aparmaqdan qəsdən imtina etməklə) edilir.

**1. Qanunun 1.0.1-ci maddəsi.**

**Məişət zorakılığından zərər çəkmiş şəxs,** bir yerdə yaşadığı ailə üzvünün, yaxın qohumunun, qanuni nikahda olmadığı və ya əvvəllər birgə yaşadığı şəxsin ona qarşı qəsdən törətdiyi hərəkətlərin (fiziki, psixi, cinsi və iqtisadi xarakterli zorakılığın) nəticəsində fiziki və ya mənəvi zərər çəkmiş şəxsdir, zorakılığın "qurbanı"dır.

**Zorakılığın qurbanına hansı ziyan vurulur?**

Məişət zorakılığı həm **fiziki** (səhətə yüngül, orta və ya ağır xəsarət yetirmə, hər hansı orqanın tam və ya qismən sıradan çıxması və sair), həm də **mənəvi** (qorxu, həyəcan, psixoloji gərginlik, çarəsizlik hissi və sair) zərərlə nəticələnir. Bəzən zorakılığa məruz qalmış şəxsə **maddi ziyan** da vurulur, məsələn, qadının cehiz gətirdiyi əşyalar sındırılır, geyim və şəxsi istifadə əşyaları zədələnir və sair.

"Sosial xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 7.1-ci maddəsinə əsasən, məişət zorakılığından zərər çəkən şəxs (ailə) çətin həyat şəraitində olan hesab edilir. Həmin şəxsə və ya ailəyə sosial xidmət göstərilir. Qanuna görə, **sosial xidmə**t – çətin həyat şəraitində yaşayan şəxsin (ailənin) sosial problemlərinin aradan qaldırılması və ictimai həyatda digər insanlarla bərabər iştirak imkanlarının yaradılması istiqamətində həyata keçirilən kompleks tədbirlərdir[1].

**Məişət zorakılığının növləri hansılardır**

"Məişət zorakılığının qarşısının alınması haqqında" Qanun fiziki, psixi, iqtisadi və cinsi zorakılığı məişət zorakılığının formaları kimi sadalayır[2].

**Məişət zəminində fiziki zorakılıq** – bir şəxsin digərinə qəsdən fiziki təzyiq göstərməsi, yəni zor tətbiq etməklə təhlükəsizliyini pozması, döyməsi, sağlamlığına zərər vurması, işgəncə verməsi, azadlıq hüququnu məhdudlaşdırmasıdır.

Bir şəxsin digərinə qəsdən psixi təzyiq göstərməsi və ya dözülməz psixi şərait yaradılmasına yönəlmiş hərəkətləri **məişət zəminində psixi zorakılıq** sayılır. Misal üçün, təhqir etmə, şantaj, hədə-qorxu, alçaltma və digər şərəf və ləyaqəti alçaldan hərəkətlər.

Zorakılıq həmçinin iqtisadi xarakter daşıya bilər. Misal üçün, bir ailə üzvü digər ailə üzvünüondan iqtisadi cəhəttən asılı vəziyyətə salır (işləməyə qoymur və sair), bu vəziyyətdən sui-istifadə edir (geyim, qida və sair tələbatlar üçün qəsdən pul vermir, asılı vəziyyətdə olan ailə üzvünün istəyinə zidd müəyyən şərtlər qoyaraq pul verir və sair). **Məişət zəminində iqtisadi xarakterli qanunsuz məhdudiyyətlərin tətbiqi** – bir şəxsin digərini onun mülkiyyətində, sərəncamında və ya istifadəsində olan əm-



**1. "Sosial xidmət haqqında" Azərbaycan Respublikasının 30 dekabr 2011-ci il tarixli Qanunu.**
**2. Qanunun 1.0.1-ci maddəsi.**

lakdan, gəlirlərdən məhrum etməsinə, iqtisadi asılılıq yaratmasına, belə asılılığı saxlamasına və ya ondan sui-istifadə etməsinə yönəlmiş hərəkətləri sayılır.

Bir şəxsin digərini onun iradəsi əleyhinə seksual xarakterli hərəkətlərə məcbur etməsi **məişət zəminində cinsi zorakılıq saylır**. Zor gücünə, hədə-qorxu ilə və ya zəiflik vəziyyətindən sui-istifadə etməklə şəxslə cinsi əlaqəyə girmək cinayət sayılır. Bu zaman fərqi yoxdur, həmin hərəkətləri edənlə cinayətin qurbanı nikahdadır ya yox. Məsələn, ərin öz arvadını zorlaması cinayət məsuliyyəti doğurur.

Həmçinin yetkinlik yaşına çatmamış şəxslərlə cinsi əlaqə və ya cinsi xarakterli digər hərəkətlərin edilməsi cinayət sayılır.

Məişət zorakılığı həmçinin insanın təhsil almaq hüququna məhdudiyyət qoyma, din və etiqad azadlığını pozma, nikaha məcbur etmə, digər **hüquq və azadlıqlarını pozan** hərəkətlərdə öz təzahürünü tapa bilər. Ailədə, məişətdə bu cür müdaxilələr, məhdudiyyətlər insana qarşı psixi zorakılıq kimi dəyərləndirilə bilər. Çox vaxt hüquq və azadlıqların məhdudlaşdırılması zorakılığın digər formaları, o cümlədən fiziki zorakılıqla müşaiyət olunur.

### Məişət zorakılığına görə kimlər məsuliyyət daşıya bilər?

"Məişət zorakılığının qarşısının alınması haqqında" Qanun məişət zorakılığına görə məsuliyyət daşıyan şəxslərin dairəsini müəyyən edir[1]. Qanunun şamil edildiyi şəxslər bunlardır:

- **yaxın qohum olan ailə üzvləri** (ər, arvad, valideynlər, uşaqlar, nənələr, babalar, nəvələr, doğma və ögey qardaşlar və bacılar, övladlığa götürmüş və övladlığa götürülmüş şəxslər);
- habelə **birgə yaşadığı hallarda digər qohumlar** (qaynana, qaynata, qayın, baldız və sair);
- nikah pozulduqdan sonra **birgə yaşayan keçmiş ər-arvad;**
- nikah pozulduqdan sonra **ayrılıqda yaşayan keçmiş ər-arvad;**
- **qəyyum və ya himayəçi** təyin olunmuş fiziki şəxslər;
- habelə üzərində **qəyyumluq və ya himayəçilik təyin edilmiş şəxslər;**
- qanuni nikahda olmadan birgə yaşayan kişi və qadın, habelə onlarla birgə yaşayan yaxın qohumları.



**1. Qanunun 4-cü maddəsi.**

## Kimlər məişət zorakılığı barədə şikayət verə bilər?

"Məişət zorakılığının qarşısının alınması haqqında" Qanunun 6-cı maddəsinə əsasən, məişət zorakılığı üzrə araşdırmanın aparılması üçün aşağıdakılar səbəb ola bilər:

• məişət zorakılığından **zərər çəkmiş şəxsin** özünün və ya onun ailə üzvlərinin şikayəti;

• fiziki (misal üçün, qonşular, məişət zorakılığı barədə xəbər tutan həkim və ya müəllim və sair şəxslərdən) və ya **hüquqi şəxslərdən** (işəgötürən idarə, müəssisə, şirkət və sair qurumlardan) daxil olmuş müraciətlər;

• **dövlət və yerli özünüidarə orqanlarından,** o cümlədən təhsil və ya səhiyyə müəssisələrindən daxil olmuş müraciətlər;

• **qeyri-hökumət təşkilatlarından** (məsələn, qadın hüquqlarının müdafiəsi ilə məşğul olan ictimai birlik və sair bu kimi təşkilatlardan) daxil olmuş müraciətlər;

• **kütləvi informasiya vasitələrindən** (məsələn, qəzet, televiziya və sair media vasitələrindən) daxil olmuş müraciətlər.

Dövlət və yerli özünüidarə orqanlarının vəzifəli şəxsləri, yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar, qəyyumluq və himayə orqanları, təhsil və səhiyyə müəssisələri, yardım mərkəzləri xidməti vəzifələrinin həyata keçirilməsi zamanı məişət zorakılığının törədilməsi barədə aldığı şikayətləri "Məişət zorakılığının qarşısının alınması haqqında" Qanunun 5-ci maddəsində müəyyən edilmiş **yerli icra hakimiyyəti orqanlarına**[1] təqdim edirlər.

## Məişət zorakılığı ilə bağlı şikayətlərə baxılması

Məişət zorakılığı haqqında şikayəti və ya məlumatı cinayət mühakiməsini aparan[2], inzibati xətalar üzrə araşdırma aparan[3] və xüsusi olaraq məişət zorakılığı faktlarını araşdıran[4] orqanlara təqdim etmək olar.

Məişət zorakılığı hadisələri araşdırılarkən aşağıdakı məsələlərlə bağlı tədbirlər görülməlidir:

---

**1. Bu kitab yazıldığı dövrdə Qanunda nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanları"nın səlayihətini hansı dövlət orqanı həyata keçirəcəyi hələ müəyyən edilməmişdir.**

**2. Bax: bu kitabın "Məişət zorakılığı ilə bağlı cinayət məsuliyyəti" bölümünə.**

**3. Bax: bu kitabın "Məişət zorakılığı ilə bağlı inzibati məsuliyyət" bölümünə.**

**4. Bax: bu kitabın "Yerli icra hakimiyyəti orqanları tərəfindən araşdırma" bölümünə.**

• zərər çəkmiş şəxsin dövlət vəsaiti hesabına tibbi, psixoloji, hüquqi yardımla, müvəqqəti sığınacaqla (yardım mərkəzində), geyim və qida məhsulları ilə təmin edilməsi;

• zərər çəkmiş şəxsin psixoloji və sosial reabilitasiyası (təhsil alması, işlə təmin olunması, yeni peşələrə yiyələnməsi, habelə sosial müdafiəsi);

• araşdırmanın aparıldığı müddət ərzində zərər çəkmiş şəxsin təhlükəsizliyinin təmin edilməsi;

• zərər çəkmiş şəxsə mühafizə orderinin verilməsi;

• araşdırmanın aparılması zamanı tərəflərin münasibətlərinin normallaşmasına və ailədə münasibətlərin bərpa olunmasına köməklik;

• zərərşəkmiş şəxsə/müraciət etmiş şəxsə onun hüquqlarını izah etmək;

• məişət zorakılığına səbəb olmuş hərəkətlərin təkrarlanmaması və məişət zorakılığının qarşısının alınması;

• **məişət zorakılığı ilə bağlı şikayətlərə cinayət qanunvericiliyi qaydasında baxıldıqda:** məişət zorakılığını törətmiş şəxslərin profilaktik qeydiyyata götürülməsi və onlarla tərbiyəvi-qabaqlayıcı işin aparılması üçün tədbirlər görmək.

## Şikayətin baxılmasına zərərçəkmiş şəxsin razılığı olmalıdırmı?

Məişət zorakılığı barədə şikayətdə cinayət tərkibinin əlamətləri olmadıqda həmin şikayət yalnız zərər çəkmiş şəxsin və ya onun qanuni nümayəndəsinin razılığı olduqda araşdırılır[1].

Cinayət tərkibinin əlamətləri olduqda isə razılıq olmadıqda belə şikayətə baxılmalıdır. Lakin bəzi cinayət növlərində[2] cinayət təqibi zərər çəkmiş şəxsin şikayəti əsasında və

---

**1. Praktikada ola bilər ki, zorakılıq törətmiş şəxs zərərçəkmişə hədə-qorxu gələrək və ya aldatma yolu ilə şikayəti geri götürməsinə (və ya araşdırılmanın aparılmasına etiraz etməsinə) nail olub. Bu cür hallarda məişət zorakılığı ilə mübarizəni daha effektiv etmək üçün bir sıra qərb ölkələri "non-drop policy" deyilən qaydanı tətbiq edirlər. Həmin qaydaya əsasən, əgər zərərçəkmiş şəxs şikayətini geri götürürsə və ya araşdırmanın davam etməsinə etiraz etdirsə (misal üçün, ona qarşı zorakılıq törətmiş şəxslə barışdığına görə), müvafiq dövlət orqanı araşdırmanı öz təşəbbüsü ilə davam etdirə bilər.**

**2. Həmin cinayət növlərinə bunlar aid edilir: qəsdən sağlamlığa az ağır zərər vurma (CM-nin 127-ci maddəsi), qəsdən sağlamlığa yüngül zərər vurma (CM-nin 128-ci maddəsi), döymə (CM-nin 132-ci maddəsi), işgəncə vermə (CM-nin 133-cü maddəsi), öldürməklə və ya sağlamlığa ağır zərər vurmaqla hədələmə (CM-nin 134-cü maddəsi)zorlama (CM-nin 149.1-ci maddəsi), seksual xarakterli zorakılıq hərəkətləri (CM-nin 150.1-ci maddəsi), seksual xarakterli hərəkətlərə məcbur etmə (CM-nin 151-ci maddəsi), mənzil toxunulmazlığını pozma (CM-nin 157-ci maddəsi), uşaqlara və ya valideynlərə kömək göstərməkdən qərəzli boyun qaçırma (CM-nin 176-cı maddəsi), əmlakı qəsdən məhv etmə və ya zədələmə (CM-nin 186.1-ci maddəsi) və sair.**

ya müəyyən hallarda[1] prokurorun təşəbbüsü ilə həyata keçirilir. Həmin cinayət növlərində **zərərçəkmiş şəxslə barışmaqla** bağlı cinayət məsuliyyətindən azad etmə mümkündür[2].

### Maddi və mənəvi ziyanının ödənilməsi tələbi

Məişət zorakılığı nəticəsində dəymiş maddi ziyanın ödənilməsi üçün məhkəməyə ərizə ilə müraciət etmək lazımdır. Ərizə zorakılıq nəticəsində maddi zərəri yetirmiş şəxsin yaşayış yeri üzrə məhkəməyə verilməlidir. Eyni qaydada mənəvi ziyanın ödənilməsini də tələb etmək olar.

Məişət zorakılığı cinayət işinin açılması və işə məhkəmədə baxılması ilə nəticələnibsə, maddi və mənəzi yiyanın ödənilməsi tələbini həmin məhkəmə qarşısında da qaldırmaq olar (bu qaydaya "cinayət icraatında mülki iddia" deyilir)[3].

### Məişət zorakılığı ilə bağlı cinayət məsuliyyəti

Məişət zorakılığı barədə şikayətlərə baxan yerli icra hakimiyyəti orqanı[4] müəyyən etsə ki, şəxsin əməllərində cinayət tərkibi var, həmin şəxsin qanunvericiliklə müəyyən olunmuş qaydada cinayət məsuliyyətinə cəlb edilməsi barədə səlahiyyətli dövlət orqanlarına müraciət edilməsi barədə qərar qəbul edir.

Məişət zorakılığı barədə şikayətdə törədilmiş və ya hazırlanan cinayətlər haqqında məlumatlar olduqda həmin şikayətlərə cinayət-prosessual qanunvericiliklə müəyyən

---

1. **CPM-in 37.5-ci maddəsi: İctimai-xüsusi ittiham qaydasında cinayət təqibi zərər çəkmiş şəxsin şikayəti olmadan prokuror tərəfindən yalnız aşağıdakı hallarda başlanıla bilər: 37.5.1. törədilmiş cinayət dövlətin və ya cəmiyyətin mənafeyinə toxunduqda; 37.5.2. cinayət hakimiyyət nümayəndəsi və ya dövlət orqanlarının digər vəzifəli şəxsləri tərəfindən, yaxud onlara qarşı törədildikdə; 37.5. cinayət hamilə vəziyyətdə olan qadın, qoca və köməksiz vəziyyətdə olan şəxs barəsində törədildikdə; 37.5.4. cinayət hədə-qorxu, məcburiyyət təsiri altında və ya onu törətmiş şəxsdən asılı vəziyyətdə olan digər şəxs barəsində törədildikdə; 37.5.5. cinayət fəaliyyət qabiliyyəti olmayan və ya cinayət məsuliyyətinə cəlb etməyə imkan verən yaş həddinə çatmamış şəxs tərəfindən və ya ona qarşı törədildikdə.**
2. **CM-in 73-cü maddəsinə əsasən, *ilk dəfə böyük ictimai təhlükə törətməyən cinayət törətmiş şəxs zərərçəkmiş şəxslə barışdıqda və ona dəymiş ziyanı ödədikdə və ya vurulmuş zərəri aradan qaldırdıqda cinayət məsuliyyətindən azad edilə bilər.***
3. **Dəymiş maddi ziyanın ödənilməsi ilə bağlı *mülki iddianın və cinayət icraatında mülki iddianın* verilməsi və məhkəmədə baxılması qaydasının detallı izahı bu kitabın məqsədləri xaricindədir.**
4. **Bax: bu kitabın "Məişət zorakılığı barədə şikayətə yerli icra hakimiyyəti orqanları tərəfindən baxılması" bölümünə.**

edilmiş qaydada baxılır, yəni cinayət işi acıla və zorakılığı törətmiş şəxs cinayət məsuliyyətinə cəlb oluna bilər. Məsələn, əgər şəxsin hərəkətlərində cinayət məcəlləsi ilə qadağan olunmuş döymə cinayətinin əlamətləri müəyyən olunarsa, həmin şəxs cərimə, ictimai işlər, islah işləri və ya azadlıqdan məhrum etmə ilə cəzalandırılır[2].

Məişət zorakılığı nəticəsində törədilə bilən cinayətlərə bunları aid etmək olar:

• qəsdən adam öldürmə (CM-nin 120-ci maddəsi), ehtiyatsızlıqdan adam öldürmə (CM-nin 124-cü maddəsi), özünü öldürmə həddinə çatdırma (CM-nin 125-ci maddəsi),

• qəsdən sağlamlığa ağır zərər vurma *(CM-nin 126-cı maddəsi),* qəsdən sağlamlığa az ağır zərər vurma *(CM-nin 127-ci maddəsi),* qəsdən sağlamlığa yüngül zərər vurma *(CM-nin 128-ci maddəsi)*,

• döymə *(CM-nin 132-ci maddəsi)*, işgəncə vermə *(CM-nin 133-cü maddəsi)*, öldürməklə və ya sağlamlığa ağır zərər vurmaqla hədələmə *(CM-nin 134-cü maddəsi)*,

• təhlükədə qoyma *(CM-nin 143-cü maddəsi),*

• adam oğurluğu *(CM-nin 144-cü maddəsi)*, qanunsuz azadlıqdan məhrum etmə *(CM-nin 145-ci maddəsi)*,

• bərabərlik hüququnu pozma *(CM-nin 154-cü maddəsi)*,

• mənzil toxunulmazlığını pozma *(CM-nin 157-ci maddəsi)*,

• uşaqlara və ya valideynlərə kömək göstərməkdən qərəzli boyun qaçırma *(CM-nin 176-cı maddəsi),*

• əmlakı qəsdən məhv etmə və ya zədələmə *(CM-nin 186-cı maddəsi),*

• **cinsi xarakterli cinayətlər:** zorlama *(CM-nin 149-cu maddəsi)*, seksual xarakterli zorakılıq hərəkətləri *(CM-nin 150-ci maddəsi)*, seksual xarakterli hərəkətlərə məcbur etmə *(CM-nin 151-ci maddəsi)*, on altı yaşına çatmayan şəxslə cinsi əlaqədə olma və ya seksual xarakterli digər hərəkətlər etmə *(CM-nin 152-ci maddəsi)*, əxlaqsız hərəkətlər *(CM-nin 153-cü maddəsi)*.

Törədilmiş, cəhd edilmiş və ya hazırlanan cinayət barədə şikayəti və ya məlumatı polis və prokurorluq orqanla təqdim etmək lazımdır[2].

---

1. **Cinayət Məcəlləsinin 132-ci maddəsi (Döymə): Bu Məcəllənin 128-ci maddəsində göstərilən nəticələrə səbəb olmayan qəsdən döymə və ya sair zorakı hərəkətlərlə fiziki ağrı yetirmə – iki yüz manatadək miqdarda cərimə və ya iki yüz qırx saatadək müddətə ictimai işlər və ya bir ilədək müddətə islah işləri və ya altı ayadək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.**
2. **Cinayət təqibi ilə bağlı prosedurların detallı izahı bu kitabın məqsədləri xaricindədir.**

Cinayət təqibinin həyata keçirən orqanlar məişət zorakılığı ilə bağlı şikayətin araşdırılması nəticəsində cinayət işinin başlanması üçün əsaslar müəyyən olunmadığı halda həmin şikayəti aidiyyəti üzrə yerli icra hakimiyyəti orqanına göndərməlidir[1].

**Məişət zorakılığı ilə bağlı inzibati məsuliyyət**

Məişət zorakılığı barədə şikayətlərə baxan yerli icra hakimiyyəti orqanı müəyyən etsə ki, şəxsin əməllərində inzibati xəta tərkibivar, həmin şəxsin qanunvericiliklə müəyyən olunmuş qaydada inzibati məsuliyyətə cəlb edilməsi barədə səlahiyyətli dövlət orqanlarına müraciət edilməsi barədə qərar qəbul edir.

İnzibati Xətalar Məcəlləsinin 307-2.1-ci maddəsinə əsasən, **məişət zəminində iqtisadi xarakterli qanunsuz məhdudiyyətlərin tətbiqinə,** yəni şəxs tərəfindən digər şəxsin onun mülkiyyətində, sərəncamında və ya istifadəsində olan əmlakdan, gəlirlərdən məhrum edilməsinə, iqtisadi asılılıq yaradılmasına, belə asılılığın saxlanılmasına və ya ondan sui-istifadə edilməsinə yönəlmiş hərəkətlərə görə *yüz manatdan üç yüz manatadək miqdarda cərimə edilir.*

Həmin Məcəllənin 307-2.2-ci maddəsinə görə, **məişət zəminində psixi zorakılığa,** yəni şəxs tərəfindən digər şəxsə qəsdən psixi təzyiq göstərilməsi və ya dözülməz psixi şərait yaradılmasına yönəlmiş hərəkətlərə görə *üç yüz manatdan beş yüz manatadək miqdarda cərimə edilir.*

İnzibati Xətalar Məcəlləsinin 307-2.1-ci və 307-2.2-ci maddələri həmin maddələrdə göstərilən əməllər (yəni məişət zəminində iqtisadi xarakterli qanunsuz məhdudiyyətlərin tətbiqi və məişət zəminində psixi zorakılıq) Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq maddələrinə əsasən cinayət məsuliyyətinə səbəb olmadıqda tətbiq edilir.

İnzibati Xətalar Məcəlləsinin 360.1-ci maddəsinə əsasən məişət zorakılığının qarşısının alınması haqqında qanunvericiliyin pozulması inzibati xətalar haqqında işlərə **rayon (şəhər) məhkəmələri** baxırlar.



1. **"Məişət zorakılığının qarşısının alınması haqqında" Qanunun 7.0.8-ci maddəsi və Azərbaycan Respublikası Prezidentinin 24 noyabr 2011-ci il tarixli, 537 saylı Fərmanı.**

**Məişət zorakılığı barədə şikayətə yerli icra hakimiyyəti orqanları tərəfindən baxılması**

Məişət zorakılığı barədə şikayətdə cinayət tərkibinin əlamətləri olmadıqda həmin şikayətə yerli icra hakimiyyəti orqanları tərəfindən baxılır[1].

Şikayətə baxan orqan məişət zorakılığı ilə bağlı daxil olmuş məlumatı qanunvericiliklə müəyyən edilmiş qaydada qəbul etməli, qeydiyyatdan keçirməli, araşdırmanı mümkün qədər qısa müddətdə aparmalı, müvafiq hallarda dərhal hadisə yerində araşdırma aparmalı və tərəfləri ayrılıqda dinləməlidir[2].

**Məişət zorakılığı barədə şikayətə baxan yerli icra hakimiyyəti orqanı hansı qərar qərar qəbul edir?**

Məişət zorakılığı barədə şikayətlərə baxılmasının nəticələrindən asılı olaraq aşağıdakı qərarlardan biri qəbul olunur:[3]

• məişət zorakılığı ilə bağlı hərəkətlər törətmiş şəxsə qanunvericiliklə müəyyən olunmuş məsuliyyət izah edilməklə, məişət zorakılığının təkrarlanmaması barədə xəbərdarlıq edilməsi və zərər çəkmiş şəxsə qısamüddətli mühafizə orderinin verilməsi;

• məişət zorakılığı ilə bağlı hərəkətlər törətmiş şəxsin qanunvericiliklə müəyyən olunmuş qaydada valideynlik hüququndan məhrum edilməsi və ya valideynlik hüquqlarının məhdudlaşdırılması ilə bağlı məhkəməyə müraciət edilməsi;

• əməllərində cinayət tərkibi və ya inzibati xəta olan şəxsin qanunvericiliklə müəyyən olunmuş qaydada cinayət və ya inzibati məsuliyyətə cəlb edilməsi barədə səlahiyyətli dövlət orqanlarına müraciət edilməsi;

• zərər çəkmiş şəxsə uzunmüddətli mühafizə orderinin verilməsi ilə əlaqədar məhkəməyə müraciət edilməsi;

• zərər çəkmiş şəxsin yardım mərkəzində sığınacaqla təmin edilməsi.

---

1. "Məişət zorakılığının qarşısının alınması haqqında" Qanunun 5.2-ci maddəsi və Azərbaycan Respublikası Prezidentinin 24 noyabr 2011-ci il tarixli, 537 saylı Fərmanı.
2. "Məişət zorakılığının qarşısının alınması haqqında" Qanunun 8.0.1-ci maddəsi.
3. "Məişət zorakılığının qarşısının alınması haqqında" Qanunda (9-cu maddə) "qərarlardan biri qəbul olunur" yazılsada, praktikada bu qərarlardan birinin deyil, bir neçəsinin qəbul olunmasına ehtiyac yarana bilər. Misal üçün, xəbərdarlıq və qısamüddətli orderin verilməsilə yanaşı, valideynlik hüququnun məhdudlaşdırılması və zərərşəkmiş şəxsin sığınacağa yerləşdirilməsi lazım ola bilər.

**Mühafizə orderləri**

Mühafizə orderi – məişət zorakılığı törətmiş şəxsin zərər çəkmiş şəxsə qarşı edə biləcəyi hərəkətlərə tətbiq olunan məhdudiyyətlər haqqında aktdır. İki növ mühafizə orderi mövcuddur: qısamüddətli mühafizə orderi və uzunmüddətli mühafizə orderi.

**Məişət zorakılığının təkrarlanmaması barədə xəbərdarlıq və qısamüddətli mühafizə orderi**

Məişət zorakılığı törətmiş şəxsin hərəkətləri cinayət məsuliyyəti yaratmadıqda, lakin bu hərəkətlər nəticəsində zərər çəkmiş şəxsin hüquqları və qanuni mənafeləri pozulduqda, yerli icra hakimiyyəti orqanı tərəfindən:

• məişət zorakılığı ilə bağlı hərəkətləri törətmiş şəxsə həmin və ya ona oxşar hərəkətlərin təkrarlanmaması barədə yazılı xəbərdarlıq edilə

• və zərər çəkmiş şəxsə qısamüddətli mühafizə orderi verilə bilər[1].

Xəbərdarlıq edilməsindən məhkəməyə şikayət verilə bilər.

### Qısamüddətli mühafizə orderində nələr nəzərdə tutulur?

“Məişət zorakılığının qarşısının alınması haqqında” Qanunun 10.2-ci maddəsinə əsasən, qısamüddətli mühafizə orderində məişət zorakılığını törətmiş şəxsə aşağıdakılar qadağan edilə bilər:

• məişət zorakılığının təkrar törədilməsi;

• zərər çəkmiş şəxsin olduğu yer ona məlum olmadıqda həmin şəxsin axtarılması;

• zərər çəkmiş şəxsə narahatlıq gətirən digər hərəkətlərin edilməsi.

### Qısamüddətli mühafizə orderi hansı müddətə verilir?

Yerli icra hakimiyyəti orqanı müraciət edilən vaxtdan 24 saat keçənədək zorakılığı törədən şəxsə xəbərdarlıq edir və dərhal zərər çəkmiş şəxsə 30 gün müddətinədək qısamüddətli mühafizə orderi verir.



**1. “Məişət zorakılığının qarşısının alınması haqqında” Qanunun 11.1-ci maddəsi.**

## Qısamüddətli mühafizə orderinin tələblərinə əməl edilməməsi nə ilə nəticələnə bilər?

Məişət zorakılığı ilə bağlı hərəkətlər törətmiş şəxsin qısamüddətli mühafizə orderinin tələblərinə əməl etməməsi uzunmüddətli mühafizə orderinin verilməsi üçün əsas ola bilər[1].

## Qısamüddətli mühafizə orderi necə icra olunmalıdır?

Mühafizə orderi icra haqqında qanunvericiliklə müəyyən edilmiş qaydada icra olunur.

"İcra haqqında" Qanunun 6.1.9-cu maddəsinə əsasən, məişət zorakılığı ilə bağlı işlərə baxmaq səlahiyyəti olan orqanlar tərəfindən verilən qısamüddətli mühafizə orderləri **icra sənədi sayılır.** Həmin Qanunun 13.1.5-ci maddəsinə görə, qısamüddətli mühafizə orderi dərhal icraya yönəldilir.

## Qısamüddətli orderin icra olunmamasına görə hansı məsuliyyət nəzərdə tutulubmu?

Şəxsi müəyyən hərəkətləri etməyə və ya müəyyən hərəkətləri etməkdən çəkinməyə məcbur edən qısamüddətli order (icra sənədi) icra məmuru tərəfindən müəyyən olunmuş müddətdə üzrsüz səbəbdən icra olunmadıqda, icra məmuru həmin şəxsin (borclunun) **inzibati məsuliyyətə cəlb olunması** üçün inzibati xəta haqqında protokol tərtib edir və onu işin digər materialları ilə birlikdə müvafiq məhkəməyə göndərir. İnzibati məsuliyyətə cəlb etmə haqqında qərar qəbul edildikdən sonra icra məmuru tərəfindən şəxsə (borcluya) icra üçün yeni müddət təyin edilir[2].

---

**1. "Məişət zorakılığının qarşısının alınması haqqında" Qanunun 11.3-cü maddəsi.**

**2. "İcra haqqında" Qanunun 82.1-ci maddəsi.**

**İnzibati Xətalar haqqında Məcəllənini 313-1-ci maddəsi (Məhkəmə və digər orqanlarının qərarlarının icrası ilə əlaqədar icra məmurunun tələblərinin yerinə yetirilməməsi): 313-1.1. Məhkəmə və digər orqanların qərarlarının icrası ilə əlaqədar icra məmurunun qanuni tələblərinin yerinə yetirilməməsinə və ya icra məmuru tərəfindən müəyyən olunmuş müddətdə borclunu müəyyən hərəkətləri etməyə və ya müəyyən hərəkətləri etməkdən çəkinməyə məcbur edən icra sənədinin üzürsüz səbəbdən icra edilməməsinə görə –** ***fiziki şəxslər beş yüz manatdan min manatadək miqdarda cərimə edilir və ya işin hallarına görə, pozuntunu törədənin şəxsiyyəti nəzərə alınmaqla on günədək inzibati həbs tətbiq olunur.***

## Uzunmüddətli mühafizə orderi

Məişət zorakılığı ilə bağlı hərəkətləri törətmiş şəxs verilmiş xəbərdarlığa və qısamüddətli mühafizə orderinin tələblərinə əməl etmədikdə, **zərər çəkmiş şəxs** və ya **yerli icra hakimiyyəti orqanı** uzunmüddətli mühafizə orderinin verilməsi üçün məhkəməyə müraciət etmək hüququna malikdir[1].

### Uzunmüddətli mühafizə orderində nələr nəzərdə tutulur?

Uzunmüddətli mühafizə orderinin verilməsi barədə qətnamədə məişət zorakılığını törətmiş şəxsə aşağıdakılardan biri və ya bir neçəsi qadağan edilir (bax: MPM-in 355-4-cü maddəsi):

- məişət zorakılığının təkrar törədilməsi;
- zərər çəkmiş şəxsin olduğu yer ona məlum olmadıqda həmin şəxsin axtarılması;
- zərər çəkmiş şəxsə narahatlıq gətirən digər hərəkətlərin edilməsi.

Uzunmüddətli mühafizə orderinin verilməsi barədə qətnamədə yuxarıda göstərilmiş qadağalarla yanaşı aşağıdakılardan biri və ya bir neçəsi göstərilir:

- məişət zorakılığını törətmiş şəxsin yetkinlik yaşına çatmamış uşaqları ilə ünsiyyət qaydaları;
- yaşayış sahəsindən və ya birgə əmlakdan istifadə qaydalarının müəyyən edilməsi;
- zərər çəkmiş şəxsə tibbi və ya hüquqi yardımın göstərilməsi ilə bağlı xərclərin məişət zorakılığını törətmiş şəxs tərəfindən ödənilməsi şərtləri;
- uzunmüddətli mühafizə orderinin verilməsi barədə qətnamənin icra edilməməsinə görə məsuliyyətin izah edilməsi barədə məlumat.

### Uzunmüddətli mühafizə orderinin verilməsi barədə ərizə

Uzunmüddətli mühafizə orderinin verilməsi barədə ərizə zərər çəkmiş şəxsin yaşadığı (olduğu) yer üzrə məhkəməyə verilir.

Uzunmüddətli mühafizə orderinin verilməsi barədə ərizədə məişət zəminində qəsdən törədilən fiziki, psixi və ya cinsi zorakılıq və iqtisadi xarakterli qanunsuz məhdu-

---

**1. Mülki-Prossesual Məcəllənin 355-1-ci maddəsi, "Məişət zorakılığının qarşısının alınması haqqında" Qanunun 12.1-ci maddəsi və Azərbaycan Respublikası Prezidentinin 24 noyabr 2011-ci il tarixli, 537 saylı Fərmanı.**

diyyətlərin tətbiqi nəticəsində zərər çəkmiş şəxsə fiziki və ya mənəvi zərər vurulmasını təsdiq edən hallar şərh edilməli, ərizəçinin xahişi göstərilməlidir[1].

Ərizə yazılı şəkildə olmalı və imzalanmalıdır. Burada ərizəçinin adı, soyadı, ünvanı, zorakılığı törətmiş şəxsin (cavabdehin) adı, soyadı, ünvanı, ərizəçi ilə cavabdehin münasibətləri (qohumluq əlaqələri, birga və ya ayrı yaşamaları və sair) göstərilir. Ərizədə konkret zorakılıq hallarını, bu halların neçə vaxtdan bir başvermәsini, sübutları təsvir etmək lazımdır. Sübut kimi əvvəllər verilmiş mühafizə orderləri, həkim arayışı, şahid ifadələri, zədələnmiş əşyalar və sair təqdim oluna bilər.

## Uzunmüddətli mühafizə orderinin verilməsi barədə ərizəyə necə baxılır?

Uzunmüddətli mühafizə orderinin verilməsi barədə ərizəyə məhkəməyə təqdim olunduqdan sonra 3 gün müddətinə baxılmalıdır[2].

Ərizəyə, müəyyən hallar istisna olmaqla,[3] məişət zorakılığından zərər çəkmiş şəxsin və məişət zorakılığını törətmiş şəxsin iştirakı ilə baxılır.

Ərizəyə baxılmasında məişət zorakılığı ilə bağlı araşdırmanı aparmış dövlət orqanının nümayəndəsinin iştirakı məcburidir.

Tərəflərin şəxsi və ailə həyatı sirrinin yayılmasının qarşısının alınması, habelə yetkinlik yaşına çatmamış şəxslərin maraqlarının təmin edilməsi məqsədi ilə uzunmüddətli mühafizə orderinin verilməsi barədə işə **qapalı məhkəmə iclasında** baxılır.

İşə mahiyyəti üzrə baxan hakim ərizənin rədd edilməsi və ya təmin edilməsi barədə qətnamə qəbul edir. Uzunmüddətli mühafizə orderinin verilməsi barədə qətnamə qəbul edildikdən dərhal sonra məhkəmə iclasında elan olunur[4].

---

1. **Mülki-Prossesual Məcəllənin 355-2-ci maddəsi.**
2. **Mülki-Prossesual Məcəllənin 355-3-cü maddəsi.**
3. **MPM-nin 185-ci maddəsinə görə: 185.4. Tərəflər və yaxud iddiaçı məhkəmə baxışının vaxtı və yeri haqqında lazımi qaydada xəbərdar edilib, lakin onlar məhkəmə iclasına təkrar gəlmədikdə məhkəmə həmin işə baxmağa haqlıdır. ... 185.5. Məhkəmə iclasının vaxtı və yeri haqqında lazımi qaydada xəbərdar edilmiş cavabdehin gəlməməsinin səbəbləri haqqında məlumat olmadıqda və ya məhkəmə gəlməməyin səbəblərini üzürsüz hesab etdikdə, yaxud məhkəmə cavabdehin icraatı qəsdən yubandırdığını aşkar etdikdə, işə baxmağa haqlıdır.**
4. **Mülki-Prossesual Məcəllənin 355-4-cü maddəsi.**

Qətnamənin surəti qanunvericiliyə uyğun olaraq tərəflərə verilir[1].

## Məhkmənin qətnaməsindən şikayət vermək olarmı?

Ərizənin rədd edilməsi və ya təmin edilməsi barədə məhkəmə qətnaməsindən, apellyasiya şikayəti verilə bilər. Apellyasiya məhkəməsinin qətnaməsindən isə Ali Məhkəməyə kassasiya şikayəti ilə müraciət etmək olar.

Apellyasiya və kassasiya şıkayətlərinin verilməsi və həmin şikayətlərə baxılması qaydaları və məddətləri Mülki-Prosessual Məcəllə ilə tənzimlənir[2].

Yuxarı instansiya məhkəməsinə şikayətin verilməsi **mühafizə orderi üzrə qərarın icrasını dayandırmır.**

## Uzunmüddətli order haçan qüvvəyə minir?

"Məişət zorakılığının qarşısının alınması haqqında" Qanunun 12.4-cü maddəsində qeyd olunub ki, uzunmüddətli mühafizə orderinin verilməsi barədə məhkəmə qərarı qanunvericiliyə uyğun olaraq qüvvəyə minir və müddəti hesablanır.

Mülki-Prosessual Məcəllənin 233.1-ci maddəsinə əsasən, məhkəmə qətnaməsindən şikayət verilməmişdirsə, qəbul edildiyi gündən 1 ay keçdikdən sonra qanuni qüvvəyə minir[3].

## Uzunmüddətli mühafizə orderi hansı müddətə verilir?

Uzunmüddətli mühafizə orderi 30 gündən 180 günədək müddətə verilir[4].

---

1. **"Məişət zorakılığının qarşısının alınması haqqında" Qanunun 12.6-cı maddəsində qeyd olunub ki, uzunmüddətli mühafizə orderinin surəti onun çıxarıldığı gün tərəflərə verilməlidir.**
2. **Mülki-Prosessual Məcəlləsinin Apellyasiya instansiyası məhkəməsində icraat və Kassasiya instansiyası məhkəməsində icraat fəsilləri. Apellyasiya və kassasiya şıkayətlərinin verilməsi və həmin şikayətlərə baxılması qaydalarının detallı izahı bu kitabın məqsədləri xaricindədir.**
3. **Mülki-Prosessual Məcəllənin 393-cü maddısinə əsasən, apellyasiya instansiyası məhkəməsinin qətnaməsindən şikayət verilməmişdirsə, qəbul edildiyi gündən 2 ay keçdikdən sonra qanuni qüvvəyə minir. Həmin Məcəllənin 419.4-cü maddəsinə görə isə, kassasiya instansiyası məhkəməsinin qərarı qəbul edildiyi andan qüvvəyə minir.**
4. **MPM-in 355-4.6-cı maddəsi.**

## Uzunmüddətli mühafizə orderi necə icra olunmalıdır?

Uzunmüddətli mühafizə orderinin verilməsi barədə qərar qanunvericiliyə uyğun olaraq icraya yönəldilir. Mühafizə orderi icra haqqında qanunvericiliklə müəyyən edilmiş qaydada icra olunur[1].

## Uzunmüddətli orderin icra olunmamasına görə məsuliyyət nəzərdə tutulubmu?

Uzunmüddətli order barədə məhkəmə qətnaməsinin (icra sənədinin) icrası ilə əlaqədar icra məmurunun qanuni tələblərinin yerinə yetirilməməsinə görə **inzibati məsuliyyət** nəzərdə tutulub[2].

Uzunmüddətli order barədə məhkəmə qətnaməsi (icra sənədi) qərəzli olaraq icra edilmədikdə, icra məmuru məhkəmə qərarını icra etməyə borclu olan şəxsin **cinayət məsuliyyətinə cəlb olunması** haqqında müvafiq cinayətlərə dair işlər üzrə ibtidai istintaq aparan orqana, icra xidmətinin rəhbəri (baş icra məmuru) tərəfindən təsdiq olunan təqdimat verir[3].

Beləliklə, uzunmüddətli mühafizə orderinin tələblərinə riayət etməyən şəxs məhkəmə qərarlarının icra olunmamasına dair cinayət məsuliyyəti daşıyır[4].

### Yardım mərkəzləri

**Yardım mərkəzləri** – zərər çəkmiş şəxslərə hüquqi, tibbi, psixi, sosial və digər yardımın göstərilməsi məqsədi ilə yaradılan dövlət və qeyri-dövlət qurumlarıdır.

---

1. "Məişət zorakılığının qarşısının alınması haqqında" Qanunun 10.4-cü maddəsi.
2. İnzibati Xətalar haqqında Məcəllənini 313-1-ci maddəsi (Məhkəmə və digər orqanlarının qərarlarının icrası ilə əlaqədar icra məmurunun tələblərinin yerinə yetirilməməsi): 313-1.1. Məhkəmə və digər orqanların qərarlarının icrası ilə əlaqədar icra məmurunun qanuni tələblərinin yerinə yetirilməməsinə və ya icra məmuru tərəfindən müəyyən olunmuş müddətdə borclunu müəyyən hərəkətləri etməyə və ya müəyyən hərəkətləri etməkdən çəkinməyə məcbur edən icra sənədinin üzürsüz səbəbdən icra edilməməsinə görə – fiziki şəxslər beş yüz manatdan min manatadək miqdarda cərimə edilir və ya işin hallarına görə, pozuntunu törədənin şəxsiyyəti nəzərə alınmaqla on günədək inzibati həbs tətbiq olunur <...>
3. "İcra haqqında" Qanunun 82.3-cü maddəsi.
4. CM-nin 306-cı maddəsi (Məhkəmənin hökmünü, qərarını, yaxud digər aktını icra etməmə): 306.1. Qanuni qüvvəyə minmiş məhkəmə qətnaməsini, hökmünü, qərardadını və ya qərarını qərəzli olaraq icra etməmə və ya həmin məhkəmə aktlarının icrasına maneçilik törətmə – min manatdan üç min manatadək miqdarda cərimə və ya yüz altmış saatdan iki yüz qırx saatadək ictimai işlər və ya iki ilədək müddətə islah işləri və ya üç ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.306.2. <...>

Yerli özünüidarə orqanları, qeyri-hökumət təşkilatları, digər qurumlar və şəxslər yardım mərkəzlərini yarada bilərlər. Fiziki şəxslərin mənzillərindən onların razılığı əsasında xeyriyyəçilik məqsədilə yardım mərkəzi kimi istifadə oluna bilər.

Qeyri-dövlət yardım mərkəzləri Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində akkreditasiyadan keçməlidir[1].

Zərər çəkmiş şəxslər üçün **dövlət yardım mərkəzləri** Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən təşkil olunur. Dövlət yardım mərkəzlərinin göstərdiyi xidmətlər **ödənişsizdir**.

Yardım mərkəzlərinin fəaliyyət istiqamətləri aşağıdakılardır:

- zərər çəkmiş şəxsləri hüquqi və (və ya) tibbi yardımla təmin etmək;
- zərər çəkmiş şəxslərin işlə təmin edilməsinə, yeni peşələrə yiyələnməsinə kömək göstərmək;
- zərər çəkmiş şəxslər üçün psixoloji reabilitasiya kursu təşkil etmək;
- zərər çəkmiş şəxslərin sosial müdafiəsi üçün müvafiq sənədlərin hazırlanmasında və ya sosial müavinətlərin alınmasında kömək göstərmək;
- zəruri hallarda zərər çəkmiş şəxsləri müvəqqəti sığınacaqla təmin etmək;
- zərər çəkmiş şəxslərin ailələrində normal həyat tərzinin bərpa edilməsi üçün tədbirlər görmək;
- məişət zorakılığı ilə bağlı müvafiq qabaqlayıcı tədbirlər həyata keçirmək;
- zərər çəkmiş şəxslərin qarşılıqlı yardım qruplarını təşkil etmək;
- zərər çəkmiş şəxslərin sosial müdafiəsi ilə bağlı digər tədbirlərin həyata keçirilməsini təmin etmək.

Əhalinin sağlamlığının qorunması haqqında" Qanunun 17-1-ci maddəsinə əsasən, məişət zorakılığından zərər çəkmiş şəxslər dövlət səhiyyə sisteminin müəssisələrində ixtisaslaşdırılmış tibbi yardımla pulsuz təmin olunurlar.

---

**1. "Məişət zorakılığının qarşısının alınması haqqında" Qanunun 19.5-ci maddəsi və Azərbaycan Respublikası Prezidentinin 24 noyabr 2011-ci il tarixli, 537 saylı Fərmanı. Yardım mərkəzlərinin fəaliyyəti qaydası və qeyri-dövlət yardım mərkəzlərinin akkreditasiyası qaydaları Nazirlər Kabineti tərəfindən müəyyən edilir.**

**İnzibati Xətalar Məcəlləsinin 307-2.3-cü maddəsinə əsasən, məişət zorakılığından zərər çəkmiş şəxslərə qeyri-dövlət yardım mərkəzlərinin akkreditasiyadan keçmədən fəaliyyət göstərməsinə görə otuz beş manatdan əlli manatadək miqdarda cərimə edilir.**

## Hansı müddətə şəxs yardım mərkəzinə yerləşdirilə bilər?

Yetkinlik yaşına çatmamış zərər çəkmiş şəxslər yardım mərkəzində **3 ay müddətinədək,** digər zərər çəkmiş şəxslər isə **2 ay müddətinədək** zəruri hallarda sığınacaqla təmin oluna bilərlər[1].

**Zərər çəkmiş şəxslərə yardım göstərildikdə konfidensiallığın (gizliliyin) təmin edilməsi**

Şəxs barəsində məişət zorakılığının törədilməsi faktı və zərər çəkmiş şəxslərə yardım göstərildiyi vaxt şəxsi və ailə həyatı barəsində müəyyən edilmiş məlumatlar konfidensial (gizli) hesab olunur.

Məişət zorakılığı ilə bağlı müraciətlərin araşdırılması, məişət zorakılığı ilə bağlı statistik məlumatların toplanılması, zərər çəkmiş şəxslərə yardımın göstərilməsi zamanı məlumatların konfidensiallığı, şəxsi və ailə sirrinin yayılmaması təmin edilməlidir.

Məişət zorakılığı ilə bağlı məlumat bankında toplanmış məlumatların konfidensiallığı məlumat bankını aparan Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən təmin olunur[2]. Məişət zorakılığı ilə bağlı məlumatlar yalnız qanunvericiliklə müəyyən edilmiş hallarda və qaydada verilə bilər. Məişət zorakılığı ilə bağlı statistik məlumatlar **adsızlaşdırılmış şəkildə açıqlanmalıdır.**

Xidməti fəaliyyəti ilə bağlı məişət zorakılığı barədə müraciətlərin araşdırılması zamanı məlumatların konfidensiallığını təmin etməyən vəzifəli şəxslər qanunvericiliklə müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar[3].

**Zorakılığa yol vermiş şəxs barədə tədbirlər**

Zorakılığa yol vermiş şəxs məsuliyyətə cəlb olunmaqla yanaşı, reabilitasiya tədbirlərindən də keçməlidir ki, gələcəkdə zorakı hərəkətləri təkrarlanmasın və zərərçəkmiş şəxsin təhlükəsizliyi təmin olunsun. Həmçinin zorakılığa yol vermiş şəxsin pis vərdişlərdən (narkomaniya, alkoqolizm) azad olması, psixoloji xəstəlikdən müalicə olunması üçün ona tibbi, psixoloji yardım göstərilməlidir.

---

1. **“Məişət zorakılığının qarşısının alınması haqqında” Qanunun 19.3-cü maddəsi.**
2. **Azərbaycan Respublikası Nazirlər Kabinetinin 19 dekabr 2011-ci il tarixli Qərarı ilə təsdiq edilmiş “Məişət zorakılığı ilə bağlı məlumat bankının təşkili və aparılması Qaydaları”.**
3. **“Məişət zorakılığının qarşısının alınması haqqında” Qanunun 17-ci maddəsi.**

Məişət zorakılığı ilə bağlı qabaqlayıcı tədbirlər sırasına:[1]

• məişət zorakılığı törətmiş şəxslərin *profilaktik qeydiyyata götürülməsi və həmin şəxslərlə tərbiyəvi-qabaqlayıcı işin aparılması;*

• məişət zorakılığına görə qanunvericiliklə müəyyən olunmuş *məsuliyyətin izah edilməsi;*

• məişət zorakılığı törətmiş şəxslərə belə halların təkrarlanmaması barədə *xəbərdarlıq edilməsi də daxildir.*

Məişət zorakılığı törətmiş şəxslərin profilaktik qeydiyyata götürülməsi və həmin şəxslərlə tərbiyəvi-qabaqlayıcı işin aparılması məişət zorakılığının qarşısının alınması, ailələrdə normal münasibətlərin yaradılması, məişət zorakılığı hallarının və ondan yaranan mənfi hüquqi, tibbi və sosial nəticələrin aradan qaldırılması məqsədlərini daşıyır.

Məişət zorakılığı törətmiş şəxslərin profilaktik qeydiyyata götürülməsi və həmin şəxslərlə tərbiyəvi-qabaqlayıcı iş **yerli icra hakimiyyəti orqanları** tərəfindən aparılır. Tərbiyəvi-qabaqlayıcı işin aparılmasına psixoloqlar, pedaqoqlar və digər mütəxəssislər, habelə qeyri-hökumət təşkilatları cəlb olunurlar.

Tərbiyəvi-qabaqlayıcı iş qrup və fərdi şəkildə pedaqoji və psixoloji metodlardan istifadə edilməklə aparılır. Qrup şəklində tərbiyəvi-qabaqlayıcı iş məşğələ, mühazirə, iclas, disput, özfəaliyyət dərnəkləri və digər formalarda təşkil oluna bilər. Məişət zorakılığı törətmiş şəxslərlə tərbiyəvi-qabaqlayıcı iş hər bir şəxs üçün tərtib edilmiş fərdi plan əsasında həyata keçirilir[2].

## Zorakılığa yol vermiş şəxsin zərərçəkmiş şəxsin mülkiyyətində olan evdən (mənzildən) çıxarılması

Əgər yaşadığınız ev zərəçəkmiş şəxsin şəxsi mülkiyyətindədirsə, o, zorakı şəxsin həmin evdən (mənzildən) çıxarılmasını tələb edə bilər. Bunu məhkəməyə müraciət vasitəsilə etmək olar[3].

---

**1. “Məişət zorakılığının qarşısının alınması haqqında” Qanunun 16.2-ci maddəsi.**

**2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 19 dekabr 2011-ci il tarixli Qərarı ilə təsdiq olunmuş “Məişət zorakılığı törətmiş şəxslərin profilaktik qeydiyyata götürülməsi və həmin şəxslərlə tərbiyəvi-qabaqlayıcı işin aparılması Qaydası”.**

**3. Şəxsi mülkiyyətdə olan evdən (mənzildən) digər şəxslərin çıxarılması tələbi ilə məhkəməyə ərizə ilə müraciət və baxılması qaydasının detallı izahı bu kitabın məqsədləri xaricindədir.**

## Zorakılığa yol vermiş şəxsin uşaqla ünsiyyəti

Məişət zəminində mübahisələr başlayanda və zorakılıq baş verəndə, ər və arvad birlikdə yaşıyıb yaşamadıqlarından asılı olmayaraq, çox vaxt zorakı şəxs çalışır ki, uşaqdağı təsir alətinə çevirsin: misal üçün, uşağı zərərçəkmiş şəxsin əlindən almaqla hədələyərək, təsir göstərmək istəyir, öz tələblərini yeridir. Bu cür hallar uşağın özünə də çox pis təsir edir.

Belə olduğu zaman zərəçəkmiş şəxs mühafizə orderinin alınması üçün müraciət edə bilər, yaxud yaşadığı yer üzrə məhkəməyə müraciət edərək, uşağın yaşayış yerinin müəyyən olunmasını və uşağın valideynləri və digər ailə üzvləri ilə ünsiyyət qaydalarının müəyyən olunmasını tələb edə bilər.

Məişət zorakılığı ilə bağlı hərəkətləri törətmiş şəxslər qanunvericiliklə müəyyən olunmuş qaydada valideynlik hüququndan məhrum edilə və ya valideynlik hüquqları məhdudlaşdırıla bilər.

Ailə Məcəlləsininin 64.0.5-ci maddəsinə görə, uşaqlara qarşı məişət zorakılığı ilə bağlı hərəkətlər törətdikdə, valideynlər (onlardan biri) valideynlik hüquqlarından məhrum edilə bilərlər.



# CİNAYƏT QANUNVERİCİLİYİ VƏ QADIN HÜQUQLARI

# CİNAYƏT QANUNVERİCİLİYİ VƏ QADIN HÜQUQLARI[1]

## İNSAN ALVERİ

Insan alveri, xüsusilə qadın və uşaq alveri, bütün ölkələrin qarşılaşdığı qlobal problemdir. Hər il yüz minlərlə insan aldadılaraq, satın-alınaraq, digər şəkildə məcbur edilərək, istismara məruz qalır. Bu insanlar cinayətkar "biznes" üçün gəlir mənbəyi rolunu oynayır və insan alverindən əldə olunan gəlir milliardlarla dollarla ölçülür[2]. Insan alveri silah ve narkotik maddələr alverindən sonra ən gəlirli cinayətkar fəaliyyəti sayılır. Insanların istismarı bir qayda olaraq uzunmüddətli xarakter daşıyır. Geniş yayılmış bərabərsizlik problemi, iş imkanlarının azlığı, münaqişələr, ayrı-seçkilik və yoxsulluq ucbatından hər il dünyada insan alverinin potensial qurbanlarının sayı artır.

İnsan alveri qurbanı güclü emosional və psixi sarsıntı keçirir, məsələn, qorxu, acı, hirs, özünə qarşı nifrət, utanc hissi, təhlükə hissi, depressiya, yuxu və qidalanma pozğunluğu. Qurbanını xəstəliyə düçar olması və ya özünə qəsd etməsi təhlükəsi yaranır. Bundan əlavə qurban cəmiyyətdə və ailəsinin həyatında iştirak etməkdə cətinlik çəkir, özünü təcridolunmuş hiss edir.

Qurbanın həmçinin səhhətinə ziyan vurulur: bədən travmaları və xəsarətləri, fəaliyyət qabiliyyətinin itirilməsi, cinsi yolla keçən xəstəliklər, GİÇS, reproduktiv sağlamlığın pozulması, arzuolunmaz hamiləlik, infeksiya. Qurban təhlükəli aborta məruz qoyulur və bəzi hallarda isə ölümlə qarşılaşır.

### İnsan alverinin anlayışı

İnsan alveri insanların istismarı məqsədini güdən quldarlığın müasir formasıdır.

Azərbaycan qanunvericiliyinə əsasən, insan alveri ağır cinayətdir və Cinayət Mə-

---

1. **Cinayət Məcəlləsinin 16-cı fəslində təsbit olunmuş Sülh və insanlıq əleyhinə cinayətlər (o cümlədən Soyqırım (maddə 103), Köləlik (Maddə 106), Cinsi zorakılıq (Maddə 108), Məcburi hamiləlik (Maddə 108-1), Təqib (Maddə 109), İşgəncə (Maddə 113)) və 17-ci fəslində təsbit olunmuş Müharibə cinayətləri kontekstində xüsusilə qadınların hüquq və mənafelərinə toxunan cinayəltərin təsviri və təhlili bu kitabın məqsədləri xaricindədir.**
2. **Bax: Birləşmiş Millətlər Təşkilatının İnsan Hüquqları üzrə Ali Komissarının A/HRC/10/64 saylı, 6 fevral 2009-cü il tarixli hesabatı (ingilis dilində).**

cəlləsinin 144-1-ci maddəsi[1] ilə bu əmələ görə məsuliyyət nəzərdə tutulub. Həmin maddəyə əsasən, insan alveri:

- şəxsin alqı-satqısı və ya ona sahibliklə əlaqədar digər əqdlərin bağlanması;
- və ya **şəxsin istismar edilməsi məqsədilə** Azərbaycan sərhədindən keçirilməsi üçün cəlb edilməsi, əldə edilməsi, saxlanılması, gizlədilməsi, daşınması, verilməsi və ya qəbul edilməsi;
- və ya **şəxsin istismar edilməsi məqsədilə** digər şəxslərə verilməsi üçün cəlb edilməsi, əldə edilməsi, saxlanılması, gizlədilməsi, daşınması, verilməsi və ya qəbul edilməsidir.

Müxtəlif təşkilatların apardığı təhlillər göstərir ki, insan alveri qurbanları Azərbaycandan əsasən Birləşmiş Ərəb Əmirliklərinə, Pakistana, İrana və Türkiyəyə aparılır[2].

Lakin insan alverində şəxsin digər ölkəyə aparılması mütləq şərt deyil. Ölkə daxilində şəxsin istismar edilməsi məqsədilə digər şəxslərə verilməsi üçün cəlb edilməsi, əldə edilməsi, saxlanılması, gizlədilməsi, daşınması, verilməsi və ya qəbul edilməsi də insan alveri sayılır.

"İnsan alverinə qarşı mübarizə haqqında" Qanuna əsasən, insan alverindən zərər çəkmiş, yaxud zərər çəkməsi ehtimal olunan şəxs **insan alverinin qurbanı** adlandırılır.

---

**1. CM-in 144-1.1-ci maddəsinə əsasən insan alveri *beş ildən on ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.***

**CM-nin 144-1.2-ci maddəsinə əsasən, insan alveri sadalanan ağır hallarla törədildikdə *səkkiz ildən on iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır:* insan alveri iki və ya daha çox şəxs barəsində törədildikdə; yetkinlik yaşına çatmayan şəxs barəsində törədildikdə; təqsirkar şəxs üçün aşkar surətdə hamilə vəziyyətində olan qadın barəsində törədildikdə; qabaqcadan əlbir olan bir qrup şəxs, mütəşəkkil dəstə və ya cinayətkar birlik (cinayətkar təşkilat) tərəfindən törədildikdə; təqsirkar şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə törədildikdə; həyat və sağlamlıq üçün təhlükəli olan zor tətbiq etməklə və ya belə zor tətbiq etmək hədəsi ilə törədildikdə; zərərçəkmiş şəxsə işgəncə verməklə və ya onunla qəddar, qeyri-insani, yaxud onun ləyaqətini alçaldan rəftar etməklə törədildikdə; zərərçəkmiş şəxsin orqanlarından və ya toxumalarından istifadə etmək məqsədilə törədildikdə.**

**CM-nin 144-1.3-cü maddəsinə görə, insan alveri ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə və ya digər ağır nəticələrə səbəb olduqda *on ildən on beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.***

**2. Bu məlumat insan alveri qurbanlarına yardım göstərən "Təmiz Dünya" ictimai birliyi və "Azərbaycan Miqrasiya Mərkəzi" ictimai birliyindən alınıb.**

İnsan alveri ilə əlaqədar hər hansı fəaliyyəti həyata keçirən fiziki və ya hüquqi şəxs isə **insan alverçisi** sayılır. İnsan alverçisi insan alveri ilə əlaqədar bu hərəkətləri həyata keçirir:

- istismar məqsədilə insanların cəlb edilməsi,
- əldə edilməsi,
- saxlanılması,
- gizlədilməsi,
- daşınması,
- verilməsi
- və ya qəbul edilməsi.

Beləliklə, tək qurbanları ələ alan, cəlb eləyən və ya istismar üçün qəbul edən şəxslər deyil, qurbanların gizlədilməsi, saxlanılması (misal üçün, qurbanları bilərəkdən öz evində saxlayan şəxs), daşınması (misal üçün, qurbanları bilərəkdən daşıyan sürücü) və başqalarına verilməsində (misal üçün, qurbanı əxlaqsızlıq yuvasının sahibinə verən şəxs) iştirak edən şəxslər də insan alverinə görə məsuliyyətə cəlb olunmalıdır.

**İnsan alverçiləri hansı üsullardan isitifadə edir?**

"İnsan alverinə qarşı mübarizə haqqında" Qanuna görə, insan alverçiləri zor tətbiq etmək hədəsi və ya zor tətbiq etmək, hədə-qorxu və ya digər məcburetmə vasitələri, oğurlama, dələduzluq, aldatma yolu, təsir imkanlarından və ya zəiflik vəziyyətindən sui-istifadə etmək, yaxud digər şəxsə nəzarət edən şəxsin razılığının alınması üçün maddi və sair nemətlər, imtiyazlar və ya güzəştlər vermək və ya almaq kimi **üsullardan istifadə edərək** insanları cinayətin qurbanına çevirirlər.

İnsan alveri göstərilən üsullarla (zor tətbiq etmə, hədə-qorxu, aldatma və sair) törədildikdə insan alveri qurbanının istismar olunmasına dair **razılığı nəzərə alınmır.** Məsələn, hədə-qorxu, şantaj və sair nəticəsində bir qadın cinsi istismara razılaşırsa, həmin razılıq həqiqi razılıq sayıla bilməz.

Qanunvericiliyə əasasən, insan alveri qurbanının istismar olunmasına dair razılığı, həyat tərzi və ya əxlaqsız davranışı insan alverində təqsirli bilinən şəxsin cəzasını yüngülləşdirən hal qismində nəzərə alına bilməz.

Uşağın (yəni **18 yaşına çatmayan şəxsin**) istismar məqsədi ilə cəlb edilməsi, əldə edilməsi, saxlanılması, gizlədilməsi, daşınması, verilməsi və ya qəbul edilməsi göstərilən üsullardan (zor tətbiq etmə, hədə-qorxu, aldatma və sair) **istifadə olunmasa da** insan alveri hesab edilir[1].

**<u>İnsanın istismarı nədir?</u>**

Qanunvericiliyə əsasən, **"insanın istismarı"** dedikdə bunlar başa düşülür:

- məcburi əmək və ya xidmət – *qanunsuz olaraq şəxsin müəyyən işin yerinə yetirilməsinə yaxud xidmətin göstərilməsinə məcbur edilməsi (misal üçün, şəxsin tikintidə, istehsalatda işləməyə, ev qulluqçuluğu, dayəlik, rəqqasəlik xidmətlərini göstərməyə məcbur etmə);*
- cinsi istismar – *yəni şəxsin fahişəlikdə, seksual köləlikdə və ya pornoqrafik materialların istehsalında istifadə edilməsi, digər şəxslərin cinsi istismarından mənfəət əldə edilməsi;*
- köləlik – *yəni şəxs üzərində mülkiyyət hüququna xas olan səlahiyyətlərin tam və ya qismən həyata keçirilməsi;*
- köləliyə bənzər adətlər və onlardan irəli gələn asılılıq vəziyyəti;
- insan orqanlarının və toxumalarının qanunsuz çıxarılması;
- şəxs üzərində qanunsuz biotibbi tədqiqatların aparılması;
- qadının surroqat ana kimi istifadə edilməsi;
- qanunsuz, o cümlədən cinayətkar fəaliyyətə cəlb etmə – *(misal üçün, dilənçiliyə, hərbi münaqişələr zamanı uşaqları hərbi kəşviyyata, silah satışına cəlb etmə)*

**Köləliyə bənzər adətlər**[2] deyiləndə borc köləliyi[3], şəxsin “nökər” və ya qulluqçu statusunda saxlanılması və həmin statusu dəyişmək hüququ olmaması, “başlıq” ödəmə şərti ilə məcburi nikah, əri vəfat etdikdə arvadın məcburi şəkildə başqa şəxsin, o cümlədən vəfat etmiş ərin qohumunun ixtiyarına “keçməsi” (həmçinin qadının razılığı tələb olunmadan həmin şəxsə ərə verilməsi), uşağın əməyinin istismarı məqsədi ilə başqalarına verilməsi kimi adətlər başa düşülür.

---

1. **“İnsan alverinə qarşı mübarizə haqqında” Qanunun 1.0.1-ci maddəsi.**
2. **Köləliyə bənzər adətlər “Köləliyin, qul ticarətinin və köləliyə oxşar institutların və adətlərin ləğv olunması haqqında Əlavə Konvensiya”nın 1-ci maddəsində sadalanıb.**
3. **Yəni bir şəxsin digərinə borcu olması bəhanəsi ilə istismar edilməsi – əgər görülən işlər (göstərilən xidmətlər) borcun ödənilməsinə yönəlmirsə və ya həmin işlərin (xidmətlərin) xarakteri və müddəti məhdudlaşdırılmır və dəqiq müəyyən edilmirsə.**

**İnsan alverçiləri hansı yollarla qurbanları öz toruna salır?**

İnsan alveri tək məcburi fahişəliyə cəlb etmə deyil, insan alverinin qurbanı məcburi nikah, məcburi hamiləlik, ev qulluqçusu, dayə, rəqqasə, qanunsuz istehsalatda iş, orqanlarının transplantasiyası, pornoqrafik materialların istehsalı və sair formalarda istismara məruz qalır.

İnsan alverçiləri insanları öz toruna salmaq üçün müxtəlif vasitələrə əl atır. İnsanlar əsasən aşağıdakı yollarla insan alveri cinayətinin qurbanına çevirilirlər:

- İşədüzəltmə firmaları vasitəsiylə;
- Moda agentliyi vasitəsiylə;
- Nikah agentlikləri vasitəsiylə;
- Turizm agentlikləri vasitəsiylə;
- İnternet vasitəsilə iş, təhsil, tanışlıq və nikah haqqında elanlar vasitəsiylə;
- Qəzet, küçə və televiziya elanları vasitəsilə;
- Tanışlar, qonşular, kurs yoldaşları, iş yerindəki həmkarlar tərəfindən təkliflərlə;
- Xarici agentliklər tərəfindən təkliflərlə;
- Əvvəlcədən hazırlanmış adamlar tərəfindən iş təklifləriylə.

Bu zaman insan alverçiləri gözəl həyat haqqında əhvalatlar danışır, bütün maliyyə problemlərinə son qoyulması ilə bağlı vədlər, karyera yüksəlişi vədləri verir, yüksək əmək haqqı ilə bağlı təkliflər edir, foto və video materiallar nümayiş etdirir, hazırlanmış adamlar isə "əldə etdikləri nailiyyətlər" barədə məlumatlar verir[1].

**İşləmək, təhsil almaq və ya nikah məqsədilə xaricə getmək təklif olunubsa[2]**

İşləmək məqsədilə xaricə getmək təklif olunduğu halda, müraciət etdiyiniz *işədüzəltmə firmasının* sənədləri və iş təcrübəsi ilə yaxından tanış olun. Azərbaycanda fəaliyyət göstərən işədüzəltmə firmaları vətəndaşlara xarici ölkələrdə iş tapmasına,

---

1. **Bu məlumat DİN-nin İnsan Alverinə qarşı Mübarizə İdarəsinin İnternet saytından alınıb.**
2. **Kitabın bu bölümündə verilən məsləhətlər DİN-nin İnsan Alverinə qarşı Mübarizə İdarəsinin İnternet saytında verilmiş məlumatlar istifadə olunmaqla hazırlanıb.**

yalnız lazımi fəaliyyət lisenziyası olduğu halda yardım edə bilər. Bu cür lisenziyanın olub-olmamasını yoxlayın. Müəyyən firma adından sizə xarici ölkədən birində iş təklif edən *nümayəndənin* adını, soyadını öyrənin, ondan təmsil etdiyi firmanın ona verdiyi vəsiqə, etibarnamə və müqaviləni tələb edin.

İşədüzəltmə firmasına və ya nikah agentliyinə etibar etdiyiniz şəxslə birgə gedin ki, şahidiniz olsun.

Xaricdə iş və ya təhsil üçün təkliflər sözdə deyil, *müqavilə, rəsmi sənəd* əsasında olmalıdır. İşə düzələrkən əmək müqaviləsi bağlayın. Müqavilə başa düşdüyünüz dildə olmaqla, sizə aydın olan üslubda yazılmalı və sizin xaricdə görəcəyiniz iş, qarşılıqlı öhdəlikləriniz haqqında *ətraflı məlumat verməlidir*. Çalışın müqavilənin şərtləri barədə *hüquqşunasdan məsləhət alasınız.* İşə düzələrkən işləyəcəyiniz yer haqqında ətraflı məlumat əldə edin.

Xaricdə hər hansı bir işə düzəltmə ilə bağlı əmək, təhsil və nikah müqaviləsini bağlamazdan əvvəl sizin bu ölkədə işləməniz, təhsil almanız və ya sadəcə yaşamağınızın qanuni və təhlükəsiz olması barədə *miqrasiya xidməti əməkdaşı ilə məsləhətləşin.*

Sizə iş, təhsil və ya nigah bağlamaq təklif edilən ölkədəki səfirlik və ya konsulluq vasitəsilə müqavilənizin və ya sizə təqdim olunmuş digər *sənədlərin həqiqi və qanuni olması haqqında məlumat alın.*

Nikah təklifi aldığınız şəxslə çalışın Azərbaycanda görüşəsiniz, görüş üçün onun olduğu ölkəyə getməyə razılıq verməyin.

Sizə aid olan şəxsi sənədləri başqa şəxsə etibar etməyin. Başqa şəxslərin hesabına pul köçürməyin.

**İşləmək, təhsil almaq və ya nikah məqsədilə xaricə getdikdə**

İşləmək, təhsil almaq və ya nikah məqsədilə xaricə getdikdə həmin *ölkəyə giriş üçün* viza almanın qaydalarını öyrənin. Bir çox xarici ölkələrə viza alanda, şəxsin hökmən iştirakı tələb olunur, bunu yadda saxlayın. Sərhədi qanunsuz olaraq, saxta pasport və qondarma viza ilə keçməyə çalışmayın. Əgər siz xarici ölkəyə işləməyə

gedirsinizsə, sizin vizanız qonaq və ya turist vizası yox, əmək vizası, oxumağa gedirsinizsə, tələbə vizası olmalıdır. Xaricə nigah məqsədi ilə gedirsinizsə, sizə nişanlı vizası verilir, həmçinin bir qayda olaraq, bu viza ilə qanuni işə düzəlmək mümkün deyil.

Xarici dövlətdə işə düzəlmə və ya nikah qaydalarını və bu zaman hansı sənədlərin lazım olacağını əvvəlcədən öyərənin. Getdiyiniz *ölkənin qanunvericiliyini,* xüsusilə xaricilərin hüquqları barədə qanunvericiliyi, həmin ölkədə qadının statusunu, məişət şəraitini, yaşayış səviyyəsini, işsizliyin vəziyyətini, dili və mədəni xüsusiyyətlərini öyrənməyə çalışın.

*Doğmalarınıza və ya dostlarınıza* sizin xaricə getməyiniz haqqında tam və aydın məlumatı, oradakı ünvanı, əlaqə telefonunu, həmçinin pasportunuzun, o çümlədən viza səhifəsinin surətini və müqavilənin surətini verməyi unutmayın.

Doğmalarınızla telefonla xüsusi nəzarət *zəngləri və kodlaşdırılmış ifadələr* haqqında razılaşın. Əgər hər hansı bir zəng olmazsa, bu halda doğmalarınız nə baş verdiyini aydınlaşdırmaq üçün hərəkət edə biləcəklər.

Sizə aid olan şəxsi sənədləri, xüsusilə şəxsiyyətinizi təsdiq edən *sənədləri başqa şəxsə etibar etməyin.* Bütün sənədlərin surətini çıxarın. Şəxsiyyətinizi təsdiq edən sənədlər həmişə sizdə olmalıdır.

Xaricə getməzdən əvvəl, gedəcəyiniz ölkədəki *Azərbaycan səfirliklərinin və konsulluqlarının* telefonlarını öyrənin. Lazımi anda təcili onlara müracət edin. *Qeyri-hökumət təşkilatları və ictmai xidmətlərin* telefonlarını və ünvanlarını öyrənin.

Getdiyiniz ölkədə tez bir zamanda Azərbaycan səfirliyi və ya konsulluğunda, həmçininin yaşadığınız ərazinini polis orqanlarında və ya bələdiyyədə *qeydiyyata düşün.*

Xarici dövlətin ərazisində qalma müddətiniz vizada göstərilir. Viza rejimini pozmaq, ciddi qanun pozuntusu sayılır. Vizanın müddəti bitdikdən sonra getdiyiniz ölkədə qalmayın.

İstəyinizin əksinə olaraq məcburi şəkildə sərhədi keçməyə təhrik olunursunuzsa, o zaman viza-pasport, sərhəd-keçid, gömrük xidmətinin əmədaşlarına məlumat verin.

**Xaricdə insan alveri ilə üzləşdikdə**

Əvvəlcədən pasportunuzun surətini çoxaldaraq müxtəlif yerlərdə gizlədin. *Sənədləriniz itərsə* və ya *sizdən məcburi alınarsa,* dərhal olduğunuz xarici ölkənin hüquq-mühafizə orqanlarına (məsələn, polisə) və həmin ölkədəki Azərbaycan səfirliyinə və ya konsulluğuna müraciət edin.

Olduğunuz ölkənin hüquq-mühafizə orqanlarına müraciət etməkdən çəkinməyin, hətta həmin ölkədə qanunsuz fəaliyyətə məcbur edilmiş olsanız və ya ölkədə qanunsuz yaşasanız belə. Qeyri hökümət təşkilatları, beynəlxalq təşkilatlar, dini qurumlar (məscid və kilsələr) və tibb müəssisələrinə müraciət edin. Həmçinin doğmalarınızla əlaqə saxlamağa çalışın.

**İnsan alveri ilə mübarizə**

İnsan alveri qanunun aliliyinə və fundamental demokratik dəyərlərə zərbə vurur. İnsan alveri bir sıra **insan hüquqlarının pozulması** ilə nəticələnir: misal üçün, insanın şərəf və ləyaqətinin alçaldılması, şəxsi həyat hüququnun, azadlıq və şəxsi toxunulmazlıq hüququnun, hərəkət azadlığınının, yaşayış yerini azad şəkildə seçmək hüququnun, bəzi hallarda yaşamaq hüququnun pozulması, köləliyə, məcburi əməyə, qəddar, qeyri-insani rəftara, işgəncələrə məruz qalması, müxtəlif iqtisadi və sosial hüquqların (əmək, istirahət, sağlamlıq, tibbi yardım almaq hüququ və sair) pozulması. Əsasən qadınlar insan alveri qurbanları olduğuna görə, insan alveri **qadınlara qarşı ayrı-seçkilik** və **zorakılığın** formasıdır.

İnsan alveri faktı üzrə effektiv araşdırma aparmaq dövtətin öhdəliyidir. Qanunvericiliyə görə, insan alveri ilə bağlı cinayət törətmiş Azərbaycan vətəndaşları, əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər *cinayətlərin törədilməsi yerindən asılı olmayaraq,* Azərbaycan Respublikasının Cinayət Məcəlləsi əsasında cinayət məsuliyyətinə cəlb edilirlər[1].

Həmçinin *vəzifəli şəxsin* insan alverinə şərait yarada biləcək hərəkət və ya hərəkətsizliyi məsuliyyətə səbəb olur[2].

İnsan alveri ilə bağlı cinayətlər üzrə əməliyyat-axtarış fəaliyyətinin və cinayət təqibinin həyata keçirilməsi Daxili İşlər Nazirliyi tərəfindən təmin edilir.

---



**1. "İnsan alverinə qarşı mübarizə haqqında" Qanunun 27-ci maddəsi.**

**2. "İnsan alverinə qarşı mübarizə haqqında" Qanunun 21.2-ci maddəsi.**

**Daxili İşlər Nazirliyinin İnsan Alverinə qarşı Mübarizə İdarəsi** insan alverinin qarşısının alınmasını, onunla mübarizəni, qurbanların müdafiəsini təmin edən, təhqiqat orqanı funksiyasını yerinə yetirən və əməliyyat-axtarış fəaliyyətini həyata keçirən ixtisaslaşdırılmış qurumdur.

**DİN-nin Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsi** insan alverinə qarşı mübarizə, qarşısının alınması, açılması və istintaqı funksiyalarını daşıyır.

İnsan alveri nəticəsində baş verən insan hüquqları pozuntuları barədə **beynəlxalq qurumlara,** o cümlədən BMT-nin İnsan Hüquqları Komitəsi, Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi üzrə Komitə, Avropa İnsan Hüquqları Məhkəməsinə və sair.

**<u>İnsan alveri qurbanlarının hüquq və mənafelərinin qorunması</u>**

İnsan alverinə qarşı mübarizənin əsas prinsipləri odur ki, insan alveri qurbanlarının cəmiyyətdə *ayrı-seçkiliyə məruz qalmasının qarşısı alınmalı,* insan alveri *qurbanlarının təhlükəsizliyi* və onlarla *nəzakətli rəftar* təmin edilməlidir[1].

Qurbanların hüquqlarının qorunmasını və onların aidiyyəti quruma təhvil verilməsini, təhlükəsizliyini, repatriasiyasını, sosial reabilitasiyasını təmin edəcək səmərəli sistemin yaradılması və bu sahədə qaydaların formalaşdırılması məqsədilə **İnsan alveri qurbanları ilə bağlı Milli İstiqamətləndirmə Mexanizmi** üzrə idarələrarası komissiya yaradılıb. **Milli Koordinator** – İnsan Alverinə Qarşı Mübarizə üzrə Milli Fəaliyyət Planının həyata keçirilməsi üzrə məsul şəxsdir.

İnsan alverinin qarşısının alınması sahəsində fəaliyyət göstərən *qeyri-hökumət təşkilatları* insan alverinin potensial qurbanlarının maarifləndirilməsi işlərinə, insan alveri qurbanları üçün xüsusi müəssisələrin fəaliyyətinin təşkil edilməsinə, insan alveri qurbanlarına hüquqi yardımın göstərilməsinə və onların sosial reabilitasiyasına cəlb edilirlər.

**<u>İnsan alveri qurbanları üçün müvəqqəti sığınacaqlar</u>**

**İnsan alveri qurbanlarının müvəqqəti yaşaması üçün sığınacaqlar** – qurbanlara layiqli yaşayış şəraitinin yaradılması, təhlükəsizliyinin təmin edilməsi, qida və dər-

**1. "İnsan alverinə qarşı mübarizə haqqında" Qanunun 4-cü maddəsi.**

man preparatları ilə təmin edilməsi, onlara təxirəsalınmaz tibbi, psixoloji, sosial və hüquqi yardımın göstərilməsi üçün Daxili İşlər Nazirliyi tərəfindən yaradılır. Sığınacaqlarda:[1]

• **bütün xidmətlər ödənişsiz göstərilir,** hər hansı pullu xidmətlərin göstərilməsinə yol verilmir;

• qurbanlara **telefonla danışmaq və**

• **tərcüməçinin xidmətlərindən** istifadə etmək imkanı yaradılır;

• **konfidensial (etibarlı) söhbət** aparılması üçün xüsusi yerlər ayrılır;

• qurbanların **şəxsiyyətinin anonimliyi (gizliliyi)** təmin edilir və onların razılıqları olmadan barələrində cinayət təqibi orqanlarına və ya digər dövlət orqanlarına **məlumat verilmir.**

Sığınacaq qurbana onun xahişi ilə **30 gün müddətinə** təqdim edilir. Sığınacağın verilməsi qurbanın davranışından, cinayət təqibi orqanları ilə əməkdaşlıq etmək və insan alverçilərinə qarşı ifadə vermək istəyindən asılı olmamalıdır. Sığınacaq verilmə müddəti müəyyən hallarda **uzadıla bilər.**

## İnsan alveri qurbanlarına yardım mərkəzləri. Hüquqi yardım

**İnsan alveri qurbanlarına yardım mərkəzləri** – qurbanlara onların hüquq və mənafelərinin müdafiəsinə dair mövcud inzibati və hüquqi prosedurlar haqqında izahatlar vermək, tibbi, psixoloji və digər zəruri yardımın göstərilməsi, habelə insan alveri qurbanlarının sosial reabilitasiyasına kömək məqsədilə *Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi* tərəfindən Azərbaycan Respublikasının Maliyyə Nazirliyi, Ədliyyə Nazirliyi, Daxili İşlər Nazirliyi, Səhiyyə Nazirliyi, Təhsil Nazirliyi, Gənclər və İdman Nazirliyi ilə razılaşdırılmaqla yaradılmalıdır. Yardım mərkəzlərində:[2]

• bütün **xidmətlər ödənişsiz göstərilir,** hər hansı pullu xidmətlərin göstərilməsinə yol verilmir;

• qurbanların **şəxsiyyətinin anonimliyi (gizliliyi)** təmin edilir və onların razılıqları olmadan barələrində cinayət təqibi orqanlarına və ya digər dövlət orqanlarına məlumat verilmir.

---

**1. "İnsan alverinə qarşı mübarizə haqqında" Qanunun 13-cü maddəsi.**
**2. "İnsan alverinə qarşı mübarizə haqqında" Qanunun 14-cü maddəsi.**

**İnsan alveri qurbanlarının sosial reabilitasiyası**

**İnsan alveri qurbanlarının sosial reabilitasiyası** – qurbanların cəmiyyətə reinteqrasiyası (qayıdışı), normal həyat tərzinə qaytarılması məqsədilə həyata keçirilir və bunları nəzərdə tutur:[1]

• **hüquqi yardımın göstərilməsi.** *Qurbanlar pulsuz hüquqi yardım almaq hüququna malikdirlər. Hüquqi yardımı insan alveri qurbanları üçün sığınacaqlar və yardım mərkəzləri, habelə onların və ya insan alveri qurbanlarının yazılı sorğusu əsasında Ədliyyə Nazirliyi tərəfindən həyata keçirir.*

• **qurbanların təhsilinin davam etdirilməsi** üçün tədbirlər. *Bu tədbirlər Təhsil Nazirliyi tərəfindən görülməlidir.*

• **qurbanların psixoloji, tibbi reabilitasiyası** üçün tədbirlər. *Qurbanların pulsuz psixoloji və tibbi yardımı, dərman preparatları ilə təmin edilməsini insan alveri qurbanları üçün sığınacaqlar və yardım mərkəzləri, habelə onların göndərişi əsasında Səhiyyə Nazirliyi həyata keçirməlidir.*

• **qurbanların peşə reabilitasiyası** üçün tədbirlər. *Sosial və peşə reabilitasiyası ilə əlaqədar tədbirlər Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən görülməlidir.*

• **iş və yaşayış sahəsi ilə təmin edilməsi** imkanlarından istifadə edilməsi. Y*aşayış sahəsi ilə təmin edilmə insan alveri qurbanları üçün yardım mərkəzlərinin təqdimatı əsasında onların yaşından, ailə və sağlamlıq vəziyyətindən asılı olaraq Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Təhsil Nazirliyi, Gənclər və İdman Nazirliyi, Səhiyyə Nazirliyi və yerli icra hakimiyyəti orqanları tərəfindən həyata keçirilməlidir.*

Qurbanların sosial reabilitasiyası həyata keçirilərkən onların, xüsusilə uşaqların yaşı, cinsi və tələbatları, o cümlədən zəruri sığınacaq, təhsil və qayğıya olan ehtiyacları nəzərə alınmalıdır.

**<u>İnsan alverinin qurbanı olmuş uşaqlara yardım göstərilməsi</u>**

İnsan alverinin qurbanı olmuş uşağa yardım göstərilərkən onun mənafeləri üstün tutulmalıdır.

Sığınacaqlar və yardım mərkəzləri insan alverinin qurbanı olmuş uşaq barədə *qəyyumluq və himayə orqanına* və *Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə* komissiyaya dərhal məlumat verirlər.

---

**1. “İnsan alverinə qarşı mübarizə haqqında” Qanunun 15-ci maddəsi.**

• Uşaqların sığınacaqda **qalma müddəti 60 gündür**. Bu müddət müəyyən hallarda uzadıla bilər. Uşaqlar sığınacağa yerləşdirilərkən və burada saxlama müddəti uzadılarkən 10 yaşından böyük uşaqların məsələyə dair münasibəti öyrənilir və nəzərə alınır.

• Sığınacaqlarda uşaqlar bir qayda olaraq, ayrıca yerləşdirilirlər.

• Sığınacaqlara yerləşdirilmiş uşaqlara təhsillərini davam etdirmək, valideynləri ilə (uşağın insan alverinin qurbanı olmasına valideynlərinin səbəb olması güman edilən hallar istisna olmaqla) əlaqə və ünsiyyət saxlamaq imkanı yaradılmalıdır.

İnsan alverinin qurbanı olmuş uşaq valideynlərinin yerini bilmədikdə və ya valideyn himayəsindən məhrum olduqda, insan alverinə qarşı mübarizə aparan dövlət orqanları onun **valideynlərinin axtarılması,** yaxud barəsində **qəyyumluq və ya himayənin müəyyən edilməsi** üçün tədbirlər görür[1].

*Qəyyumluq və himayə orqanı və Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiya* insan alveri qurbanı olan uşağın hüquq və mənafelərinin qorunması üçün tədbirlər görür. Həmçinin *Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi* sığınacaqda yerləşdirilmiş uşağın hüquq və mənafelərinin qorunmasının təmin edilməsi üçün öz səlahiyyəti çərçivəsində tədbirlər görür.

**<u>İnsan alveri qurbanları barədə məlumatların gizliliyi</u>**

Məhkəmənin və ya digər cinayət təqibi orqanının qərarı ilə insan alveri qurbanının şəxsiyyəti haqqında məlumat-sorğu xidmətlərində və informasiya-məlumat fondlarında olan **məlumatlara buraxılış dayandırılır.** Aşağıdakılar məsuliyyətə səbəb olur[2]:

• qurbanın şəxsi və ailə həyatının sirri olan məlumatların yayılması;

• qurbanın, onun yaxın qohumlarının, habelə insan alverinə qarşı mübarizəyə yardım göstərən şəxslərin həyat və sağlamlığına təhlükə yarada bilən məlumatın yayılması və ya qanunsuz toplanması;

• qurban barəsində tətbiq edilən təhlükəsizlik tədbirləri haqqında məlumatları qanunsuz olaraq toplama və ya bu məlumatları qəsdən yayma.

---



**1. "İnsan alverinə qarşı mübarizə haqqında" Qanunun 16-cı maddəsi.**

**2. "İnsan alverinə qarşı mübarizə haqqında" Qanunun 17-ci maddəsi.**

CM-in 316-1-ci maddəsinə əsasən, insan alverindən zərərçəkmiş şəxs haqqında konfidensial məlumatları qanunsuz toplama, yaxud qəsdən yayma yüz manatdan beş yüz manatadək miqdarda cərimə və ya iki yüz qırx saatadək ictimai işlər və ya bir ilədək müddətə islah işləri ilə cəzalandırılır[1]. Bu maddədə **"konfidensial məlumat"** dedikdə, yayılması insan alverindən zərər çəkmiş şəxsin, onun yaxın qohumlarının, habelə insan alverinə qarşı mübarizəyə yardım göstərən şəxslərin həyat və sağlamlığına təhlükə yaradan hər hansı məlumat başa düşülür.

## İnsan alveri qurbanının təhlükəsizliyinin təmin edilməsi

Qurbanların həyatının, sağlamlığının, hüquq və azadlıqlarının, təhlükəsizliyinin, şəxsiyyətinin anonimliyinin qorunması tədbirləri *Daxili İşlər Nazirliyi* tərəfindən təmin edilir.

• İnsan alveri qurbanları barəsində tətbiq olunan təhlükəsizlik tədbirləri insan alveri ilə bağlı cinayətlərə dair ibtidai araşdırma, məhkəmə baxışı, habelə məhkəmənin yekun qərarı çıxarıldıqdan sonrakı dövr də daxil olmaqla, **təhlükə tam aradan qalxanadək davam etdirilir.**

• qurbanların şəxsiyyətinin anonimliyinin təmin edilməsi məqsədilə **uydurma adlardan istifadə** edilə bilər[2].

## İnsan alveri ilə bağlı işlərə məhkəmədə baxılmasının xüsusiyyətləri

İnsan alveri ilə bağlı cinayət işlərinə, həmçinin insan alveri nəticəsində dəyən ziyanın ödənilməsi üzrə işlərə insan alveri qurbanının müraciəti əsasında məhkəmənin qərarı ilə qapalı məhkəmə iclasında baxıla bilər.

Qurbanların təhlükəsizliyinin təmin edilməsi, insan alverçiləri tərəfindən onlara təsir göstərilməsinin qarşısının alınması məqsədilə, həmçinin qurbanların fiziki və psixoloji vəziyyəti nəzərə alınaraq məhkəmə baxışı zamanı qurbanlara **texniki vasitələrdən (telekörpü, videoyazı və s.) istifadə etməklə ifadə vermək imkanı** yaradıla bilər[3].

---

1. **CM-in 316-1.2-ci maddəsi: Eyni əməllər təqsirkar şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə törədildikdə *beş yüz manatdan min manatadək miqdarda cərimə və ya bir ilədək müddətə islah işləri və ya altı ayadək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.* CM-in 316-1.3-cü maddəsi: Eyni əməllər ağır nəticələrə səbəb olduqda *bir ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.***
2. **"İnsan alverinə qarşı mübarizə haqqında" Qanunun 18-ci maddəsi.**
3. **"İnsan alverinə qarşı mübarizə haqqında" Qanunun 24-cü maddəsi.**

**<u>İnsan alveri qurbanlarına müavinətin ödənilməsi</u>**

İnsan alveri qurbanlarına reinteqrasiya dövründə qanunvericiliyə müvafiq olaraq dövlət büdcəsi və digər mənbələr hesabına Nazirlər Kabinetinin müəyyən etdiyi məbləğdə müavinət ödənilir. Hazırda bu məbləğ 200 AZN təşkil edir.

**<u>İnsan alveri qurbanlarına dəymiş ziyanın ödənilməsi</u>**

*Məhkəmələr* insan alveri qurbanlarına **dəymiş maddi və mənəvi ziyanın** ödənilməsi məsələsini həll edirlər.

Qurbanlara dəymiş ziyan qanunvericiliyə uyğun olaraq **insan alverçilərinin əmlakı hesabına** ödənilir. Bu əmlak kifayət etmədikdə, dəymiş ziyan məhkəmənin qərarına əsasən **insan alveri qurbanlarına kömək Fondunun vəsaiti hesabına** ödənilə bilər. Həmin Fond Daxili İşlər Nazirliyinin nəzdində yaradılır və fəaliyyət göstərir.

**<u>Məcburetmə, yaxud təhdid altında törədilən əməllər</u>**

"İnsan alverinə qarşı mübarizə haqqında" qanunun 17.7-ci maddəsinə əsasən, insan alverindən zərər çəkmiş şəxslər bilavasitə insan alverinin qurbanı vəziyyətində olmasının nəticəsində məcburetmə və ya təhdid altında törətdikləri əməllərə görə qanunvericiliklə müəyyən edilmiş qaydada və hallarda mülki, inzibati və cinayət məsuliyyətindən azad edilirlər.

**<u>İnsan alveri qurbanı olan Azərbaycan vətəndaşlarının xaricdə müdafiəsi və həmin şəxslərə köməklik</u>**

**Xarici İşlər Nazirliyi** insan alverinin qurbanı olan Azərbaycan vətəndaşları Azərbaycanın hüdudlarından kənarda olduqları təqdirdə, onların hüquq və mənafelərinin müdafiəsini həyata keçirməlidir. **Azərbaycanın xaricdəki diplomatik nümayəndəlikləri və konsulluqları** öz səlahiyyətləri daxilində və yerləşdikləri ölkənin qanunvericiliyinə uyğun olaraq insan alveri qurbanı olan Azərbaycan vətəndaşlarının:

- hüquq və mənafelərinin müdafiəsini həyata keçirir;
- onların Azərbaycana qayıtmasına yardım edirlər.



İnsan alveri qurbanı olan Azərbaycan vətəndaşının **şəxsiyyətini təsdiq edən sənədlər** itdikdə və ya onları insan alverçilərindən geri almaq mümkün olmadıqda, hə-

min diplomatik nümayəndəliklər və konsulluqlar Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi ilə birlikdə belə vətəndaşları qısa müddət ərzində Azərbaycana qayıtmaq hüququ verən sənədlə təmin edirlər.

**<u>İnsan alveri qurbanı əcnəbi və vətəndaşlığı olmayan şəxsdirsə</u>**

İnsan alverinin qurbanı olmuş əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə müdafiə və yardım Azərbaycan vətəndaşları ilə bərabər səviyyədə təqdim olunur.

Əcnəbi və ya vətəndaşlığı olmayan şəxs insan alverindən zərər çəkmiş şəxs hesab olunduqda, onun barəsində **1 il müddətində** Azərbaycanın hüdudlarından kənara **inzibati qaydada çıxartma tətbiq edilmir.** Bu müddət müəyyən hallarda cinayət təqibi başa çatanadək uzadıla bilər.

İnsan alverinin qurbanı olan **uşaqlar** barəsində Azərbaycanın hüdudlarından kənara **inzibati qaydada çıxartma tətbiq olunmur.** İnsan alverinin qurbanı olmuş uşaqların öz ölkələrinə, yaxud valideynlərinə qaytarılmasına yalnız uşağın yenidən insan alverinin qurbanı olması ehtimalı istisna edildikdə yol verilir. Həmin uşaqların öz ölkələrinə, yaxud valideynlərinə qaytarılması məsələsi həll olunarkən 10 yaşından böyük uşaqların məsələyə dair münasibəti öyrənilir və nəzərə alınır.

İnsan alverinin qurbanı Azərbaycanın hüdudlarını **tərk etmək arzusunda olduqda,** onun müvafiq sənədlərlə təmin edilməsinə, nəqliyyat və digər zəruri xərclərin ödənilməsinə köməklik göstərilir, qəbul ediləcəyi ölkədə insan alverinin qurbanı olması təhlükəsinin azaldılmasına dair tövsiyələr verilir.

İnsan alverinin qurbanı olan əcnəbi və ya vətəndaşlığı olmayan şəxs göstərilən 1 il müddət ərzində qanunvericiliklə müəyyən edilmiş qaydada Azərbaycanda **yaşamaq hüququ əldə etmək üçün** müvafiq dövlət orqanlarına müraciət edə bilər.

**<u>İnsan alveri cinayətinin anlayışı ilə oxşar olan və ya üst-üstə düşən digər cinayətlər</u>**

Cinayət məsuliyyəti doğuran bir sıra digər cinayətlər də var ki, insan alveri cinayətinin anlayışı ilə oxşardır və ya üst-üstə düşür. Həmin cinayətlər aşağıdakılardır:

Cinayət Məcəlləsinin 136.1-ci maddəsi qadına, onun razılığı olmadan və ya yetkinlik yaşına çatmayan qadına **süni mayalanma** və ya **embrionu implantasiya** etməyə görə məsuliyyət nəzərdə tutur[1]. CM-in 144-1-ci maddəsində edilmiş qeydə əsasən, qadının surroqat ana kimi istifadə edilməsi (bədəninə embrionun implantasiyası) insan alverində istismarın bir növüdür. Sübut edilsə ki, süni mayalanma və ya embrionun implantasiyası "istismar məqsədilə" edilib, bu cinayət əslində insan alveri sayılmalıdır və daha ağır cəza ilə nəticələnməlidir.

CM-nin 137.2-ci maddəsi zor tətbiq etməklə və ya zor tətbiq etmə hədəsi ilə **insan orqanlarının və ya toxumalarının transplantasiya məqsədilə götürülməsinə məcbur etməyə** görə məsuliyyət nəzərdə tutur[2]. Əslində insan orqanlarının və ya toxumalarının bu cür transplantasiyası insan alverində istismarın bir növüdür. Bu barədə CM-in 144-1-ci maddəsində xüsusi qeyd var. Belə olduğu halda bu cinayət insan alverinin bir növü sayılmalıdır və daha ağır cəza ilə nəticələnməlidir.

O cümlədən CM-in 138.1-ci maddəsi ilə məsuliyyət doğuran cinayətin, yəni **şəxsin razılığı olmadan onun üzərində biotibbi tədqiqatlar aparma** cinayətinin[3] kökündə istismar durur. CM-in 144-1-ci maddəsində qeyd olunub ki, **şəxsin üzərində qanunsuz biotibbi tədqiqatlar aparma** insan alverində istismarın bir növüdür.

CM-in 144-2.1-ci maddəsi ilə qadağan olunmuş **məcburi əmək** (yəni hədə-qorxu, zor tətbiq etməklə və ya zor tətbiq etmək hədəsi ilə, habelə qanunvericiliklə müəyyən edilmiş xüsusi hallardan başqa şəxsin azadlığını məhdudlaşdırmaqla müəyyən işin yerinə yetirilməsinə (xidmətin göstərilməsinə) məcbur etmə)[4] də insan alverində istismarın bir növüdür. Beləliklə, məcburi əmək insan alverinin bir növü sayılmalı və daha agır cəza ilə nəticələnməlidir.

CM-nin 170.1-ci maddəsi **on səkkiz yaşına çatmış şəxs tərəfindən yetkinlik yaşına çatmayanı aldatma, vədlər vermə, hədə-qorxu vasitəsi ilə cinayətkar fəaliy-**

---

1. **Bu cinayət beş yüz manatdan min manatadək miqdarda cərimə və ya iki ilədək müddətə islah işləri və ya üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.**
2. **Bu cinayət üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə dörd ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.**
3. **Bu cinayət beş yüz manatdan min manatadək miqdarda cərimə və ya iki ilədək müddətə islah işləri və ya iki ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.**
4. **Bu cinayət iki ilədək müddətə islah işləri və ya eyni müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.**

**yətə cəlb etməyə** görə məsuliyyət nəzərdə tutur[1]. Yuxarıda göstərilmiş maddələrdə olduğu kimi, bu maddədəki əməl də insan alverində istismrın bir növü sayılır. Cinayətkar fəaliyyətə cəlb etmənin istismar olması barədə CM-in 144-1-ci maddəsində xüsusi qeyd var.

Eyniliklə CM-in 171.1-ci maddəsi ilə qadağan edilmiş əməl, yəni **yetkinlik yaşına çatmayanı fahişəliyə və ya digər əxlaqsız əməllərə cəlb etmə**[2] insan alverində istismarın növüdür.

Nəhayət, CM-in 243.1-ci maddəsi ilə cinayət məsuliyyəti nəzərdə tutulmuş əməl, yəni **zor tətbiq etməklə və ya zor tətbiq etmək hədəsi ilə, şantajla, əmlakı məhv etməklə və ya zədələməklə, yaxud aldatmaqla, gəlir və ya digər fayda əldə etmək məqsədi ilə fahişəliyə cəlb etmə**[3] insan alverində istismarın bir növüdür. Belə olduğu halda həmin əməl daha ağır cəza ilə nəticələnən insan alveri sayılmalıdır.

Cinayət Məcəlləsinin yuxarıda göstərilmiş maddələrinə dəyişiklik edilməsinə və insan alveri cinayəti ilə üst-üstə düşən cəhətlərin aradan qaldırılmasına ehtiyac var.

## CİNSİ AZADLIQ VƏ CİNSİ TOXUNULMAZLIQ ƏLEYHİNƏ OLAN CİNAYƏTLƏR

Cinsi azadlıq və toxunulmazlıq əleyhinə cinayətlər xüsusilə qadınların rastlaşdığı və onlarda ağır iz qoyduğu cinayətlərdir. Bu cinayətlər həm fiziki, həm də psixi travma ilə nəticələnir. Cinayətdən zərər çəkmiş şəxs üçün baş vermiş hadisəni unutmaq və normal həyata qayıtmaq olduqca çətindir. Cinsi cinayət qurbanının reabilitasiyası tibbi və psixoloji yardım sahəsində mütəxəssislərin köməyi lazım olur.

Qanuna əsasən, hər bir şəxsin cinsi toxunulmazlıq hüququ var və cinsi əlaqədə olma şəxsin azad seçimi əsasında olmalıdır. Bu hüquq qanunla qorunur. Hər kəsin cinsi əlaqədə olacağı şəxsi özü seçmək hüququ var və heç kim onu bu cür əlaqəyə girməyə

---

1. **Bu cinayət üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır. CM-in 170.3-cü maddəsinə əsasən, yetkinlik yaşına çatmayanı cinayətkar fəaliyyətə cəlb etmə zor tətbiq etməklə və ya zor tətbiq etmək hədəsi ilə törədildikdə və ya yetkinlik yaşına çatmayanı cinayətkar qrupa və ya ağır, yaxud xüsusilə ağır cinayətin törədilməsinə cəlb etmə** ***beş ildən on ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.***
2. **Bu cinayət üç ildən altı ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.**
3. **Bu cinayət beş yüz manatdan min manatadək miqdarda cərimə və ya yüz altmış saatdan iki yüz qırx saatadək ictimai işlər və ya üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.**

məcbur edə bilməz. Cinsi əlaqə şəxsin iradəsi, istəyi əsasında olmalıdır. Bu hüquq şəxsi həyat toxunulmazlığı hüququnun tərkib hissəsidir.

Cinsi cinayət şəxsiyyət əleyhinə olan və şəxsin cinsi həyatına aid əməldir. Bu cür cinayət nəticəsində olan cinsi əlaqə və ya cinsi xarakterli digər əməllər qarşılıqlı istək və seksual cəlbetmə əsasında deyil, təkcə təqsirkarın istəyi nəticəsində olur. Uşaqlara münasibətdə bəzi cinsi cinayətlər həmçinin cinsi əlaqəyə razılıq üçün müəyyən olunmuş yaş həddinin pozulması ilə baş verir.

Şəxsin cinsi toxunulmazlığı və cinsi azadlığı əleyhinə olan cinayətlər Cinayət Məcəlləsinin 20-ci fəsilində təsbit olunub. Bunlar zorlama (maddə 149), seksual xarakterli zorakılıq hərəkətləri (maddə 150), seksual xarakterli hərəkətlərə məcbur etmə (maddə 151), on altı yaşına çatmayan şəxslə cinsi əlaqədə olma və ya seksual xarakterli digər hərəkətlər etmə (maddə 152) və əxlaqsız hərəkətlərdir (maddə 153).

Cinsi azadlıq və toxunulmazlıq əleyhinə olan cinayətin qurbanı olmuş şəxslərə ən tez bir zamanda həkimə müraciət etmələri və həkimin yazılı rəyini almaları və hüquqi yardım almaq üçün hüquqşünasa müraciət etmələri məsləhət görülür.

Törədilmiş, cəhd edilmiş və ya hazırlanan cinayət barədə şikayəti və ya məlumatı polis və prokurorluq orqanla təqdim etmək lazımdır[1]. Təhqiqatçı, müstəntiq və ya prokuror hazırlanan, yaxud törədilən cinayətin əlamətlərini əks etdirən əməllər barədə məlumat aldıqda və ya cinayət hadisəsini bilavasitə aşkar etdikdə qanunvericiliklə müəyyən edilmiş qaydada cinayətin izlərinin qorunması və götürülməsi üçün tədbirlər görməli, həmçinin öz səlahiyyətləri daxilində dərhal təhqiqat və ya istintaq aparmalıdırlar[2].

Aşağıdakı cinayət növlərində cinayət təqibi zərər çəkmiş şəxsin şikayəti əsasında və ya müəyyən hallarda[3] prokurorun öz təşəbbüsü ilə həyata keçirilir:

---

**1. Cinayət təqibi ilə bağlı prosedurların detallı izahı bu kitabın məqsədləri xaricindədir.**

**2. Cinayət Məcəlləsinin 38.1-ci maddəsi.**

**3. CPM-in 37.5-ci maddəsi: İctimai-xüsusi ittiham qaydasında cinayət təqibi zərər çəkmiş şəxsin şikayəti olmadan prokuror tərəfindən yalnız aşağıdakı hallarda başlanıla bilər:**

**37.5.1. törədilmiş cinayət dövlətin və ya cəmiyyətin mənafeyinə toxunduqda;**

**37.5.2. cinayət hakimiyyət nümayəndəsi və ya dövlət orqanlarının digər vəzifəli şəxsləri tərəfindən, yaxud onlara qarşı törədildikdə;**

**37.5.3. cinayət hamilə vəziyyətdə olan qadın, qoca və köməksiz vəziyyətdə olan şəxs barəsində törədildikdə;**

**37.5.4. cinayət hədə-qorxu, məcburiyyət təsiri altında və ya onu törətmiş şəxsdən asılı vəziyyətdə olan digər şəxs barəsində törədildikdə;**

**37.5.5. cinayət fəaliyyət qabiliyyəti olmayan və ya cinayət məsuliyyətinə cəlb etməyə imkan verən yaş həddinə çatmamış şəxs tərəfindən və ya ona qarşı törədildikdə.**

• **zorlama** (Cinayət Məcəlləsinin 149.2 və 149-3 deyil, yalnız 149.1-ci maddəsi),

• **seksual xarakterli zorakılıq hərəkətləri** (Cinayət Məcəlləsinin 150.1 və 150.2 deyil, yalnız 150.1-ci maddəsi),

• **seksual xarakterli hərəkətlərə məcbur etmə** (CM-nin 151-ci maddəsi)

Həmin cinayət növlərində **zərərçəkmiş şəxslə barışmaqla** cinayət məsuliyyətindən azad etmə mümkündür[1].

**<u>Zorlama cinayəti</u>**

Zorlama zərərçəkmiş şəxsə və ya başqa şəxslərə qarşı zor tətbiq etməklə və ya belə zor tətbiq etmə hədəsi ilə və ya zərərçəkmiş şəxsin köməksiz vəziyyətindən istifadə etməklə onunla cinsi əlaqədə olma kimi başa düşülür.

Cinayət Məcəlləsinin 149-cu maddəsinə əsasən, zorlama dörd ildən səkkiz ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır. Müəyyən hallarda beş ildən on ilədək və ya səkkiz ildən on beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır[2].

Zorlama aşağıda göstərilmiş hallarla törədildikdə, daha ağır cəza nəzərdə tutulur:[3]

• bir qrup şəxs, qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən törədildikdə;[4]

• zərərçəkmiş şəxsin zöhrəvi xəstəliyə yoluxmasına səbəb olduqda;

---

1. **CM-in 73-cü maddəsi: ilk dəfə böyük ictimai təhlükə törətməyən cinayət törətmiş şəxs zərərçəkmiş şəxslə barışdıqda və ona dəymiş ziyanı ödədikdə və ya vurulmuş zərəri aradan qaldırdıqda cinayət məsuliyyətindən azad edilə bilər.**
2. **CM-in 149-cu maddəsi (zorlama): 149.1. Zorlama, yəni zərərçəkmiş şəxsə və ya başqa şəxslərə qarşı zor tətbiq etməklə və ya belə zor tətbiq etmə hədəsi ilə və ya zərərçəkmiş şəxsin köməksiz vəziyyətindən istifadə etməklə onunla cinsi əlaqədə olma – *dörd ildən səkkiz ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.***
3. **Cinayət Məcəlləsinin 61-ci maddəsində ayrıca nəzərdə tutulmuş cəzanı ağırlaşdıran halları təsvir və izah etmək bu kitabın məqsədləri xaricindədir.**
4. **Cinayət Məcəlləsinin 34-cü maddəsinə əsasən: 34.1. Qabaqcadan razılaşmadan iki və ya daha çox icraçının birgə iştirakı ilə törədilən cinayət bir qrup şəxs tərəfindən törədilmiş cinayət hesab olunur. 34.2. Qabaqcadan razılaşmaqla iki və ya daha çox şəxsin birgə iştirakı ilə törədilən cinayət qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədilmiş cinayət hesab olunur. 34.3. Bir və ya bir neçə cinayətin törədilməsi üçün qabaqcadan birləşmiş iki və ya daha çox şəxsdən ibarət olan sabit cinayətkar qrup tərəfindən törədilən cinayət mütəşəkkil dəstə tərəfindən törədilmiş cinayət hesab olunur.**

• təqsirkar şəxs üçün aşkar surətdə yetkinlik yaşına çatmayan şəxsə *(yəni on səkkiz yaşına çatmayan şəxsə)* qarşı törədildikdə;

• zərərçəkmiş şəxsi və ya başqa şəxsləri öldürmə və ya sağlamlığa ağır zərər vurma hədəsi ilə, habelə xüsusi amansızlıqla törədildikdə *(burada zərəzçəkmiş şəxsə ağır fiziki və mənəvi zərərin yetirilməsi nəzərə alınır, məhkəmə-tibbi ekspertizanın keçirilməsi vacibdir);*

• təkrar törədildikdə[1] – *beş ildən on ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır*[2].

• ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə səbəb olduqda;

• ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin insan immunçatışmazlığı virusu ilə yoluxmasına və ya digər ağır nəticələrə səbəb olduqda;

• təqsirkar şəxs üçün aşkar surətdə on dörd yaşına çatmayan şəxs barəsində törədildikdə – səkkiz ildən on beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır[3].

**On dörd yaşı tamam olmuş** və zorlama cinayətini törətmiş **anlaqlı** şəxs cinayət məsuliyyətinə cəlb edilir. Xroniki psixi xəstəlik, psixi fəaliyyətin müvəqqəti pozulması, kəmağıllıq və ya sair psixi xəstəlik nəticəsində öz əməlinin (hərəkət və ya hərəkətsizliyinin) faktiki xarakterini və ictimai təhlükəliliyini dərk etməyən və ya onu idarə edə bilməyən şəxs anlaqsız vəziyyətdə olan şəxs sayılır.

Zorlama cinsi toxunulmazlıq əleyhinə olan ən ağır cinayətlərdən biridir. Zorlama zamanı şəxs öz iradəsinə zidd olaraq, cinsi əlaqəyə məcbur edilir.

## Zorlama zamanı məcburetmə vasitələri bunlardır:

• Zor tətbiq etmə – döymə, qurbanın əllərini, qollarını, ağzını bağlama və səhhətə ziyan gətirən sair bu kimi üsulların tətbiqi. Zor həmçinin digər şəxslərə, misal üçün, zərərçəkmiş şəxsin uşağı, anası və ya digər yaxınına, qarşı tətbiq oluna bilər.

• Zor tətbiq etmə ilə hədələmə – hədələmə söz və ya silahla həyata keçirilə bilər.

---

1. **Cinayət Məcəlləsinin 16-cı maddəsi (Cinayətlərin təkrar törədilməsi): 16.1. Bu Məcəllənin eyni bir maddəsi ilə nəzərdə tutulmuş cinayətin iki dəfə və ya iki dəfədən çox törədilməsi, cinayətin təkrar törədilməsi hesab edilir. 16.2. <…>**
2. **Cinayət Məcəlləsinin 149.2-ci maddəsi, 149.2.1-149.2.5 bəndlər.**
3. **Cinayət Məcəlləsinin 149.3-cü maddəsi, 149.3.1-149.3.3 bəndlər.**

Zor tətbiq etmə ilə hədələmə digər şəxslərə qarşı da tuşlana bilər. Misal üçün, təqsirkar zərəçəkmiş şəxsi onun uşağını zorlayacağı ilə hədələyə bilər.

• Zərərçəkmiş şəxsin köməksiz vəziyyətindən istifadə etmə. Zərərçəkmiş şəxsin müqavimət göstərmək qabiliyyətini itirməsi və ona qarşı törədilən hərəkətləri anlamaması onun köməksiz vəziyyətdə olmasını göstərir (misal üçün, əgər qurban fiziki qüsuru və ya əqli qüsuru olan şəxsdir, dərin yuxudadır, çox qoca insandır, alkoqol və ya narkotik vasitələrin təsiri altındadır və sair).

Zorlama cinayəti cinsi əlaqə başladığı andan baş vermiş hesab olunur.

Zorlamaya görə məsuliyyət təqsirkarla zərərçəkmiş şəxs arasındakı münasibətlərdən asılı deyil – zərərçəkmiş şəxs təqsirkarın arvadı, keçmiş arvadı, nişanlısı və ya tamamilə yad bir insan ola bilər. Hər bir halda cinayəti törətmiş şəxs cəzalandırılmalıdır.

Həmçinin zərərçəkmiş şəxsin geyimi, həyat tərzi, özünü aparmağı, əxlaqsız davranışı və sair bu kimi hallar təqsirkara haqq qazandırmır, cinayəti törətməyə “təhrik” kimi qəbul edilə bilməz. Misal üçün, əgər zərəçəkmiş qadın fahişəliklə məşğul olursa belə qanunvericilik onu digər qadınlarla eyni dərəcədə qoruyur və həmin qadının zorlanmasına görə eyni məsuliyyət nəzərdə tutur.

## Seksual xarakterli zorakılıq hərəkətləri

Zərərçəkmiş şəxsə və ya başqa şəxslərə zor tətbiq etməklə və ya belə zor tətbiq etmə hədəsi ilə və ya zərərçəkmiş şəxsin köməksiz vəziyyətindən istifadə etməklə uşaqbazlıq və ya seksual xarakterli digər zorakılıq hərəkətləri etmə cinsi azadliq və toxunulmazlıq əleyhinə olan cinayətlərdən biridir.

Burada əsas amil odur ki, zərəçəkmiş şəxsə zor tətbiq olunur və ya o, zor tətbiq etmə ilə hədələnir, yaxud təqsirkar onun köməksiz vəziyyətindən istifadə edərək, zərəçəkmiş şəxsin **iradəsinə** və **istəyinə zidd olaraq,** ona qarşı seksual xarakterli hərəkətlər edir, o cümlədən homoseksual cinsi əlaqədə olur.

Bu cinayət növündə zərərçəkmiş şəxs həm qadın, həm də kişi ola bilər.

Cinayətin törədilmə səsbləri və motivindən asılı olmayaraq, seksual xarakterli zorakılıq hərəkətləri törətmiş şəxs məsuliyyətə cəlb olunmalıdır.

Cinayət Məcəlləsinin 150.1-ci maddəsinə görə həmin cinayət *üç ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.* Məcəllənin 150.2-ci və 150.3-cü maddələrinə əsasən isə, aşağıdakı hallarda eyni əməllərə görə daha ağır cəza tətbiq olunur:

• bir qrup şəxs, qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən törədildikdə;

• zərərçəkmiş şəxsin zöhrəvi xəstəliyə yoluxmasına səbəb olduqda;

• təqsirkar üçün aşkar surətdə yetkinlik yaşına çatmayan şəxs barəsində törədildikdə;

• zərərçəkmiş şəxsə və ya başqa şəxslərə qarşı xüsusi amansızlıqla törədildikdə;

• təkrar törədildikdə – *beş ildən səkkiz ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır*[1].

• ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə səbəb olduqda;

• ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin insan immunçatışmazlığı virusu ilə yoluxmasına və ya digər ağır nəticələrə səbəb olduqda;

• təqsirkar şəxs üçün aşkar surətdə on dörd yaşına çatmayan şəxs barəsində törədildikdə – *səkkiz ildən on beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır*[2].

Seksual xarakterli zorakılıq hərəkətlərinə görə cinayət məsuliyyəti **on dörd yaşı tamam olmuş** anlaqlı şəxsə tətbiq olunur.

**<u>Seksual xarakterli hərəkətlərə məcbur etmə</u>**

Əmlakının məhv edilməsi, zədələnməsi və ya götürülməsi hədəsi ilə və yaxud zərərçəkmiş şəxsin maddi və ya sair asılılığından istifadə etməklə onu cinsi əlaqəyə girməyə, uşaqbazlığa və ya seksual xarakterli digər hərəkətlərə məcbur etmə cinsi azadlıq və toxunulmazlıq əleyhinə olan daha bir cinayətdir. Cinayət Məcəlləsinin 151-ci maddəsinə əsasən, həmin cinayət *beş yüz manatdan min manatadək miqdarda cərimə və ya iki ilədək müddətə islah işləri və ya üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.*

Burada da seksual xarakterli hərəkətlərin şəxsin istəyinə zidd olaraq baş verməsi əsas amildir. Bu cinayət növündə zorakılıq, zorakılıqla hədələmə və ya zəiflik vəziyyətindən istifade deyil, digər məcburetmə vasitələri tətbiq olunur:

---

**1. Cinayət Məcəlləsinin 150.2-ci maddəsi, 150.2.1-150.2.5 bəndlər.**
**2. Cinayət Məcəlləsinin 150.3-cü maddəsi, 150.3.1-150.3.3 bəndlər.**

• əmlakının məhv edilməsi, zədələnməsi və ya götürülməsi hədəsi,
• zərərçəkmiş şəxsin maddi asılılığı,
• yaxud zərərçəkmiş şəxsin sair asılılığı.

Asılılıq, misal üçün, vəzifə tabeliyindən irəli gələ bilər, yaxud şəxsin nüfuzuna zərər vura biləcək məlumatların açıqlanması ilə hədələmənin (şantajın) nəticəsində yarana bilər.

Barəsində nüfuzdan salan məlumatın yayılmasından qorxan şəxs asanlıqla seksual xarakterli hərəkətlərə məcbur edilə bilər, çünki həmin şəxs təqsirkardan psixoloji asılılıq vəziyyətinə düşür.

Seksual xarakterli hərəkətlərə məcbur etmə cinayətini törədənədək on altı yaşı tamam olmuş anlaqlı şəxs cinayət məsuliyyətinə cəlb edilir.

**<u>On altı yaşına çatmayan şəxslə cinsi əlaqədə olma və ya seksual xarakterli digər hərəkətlər etmə</u>**

On altı yaşı tamam olmamış şəxslə cinsi əlaqə və ya seksual xarakterli digər hərəkətlərin edilməsi onun normal mənəvi və fiziki inkişafına və əxlaqına neqativ təsir göstərə bilər.

Yetkinlik yaşına çatmış tərəfindən aşkar surətdə on altı yaşına çatmayan şəxslə cinsi əlaqədə olma və ya seksual xarakterli başqa hərəkətlər etmə cinayət sayılır.

Cinayət Məcəlləsinin 152-ci maddəsində bu cinayətə görə üç ilədək müddətə azadlıqdan məhrum etmə cəzası nəzərdə tutulub.

Cinayəti törətmiş şəxs özü yetkinlik yaşına (yəni on səkkiz yaşına) çatmış və anlaqlı olmalıdır. Cinayət məsuliyyəti yalnız bu halda yaranır.

Digər tərəfdən, cinayəti törətmiş şəxs əvvəlcədən bilməlidir ki, cinsi əlaqədə olduğu və ya seksual xarakterli başqa hərəkətləri etdiyi şəxs on altı yaşına çatmayıb. Şəxsin aşkar surətdə on altı yaşına çatmayan şəxs olmasını, məsələn, onun fiziki görkəmindən təyin etmək olar.

Nəzərə almaq lazımdır ki, cinsi əlaqənin və ya digər seksual xarakterli hərəkətlərin on altı yaşına çatmamış şəxsin istəyi ilə olması əhəmiyyət kəsb etmir – bu cür hərəkətlər hər bir halda cinayət məsuliyyəti doğurur.

**Əxlaqsız hərəkətlər**

Təqsirkar üçün aşkar surətdə on dörd yaşına çatmayan şəxsə qarşı zor tətbiq etmədən əxlaqsız hərəkətlər törətmə – *beş yüz manatdan min manatadək miqdarda cərimə və ya iki ilədək müddətə islah işləri və ya iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır* (Cinayət Məcəlləsinin 153-cü maddəsi).

Əxlaqsız hərəkətlər zamanı təqsirkar qurbanla cinsi əlaqəyə girmir və seksual xarakterli hərəkətlər etmir. Əxlaqsız hərəkətlər iki növdə olur: fiziki hərəkətlər və düşüncəyə təsir edən (əqli) əxlaqsız hərəkətlər. Fiziki əxlaqsız hərəkət, misal üçün, təqsirkarın on dörd yaşına çatmamış uşağın gözləri önündə digər şəxslə cinsi əlaqədə olması, seksual xarakterli hərəkətlər etməsi, yaxud masturbasiya etməsi ola bilər. Düşüncəyə təsir edən (əqli) əxlaqsız hərəkət isə, misal üçün, on dörd yaşına çatmamış uşağa pornoqrafik materiallar göstərilməsi ola bilər.

Təqsirkar şəxs əxlaqsız hərəkətləri etdiyi şəxsin aşkar surətdə on dörd yaşına çatmayan şəxs olmasını əvvəlcədən bilir. Bu zaman məcburetmənin olub olmaması əhəmiyyət kəsb etmir – təqsirkar hər bir halda cinayət məsuliyyətinə cəlb edilməlidir.

Əxlaqsız hərəkətlər görə cinayət məsuliyyət cinayət törədənədək on altı yaşı tamam olmuş anlaqlı şəxsə tətbiq olunur.

## REPRODUKTİV SAĞLAMLIQLA BAĞLI CİNAYƏTLƏR

**Abort – hamiləliyin süni surətdə pozulması**

"Əhalinin sağlamlığının qorunması haqqında"Qanunda qeyd olunduğu kimi, hər bir qadının analıq barədə məsələni təkbaşına həll etmək hüququ vardır (Qanunun 30-cu maddəsi).

Abort, yəni hamiləliyin süni surətdə pozulması qadının arzusu ilə hamiləliyin 12 həftəlik müddətinədək aparılır. Sosial göstərişlər üzrə süni pozulma hamiləliyin 22 həftəliyinədək aparıla bilər. Tibbi göstərişlərə əsasən və qadının razılığı olduqda hamiləlik müddətindən asılı olmayaraq, süni surətdə pozula bilər[1].

**1. "Əhalinin sağlamlığının qorunması haqqında" Qanunun 30-cu maddəsi. Həmin maddəyə əsasən, hamiləliyin süni surətdə pozulmasına dair tibbi və sosial göstərişlərin siyahıları Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi tərəfindən müəyyənləşdirilir.**

## Abort üzrə əməliyyatlar harada həyata keçirilir?

Hamiləliyin süni surətdə pozulması dövlət və qeyri-dövlət tibb müəssisələrində ixtisaslı həkimlər tərəfindən aparılır. Həkim tərəfindən xəstəxanalardan və ya başqa tibb müəssisələrindən kənarda hamiləliyin süni surətdə pozulması qadağandır[1].

**Qanunsuz abort etməyə görə cinayət məsuliyyəti**

Qanunsuz abort etmə, yəni hamiləliyin süni surətdə pozulması qaydasını müəyyən edən qanunvericiliyin pozulması ilə həyata keçirilmiş abort etmə cinayətdir. Cinayət Məcəlləsinin 141.1-ci maddəsinə əsasən, həkim tərəfindən tibb müəssisələrindən kənarda abort etmə *iki yüz manatadək miqdarda cərimə və ya altı ayadək müddətə islah işləri ilə cəzalandırılır*.

Xüsusi ali təhsili olmayan şəxs tərəfindən abort etmə qadının sağlamlığı və hətta həyatı üçün xüsusilə təhlükəlidir. Xüsusi ali tibbi təhsili olmayan şəxs tərəfindən abort etmə üç yüz manatadək miqdarda cərimə və ya yüz səksən saatdan *iki yüz saatadək müddətə ictimai işlər və ya bir ilədək müddətə islah işləri ilə cəzalandırılır*[2].

Qanunsuz abort etmə nəticəsində zərərçəkmiş şəxsin sağlamlığına ehtiyatsızlıqdan ağır zərər vurulduqda *üç yüz manatdan beş yüz manatadək miqdarda cərimə və ya iki ilədək müddətə islah işləri və ya bir ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə bir ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır*[3].

Qanunsuz abort etmə qadının ölümü ilə də nəticələnə bilər. Ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə səbəb olduqda qanunsuz abort etməyə görə *üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəza nəzərdə tutulub*[4].

Qanunsuz abort etmə cinayəti hamiləliyin süni surətdə pozulması (dölün qadının bədənindən çıxarılması) anından baş vermiş hesab olunur.

**Tibbi sterilizasiya**

"Əhalinin sağlamlığının qorunması haqqında" Qanunun 31-ci maddəsinə görə, tibbi sterilizasiya insanı nəsil artımı vermək qabiliyyətindən məhrum etmək, yaxud qa-

---

1. **"Əhalinin sağlamlığının qorunması haqqında" Qanunun 30-cu maddəsi.**
2. **Cinayət Məcəlləsinin 141.2-ci maddəsi.**
3. **Cinayət Məcəlləsinin 141.3-cü maddəsi.**
4. **Cinayət Məcəlləsinin 141.4-cü maddəsi.**

dını hamiləlikdən qorumaq məqsədilə tətbiq edilir. Tibbi sterilizasiya yalnız müdaxilə olunan şəxsin yazılı ərizəsinə və tibbi göstərişlərə əsasən həyata keçirilir.

Tibbi sterilizasiyaya dair göstərişlər Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi tərəfindən müəyyən edilir və dövlət, yaxud qeyri-dövlət tibbi müəssisələrində aparılır.

Tibbi sterilizasiyanın qeyri-qanuni aparılmasına görə təqsirli olan şəxslər qanunvericilikdə müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar.

### Qanunsuz tibbi sterilizasiyaya görə cinayət məsuliyyəti

Şəxsin razılığı olmadan onun üzərində tibbi sterilizasiya, yəni şəxsin nəsilartırma qabiliyyətindən məhrum edilməsi, yaxud qadının hamiləlikdən qorunması məqsədi ilə əməliyyat aparma – *beş yüz manatdan min manatadək miqdarda cərimə və ya iki ilədək müddətə islah işləri və ya üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır*[1].

Qanunsuz tibbi sterilizasiya ehtiyatsızlıqdan şəxsin ölümünə və ya sağlamlığına ağır və ya az ağır zərər vurulmasına səbəb olduqda təqsirkar şəxs *min manatdan beş min manatadək miqdarda cərimə və ya iki ilədək müddətə islah işləri və ya üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə iki ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır*[2].

### Süni mayalanma və embrionun implantasiyası

Yetkinlik yaşına çatan hər bir qadının süni mayalanma və ona embrionun implantasiyası hüququ vardır. Bu hüquq "Əhalinin sağlamlığının qorunması haqqında" Qanunun 29-cu maddəsinə təsbit olunub.

Həmin Qanuna əsasən, süni mayalanma və embrionun implantasiyası ər və arvadın (tənha qadının) rəsmi razılığı olduqda aparılır. Süni mayalanma, embrionun implantasiyası, eləcə də donorun şəxsiyyəti həkim sirridir.

Qadın süni mayalanmanın, embrionun implantasiyasının tibbi və hüquqi nəticələri, tibbi-genetik müayinə, donorun milliyyəti, xarici görkəmi barədə məlumat almaq hüququna malikdir və bu məlumat tibbi müdaxilə aparan həkim tərəfindən verilir.

---

**1. Cinayət Məcəlləsinin 136.2-ci maddəsi.**

**2. Cinayət Məcəlləsinin 136.3-cü maddəsi.**

Qanunsuz süni mayalanmada və embrionun implantasiyasında təqsiri olan şəxslər qanunvericilikdə müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar.

## Qanunsuz süni mayalanma və embrionu implantasiya etməyə görə cinayət məsuliyyəti

Qanunsuz süni mayalanma və embrionu implantasiya etməyə görə cinayət məsuliyyəti nəzərdə tutulub. Qadına, onun razılığı olmadan və ya yetkinlik yaşına çatmayan qadına süni mayalanma və ya embrionu implantasiya etmə *beş yüz manatdan min manatadək miqdarda cərimə və ya iki ilədək müddətə islah işləri və ya üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır*[1].

Qadına, onun razılığı olmadan və ya yetkinlik yaşına çatmayan qadına süni mayalanma və ya embrionu implantasiya etmə ehtiyatsızlıqdan şəxsin ölümünə və ya sağlamlığına ağır və ya az ağır zərər vurulmasına səbəb olduqda daha ağır cəza tətbiq olunur[2].

## İNSAN HÜQUQ VƏ AZADLIQLARINA QARŞI CİNAYƏTLƏR

İnsan hüquq və azadlıqları demokratik cəmiyyətin əsasını təşkil edir. Azərbaycan Respublikası Konstitusiyası və ölkəmizin qoşulduğu çoxsaylı beynəlxalq sənədlər həmin hüquq və azadlıqları tanıyır və qoruyur. İnsan hüquq və azadlıqlarının pozulması müəyyən hallarda cinayət məsuliyyəti doğurur.

Pozulması cinayət məsuliyyəti doğuran və xüsusi olaraq qadınların hüquq və mənafelərinə aid olan bir sıra insan hüquq və azadlıqları kitabın bu bölümündə müzakirə olunur.

---

**1. Cinayət Məcəlləsinin 136.1-ci maddəsi.**

**2. Cinayət Məcəlləsinin 136.3-cü maddəsi. Qadına, onun razılığı olmadan və ya yetkinlik yaşına çatmayan qadına süni mayalanma və ya embrionu implantasiya etmə ehtiyatsızlıqdan şəxsin ölümünə və ya sağlamlığına ağır və ya az ağır zərər vurulmasına səbəb olduqda təqsirkar şəxs *min manatdan beş min manatadək miqdarda cərimə və ya iki ilədək müddətə islah işləri və ya üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə iki ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.***

**<u>Bərabərlik hüququ</u>**

Azərbaycan Respublikası Konstitusiyasının 25-ci maddəsinə əsasən, hamı qanun və məhkəmə qarşısında bərabərdir. Kişi ilə qadının *eyni hüquqları və azadlıqları vardır.* Dövlət, irqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq, hər kəsin hüquq və azadlıqlarının bərabərliyinə təminat verir.

İnsan və vətəndaş hüquqlarını və azadlıqlarını irqi, milli, dini, dil, cinsi, mənşəyi, əqidə, siyasi və sosial mənsubiyyətə görə məhdudlaşdırmaq qadağandır. Heç kəsə bu əsaslara görə zərər vurula bilməz, güzəştlər və ya imtiyazlar verilə bilməz, yaxud güzəştlərin və ya imtiyazların verilməsindən imtina oluna bilməz. Hüquq və vəzifələrlə bağlı qərarlar qəbul edən dövlət orqanları və dövlət hakimiyyəti səlahiyyətlərinin daşıyıcıları ilə münasibətlərdə hər kəsin bərabər hüquqları təmin edilir.

"Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" Qanun cinsi mənsubiyyətə görə ayrı-seçkiliyin bütün formalarını aradan qaldırmaqla, kişi və qadınlara ictimai həyatın siyasi, iqtisadi, sosial, mədəni və digər sahələrində bərabər imkanlar yaratmaqla gender bərabərliyinin təmin edilməsi məqsədini güdür. **"Gender bərabərliyi"** qadın və kişilərin hüquq bərabərliyi və bu hüquqların həyata keçirilməsi üçün bərabər imkanlar və onların cəmiyyətdə bərabər sosial vəziyyəti anlamına gəlir. **"Bərabər imkanlar"** isə insan hüquqlarının həyata keçirilməsində qadınlar və kişilər üçün yaradılan bərabər şərait və təminatlardır[1].

Qanun cinsi mənsubiyyətə görə ayrı-seçkiliyin bütün formalarını qadağan edir. **Cinsi mənsubiyyətə görə ayrı-seçkilik** deyəndə seksual qısnama, cinsi əlamətə görə hüquqların bərabər həyata keçirilməsini məhdudlaşdıran və ya inkar edən istənilən fərq, istisna və ya üstünlük başa düşülür[2].

---

**1. "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" Qanunun 2.0.2-ci və 2.0.3-cü maddəsi. Qanunu 2.0.1-ci maddəsinə əsasən, "gender" ictimai həyatın siyasi, iqtisadi, mədəni və digər sahələrində kişi və qadın münasibətlərinin sosial cəhətidir.**

**2. "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" Qanunun 2.0.4-cü və 3-cü maddəsi.**

**Qanunun 3-cü maddəsinə əsasən, aşağıda sadalananlar ayrı-seçkilik hesab olunmur: 3.2.1. qadınlar üçün Azərbaycan Respublikasının Əmək Məcəlləsi ilə müəyyən edilmiş güzəştlər, imtiyazlar və əlavə təminatlar; 3.2.2. kişilər üçün həqiqi hərbi (alternativ) xidmətə çağırış; 3.2.3. kişi və qadınlar üçün qanunla müəyyənləşdirilmiş fərqli pensiya və nikah yaşı; 3.2.4. Azərbaycan Respublikasının Ailə Məcəlləsinin 15-ci maddəsinə uyğun olaraq, ərin nikahın pozulmasını tələb etmək hüququnun məhdudlaşdırılması; 3.2.5. kişi və qadınlar üçün cəzaçəkmə müəssisələrində fərqli şəraitin yaradılması; 3.2.6. gender bərabərliyinin təmin edilməsi məqsədilə xüsusi tədbirlərin həyata keçirilməsi.**

**“Seksual qısnama”** – əmək və ya xidmət münasibətlərində olan şəxsi alçaldan və təhqir edən, başqa cinsə və ya seksual yönümə mənsubiyyətdən irəli gələn və fiziki hərəkətlərdə (toxunma, əllə vurma), ədəbsiz sözlərdə, jestlərdə, hədələrdə, ləkələyici təkliflərdə və ya dəvətlərdə təzahür edən əxlaqsız davranışdır[1].

Cinsi mənsubiyyətə görə insanlara fərqli yanaşmaq ədalətsizdir və hüquqa ziddir. Cinsi ayrı-seçkilik nəticəsində xüsusilə qadınların mənafelərinə ziyan vurulur. Məsələn, iş yerində baş verən seksual qısnama nəticəsində qadın işlədiyi idarə və ya təşkilatdan çıxmaq məcburiyyətində qala bilər. Cinsi ayrı-seçkilik bir iş yerində işləyən, eyni ixtisas dərəcəsinə malik olan, eyni iş şəraitində işləyən, eyni dəyərli işi yerinə yetirən qadının əməkhaqqının kişi işçinin əməkhaqqından aşağı olmasında da özünü biruzə verə bilər və sair.

Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında” Qanun işəgötürənin əmək fəaliyyətində kişi və qadınların bərabərliyini təmin edilməsi sahəsində vəzifələrini müəyyən edir (Qanunun 7-13-cü maddələri); əməyin ödənilməsində bərabərliyi təmin edir (9-cu maddə); cinsi mənsubiyyətə görə ayrı-seçkiliyi əks etdirən elanları qadağan edir (10-cu maddə); təhsil hüququnun həyata keçirilməsində bərabər imkanları qoruyur (13-cü maddə); iqtisadi və sosial münasibətlərdə (o cümlədən mülkiyyət hüququnun həyata keçirilməsində) gender bərabərliyini qoruyur (15-ci maddə) və siyasi partiyaların, qeyri-hökumət təşkilatlarının və həmkarlar ittifaqlarının fəaliyyətində gender bərabərliyini qoruyur (16-cı maddə).

## Bərabərlik hüququnu pozmaya görə cinayət məsuliyyəti

İrqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olaraq şəxsin hüquq və qanuni mənafelərinə zərər vurmaqla şəxsin bərabərlik hüququnu pozma cinayətdir. Bu cinayətdə təqsirkar şəxs yüz manatdan *beş yüz manatadək miqdarda cərimə və ya bir ilədək müddətə islah işləri ilə cəzalandırılır*[2].

Eyni əməllər vəzifəli şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə törədildikdə *beş yüz manatdan min manatadək miqdarda cərimə və ya iki ilədək müddətə islah işləri və ya üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır*[3].

---

**1. Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında” Qanunun 2.0.5-ci maddəsi.**

**2. Cinayət Məcəlləsinin 154.1-ci maddəsi.**

**3. Cinayət Məcəlləsinin 154.2-ci maddəsi.**

## Azadlıq hüququnun pozulması. Adam oğurluğu

Azərbaycanda qədim vaxtlarda yayılmış "qız qaçırma" adətinə indi də bəzən rast gəlinir. Qadının oğurlanaraq, nikaha məcbur edilməsi nikaha öz seçimi əsasında, azad daxil olmaq hüququna ziddir və azadlıq hüququnun pozulmasıdır. Həmin əməl zorakılıqla müşaiyət oluna və cinsi azadlıq və toxunulmazlıq əleyhinə cinayətlərlə nəticələnə bilər.

Qaçırma qadının ailəsinin istəyinə zidd olduğu üçün, iki ailə arasında münasibətlər pis formalaşa bilər və bu hal qadının vəziyyətini daha da ağırlaşdırır, çox vaxt ailəsi qadına dəstək vermir və hətta onu geri qəbul etməkdən imtina edir.

Adətən qaçırma qadının minik maşınına zorla otuzdurularaq və kişinin ailəsi və ya qohumları yaşadığı yerdə saxlanması ilə həyata keçirilir. Qadın həmçinin aldadılaraq müəyyən yerə gətirilə və qapalı otağa salınaraq azadlığı məhdudlaşdırıla bilər. Bu halda da qadın oğurlanmış sayılır.

Qadının iradəsinə zidd olaraq onu nikaha məcbuertmə məqsədilə oğurlamaqla azadlığını məhdudlaşdırma cinayət sayılır. Köhnə cinayət qanunvericiliyində bu ayrıca bir cinayət kimi təsbit olunsa da, hazırkı Cinayət Məcəlləsində həmin əməl insanların digər məqsədlərlə oğurlanması ilə eyni tutulur.

Qaçırma nikah yaşına çatmış qadının istəyi və razılığı ilə baş verdikdə, bu əməl cinayət məsuliyyəti yaratmalı deyil. Lakin burada hüquq mühafizə orqanları çox ehtiyyatlı olmalıdır, qadının "razılığı"nın həqiqətən onun iradəsinin və istəyinin nəticəsi olmasını araşdırmalıdır. "Razılıq" əslində məcburiyyət və ya qadının çarəsizlik və "taleyi ilə barışma" hissindən doğa bilər.

## Adam oğurluğuna görə cinayət məsuliyyəti

Adam oğurluğu *beş ildən on ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır*[1].

Adam oğurluğu müəyyən hallarla törədildikdə, daha ağır cəza tətbiq olunur – səkkiz ildən on iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır[2]:

---

**1. Cinayət Məcəlləsinin 144.1-ci maddəsi.**

**2. CM-in 144.2-ci maddəsi, 144.2.1-144.2.6-cı bəndlər.**

• iki və ya daha çox şəxs barəsində törədildikdə;

• təqsirkar şəxs üçün aşkar surətdə hamilə vəziyyətində olan qadına qarşı törədildikdə;

• bir qrup şəxs, qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə və ya cinayətkar birlik (cinayətkar təşkilat) tərəfindən törədildikdə;

• zərərçəkmiş şəxsin həyatı və ya sağlamlığı üçün təhlükəli olan zor tətbiq etməklə törədildikdə;

• silahdan yaxud silah qismində istifadə edilən əşyalardan istifadə etməklə törədildikdə;

• tamah məqsədi ilə və ya sifarişlə törədildikdə.

Adam oğurluğu yetkinlik yaşına çatmayan şəxs barəsində törədildikdə və ya ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə və ya digər ağır nəticələrə səbəb olduqda təqsirkar şəxs on ildən on beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır. (CM-in 144.3-cü maddəsi)

On dörd yaşı tamam olmuş və adam oğurluğu cinayətini törətmiş anlaqlı şəxs cinayət məsuliyyətinə cəlb edilir.

Əməllərində başqa cinayətin tərkibi olmayan və oğurlanmış adamı könüllü azad edən şəxs cinayət məsuliyyətindən azad olunur[1].

**Hamilə qadının və ya himayəsində üç yaşınadək uşağı olan qadının əmək hüquqlarını pozmaya görə cinayət məsuliyyəti**

Qadının hamiləliyinə və ya himayəsində üç yaşınadək uşağı olmasına görə, həmçinin kişi üç yaşınadək uşağını təkbaşına böyütdüyünə görə onunla əmək müqaviləsini əsassız ləğv etmə beş yüz manatdan min manatadək miqdarda cərimə ilə cəzalandırılır[2].

---

**1. CM-in 144-cü maddəsi, qeyd hissəsi.**

**2. CM-in 164-cü maddəsi.**

# YETKİNLİK YAŞINA ÇATMAYANLAR VƏ AİLƏ MÜNASİBƏTLƏRİ ƏLEYHİNƏ OLAN CİNAYƏTLƏR

## Özgənin uşağını dəyişdirmə

Tibb müəssisələrində uşağın mühafizəsi və ya ona qayğı göstərilməsi vəzifəsini daşıyan şəxs tərəfindən tamah məqsədilə, intiqam və sair alçaq niyyətlə özgənin uşağını dəyişdirmə – *üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır*[1].

## Uşaqlara kömək göstərməkdən qərəzli boyun qaçırma

Müəyyən hallarda məhkəmə valideynin üzərinə uşağın (uşaqların) saxlanması üçün aliment ödəmək vəzifəsini qoyur. Lakin bəzən bu öhdəlik qərəzli şəkildə, bilərəkdən yerinə yetirilmir. Uşağın atası aliment ödəməkdən boyun qaçırırsa, himayəsindəki uşağa təkbaşına baxmağa məcbur olan qadının üzərinə böyük yük düşür.

Əmək qabiliyyəti olan və işləyən valideynlər tərəfindən yetkinlik yaşına çatmayan uşağın (uşaqların), habelə yetkinlik yaşına çatmış, lakin əmək qabiliyyəti olmayan övladların saxlanması üçün məhkəmə tərəfindən müəyyən edilmiş vəsaiti ödəməkdən qərəzli olaraq boyun qaçırma cinayət sayılır. Bu əməl – *yüz manatdan beş yüz manatadək miqdarda cərimə və ya yüz doxsan saatdan iki yüz qırx saatadək ictimai işlər və ya bir ilədək müddətə islah işləri və ya altı ayadək azadlıqdan məhrum etmə ilə cəzalandırılır*[2].

## Qadını nikaha daxil olmağa məcbur etmə

Qadını nikaha daxil olmağa məcbur etmə – *iki min manatdan üç min manatadək miqdarda cərimə və ya iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.*

Eyni əməllər nikah yaşına çatmayan şəxs barəsində törədildikdə – *üç min manatdan dörd min manatadək miqdarda cərimə və ya dörd ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır*[3].

---

**1. CM-in 172-ci maddəsi.**
**2. CM-in 176.1-ci maddəsi.**
**3. CM-in 176-1-ci maddəsi.**

## PORNOQRAFİK MATERİALLARIN HAZIRLANMASI VƏ YAYIMI İLƏ BAĞLI VƏ ƏXLAQSIZLIQ YUVALARI SAXLAMAYA GÖRƏ CİNAYƏT MƏSULİYYƏTİ

### Pornoqrafik materiallarin hazirlanmasi və yayimi ilə bağli cinayət məsuliyyəti

Pornoqrafik materialların (o cümlədən pornoqrafik xarakterli nəşrlər, kino və ya video materiallar, şəkillər və sair əşyaların) hazırlanmasında çox vaxt insan alveri qurbanları istismar edilir, qadına qarşı əxlaqsız, ləyaqəti alçaldan hərəkətlər edilir.

Pornoqrafik materialları və ya əşyaları yayma və ya reklam məqsədilə qanunsuz hazırlama, yayma, reklam etmə, habelə pornoqrafik xarakterli nəşrlər, kino və ya video materiallar, şəkillər və sair əşyalar ilə qanunsuz ticarət ictimai ictimai mənəviyyata ziddir və cinayət sayılır.

Həmin əməllər üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə iki min manatdan dörd min manatadək miqdarda cərimə və ya iki ilədək müddətə islah işləri və ya üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır[1].

### Fahişəliyə cəlb etmə. Əxlaqsızlıq yuvaları saxlama

**Fahişəliklə məşğul olma** bir sıra ölkələrdə məsuliyyətə səbəb olur, digər ölkələrdə isə leqallaşdırılıb. Azərbaycanda bu əməl cinayət sayılmır, lakin inzibati məsuliyyət doğurur. İnzibati Xətalar Məcəlləsinin 308-ci maddəsinə əsasən, fahişəliklə məşğul olmağa görə *otuz beş manatdan qırx manatadək miqdarda cərimə edilir*.

**Fahişəliyə cəlb etmə isə cinayətdir.** Cinayət Məcəlləsinin 243-cü maddəsinə görə, zor tətbiq etməklə və ya zor tətbiq etmək hədəsi ilə, şantajla, əmlakı məhv etməklə və ya zədələməklə, yaxud aldatmaqla, gəlir və ya digər fayda əldə etmək məqsədi ilə fahişəliyə cəlb etmə – *beş yüz manatdan min manatadək miqdarda cərimə və ya yüz altmış saatdan iki yüz qırx saatadək ictimai işlər və ya üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.* Eyni əməllər şəxsin köməksiz vəziyyətindən, fiziki və ya psixi qüsurlarından istifadə etməklə törədildikdə, yaxud mütəşəkkil dəstə tərəfindən törədildikdə – *üç ildən altı ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır*[2].

---

**1. CM-in 242-ci maddəsi.**

**2. CM-in 243.2-ci maddəsi. 243.2.1-243.2.2-ci bəndlər.**

Fahişəliyə cəlb etməyə görə məsuliyyət Cinayət Məcəlləsində ayrıca maddədə nəzərdə tutulsa belə, bu əməlin *"zor tətbiq etməklə və ya zor tətbiq etmək hədəsi ilə, şantajla, əmlakı məhv etməklə və ya zədələməklə, yaxud aldatmaqla, gəlir və ya digər fayda əldə etmək məqsədi ilə"* olması **insan alveri** cinayətinin əlamətləri ilə üst-üstə düşür. Belə olduğu halda fahişəliyə cəlb etmədə təqsiri olan şəxs daha ağır cəza ilə nəticələnən insan alveri cinayətinə görə məsuliyyətə cəlb olunmalıdır.

Eyniliklə CM-in 171.1-ci maddəsi ilə qadağan edilmiş əməl, yəni y**etkinlik yaşına çatmayanı fahişəliyə və ya digər əxlaqsız əməllərə cəlb etmə**[1] insan alverində istismarın növüdür[2].

**Fahişəliklə məşğul olmaq üçün əxlaqsız yuvalar** təşkil etmə, saxlama və ya bu məqsədlər üçün mənzil sahələri vermə – *iki yüz saatdan iki yüz qırx saatadək ictimai işlər və ya iki ilədək müddətə islah işləri və ya üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır*[3].

Eyni əməllər təkrar törədildikdə, yaxud qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən törədildikdə – *üç ildən altı ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır*[4].

## CİNAYƏT MƏSULİYYƏTİ, CƏZA VƏ QADIN HÜQUQLARI

Cinayət qanunvericiliyinə əsasən, cinayətin müqəssir üçün aşkar surətdə hamilə vəziyyətində olan qadına qarşı törədilməsi cəzanı ağırlaşdıran hallardan biridir (CM-in 61.1.7-ci maddəsi).

Cinayət törətmiş qadınlara cəza təyin edilməsində Cinayət Məcəlləsi bir sıra istisnalar müəyyən edir. Misal üçün, bəzi cəza növləri qadınlara tətbiq olunmur. Qanunvericilik həmçinin cinayət törətmiş hamilə qadınlar və ya səkkiz yaşına qədər uşağı

---

1. **Bu cinayət üç ildən altı ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.**
2. **Kitabın İnsan alveri bölməsində qeyd olunduğu kimi, Cinayət Məcəlləsinin bir sıra maddələrinə, o cünlədən 243-cü *(fahişəliyə cəlb etmə)* və 171.1-ci *(yetkinlik yaşına çatmayanı fahişəliyə və ya digər əxlaqsız əməllərə cəlb etmə)* maddələrinə, dəyişiklik edilməsinə və insan alveri cinayəti ilə üst-üstə düşən cəhətlərin aradan qaldırılmasına ehtiyac var.**
3. **Cinayət Məcəlləsinin 244.1-ci maddəsi.**
4. **CM-in 243.2-ci maddəsi.**

olan qadınlar tərəfindən cəzanın çəkilməsinin müəyyən hallarda təxirə salınmasını mümkün edir.

Qadın cəzaçəkmə müəssisəsinə yerləşdirildikdə uşaqlarına baxmaq imkanı məhdudlaşır. Uşaqları tərbiyə etmək vəzifəsi ənənəvi olaraq əsasən ananın üzərinə düşdüyünə görə, qadının həbs olunması və cəzaçəkmə müəssisəsinə yerləşdirilməsi ailə üçün çoxlu çətinliklər yaradır. Uşaq azyaşlıdırsa və ya südəmərdirsə, onların ana ilə təmasda olması önəm daşıyır. Həmçinin cəza cəkən hamilə qadının hamiləliklə bağlı xüsusi ehtiyacları olur. Cinayət Məcəlləsində olduğu kimi, Cəzaların İcrası Məcəlləsində də qadınlara, xüsusilə hamilə və azyaşlı uşağı olan qadınlara münasibətdə fərqli tənzimləmə nəzərdə tutulub.

**Qadınlara cəzanın təyin olunması**

Cəza təyin olunarkən hamilə və uşaqlı qadınların xüsusi ehtiyacları nəzərə alınır və qadınlara daha yumşaq, humanist yanaşılır.

Misal üçün, *ictimai işlər cəzası* hamilə qadınlara və himayəsində 8 yaşınadək uşağı olan qadınlara tətbiq olunmur[1].

Ümumi qayda budur ki, cinayətə görə cəza təyin edilərkən, digər faktorlarla yanaşı cəzanı yüngülləşdirən hallar nəzərə alınır[2]. Cinayətin **hamilə qadın tərəfindən törədilməsi** cəzanı yüngülləşdirən hallardan biridir[3].

Həmçinin, cinayət qanunvericiliyində ən ağır cəza növü olan **ömürlük azadlıqdan məhrum etmə cəzası** qadınlara şamil edilmir[4].

**Cəzanın təxirə salınması**

Məhkəmə məhkum edilmiş **hamilə qadınlar** və ya **səkkiz yaşına qədər uşağı olan qadınlar** tərəfindən cəzanın çəkilməsini təxirə sala bilər[5]. Bu zaman cəzanın

1. **CM-in 47-ci maddəsi. İctimai işlər məhkumun əsas işindən və ya təhsilindən asudə vaxtlarında haqqı ödənilmədən cəmiyyətin xeyrinə ictimai faydalı işlər yerinə yetirməsindən ibarətdir.**
2. **CM-in 58.3-cü maddəsi.**
3. **CM-in 59.1.3-cü maddəsi.**
4. **CM-in 57-ci maddəsi.**
5. **CM-in 79.1-ci maddəsi. Məhkəmə səkkiz yaşına çatmamış uşağını təkbaşına böyüdən məhkum edilmiş kişilərə münasibətdə də uşaq səkkiz yaşına çatanadək cəzanın çəkilməsini təxirə sala bilər.**

təxirə salınması *uşaq səkkiz yaşına çatanadək* olur. Lakin bu qayla şəxsiyyət əleyhinə ağır və ya xüsusilə ağır cinayət törətməyə görə beş ildən çox müddətə azadlıqdan məhrum etməyə məhkum edilmiş şəxslərə şamil edilmir.

Cəzanın çəkilməsinin təxirə salınması haqqında məhkəməyə verilən ərizəyə məhkumun xasiyyətnaməsi, məhkuma və onun uşağına yaşayış yeri verməklə zəruri yaşayış şəraiti yaradılması barədə qohumlarının yazılı razılığı, qadının hamiləliyi haqqında həkimin rəyi və ya uşağın doğum haqqında şəhadətnaməsinin surəti əlavə olunur. Məhkəmə məhkumun ərizəsinə baxarkən cəzaçəkmə müəssisəsinin müdiriyyətinin mülahizəsini nəzərə alır[2].

Cəzaçəkmə müəssisəsinin müdiriyyəti məhkəmədən cəzanın çəkilməsinin təxirə salınması haqqında qərarı aldıqdan sonra onu azad edir. Məhkum azad edildiyi vaxtdan sonra 15 gün müddətində yaşayış yeri üzrə icra qurumuna qeydiyyata götürülməsi ilə əlaqədar müraciət etməsi haqqında ondan iltizam alınır.

Cinayət Məcəlləsinin 79.2-ci maddəsinə əsasən, məhkum edilmiş hamilə qadınlar və ya səkkiz yaşına qədər uşağı olan qadınlar, məhkum edilmiş şəxslər üzərində nəzarəti həyata keçirən müvafiq dövlət orqanının (icra məmurunun) xəbərdarlığından sonra *uşaqdan imtina edirsə və ya uşağı tərbiyə etməkdən boyun qaçırmaqda davam edirsə,* bu hallarda məhkəmə cəzaçəkmənin təxirə salınmasını ləğv edə və məhkumu cəzanı çəkmək üçün hökmlə müəyyən olunmuş yerə göndərə bilər[2].

*İctimai işlər və ya islah işləri* növündə cəza çəkən məhkum qadın onun hamiləlik və ya doğuşa görə işdən azad olunduğu andan cəzanın çəkilməsinin təxirə salınması barədə ərizə ilə məhkəməyə müraciət edə bilər[3].

*Uşaq səkkiz yaşına çatdıqda,* məhkəmə məhkum edilmiş şəxsi cəzanın çəkilməmiş hissəsindən azad edir və ya cəzanın çəkilməmiş hissəsini daha yüngül cəza növü ilə əvəz edir, yaxud məhkum edilmiş şəxsi cəzanın qalan hissəsini çəkmək üçün müvafiq müəssisəyə göndərir[4].

---

**1. CİM-in 172-ci maddəsi.**

**2. Məhkəmə bunu məhkum edilmiş şəxslər üzərində nəzarəti həyata keçirən müvafiq dövlət orqanının təqdimatı əsasında edir.**

**3. CİM-in 170-ci maddəsi.**

**3. CM-in 79.3-cü maddəsi.**

## QADINLARA MÜNASİBƏTDƏ CƏZANIN İCRASI

Qadınlara münasibətdə cəzanın icrasının əsas xüsusiyyətlərindən biri odur ki, cəzaçəkmə müəssisələrində qadınlar kişilərdən *ayrılıqda saxlanılırlar*[1].

Zərurət yarandıqda cəzaçəkmə müəssisələrinin işçi heyəti tərəfindən məhkumlara qarşı təhlükəsizlik tədbirləri tətbiq oluna bilər. Qadınlar cəzaçəkmə müəssisəsindən qaçdıqda, onlara qarşı təhlükəsizlik tədbiri kimi *odlu silah* tətbiq edilməsinə yol verilmir[2].

Cəzanın icrası qaydalarını pozan məhkumlara aşağıdakı müxtəlif tənbeh tədbirləri tətbiq edilə bilər[3]. *Cərimə təcridxanasına keçirilmə* tədbiri cəzaçəkmə müəssisələrində və həbsxanalarda saxlanılan **kişi** məhkumlara münasibətdə 15 günədək, **qadın** məhkumlara münasibətdə isə 10 günədək müddətə tətbiq oluna bilər.

### Müxtəlif tipli cəzaçəkmə müəssisələrində cəzaların icrası

CM-in 55.1-ci maddəsi. Müəyyən müddətə azadlıqdan məhrum etmə məhkumun aşağıdakı cəzaçəkmə müəssisələrinə yerləşdirilməsi yolu ilə onun cəmiyyətdən təcrid olunması ilə həyata keçirilir:

- məntəqə tipli cəzaçəkmə müəssisi,
- ümumi rejimli cəzaçəkmə müəssisi,
- ciddi rejimli cəzaçəkmə müəssisi,
- xüsusi rejimli cəzaçəkmə müəssisi,
- həbsxana.

---

1. **Cəzaların İcrası Məcəlləsinin 72-ci maddəsi.**
2. **CİM-in 78-ci maddəsinə görə, zərurət olarsa, cəzaçəkmə müəssisələrinin işçi heyəti tərəfindən məhkumlar barədə bir sıra təhlükəsizlik tədbirləri (fiziki qüvvə, xüsusi vasitələr, xidməti itlər və odlu silah) tətbiq edə bilər.**

   **Odlu silah qadınlarla yanaşı yetkinlik yaşına çatmayan şəxslərə də tətbiq oluna bilməz.**
3. **CİM-in 107-ci maddəsi. Tənbeh tədbirləri bunlardır: 1) Xəbərdarlıq; 2) Töhmət; 3) Cəzaçəkmə müəssisələrində və həbsxanalarda saxlanılan məhkumları müəyyən müddətə cərimə təcridxanasına keçirmək; 4) Xüsusi rejimli cəzaçəkmə müəssisələrində saxlanılan məhkumları adi yaşayış binalarından kamera tipli otaqlara keçirmək.**

Məntəqə tipli cəzaçəkmə müəssisələrində digər cəzaşəkmə müəssisələrindən daha yumşaq şərtlər olur. Məntəqə tipli cəzaçəkmə müəssisələrində məhkumlar, məsələn, mühafizəsiz, lakin nəzarət altında saxlanılırlar; yuxudan durmaq vaxtından yatmaq vaxtınadək müəssisənin yerləşdiyi ərazidə sərbəst hərəkət edə bilərlər; gördükləri işin xarakterinə uyğun olaraq və ya təlimlə əlaqədar zərurət olarsa, cəzaçəkmə müəssisəsinin müdiriyyətinin icazəsi ilə müəssisənin yerləşdiyi ərazidən kənarda, lakin Azərbaycan Respublikasının ərazisi hüdudlarında nəzarətsiz hərəkət edə bilərlər; mənzil şəraiti olduqda, cəzaçəkmə müəssisəsinin müdiriyyətinin icazəsi ilə müəssisəyə yaxın ərazidə öz ailələri ilə birlikdə yaşaya bilər, yaşayış yeri əldə edə bilər və şəxsi təsərrüfat yarada bilərlər və sair[1].

Kişi və qadın məhkumlar eyni məntəqə tipli cəzaçəkmə müəssisələrində saxlanıla bilərlər[2].

Ümumi rejimli cəzaçəkmə müəssisələrində saxlanma şəraiti məntəqə tipli cəzaçəkmə müəssisələrdiki şərtlərdən daha sərtdir[3].

Cinayətlərin xüsusi təhlükəli residivinə görə azadlıqdan məhrum etmə cəzasına məhkum olunmuş **qadınlar** *ciddi rejimli* cəzaçəkmə müəssisələrinə yerləşdirildiyi halda, eyni əsaslara görə azadlıqdan məhrum etmə cəzasına məhkum olunmuş **kişilər** *xüsusi rejimli* cəzaçəkmə müəssisələrinə yerləşdirilirlər[4].

Ciddi rejimli cəzaçəkmə müəssisəsindən daha sərt qaydaları olan xüsusi rejimli cəzaçəkmə müəssisələrində qadınlar saxlanılmır[5].

Ömürlük azadlıqdan məhrum etmə cəzasına məhkum olunmuş və təsərrüfat və məişət xidməti işi üçün həbsxanada saxlanılmış şəxslər istisna olmaqla, *həbsxanalarda saxlanılan* başqa məhkumlar üçün 2 cür saxlanma şəraiti müəyyən edilir[6]:

- Ümumi[7],

---

1. **CİM-in 119-cu maddəsi.**
2. **CİM-in 118-ci maddəsi.**
3. **Ümumi rejimli cəzaçəkmə müəssisələrində cəzanın icrası şərtləri CİM-in 113-cü maddəsində təsbit olunub.**
4. **CİM-in 114-cü və 116-cı maddələri.**
5. **CİM-in 116-cı və 117-ci maddələri. Xüsusi rejimli cəzaçəkmə müəssisələrinə cəza çəkməyə göndərilmiş məhkumlar kamera tipli otaqlarda saxlanılırlar.**
6. **CİM-in 120-ci maddəsi.**
7. **Ümumi saxlanma şəraitində ilk dəfə həbsxanaya cəza çəkməyə göndərilmiş şəxslər və ciddi saxlanma şəraitindən keçirilmiş şəxslər saxlanılırlar.**

• Ciddi[1].

Həbsxanada saxlanılan məhkum **qadınlar** *ciddi saxlanma şəraitinə keçirilə bilməzlər*[2].

Azadlıqdan məhrum etmə cəzasına məhkum olunmuş yetkinlik yaşına çatmayan məhkumlar aşağıdakı rejimli tərbiyə müəssisələrində cəza çəkirlər:[3]

• Ümumi,

• Möhkəm.

**Yetkinlik yaşına çatmayan qızlar** *ümumi rejimli* tərbiyə müəssisələrində, habelə ilk dəfə müəyyən müddətə azadlıqdan məhrum etmə növündə cəzaya məhkum olunmuş yetkinlik yaşına çatmayan oğlanlar cəza çəkirlər[4]. *Möhkəm rejimli tərbiyə müəssisələrinə* yetkinlik yaşına çatmayan qızlar yerləşdirilmir.

**Cəzaçəkmə müəssisəsindən kənarda yaşama**

Əməyə vicdanlı münasibət bəsləyən və cəzaçəkmə rejiminin tələblərinə riayət edən, habelə cəza müddətinin ən azı üçdə birini çəkmiş məhkum qadınlara cəzaçəkmə müəssisəsinin müdiriyyətinin əsaslandırılmış və müvafiq icra hakimiyyəti orqanı ilə razılaşdırılmış qərarı ilə **hamiləliyə** və ya **doğuşa görə** qanunla müəyyən edilmiş qaydada, *işdən azad edildikləri vaxt ərzində,* habelə *uşaq 3 yaşına çatanadək* cəzaçəkmə müəssisəsindən kənarda yaşamağa icazə verilə bilər[5].

Cəzaçəkmə müəssisəsindən kənarda yaşamağa icazə verilmiş məhkum qadınlar:

• Cəzaçəkmə müəssisəsinin ərazisi yaxınlığında yaşamağa yerləşdirilir və müdiriyyətin daimi müşahidəsi altında olurlar;

• Adi həyatda işlədilən paltar geyinə bilərlər;

---

**1. Ciddi saxlanma şəraitində əvvəllər həbsxanada cəza çəkmiş şəxslər, cəzaçəkmə müəssisələrində törədilmiş cinayətlərə görə məhkum olunmuş və ya müəyyən edilmiş qaydada tənbeh tədbiri olaraq ümumi saxlanma şəraitindən ciddi saxlanma şəraitinə keçirilmiş şəxslər saxlanılırlar. Ciddi saxlanma şəraitində olma müddəti iki aydan altı ayadək müəyyən edilir.**

**2. Həmçinin birinci və ikinci qrup əlilliyi olan məhkumlar ciddi saxlanma şəraitinə keçirilə bilməzlər.**

**3. CİM-in 123-cü maddəsi.**

**4. Həmçinin ilk dəfə müəyyən müddətə azadlıqdan məhrum etmə növündə cəzaya məhkum olunmuş yetkinlik yaşına çatmayan oğlanlar ümumi rejimli tərbiyə müəssisələrində cəza çəkirlər.**

**5. CİM-in 88-ci maddəsi.**

• Məhdudiyyətsiz halda yazışa bilər, pul baratları ala bilər və nağd puldan istifadə edə bilər, qohumları, həkimi ilə və başqa şəxslərlə görüşə bilər, bağlama, sovqat və ya banderol ala bilərlər;

• Hüdudları cəzaçəkmə müəssisəsinin müdiriyyəti tərəfindən müəyyən edilən ərazi daxilində sərbəst gediş-gəliş hüququndan istifadə edə bilərlər.

Lakin məhkum qadın *cəzaçəkmə rejimini və ya davranış qaydalarını müntəzəm və ya qəsdən pozduqda,* cəzaçəkmə müəssisəsinin müdiriyyətinin əsaslandırılmış və müvafiq icra hakimiyyəti orqanı ilə razılaşdırılmış qərarına əsasən cəzaçəkmə müəssisəsindən kənarda yaşamaq üçün verilən *icazə ləğv edilir*. Bu zaman məhkum qadın cəzasını çəkmək üçün cəzaçəkmə müəssisəsinə qaytarılır.

**Hamilə və ya 3 yaşına çatmamış uşağı olan məhkum qadınların cəzaçəkmə müəssisələrində maddi-məişət şəraiti ilə təmin olunması**

Hamilə və ya 3 yaşına çatmamış uşağı olan məhkum qadınlara, yetkinlik yaşına çatmayan, həmçinin xəstə, birinci və ikinci qrup əlilliyi olan məhkumlara **yaxşılaşdırılmış maddi-məişət şəraiti** yaradılmalıdır. Hamilə və ya 3 yaşına çatmamış uşağı olan məhkum qadınlar üçün **yeməyin xüsusi normaları** müəyyən edilir[1].

Cəzaçəkmə müəssisələrində məhkum qadınların 3 yaşına çatmayan uşaqlarının yerləşdirilməsi üçün **uşaq evləri təşkil edilir**. Uşaq evləri uşaqların normal inkişafı və yaşayışı üçün zəruri şəraitlə təmin edilir. Məhkum qadınlar asudə vaxtlarında uşaqlarla məhdudiyyətsiz görüşə bilərlər. Onların uşaqla birgə yaşayışına icazə verilə bilər[2].

Məhkum qadınların uşaqları ananın razılığı ilə onun qohumlarına və ya ananın razılığı, qəyyumluq və himayəçilik orqanlarının qərarı ilə digər şəxslərə verilə, habelə 3 yaşı tamam olduqdan sonra müvafiq uşaq müəssisələrinə göndərilə bilərlər.

3 yaşı tamam olmuş uşaqların anasının cəzaçəkmə müddətinin qurtarmasına bir ildən çox qalmazsa və o, analıq borcunu vicdanla yerinə yetirərsə, cəzaçəkmə müəssisəsinin müdiriyyəti uşağın uşaq evində saxlanma müddətini cəzaçəkmə müddətinin sonuna qədər artıra bilər.

---

1. **CİM-in 91-ci maddəsi. Yetkinlik yaşına çatmayan, həmçinin xəstə, birinci və ikinci qrup əlilliyi olan məhkumlara da yaxşılaşdırılmış maddi-məişət şəraiti yaradılır və onlar üçün yeməyin xüsusi normaları müəyyən edilir.**
2. **CİM-in 92-ci maddəsi.**

Hamilə qadınların doğuş və doğuşdan sonrakı müddətdə xüsusi tibbi yardım almaq hüququ var.

## Cəzaçəkmə müəssisəsinin hüdudlarından kənara qısa müddətli səfərlər

Cəzaçəkmə müəssisələrindəki uşaq evlərində uşaqları olan qadınlara öz məzuniyyətləri vaxtı övladlarını qohumlarının, himayəçilərinin yanına və ya uşaq evlərinə düzəltmək üçün cəzaçəkmə müəssisələrinin hüdudlarından kənara (yalnız ölkə daxilində) on beş günədək qısa müddətli səfərə getməsinə icazə verilə bilər[1].

### Məhkum qadınların işləməsi

Hər bir məhkum cəzaçəkmə müəssisəsinin müdiriyyəti tərəfindən müəyyən edilmiş yerdə və işlərdə əmək fəaliyyəti ilə məşğul olmalıdır. Bu tələb Cəzaların İcrası Məcəlləsinin 95-ci maddəsində təsbit olunub. Cəzaçəkmə müəssisəsinin müdiriyyəti məhkumların cinsini, yaşını, əmək qabiliyyətini, sağlamlığını, imkan daxilində ixtisaslarını nəzərə alaraq, onları faydalı əməyə cəlb etməlidirlər.

Əlli beş yaşından yuxarı qadın məhkumlar, hamiləliyi 4 aydan çox olan və ya cəzaçəkmə müəssisələri nəzdindəki uşaq evlərində uşaqları olan qadın məhkumlar *yalnız könüllülük əsasında işləməyə icazə verilir*[2].

Məhkum qadınlar **hamiləliyə** və **doğuşa görə** qanunvericilikdə müəyyən edilmiş müddətə işdən azad edilirlər[3].

Peşəsi və ya ixtisası olmayan məhkumlar üçün cəzaçəkmə müəssisələrində ilk peşə-ixtisas təhsili və ya peşə hazırlığı həyata keçirilir. Hamilə və ya cəzaçəkmə müəssisələri nəzdindəki uşaq evlərində uşaqları olan məhkum qadınlar, 60 yaşından yuxarı kişi və 55 yaşından yuxarı qadın məhkumlar, birinci və ikinci qrup əlilliyi, 18 yaşınadək sağlamlıq imkanlarının məhdudluğu olan məhkumlar *ilk peşə-ixtisas təhsilinə və ya peşə hazırlığına öz arzularına görə cəlb edilirlər*[4].

---

**1. CİM-in 89-cu maddəsi.**

**2. Bu qayda 60 yaşından yuxarı kişi məhkumlar, birinci və ikinci qrup əlil məhkumlar, 18 yaşınadək sağlamlıq imkanları məhdud olan məhkumlara da şamil edilir.**

**3. CİM-in 96-cı maddəsi.**

**4. CİM-in 100-cü maddəsi.**

**Bağlama, sovqat və ya banderol alma. Ərzaq məhsulları və ən zəruri mallara xərcləmək üçün icazə verilən vəsaitin məbləği**

Cəzaçəkmə müəssisələrində məhkumlar yalnız məhdud sayda bağlama, sovqat və banderol ala bilərlər. Lakin hamilə və uşaq evlərində uşaqları olan qadın məhkumların bağlama, sovqat və ya banderol almalarına məhdudiyyət qoyulmur[1].

Cəzaçəkmə müəssisələrində məhkumlar nağdsız haqq-hesabla şəxsi hesablarında olan vəsaitlə ərzaq məhsulları və ən zəruri mallar ala bilərlər. Həmin malları əldə etmək üçün məhkumların xərcləyə biləcəyi vəsaitin məbləği məhdudlaşdırılır. Məhkumlara xərcləmək üçün icazə verilən vəsaitin məbləği cəzaçəkmənin rejimindən asılı olaraq qanunvericiliklə müəyyən edilir[2]. Hamilə qadınlara və cəzaçəkmə müəssisələrinin nəzdindəki uşaq evlərində uşaqları olan qadınlara isə, həmin məbləğə əlavə olaraq ayda 15 manat miqdarında ərzaq məhsulları və ən zəruri mallar əldə etməyə icazə verilir[3].

**Qazancdan, pensiyalardan və digər gəlirlərdən tutulmalar**

CİM-in 99-cu maddəsinə əsasən, cəzaçəkmə müəssisələrində və həbsxanalarda məhkumların qazancından, pensiyalarından və digər gəlirlərindən tutulmalar aparılır. Bu zaman məhkumların şəxsi hesabına, bütün tutulmalı məbləğlərdən asılı olmayaraq onlara hesablanmış aylıq əmək haqqının, pensiyanın və digər gəlirlərin ən azı 50 faizi, 60 yaşından yuxarı kişi, 65 yaşından yuxarı qadın məhkumların, birinci və ikinci qrup əlilliyi olan məhkumların, yetkinlik yaşına çatmayanların və ya hamilə, cəzaçəkmə müəssisələri nəzdindəki uşaq evlərində uşaqları olan məhkum qadınların şəxsi hesabına isə aylıq əmək haqqının, pensiyanın və digər gəlirlərin ən azı 50 faizi keçirilir.

Bundan başqa, məntəqə tipli cəzaçəkmə müəssisələrində cəza çəkən şəxslərə, habelə bu Məcəlləyə uyğun olaraq cəzaçəkmə müəssisəsindən kənarda yaşamağa

---

1. **CİM-in 82-ci maddəsi. Həmçinin ağır xəstə məhkumlar, birinci və ikinci qrup əlil məhkumlar və 18 yaşınadək sağlamlıq imkanlarının məhdudluğu olan məhkumların bağlama, sovqat və ya banderol almalarına məhdudiyyət qoyulmur.**
2. **CİM-in 80-ci maddəsi.**
3. **CİM-in 80.4-cü maddəsi. Əlavə olaraq ayda 15 manat miqdarında ərzaq məhsulları və ən zəruri mallar əldə etməyə icazə həmçinin sağlamlıq imkanları məhdud uşaqlara, birinci və ikinci qrup əlillərə; müalicə müəssisələrində və yoluxucu xəstəliyə tutulmuş şəxslərin saxlanılması və müalicəsi üçün nəzərdə tutulan cəzaçəkmə müəssisələrindəki məhkumlara verilir.**

icazə verilmiş məhkum qadınlara tutulmalı bütün məbləğlərdən asılı olmayaraq ümumi gəlirin ən azı altmış beş faizi verilir.

**Azad edilən hamilə və ya 8 yaşına qədər uşağı olan məhkum qadınların yaşayış yerinə göndərilməsi**

CİM-in 176-cı maddəsinə əsasən, müəyyən müddətə azadlıqdan məhrum etmə və ya ömürlük azadlıqdan məhrum etmə növündə cəzanı çəkməkdən azad edilmiş şəxslər yaşayış yerinə getmək üçün ərzaq məhsulları və gediş haqqı ilə təmin olunurlar. Hamilə və ya 8 yaşına qədər uşağı olan məhkum qadınlar, həmçinin yetkinlik yaşına çatmayanlar azad edildikdə, cəzaçəkmə müəssisəsinin müdiriyyəti onların qohumlarını və ya digər şəxsləri xəbərdar edir. Bu şəxslər yaşayış yerinə qohumlarının, himayəçilərinin və ya digər şəxslərin, yaxud cəzaçəkmə müəssisəsinin işçilərinin müşayiəti ilə göndərilirlər.



# AZƏRBAYCAN RESPUBLİKASINDA INSAN HÜQUQLARININ MÜDAFİƏ EDƏN MİLLİ MEXANİZMLƏRİ

**Azərbaycan Respublikasında insan hüquqlarının müdafiə edən milli mexanizmləri.**

## Məhkəmədən kənar mexanizmilər

Əsası XIX əsrin əvvəllərində Skandinaviya ölkələrində daha konkret isə İsveçdə qoyulmuş Ombudsman İnstitutu hazırda dünyanın 100 dən çox ölkəsində o cümlədən Azərbaycanda fəaliyyət göstərən bu təsisat 2002-ci ildən etibarən yaranmışdır.

Ümumiyyətlə müxtəlif ölkələrdə mövcud olan bu təsisatları bir birindən fərqləndirən əsas cəhətlər əsasən aşağıdakılardır:

- **Adlarına görə;**
- **Seçilmə, təyin olma və geri çağırılma mexanzimilərinə görə;**
- **Səlahiyyətlərinə görə;**
- **Əhatə etdiyi sferaya görə (ümummilli, sahəvi, şirkət, tələbə KİV üzrə və s.)**
- **Səlahiyyət müddətinə görə;**
- **Ona müraciət formalarına görə;**
- **Fəaliyyət formalarına görə.**

**Ombudsman təsisatı bir qayda olaraq ümummilli və sahəvi xarakter daşıyır. Müxtəlif ölkələrdə mövcud olan sahələr aşağıdakılardır:**

- **İstehlakçıların ombudsmanı;**
- **Səhiyyə üzrə ombudsamanı;**
- **Penitensiar müəssisələr üzrə ombudsman;**
- **KİV-üzrə ombudsman**
- **Tələbələrin ombudsmanı;**
- **Müəssisələr və korporasiyar üzrə ombudsman.**

Son dövrlərdə Ombudsman təsisatı ölkə sərhədləri çərçivəsindən çıxaraq dövlətlərüstü strukturlara çevrilməyə başladı. Doğrudur bu təsisatlar səlahiyyətlərinə və fəaliyyət formalarına görə milli ombudsman təsisatlarından xeyli fərqlənirlər. Belə təsisatlara misal olaraq Avropa Şurasının İnsan Hüquqları üzrə Müvəkkili və Avropa İttifaqının Ombudsmanı postlarını misal göstərmək olar.

Azərbaycan Respublikasında fəaliyyət göstərən Ombudsman təsisatı Azərbaycan Respublikası İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman) adlanır. Müvəkkil Azərbaycan Respublikası Prezidentinin təqdim etdiyi 3 namizəd arasından Azərbaycan Respublikası Milli Məclisin 83 səs çoxluğu ilə seçilir.

## Müvəkkilin aparatı

Müvəkkilin fəaliyyətinin hüquqi, təşkilatı, elmi-analitik, informasiya, maddi-texniki, maliyə və təsərrüfat təminatı həyata keçirmək üçün onun aparatı yaradılır. Müvəkkilin və onun aparatının fəaliyyəti dövlət büdcəsi hesabına maliyələşdirilir.

Müvəkkilin səlahiyyətləri

Müvəkkil aşağıdakı səlahiyyətlərə malikdir:

• Dövlət və yerli özünü idarə orqanları, vəzifəli şəxslər tərəfindən insan hüquq və azadlıqlarının pozulmasına dair şikayətlərə baxmaq;

• Əfv, vətəndaşlıq, siyasi sığınacaq verilməsi məsələləri ilə bağlı Azərbaycan Respublikası Prezidentinə təkliflər vermək;

• İnsan Hüquq və azadlıqlarının təmin edilməsi məqsədilə qanunların qəbul edilməsinə və ya yenidən baxılmasına, habelə amnistiya verilməsinə dair Milli Məclisə təkliflər vermək;

• Məhkəmədə süründürməçilik, sənədlərin vaxtında verilməməsi, habelə məhkəmə qərarlarının icrasının gecikdirilməsi ilə əlaqədar insan hüquqlarının pozulmasına dair şikayətlərə baxmaq;

• Qanunvericiliklə nəzərdə tutulan digər səlahiyyətləri həyata keçirmək;

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinə Ombudsmanınına şikayətləri aşağıdakı şəxslər və ya orqanlar verə bilər.

* Azərbaycan Respublikası vətəndaşları;
* Əcnəbilər;
* Vətəndaşlığı olmayan şəxslər;
* Hüquqi şəxslər.

Şikayətləri həmçinin hüquqları pozulmuş şəxsin razılığı ilə üçüncü şəxslər o cümlədən qeyri-hökumət təşkilatları verə bilər.Hüquqları pozulmuş şəxsin razılığı almaq mümkün olmadıqda üçüncü şəxslər və qeyri-hökumət təşkilatları şikayəti razılıq almadan da verə bilər. Razılığın alınması mümkün olmayan hallar hüquqları pozulmuş şəxsin vəfat etməsi və ya fəaliyyət qabiliyyətini itirməsi hesab olunur. Şikayət insan hüquqları pozulduğu andan və yaxud hüquqları pozulmuş şəxsin hüquqlarının pozulduğunu bildiyi andan 1 il müddətinə verə bilər. Penitensiar müəssisələrdə saxlanılanların şikayətləri heç bir senzuraya məruz qalmadan 24 saat ərzində Müvəkkilə göndərilməlidir. Dövlət orqanlarının Müvəkkilə şikayət vermək hüququ yoxdur.

## Şikayətin məzmunu

Qeyd edilməlidir ki, müvəkkilə şikayətin verilmə prosedurası olduqca sadədir.

Eyni zamanda şikayətin tərtib olunması da məhkəmə iddiasının tərtib olunmasına nisbətən sadədir və onu hər bir kəs heç bir əlavə hüquqi yardım almadan edə bilər. Şikayət ərizəsində əsasən aşağıdakılar əks olunmalıdır:

- Hüquqları pozulmuş ərizəçinin adı, atasının adı və soyadı;
- Ərizəçinin ünvanı (hüquqi şəxsdirsə hüquqi şəxsin ünvanı);
- Ərizəçinin hüquqlarının pozulmasına səbəb olmuş qərar və ya hərəkətin (hərəkətsizliyin) mahiyyətinə dair məlumat;
- Şikayətin tərtib edilmə yeri və vaxtı;
- Şikayətçinin imzası

Şikayət ərizəsinə şikayətlə bağlı digər sənədlər, məhkəmə qərarları, və s. zəruri sənədlər əlavə edilə bilər.

Şikayətin verilməsi üçün heç bir rüsum ödənilmir. Şikayət verən xahiş edərsə, müvəkkil onun barəsində məlumatı gizli saxlamalıdır.

Şikayət ərizəsində ərizəçinin adı, soyadı göstərilməyəndə şikayət anonim hesab edilir və baxılmır. Yalnız ayrı-ayrı hallarda anonim ərizədə faktlar kifayət qədər əsaslı görünərsə, onda müvəkkil şikayəti qəbul edə bilər.

Daxil olmuş şikayətlərlə bağlı Müvəkkil şikayəti baxmaq üçün qəbul edə və yaxud imtina edə bilər.

Şikayətə baxılmaqdan aşağıdakı hallarda imtina edilə bilər:

* Şikayət konstitusiya qanununda nəzərdə tutulmuş müddətlərdə təqdim edilmədikdə;

* Şikayətin həlli Müvəkkilin səlahiyyətinə aid olmadıqda (məsələn, Qanuna görə Azərbaycan Respublikası Prezidentinin, Azərbaycan Respublikası Milli Məclis deputatlarının və hakimlərinin fəaliyyətinin yoxlanması Müvəkkilin səlahiyyətlərinə adi deyil)

* Ayrı-ayrı istisnalar nəzərə alınmaqla şikayətlər anonim olduqda;

* Verilmiş şikayətlə bağlı məhkəmə icraatı getdikdə;

* Təkrar verilmiş şikayətdə yeni məlumatlar və faktlar olmadıqda.

**Qadın hüquqlarının müdafiəsi sahəsində fəaliyyət göstərən daha bir dövlət orqanı Ailə Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsidir.**

Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi

## Komitənin yaranma tarixi və əsas fəaliyyət istiqamətləri

Azərbaycan Respublikası Prezidentinin 14 yanvar 1998-ci il tarixli Fərmanı ilə Qadın Problemləri üzrə Dövlət Komitəsi yaradılmışdır. Komitə fəaliyyət göstərdiyi dövr ərzində bu sahədə mövcud olan problemlərin həlli istiqamətində məqsədyönlü fəaliyyət göstərmişdir. Lakin ailə və uşaq problemlərinin qadın problemləri ilə əlaqəli surətdə kompleks həlli zərurəti vahid dövlət idarəetmə orqanının təşkilini şərtləndirmişdir. Bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin 6 fevral 2006-cı il tarixli Fərmanı ilə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi yaradılmışdır.Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi ailə, qadın və uşaq prolblemləri ilə iş sahəsində dövlət siyasətini və tənzimlənməsini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanıdır.

Komitənin fəaliyyət istiqamətləri aşağıdakılardır:

• müvafiq sahədə vahid dövlət siyasətinin formalaşdırılmasında iştirak edir və bu siyasətin həyata keçirilməsini təmin edir;

• müvafiq sahənin inkişafını təmin edir;

• qanunvericiliklə müəyyən edilmiş digər istiqamətlərdə fəaliyyət göstərir.

## Komitənin vəzifələri



Komitənin vəzifələri aşağıdakılardan ibarətdir:

1) öz səlahiyyətləri daxilində insan və vətəndaş hüquqlarının və azadlıqlarının, xüsusilə uşaq və qadın hüquqlarının həyata keçirilməsini təmin etmək və onların pozulmasının qarşısını almaq;

2) müvafiq sahədə qanunvericiliklə onun səlahiyyətlərinə aid edilmiş normativ tənzimləməni həyata keçirmək;

3) müvafiq sahə üzrə dövlət proqramları layihələrinin işlənib hazırlanmasında iştirak etmək;

4) dövlət proqramlarının və inkişaf konsepsiyalarının həyata keçirilməsini öz səlahiyyətləri daxilində təmin etmək;

5) digər icra hakimiyyəti orqanlarının müvafiq sahə ilə bağlı fəaliyyətini laqələndirmək;

6) Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin həyata keçirilməsini öz səlahiyyətləri daxilində təmin etmək;

7) dövlətin ailə siyasətini həyata keçirmək;

8) qaçqın və məcburi köçkün qadınların, uşaqların, aztəminatlı ailələrin sosial problemlərini öyrənmək və onların həlli üçün əlaqədar dövlət orqanları qarşısında məsələlər qaldırmaq;

9) müasir idarəetmənin və bazar iqtisadiyyatının əsaslarının öyrənilməsi istiqamətində, qadınlar tərəfindən sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi, ailə kəndli təsərrüfatlarının yaradılmasında müvafiq dövlət orqanları ilə birlikdə məsləhətlərin verilməsini təmin etmək;

10) məşğulluq strategiyasının həyata keçirilməsi istiqamətində dövlət siyasətinə uyğun olaraq, qadınların müxtəlif yeni peşələrə yiyələnməsi və ixtisaslarının artırılması məqsədi ilə layihələr hazırlamaq və əlaqədar təşkilatlarla birgə tədbirlərin görülməsini təmin etmək;

11) ailə başçısını itirmiş şəhid ailələrinin, tək anaların, xüsusilə əlil qadınların və uşaqların problemlərinin dövlət orqanları tərəfindən həlli məqsədi ilə müvafiq vəsatətlər qaldırmaq;

12) müvafiq sahə üzrə kadrların hazırlanmasını, işçilərin peşəkarlıq səviyyəsinin yüksəldilməsini, ixtisaslarının artırılmasını təmin etmək;

13) qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla, müvafiq sahədə müasir elmi nailiyyətləri tətbiq etmək, habelə elmi tədqiqat işlərinin aparılması və tətbiqini təmin etmək;

14) müvafiq sahəyə ayrılan büdcə vəsaitləri, kreditlər, qrantlar və digər maliyyə vəsaitlərindən təyinatı üzrə səmərəli istifadə olunmasını təmin etmək;

15) qanunvericiliyə uyğun olaraq, dövlət sirrinin və məxfilik rejiminin qorunması üçün zəruri tədbirlər görmək;

16) öz fəaliyyəti haqqında əhalinin məlumatlandırılmasını təmin etmək;

17) Komitənin strukturunun və fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində öz səlahiyyətləri daxilində tədbirlər görmək;

18) Komitənin fəaliyyəti ilə bağlı daxil olan ərizə və şikayətlərə baxmaq və qanunvericiliklə müəyyən edilmiş qaydada tədbirlər görmək;

19) Komitənin əməkdaşlarının sosial müdafiəsi, əmək və yaşayış şəraitinin yaxşılaşdırılması istiqamətində tədbirləri həyata keçirmək;

20) mühasibat uçotunun qanunvericiliyə uyğun aparılmasını təmin etmək;

21) fəaliyyət istiqamətlərinə uyğun olaraq, qanunvericilikdə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

## Komitənin hüquqları

Komitə öz vəzifələrini yerinə yetirmək üçün aşağıdakı hüquqlara malikdir:

1) müvafiq sahədə dövlət siyasətinin əsas istiqamətlərinə dair təkliflər vermək;

2) öz səlahiyyətləri daxilində müvafiq sahə üzrə vahid informasiya sistemini yaratmaq;

3) gender prinsiplərini həyata keçirmək istiqamətində kişilər və qadınlarla sistemli iş aparmaq;

4) minilliyin inkişaf istiqamətləri sahəsində, yoxsulluğun azaldılması, məşğulluq strategiyası üzrə dövlət proqramlarının həyata keçirilməsində öz səlahiyyətləri daxilində iştirak etmək;

5) sağlam ana, sağlam uşaq prinsiplərini həyata keçirmək, uşaqların hüquqlarının və qanuni mənafelərinin qorunması istiqamətində hüquqi biliklərin öyrənilməsini təmin etmək;

6) dövlət qadın siyasətinin həyata keçirilməsi, uşaq müəssisələrindən uşaqların ailələrə verilməsi, onların hüquqlarının və qanuni mənafelərinin qorunması, sosial müdafiəsi istiqamətində normativ hüquqi aktlarla müəyyən olunmuş vəzifələrin strukturuna daxil olan bölmələr tərəfindən yerinə yetirilməsinə nəzarət etmək, aidiyyəti dövlət orqanlarından həmin istiqamətdə olan vəzifələrin icra vəziyyəti ilə bağlı məlumatlar almaq;

7) istehsalatda işləyən qadınların hüquqlarının qorunması üçün öz səlahiyyətləri daxilində müvafiq orqanlarla birlikdə tədbirlər görmək, zərurət yarandıqda onların hüquqlarını pozan vəzifəli şəxslər haqqında müvafiq tədbirlərin görülməsi üçün aidiyyəti orqanlar qarşısında məsələ qaldırmaq;

8) müvafiq sahəyə aid olan qanunvericilik aktlarının layihəsini hazırlamaq və ya onların hazırlanmasında iştirak etmək;

9) müvafiq sahə üzrə Azərbaycan Respublikasının beynəlxalq müqavilələrə tərəfdar çıxması barədə təşəbbüslə çıxış etmək;

10) müvafiq sahəyə dair dövlət və yerli özünüidarəetmə orqanlarına, fiziki və hüquqi şəxslərə zəruri məlumatlar (sənədlər) barədə sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq;

11) qanunvericiliklə müəyyən edilmiş qaydada müvafiq beynəlxalq təşkilatlarla, xarici dövlətlərin aidiyyəti dövlət orqanları (qurumları) ilə əməkdaşlıq etmək, xarici dövlətlərin müvafiq təcrübəsini öyrənmək;

12) fəaliyyət istiqamətlərinə uyğun rəy vermək, təhlillər və ümumiləşdirmələr aparmaq, analitik materiallar hazırlamaq, müvafiq sahə üzrə tədqiqatlar aparmaq, təkliflər vermək;

13) müvafiq sahə üzrə mütəxəssislərin hazırlanması və ixtisasının artırılması, o cümlədən Komitənin işçilərinin peşəkarlıq səviyyəsinin artırılması üçün tədbirlər görmək;

14) müstəqil ekspertləri və mütəxəssisləri qanunvericiliklə müəyyən edilmiş qaydada öz fəaliyyətinə cəlb etmək;

15) müvafiq sahədə müxtəlif treninq, kurs, seminar və digər tədbirləri təşkil etmək;

16) qanunvericiliklə müəyyən edilmiş qaydada xüsusi bülletenlər və digər nəşrlər buraxmaq, internet saytı yaratmaq və ondan istifadə etmək;

17) öz səlahiyyətləri daxilində müvafiq sahəyə investisiyaların cəlb olunmasına dair təkliflər vermək;

18) müvafiq sahə üzrə beynəlxalq miqyaslı tədbirlərin keçirilməsinə dair təkliflər vermək;

19) müvafiq sahəni işıqlandıran televiziya və radio verilişlərinin layihələrini hazırlayıb həyata keçirmək;

20) Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada sərəncamında olan dövlət əmlakı barəsində hüquqları həyata keçirmək;

21) Komitənin xüsusi fərqlənmiş işçilərini müəyyən edilmiş qaydada Azərbaycan Respublikasının fəxri adlarına və dövlət mükafatlarına təqdim etmək;

22) fəaliyyət istiqamətlərinə uyğun olaraq, qanunvericilikdə nəzərdə tutulmuş digər hüquqları həyata keçirməsi

## İnzibati orqana ərizənin verilməsi

Ərizəyə baxılması və həmin ərizə üzrə müvafiq inzibati aktın qəbul edilməsi başqa inzibati orqanın səlahiyyətlərinə aid olduğu halda, ərizəçinin müraciət etdiyi inzibati orqan ərizənin daxil olduğu vaxtdan ən geci 10 gün müddətində ərizəni və ona əlavə olunmuş sənədləri səlahiyyətli inzibati orqana göndərməlidir.

Ərizə və ona əlavə edilmiş sənədlərin səlahiyyətli inzibati orqana göndərilməsi barədə ərizəçiyə altı (6) gün müddətində yazılı şəkildə əsaslandırılmış məlumat verilməlidir.

Azərbaycan Respublikasının qanunvericiliyində birbaşa nəzərdə tutulmamışdırsa, ərizəni müvafiq səlahiyyətli orqana göndərən inzibati orqan tərəfindən ərizənin mahiyyəti üzrə hər hansı rəy verilməsi yolverilməzdir.

İnzibati icraat haqqında Qanunun 33.1-ci maddəsində nəzərdə tutulmuş hallarda ərizə qanunla müəyyən olunmuş müddətdə təqdim olunmuşdursa, ərizənin təqdim edilməsi ilə bağlı müddətə maraqlı şəxs tərəfindən əməl olunmuş sayılır.

## Ərizənin baxılmamış saxlanılması

Ərizə səlahiyyətli inzibati orqan tərəfindən aşağıdakı hallarda baxılmamış saxlanıla bilər:

İnzibati İcraat haqqında Qanunun 35.1-ci maddəsində nəzərdə tutulmuş hallar istisna olmaqla, ərizə vermiş şəxs (şəxslər) barəsində və ərizədə göstərilmiş həmin əsaslar üzrə həmin inzibati orqan və ya müvafiq yuxarı inzibati orqan tərəfindən əvvəllər qərar qəbul olunduğu müəyyən edildikdə;

həmin iş üzrə qanuni qüvvəyə minmiş məhkəmə qərarı olduqda;



Ərizənin baxılmamış saxlanılması barədə inzibati orqan tərəfindən inzibati akt formasında qərar qəbul edilir.

## İnzibati orqana müraciət etmək hüququ

Hər bir şəxsin onun hüquq və qanuni maraqlarına bilavasitə aid olan məsələlərlə bağlı inzibati orqana müraciət etmək, vəsatət vermək və ya inzibati orqandan məlumat əldə etmək hüququ vardır.

Qanunda başqa qayda nəzərdə tutulmamışdırsa, inzibati orqan onun səlahiyyətlərinə aid olan məsələlər üzrə müraciətlərə baxmağa, həmin müraciətlər üzrə müvafiq qərar qəbul etməyə və ya məlumat verməyə borcludur.

## İnzibati icraatda maraqlı şəxslərin iştirakı

Qanunda başqa qayda nəzərdə tutulmamışdırsa, inzibati orqan inzibati icraat barədə maraqlı şəxsə və ya onun nümayəndəsinə məlumat verməli və işdə onun iştirakını təmin etməlidir.

Qanunda başqa hallar nəzərdə tutulmamışdırsa, inzibati aktı qəbul etməzdən əvvəl inzibati orqan onun məzmunu, xüsusilə işin müəyyən edilmiş faktiki halları və həmin işlə bağlı nəzərdə tutulan tədbirlər haqqında maraqlı şəxslərə və ya onların nümayəndələrinə məlumat verməyə və bu barədə onların mülahizələrini dinləməyə borcludur.

İnzibati orqan aşağıdakı hallarda maraqlı şəxsləri və ya onların nümayəndələrini dinləməkdən imtina edə bilər:

maraqlı şəxslərin tələblərinin tam təmin olunduğu inzibati aktın qəbul edilməsi nəzərdə tutulduqda;

ictimai və ya dövlət maraqlarına ziyan vura biləcək təhlükənin qarşısının alınması və ya aradan qaldırılması ilə əlaqədar inzibati aktın dərhal qəbul olunması zərurəti yarandıqda;

dinləmənin keçirilməsi inzibati aktın qəbul edilməsi ilə bağlı müddətin buraxılmasına səbəb ola biləcəyi halda;

ümumi xarakterli sərəncamın və ya çoxlu sayda identik məzmunlu inzibati aktların və ya avtomatik qurğular vasitəsi ilə inzibati aktların qəbul edilməsi nəzərdə tutulduqda;

barəsində müstəqil şəkildə şikayət verilə bilməyən aralıq inzibati aktın qəbul edilməsi nəzərdə tutulduqda;

inzibati aktların məcburi qaydada icrası ilə bağlı tədbirlərin tətbiqi nəzərdə tutulduqda.

## İşə baxılmasında qərəzsizlik

İnzibati orqanlar öz səlahiyyətlərini qərəzsiz olaraq həyata keçirtməyə borcludurlar.

İşin nəticəsində marağı olan vəzifəli şəxs inzibati icraatda iştirak edə bilməz.

İnzibati orqan tərəfindən məsləhətlərin və zəruri məlumatların verilməsi

İnzibati orqan ərizə və ya vəsatətlərin verilməsində, ərizə və ya vəsatətdə buraxılmış səhvlərin aşkar edilməsində və onların aradan qaldırılmasında maraqlı şəxsə yardım etməyə, inzibati icraatda iştirak edən şəxsin malik olduğu hüquq və vəzifələri ona izah etməyə borcludur.

Fiziki və ya hüquqi şəxslərin müraciətinə əsasən müvafiq inzibati orqan ərizələrin və inzibati icraatla bağlı digər formulyarların (blankların) nümunələrini onlara verməyə, yaxud poçt rabitəsi və ya digər elektron rabitə kanalları vasitəsilə göndərməyə borcludur.

## İşin hallarının obyektiv araşdırılması

İnzibati orqan inzibati icraat zamanı işin düzgün həlli üçün əhəmiyyət kəsb edən bütün faktiki halları hərtərəfli, tam və obyektiv araşdırmağa borcludur.

İnzibati orqan maraqlı şəxslərin xeyrinə olan halların araşdırılmasından və nəzərə alınmasından imtina edə bilməz.

İnzibati icraat zamanı işin bütün hallarının araşdırılması inzibati orqanın xidməti vəzifəsindən irəli gəlir. Araşdırmanın üsulu və həcmi inzibati orqan tərəfindən müəyyən edilir. İnzibati orqan maraqlı şəxslərin izahatları ilə və təqdim etdiyi sübutlarla bağlı deyildir.



Təqdim olunmuş sübutlar yetərli olmadıqda, inzibati orqan öz təşəbbüsü ilə əlavə sübutlar toplamağa borcludur.

İnzibati orqan inzibati icraatda iştirak edən şəxslər tərəfindən təqdim olunmuş və baxılması onun səlahiyyət dairəsinə aid olan ərizə və ya vəsatətləri işə aid olmaması və ya əsassız olması səbəbindən qəbul etməkdən imtina edə bilməz.

## Məhkəmədə tərəflər

Prosesdə tərəflər iddiaçı və cavabdeh hesab edilirlər. Fiziki və hüquqi şəxslər, vəzifəli şəxslər, dövlət orqanları və başqa orqanlar iddiaçı və ya cavabdeh qismində çıxış edə bilərlər.

Özünün və ya başqasının mənafeyi naminə iddia qaldırmış fiziki və hüquqi şəxslər, təsisçisi dövlət və ya dövlət idarəsi, yaxud təşkilatı olan hüquqi şəxslərin müvafiq müraciəti olduğu hallarda dövlət mənafeyinin müdafiəsi üçün iddia qaldırmış prokuror iddiaçılar hesab edilirlər.

İddia tələbinin yönəldiyi fiziki və hüquqi şəxslər cavabdeh hesab olunurlar.

Qanunda nəzərdə tutulan hallarda hüquqi şəxs olmayan təşkilatlar da tərəf ola bilərlər.

Qanun üzrə başqasının hüquq, azadlıq və qanunla qorunan mənafeyinin müdafiəsi üçün məhkəməyə müraciət etmək hüququ olan şəxsin ərizəsi ilə mənafeyi üçün iddia qaldırılmış şəxs, başlanmış proses barədə xəbərdar edilir və məhkəmə prosesində iddiaçı qismində iştirak edir. Tərəflər prosessual hüquqlardan bərabər istifadə edirlər və bərabər prosessual vəzifələr daşıyırlar.

## Azərbaycanda Məhkəmə Sistemi

1995-ci ildə Azərbaycan Respublikasının Konstitusiyası qəbul edildikdən sonra ardıcıl surətdə aparılan məhkəmə islahatının əsas məqsədi ölkəmizdə qanunun aliliyinin təmin edilməsi, məhkəmə hakimiyyətinin dövlət mexanizmində nüfuzlu və müstəqil bir təsisat kimi təşəkkül tapması, ədalət mühakiməsinin həyata keçirilməsi zamanı insan hüquq və azadlıqlarının müdafiəsinin təmin edilməsi, cinayət və mülki mühakimədə demokratik prinsiplərin həyata keçirilməsi, peşəkar hakim korpusunun formalaşdırılması, məhkəmələrin fəaliyyətinin şəffaflığının təmin edilməsi və sair məsələlərin konseptual həlli olmuşdur.

Məhkəmə islahatının ilkin mərhələsində atılmış mühüm addımlar nəticəsində müvafiq qanunvericilik bazası beynəlxalq standartlara uyğunlaşdırılmış, yeni üçpilləli məhkəmə sistemi təsis edilmiş və ölkənin tarixində ilk dəfə olaraq test üsulu

ilə yeni hakimlər təyin edilmişdir. Qanunvericilikdə məhkəmə hakimiyyəti müstəqilliyinin və hakimlərin statusunun əsasları, habelə hüquqi dövlətə xas olan ədalət mühakiməsinin prinsipləri müəyyən edilmiş, məhkəmələrin fəaliyyəti üçün zəruri şərait yaradılmış, hakimlərin maddi və sosial təminatı əhəmiyyətli dərəcədə yaxşılaşdırılmışdır. Lakin cəmiyyətimizin iqtisadi və sosial həyatının sürətli inkişafı məhkəmə sisteminin təkmilləşdirilməsi işini daim gündəmdə saxlayır. Bununla əlaqədar məhkəmə islahatı davam etdirilərək yeni mərhələyə keçmiş, son iki ildə Azərbaycan Respublikası Prezidentinin təşəbbüsü ilə ədalət mühakiməsinin inkişafında keyfiyyətcə yeni dəyişikliklər baş vermişdir.

Məhkəmələrin işinin təkmilləşdirilməsi və onun beynəlxalq tələblərə uyğunlaşdırılması məqsədilə 2004-cü ilin dekabr ayında "Məhkəmə-Hüquq Şurası haqqında" Qanun qəbul olunmuş, "Məhkəmələr və hakimlər haqqında" Qanuna hakimlərin seçim prosedurunun yeni dəyərlər əsasında müəyyən edilməsini, fəaliyyətlərində sui-istifadəyə yol vermiş hakimlər barədə intizam məsuliyyətinin gücləndirilməsini, məhkəmələrin işində şəffaflığın təmin edilməsini nəzərdə tutan əsaslı dəyişikliklər edilmişdir. Bu normativ hüquqi aktlardan irəli gələn vəzifələrin icrasını təmin etmək məqsədilə həyata keçirilmiş tədbirlər nəticəsində məhkəmə hakimiyyətinin özünüidarə funksiyalarını həyata keçirən mahiyyətcə yeni qurum - Məhkəmə-Hüquq Şurası təşkil edilmiş, ilk dəfə yaradılmış Hakimlərin Seçki Komitəsi tərəfindən vakant hakim vəzifələrinə namizədlərin seçilməsi prosesinə başlanmışdır.

Məhkəmə sisteminin müasirləşdirilməsinin növbəti mərhələsində regionların sosial-iqtisadi inkişafı şəraitində əhalinin hüquq institutlarına və hüquqi yardıma tələbatının ödənilməsi üçün yeni məhkəmələrin yaradılması, vətəndaşların narazılıqlarına səbəb olan sui-istifadə, süründürməçilik hallarının və digər nöqsanların aradan qaldırılması, ədalət mühakiməsinin səmərəliliyinin və v

məhkəmələrə inamının artırılması, məhkəmələrə müraciət imkanlarının asanlaşdırılması, məhkəmələrin fəaliyyətində yeni informasiya texnologiyalarının tətbiq edilməsi, məhkəmə aparatlarının strukturunun və işinin daha optimal şəkildə qurulması, habelə digər mühüm məsələlərin həlli nəzərdə tutulur[1].



**1. İnsan hüquqlarının müdafiə mexanizmləri İ.Cavadova və Sahib Məmmədov səh 249.**

AR Konstitusiyasının 7-ci fəsli Məhkəmə hakimiyyəti haqqındadır.

**Maddə 125. Məhkəmə hakimiyyətinin həyata keçirilməsi**

*I. Azərbaycan Respublikasında məhkəmə hakimiyyətini ədalət mühakiməsi yolu ilə yalnız məhkəmələr həyata keçirirlər.*

*II. Məhkəmə hakimiyyətini Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi, Azərbaycan Respublikasının Ali Məhkəməsi, Azərbaycan Respublikasının apellyasiya məhkəmələri, Azərbaycan Respublikasının ümumi məhkəmələri və digər ixtisaslaşdırılmış məhkəmələri həyata keçirirlər.*

*III. Məhkəmə hakimiyyəti Konstitusiya, mülki və cinayət məhkəmə icraatı vasitəsilə və qanunla nəzərdə tutulmuş digər vasitələrlə həyata keçirilir.*

II bənddə *Azərbaycan Respublikasının ümumi məhkəmələri və digər ixtisaslaşdırılmış məhkəmələri* dedikdə yerli (yəni, rayon və şəhərlərdə yerləşən məhkəmlər, o cümlədən Naxçıvan Muxtar Respublikasındakı məhkəmələr), inzibati-iqtisadi məhkəmələr, Ağır cinayətlər üzrə məhkəmələr, Hərbi məhkəmələr nəzərdə tutulur.

Azərbaycan Respublikasında Məhkəmə sistemi ilə ətraflı tanış olmaq üçün http://www.bncourts.az saytından əldə etmək olar.

## Qadınlara Qarşı Ayrı-Seçkiliyin Bütün Formalarının Ləğvi üzrə Komitə

“Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında” Konvensiya (CEDAW) – qadın hüquqlarının müdafiəsi haqqında əsas beynəlxalq sənəddir. Onun preambulasında deyilir ki, qadınlara qarşı ayrı-seçkiliyin ləğv edilməsi, qadınlar və kişilər arasında bərabərliyin təmin edilməsi BMT-nin əsas prinsiplərindən biridir. Konvensiya qadınların vəziyyətinin yaxşılaşdırılması problemini müasirliyin ən qlobal problemlərinə aid edir. BMT-nin bu istiqamətdə gördüyü işlər bunun əsas sübutudur[1].

1975-ci ildə Beynəlxalq qadın ilinin, bundan sonra 1975-1985-ci illərdə Qadın onilliyinin keçirilməsi BMT-ni qadın hüquqlarının tənzimlənməsinə dair xüsusi beynəlxalq hüquqi aktın qəbul edilməsinə gətirib çıxartdı və 18 dekabr 1979-cu il tarixdə BMT-nin Baş Assambleyası Qadınlara qarşı ayrı-seşkiliyin bütün formalarının ləğv edilməsi haqqında Konvensiyanı qəbul etdi.

---

**1. İnsan hüquqlarının müdafiə mexanizmiləri İ.Cavadova və Sahib Məmmədov səh 82.**

Konvensiyanın məqsədi qadınların ayrı-seçkiliyin bütün formalarından həqiqətən azad olunmasının təmin edilməsindən, qadınların inkişafı və özlərini realizə etmək üçün bərabər imkanlar yaratmaqdan ibarətdir.

Konvensiyaya hal-hazırda 187 ölkə – BMT-yə üzv dövlətlərin 90%-dən çoxu qoşulmuşdur. İştirakçı dövlətlərin sayına görə bu BMT-nin ən çox üzvü olan Konvensiyasıdır. Bu fakt bir daha müasir dövrdə qadınların rolunun artırılmasına dünya ictimaiyyətinin yüksək əhəmiyyət verməsini təsdiq edir. ABŞ, İran, Sudan, Somali, Sakit okean adalarından Palau və Tonqa  Konvensiyanı ratifikasiya etməyib.

Konvensiya hər-hansı bir ölkədə qadınların vəziyyətinin tanınmış beynəlxalq normalara uyğun olmasının təhlili üçün etibarlı vasitədir. Konvensiya qadınların hüquqi statusunun elə səviyyəsini yaradır ki, o, insan hüquqları sahəsində müasir beynəlxalq tələblərə uyğun olsun.

İştirakçı dövlətlər Konvensiyanı milli səviyyədə həyata keçirməyi öhdələrinə götürməklə yanaşı, görülən tədbirlər haqqında və onların həyata keçirildiyi zaman qarşıya çıxan çətinliklər haqqında hesabatlar təqdim etməlidirlər. Həmin hesabatlar BMT-nin Baş Katibinə təqdim edilir. O, öz növbəsində hesabatları, baxılmaq üçün BMT-nin Qadınlara qarşı ayrı-seçkiliyin bütün fomalarının ləğv ediməsi üzrə Komitəsinə (CEDAW Komitəsi) ötürür.

Azərbaycan Respublikası 10 iyul 1995-ci il tarixdə Konvensiyaya qoşulmuş, bu Konvensiyanın həyata keçirilməsi haqqında öhdəlikləri öz üzərinə götürərək bərabərlik və demokratiya ideyalarına tərəfdar olduğunu təsdiq etmişdir. Konvensiyanın 18-ci maddəsinə əsasən qoşulduqdan 1 il sonra hər ölkə ilkin hesabatını təqdim etməlidir. Buna müvafiq olaraq, 1996-cı ildə Azərbaycanın Konvensiyanın həyata keçirilməsi üzrə ilkin hesabatı hazırlanmış və həmin hesabat 1998-ci ilin yanvar ayında BMT-nin CEDAW Komitəsinə təqdim edilmişdir. “2005-ci ildə Azərbaycan Respublikasının Qadın Problemləri üzrə Dövlət Komitəsi Konvensiyanın Azərbaycanda icrası üzrə ikinci və üçüncü dövri hesabatı hazırlanaraq BMT-nin CEDAW Komitəsinə təqdim edilmişdir və 2007-ci ildə dinlənilmişdir.

2000-ci ilin fevral ayında Qadınlara qarşı ayrı-seşkiliyin bütün formalarının ləğv edilməsi haqqında Konvensiyaya Əlavə Protokol qüvvəyə mindi. Əlavə Protokol qadınlara fərdi və ya qrup şəklində Konvensiyada nəzərdə tutulmuş hüquqların pozulması barədə birbaşa Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi üzrə Komitəyə şikayət etmək hüququ verir. Protokol tərəfdaş ölkələrin qadınların insan hüquqları və fundamental azadlıqlardan barabər yararlanmasının təmin edilməsi və bu hüquq və azadlıqların pozulmasının qarşısının alınması üçün effektiv tədbirlərin görülməsinə dair öhdəlikləri yenidən təsdiq edir.

BMT-nin Baş Assambleyasının 2000-ci ildə keçirilmiş "Qadınlar 2000-ci ildə: 21-ci əsr üçün gender bərabərliyi, inkişaf və sülh" adlı 23-cü xüsusi sessiyasında Azərbaycan Respublikasının Prezidenti H. Əliyevin fərmanı ilə Qadın Problemləri üzrə Dövlət Komitəsinin sədri Z.Quliyeva Azərbaycan Hökumətinin adından Əlavə Protokolu imzaladı. Protokol 2001-ci ilin fevral ayında Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən ratifikasiya edilmişdir. Ümumiyyətlə, 2005-ci ilin 15 sentyabr tarixinə olan məlumata əsasən həmin Protokolu 72 ölkə ratifikasiya etmişdir[1].

Qadın Konvensiyasının məqsədi qadınlara qarşı ayrı-seçkiliyin aradan qaldırılmasıdır; həmin ayrı-seçkiliyə aşağıdakı kimi anlayış verilir. Ailə vəziyyətindən asılı olmayaraq qadın və kişilərin hüquq bərabərliyi əsasında siyasi, iqtisadi, sosial, mədəni, mülki və ya hər hansı başqa sahələrdə insan hüquqları və əsas azadlıqları əsasında qadın hüquqlarının tanınmasını, istifadəsini və həyata keçirilməsini zəiflətməyə və ya heçə endirməyə yönələn cinsi əlamətə görə hər hansı fərq, istisna və ya məhdudiyyət.

Bu müddəanın mühüm cəhəti ondadır ki, o, həm bilərəkdən edilmiş ayrı-seçkiliyə, həm də ayrı-seçkiliyə səbəb olmuş hərəkətlərə tətbiq edilə bilər. Digər müqavilələrdən fərqli olaraq Qadın Konvensiyası sadəcə "cinsi əlamətə görə ayrı-seçkiliyi" aradan qaldırmağı yox, qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğvini nəzərdə tutur. Başqa sözlə, gender (cins) neytrallığı (yəni kişilər və qadınlarlar bərarbər rəftar) tələbinin əvəzinə, konvensiya qadınların bərabərsizliyini saxlanmasına xidmət edən hər hansı fəaliyyəti qadağan edir.

Məsələn 3-cü maddəyə əsasən, dövlətlər: qadınların kişilərlə bərabərlik əsasında insan hüquqlarından əsasında insan hüquqlarından və əsas azadlıqlarından istifadə etmələrinə və həmin hüquqları həyata keçirmələrinə təminat vermək üçün onların hərtərəfli inkişafının və tərəqqisini təmin etməyə borcludurlar.

Rebekka Kukun da qeyd etdiyi kimi (Kuk, 1994-cü il) Qadın Konvensiyasına əsasən dövlətlər vasitələri və nəticələri ehtiva edən öhdəlikləri qarşıya qoyulan məqsədlərə nail olmaq üçün müəyyən vasitələrdən istifadə etmək öhdəliyini və yol verilən bütün üsullarla nəticələr əldə etmək öhdəliyini öz üzərinə götürdülər.

– Dövlətlər aşağıdakı öhdəlikləri öz üzərlərinə götürdülər:

– Əgər bunu hələ etməyiblərsə, kişi və qadınların bərabərliyi prinsipin milli konstitusiyalarına və ya digər müvafiq qanunvericiliklərinə daxil etməyi və qanunun və digər müvafiq vasitələrin köməyi ilə bu prinsipin praktiki həyata keçirilməsini təmin etməyi;

– Zəruri hallarda qadınlara qarşı hər hansı ayrı-seçkiliyi qadağan edən sanksiyalar da daxil olmaqla müvafiq qanunvericilk tədbirlərini və digər tədbirləri qəbul etməyi;

**1. www.scfwca.gov.az.**

– qadın hüquqlarının kişilərlə bərabərlik əsasında hüquqi müdafiəsini bərqərar etməyi və səlahiyyətli milli məhkəmələrin və digər dövlət idarələrinin köməyi ilə hər hansı ayrı-seçkilik aktına qarşı qadınların müdafiəsini təmin etməyi;

– qadınlara qarşı hər hansı ayrı-seçkilk aktını və ya hərəkətini həyata keçirməkdən çəkinməyi və dövlət orqanlarının və idarələrinin bu öhdəliyə əsasən hərəkət edəcəklərinə təminat verməyi;

– qüvvədə olan, qadınlara qarşı ayrı-seçkiliyə yol verən qanunların, qərarların, adətlərin və praktikanın, dəyişdirilməsi və ya ləğvi üçün, qanunvericilk tədbirləri də daxil olmaqla, bütün müvafiq tədbirləri görməyi;

– özlərinin cinayət qanunvericiliyində qadınlara qarşı ayrı-seçkiliyə yol verən bütün müddəalrı ləğv etməyi.

Qadınlara qarşı ayrı-seçkiliyin ləğvi Komitəsi (CEDAW) Qadın Konvensiyasının yerinə yetirilməsinə nəzarət üçün təsis edilib. Komitənin tərkibinə 23 ekspert daxildir. Onlar Konvensiyanın qüvvəsinin şamil oldunduğu sahələrə cavabdehdirlər. Ekspertlər Konvensiyanı imzalayan dövlətlər tərəfindən dörd illiyə seçilir və öz sahələri üzrə fəaliyyətlərini həyata keçirirlər.

1999-cu ilin oktyabırın 6-da qəbul edilmiş Fakultativ Protokola əsasən Qadınlara Qarşı ayrı-seçkiliyin ləğvi Komitəsi Konvensiyanın müddəalarının pozulması ilə bağlı fərdi şikayətlərə baxa bilər.

### Prosedurun növü Hesabat və Nəzarət

### Prosedurdan istifadə imkanı

Yalınz Qadın Konvensiyasının iştirakçısı olan dövlətlər onun müddəalarına əməl etməyə borcludurlar. Komitə qeyri-rəsmi əsasda qeyri-hökumət təşkilatlarından informasiyanı həvəslə qəbul edir və öz mülahizəsinə əsasən şəxslərin və qrupların ərizələrini rəsmi qaydada qəbul edə, bəzi hallarda isə baxa bilər. Bundan başqa bir çox hallarda QHT-lər CEDAW-da işlərəə baxılmanın gedişinə nəzarət edə bilərlər.

### Nəzarət prosesinə buraxılma

BMT yanında akkreditə olunan və xüsusi icazə alan təşkilatları CEDAW-da işlərə baxılma prosesinə buraxılırlar.

## Sistemin iş prinsipi və hüquq müdafiəçilərinin rolu

Konvensiya dövlətlərin üzərinə, Konvensiyanı həyata keçirmək məqsədilə qəbul etdikləri qanunvericilk, inzibati və digər tədbirlər üzrə hesabatı, Konvensiya qüvvəyə minəndən sonra bir il ərzində sonra isə dörd ildə bir dəfədən az olmamaqla və ya Qadınlara qarşı ayrı-seçkiliyin ləğvi Komitəsinə tələbi üzrə istənilən vaxt Baş Katibə təqdim etmək vəzifəsi qoyur.

Komitə ildə bir dəfə iclas keçirilir və orada bu hesabatlara baxılır, Konvensiya çərçivəsində qadın hüquqlarının həyata keçirilməsi sahəsindəki işlərin vəziyyəti təhlil edilir. Baxış prosesi iştirakçı dövlət tərəfindən işin şifahi təqdim olunmasını, daha sonra Komitə üzvləri tərəfindən sualların verilməsini ehtiva edə bilər. Baxışdan sonra Komitə iştirakçısı dövlətlərə öz təkliflərini yekun müşahidələri və şərhləri formasında, yaxud ümumi şərhlər və ümumi tövsiyələr formasında verə bilər. CEDAW – nun ümumi tövsiyələri çox vaxt Konvensiyanın gələcək şərhi və tətbiqi üçün olduqca mühüm əhəmiyyət daşıyır.

## CEDAW-ya şikayət göndərmək proseduru:

– dövlət qadının hüquqlarını pozulduğu halda dəymiş ziaynın əvəzinin ödənilməsinə imkan yaradır;

– milli səviyyədə ədalət mühakiməsinə çatım hüququ pozulan qadınlara beynəlxalq müdafiə vasitələrindən istifadə imkanları verir.;

– milli səviyyədə daha effektiv müdafiə vasitələrinin yaradılması zərurəti barədə tövsiyə verməyi Komitəyə imkan verir;

– qadınların hüquqlarını təmin edən yeni hüquqi orqanı yaratmağa Komitəyə imkan verir[1].

## Araşdırma proseduru:

– Komitəyə sistematik və geniş yayılan hüquq pozuntularını araşdırmağa imkan verir;

– Qadınlara münasibətdə ayrı-seçkiliyin stuktur səbəbləri ilə mübarizə tədbirlərini tövsiyə etməyi Komitəyə imkan verir;

---

**1. İnsan hüquqlarının müdafiə mexanizmləri İ.Cavadova və Sahib Məmmədov səh 87.**

– Komitəyə qadın və kişilər arasında bərabər imkanların yaradılması üzrə geniş tövsiyələr qəbul etməyə imkan verir.

## CEDAW Komitəsinə şikayət prosedurunun mərhələləri
### Şikayətin verilməsi

Şikayət ərizəsini hər hansı formaya dəqiq riayət etməklə verilməsi məcbur olmasa da, hər halda CEDAW Komitəsinə şikayətin verilməsi ilə bağlı rəhəbr prinsipləri əks etdirən nümunəvi forma mövcuddur. Ərizəçinin bu rəhbər prinsiplərə riayət etməsi ciddi şəkildə tövsiyə olunur. Şikayət baxılması üçün aşağıdakı məlumatların göstərilməsi vacibdir:

1.Şikayətçi haqqında məlumat;

2. Qurban haqqında məlumat (əgər şikayətçi ilə qurban eyni şəxs deyilsə);

3.Müvafiq iştirakçı dövlət haqqında məlumat;

4. İddia edilən pozunutunun mahiyyəti;

5. Daxili hüquqi müdafiə vasitələrinin tükəndirilməsi üçün atılmış addımlar;

6.Digər beynəlxalq prosedurlar haqqında məlumat;

7. Şikayətçinin və ya qurbanın imzaları və tarix;

8.Şikayətə əlavə olunan sənədlərin siyahısı

Şikayətlər aşağıdakı ünvana göndərilməlidir:

***Committee on the Elimination of Discrimination Against Women***

***c/o Division for the Advancement of Women***
***Department of Econmic and Social Affairs***
***United Nations Secretariat***
***2 United Nations Plaza DC 2/12th Floor***
***New York,NY 10017***
***USA***
***TEL +1-212-963-3153***
***FAX + 1-212-9633463***

Şikayət formasının nümunəsini bu saytdan əldə etmək olar:

**http:// www.un.org// womenwatch/daw/cedaw/protocol/modelform-F/PDF**

CEDAW Komitəsinə göndərilən bütün şikayətlərə əvvəlcə Komitənin Katibliyi tərəfindən baxılır. Katibliyin funksiyaları və şikayətlər üzrə prosedurunun keçirilməsi ilə bağlı vəzifələri Komitənin Prosedur Qaydalarında göstərilib. Katibliklə bu elektron poçt vasitəsilə əlaqə saxlamaq olar: daw@un.org

Katiblik öncə şikayətin qəbul edilməsinin mümkünlüyü məsələsinə baxılır. Ərizəçi şikayət ərizəsində kifayət qədər məlumat daxil etməyibsə o zaman Prosedur Qaydalarının 58-ci maddəsinə görə Katiblik ərizəçidən əlavə detallı informasiyalar xahiş edə bilər.

Komitə şikayətə iki mərhələdə baxır. Birinci mərhələdə şikayətin qəbul edilməsinin mümkünlüyü, ikinci mərhələlədə isə şiayət mahiyyəti üzrə baxılır.

### Şikayətin qəbul edilməməsinin meyarları

Həmin meyarlar aşağıdakılardır;

a) digər beynəlxalq orqan tərəfindən baxılmış və ya baxılmaqda olan şikayətlər qəbul edilmir;

b) CEDAW Konvensiyasının müddəalarına uyğun gəlməyən şikayətlər qəbul edilmir;

c) Açıq-aydın, əssasız və ya kifayət qədər əsaslandırılmayan şikayətlər qəbul edilmir;

d) Şikayət vermə hüququndan sui-istifadə edildikdə şikayətlər qəbul edilmir;

e) İştirakçı dövlətlər tərəfindən Konvensiyanın ratifikasiya olunduğu tarixdən əvvəl baş vermiş hadisələrə aid şikayətlər qəbul edilmir.

## AVROPA İNSAN HÜQUQLARI MƏHKƏMƏSİ (AİHM)

### Avropa İnsan Hüquqları Məhkəməsi nədir?

Avropa İnsan Hüquqları Məhkəməsi (AİHM) Fransanın Strasburq şəhərində yerləşən beynəlxalq məhkəmədir. O, Avropa Şurasına üzv olan və İnsan Hüquqları və Əsas Azadlıqların Müdafiəsi Haqqında Konvensiyanı ratifikasiya etmiş ölkələrin bərabərhüquqlu və bərabərsaylı hakimlərindən ibarətdir. Hazırda məhkəmə hakimlərinin sayı 45 nəfərə çatır[1]. Avropa İnsan Hüquqları Məhkəməsinin hakimləri müstəqil ha-

kimlər kimi fəaliyyət göstərir və heç bir ölkəni təmsil etmirlər. Avropa Şurasına üzv olan bütün ölkələrin hüquqşünaslarından ibarət reqistr Məhkəməyə daxil olan şikayət ərizələri ilə işdə ona köməklik göstərir (Onlar hüquqi katiblər də adlandırılır). Onlar vətəndaşı olduqları ölkələr qarşısında heç bir öhdəlik daşımırlar və tam müstəqildirlər. Reqistrin əməkdaşları məhkəmədə nə şikayətçiləri, nə də vətəndaşı olduqları ölkələrin hökümətlərini təmsil etmirlər.

## İnsan Hüquqları və Əsas Azadlıqların Müdafiəsi Haqqında Avropa Konvensiyası nə deməkdir?

İnsan Hüquqları və Əsas Azadlıqların Müdafiəsi Haqqında Avropa Konvensiyası yalnız Avropa Şurasına üzv olan dövlətlər tərəfindən imzalanan beynəlxalq müqavilədir. Konvensiya Məhkəməni təsis edir və onun fəaliyyətini tənzimləyir. Avropa Şurasına üzv olan bütün dövlətlərin ehtiram göstərməli olduqları insan haqları və onlarla bağlı zəmanətlərin siyahısı da Konvensiyanın tərkib hissəsidir.

## Avropa İnsan Hüquqları Məhkəməsi nə edir?

Avropa İnsan Hüquqları Məhkəməsi İnsan Hüquqları və Əsas Azadlıqların Müdafiəsi Haqqında Konvensiyanı tətbiq edir. Məhkəmənin vəzifəsi Avropa Şurasına üzv olan ölkələrin Konvensiyada əks olunan insan haqlarına və onlarla bağlı zəmanətlərə ehtiramla yanaşmalarına nəzarət etməkdir.

Bu nəzarət fərdi şəxslərin, bəzi hallarda isə dövlətlərin təqdim etdiyi şikayətlərə (onlara “şikayət ərizəsi” də deyilir) baxılması yolu ilə həyata keçirilir. Əgər Avropa Şurasına üzv olan ölkənin qeyd olunan hüquqlar və onlarla bağlı zəmanətlərdən birini və yaxud bir neçəsini pozduğu aşkar olunarsa, bu halda Məhkəmə qərar çıxarır. Qərarların icrası məcburidir: ölkələr öz üzərilərinə götürdükləri öhdəliklərə əməl etməlidirlər.

## Mən Avropa İnsan Hüquqları məhkəməsinə nə vaxt müraciət etmək olar?

Siz şəxsən və bilavasitə Konvensiya və ya onun Protokolları ilə təmin olunan hüquqlarınızın və onlarla bağlı zəmanətlərin pozulduğunu iddia edirsinizsə, Məhkəməyə müraciət edə bilərsiniz. Bu hüquq pozuntularına Konvensiyaya qoşulan ölkələrdən biri səbəb ola bilər.



**1. Avropa İnsan Hüquqları Məhkəməsi 2002 İ.Əliyev K.Abbasov səh 51.**

## Konvensiya və onun Protokolları hansı hüququları müdafiə edir?

**Konvensiya xüsuilə aşağıdakı hüquqları müdafiə edir:**

• Yaşamaq hüququ
• Mülki və cinayət işlərində ədalətli mühakimə olunmaq hüququ
• Şəxsi və ailə həyatına hörmət olunması hüququ
• Fikri sərbəst ifadə etmək azadlığı
• Fikir, vicdan və din azadlığı
• Effektli hüquqi müdafiə azadlığı
• Dinc yaşamaq hüququ
• Seçmək və seçilmək hüququ

## Konvensiya və onun Protokolları nəyi qadağan edir?

Konvensiya xüsusilə qadağan edir:

• İşgəncə verilməsini, qeyri-insani və ya təhqiredici rəftarı və cəzanı
• Əsassız və qanunsuz həbs olunmanı
• Konvensiyada təsbit olunan hüquq və azadlıqlardan qeyri-bərabər istifadə olunmasını
• Dövlətin öz vətəndaşlarını ərazisindən qovmasını və ya onlara həmin dövlətin ərazisinə daxil olmağa qadağa qoymasını
• Edam cəzasının tətbiq edilməsini
• Əcnəbi vətəndaşların ölkədən kollektiv şəkildə çıxarılmasını

## Ərizə ilə məhkəməyə müraciət etmək üçün hansı tələblər yerinə yetirilməlidir?

Siz Avropa Şurasına üzv ölkənin vətəndaşı olmaya bilərsiniz. Sizin şikayətinizlə bağlı olan qanun pozuntusu Konvensiyanı imzalayan ölkələrdən birinin "yurisdiksiyası" çərçivəsində, yəni onun əraziləri daxilində baş verməlidir.

Siz fiziki şəxs, şirkət və ya təşkilatı təmsil edən hüquqi şəxs ola bilərsiniz.

Siz sübuta yetirməyə çalışdığınız qanun pozuntusunun şəxsən və bilavasitə qurbanı olmalısınız. Siz qanun və ya hər hansı məsələ ilə bağlı ümumi şikayət edə bilməzsiniz.

Məsələn, hər hansı işin ancaq sizə görə ədalətsiz olduğunu idda edə bilməzsiniz, və ya siz başqa insanların adından şikayət edə bilməzsiniz (Əgər həmin insanlar aydın şəkildə müəyyən olunursa və siz onların rəsmi təmsilçisi sayılırsınızsa, müraciət edə bilərsiniz).

## Avropa İnsan Hüquqları Məhkəməsinə müraciət etməzdən əvvəl milli məhkəmələrdə yerinə yetirilməsi vacib sayılan tələblər varmı?

• Bəli. Siz şikayət etdiyiniz məsələ ilə bağlı Avropa İnsan Hüquqları Məhkəməsinə müraciət etməzdən əvvəl öz ölkənizdə bütün məhkəmə araşdırmalarından istifadə etməlisiniz (adətən bu aşağıdakı mənanı daşıyır: siz ilkin instansiya sayılan hər hansı müəyyən məhkəməyə müraciət edirsiniz, məhkəmənin çıxardığı qərar sizi təmin etmədikdə növbəti instansiya appelyasiya məhkəməsidir və əgər sizin tələbiniz burada da təmin edilmirsə, siz kassasiya məhkəməsinə (Azərbaycanda bu məhkəmə Ali Məhkəmə hesab edilir) müraciət edirsiniz).

• Bəzən bu instansiyalara müraciət edilməsi sizin hüquqlarınızın təmin edilməsinə kifayət etmir. Bu halda, siz şəxsən öz etirazınızla bağlı Avropa İnsan Hüquqları Məhkəməsinə müraciət edə bilərsiniz (yəni bu halda siz Konvensiyada göstərilən hüquqlarınızın pozulması ilə bağlı müraciət edirsiniz).

• Son instansiya hesab edilən yerli məhkəmə (adətən bu Ali Məhkəmə hesab olunur) qəti qərar çıxardıqdan sonra siz altı ay ərzində Avropa İnsan Hüquqları Məhkəməsinə şikayət ərizəsi ilə müraciət edə bilərsiniz. Bu müddət bitdikdən sonra sizin müraciətiniz Məhkəmə tərəfindən qəbul edilə bilməz. Siz, şikayət ərizəsini göndərməmişdən öncə məktub göndərə bilərsiniz. Həmin məktub Məhkəməyə daxil olduqdan sonra altı həftə ərzində şikayət ərizəsini göndərməlisiniz.

## Mən kimə qarşı şikayət ərizəsi ilə müraciət edə bilərəm?

• Avropa İnsan Hüquqları Konvensiyasının müddəalarını pozan (bilavasitə sizinlə bağlı olan bir və ya daha çox pozuntu) Konvensiyanı imzalamış bir və ya bir neçə dövlətə qarşı.

• Şikayət etdiyiniz hərəkət(lər) həmin dövlətin və ya dövlətlərin rəsmi şəxsləri tərəfindən edilməlidir (məsələn məhkəmə və ya inzibati orqan).

• Məhkəmə ayrı-ayrı fərdlərə və ya özəl təsisatlara (məsələn kommersiya şirkətlərinə) qarşı qaldırılan işlərə baxa bilməz.

## Mən nədən şikayət edə bilərəm?

• Sizin şikayət ərizəniz Avropa İnsan Hüquqları Konvensiyasında təsbit olunmuş hüquqlardan biri ilə əlaqədar olmalıdır. Haqqında şikayət ərizəsi daxil olan pozuntular özündə geniş məsələləri ehtiva edə bilər. Məsələn, həbs olunan insanlara qarşı işgəncələrin tətbiq edilməsi və onlara qarşı qeyri-insani rəftar, qeyri-qanuni həbs, mülki və cinayət məhkəmə proseslərindəki nöqsanlar, qanunların tətbiqi zamanı ayrıseçkiliyə yol verilməsi, valideynlərin uşaqlar üzərində hüquqları, mənzil və məktublaşma hüququna hörmətlə yanaşılması, fikirlərin sərbəst şəkildə ifadə edilməsi və informasiyanın əldə edilməsi, yaxud ötürülməsi zamanı məhdudiyyətlərin qeydə alınması, nümayişlərdə sərbəst iştirak etmək hüququ, ölkədən zorla çıxarılma və ekstradisiya, mülkün konfiskasiyası və şəxsin əlindən zorla alınması.

## Əgər mən özümü Konvensiyada təsbit edilən hüquqların pozulması qurbanı hesab edirəmsə, məhkəməyə necə müraciət edə bilərəm?

Öz şikayətinizin bütün detallarını aydın şəkildə göstərmək şərtilə məhkəməyə məktubla müraciət edə və yaxud ərizə formasını dolduraraq aşağıdakı ünvana göndərə bilərsiniz:

***The Registrar***
***European Court of Human Rights***
***Council of Europe***
***F-67075 Strasbourg Cedex***

• Siz məktubu və ya ərizə formasını Məhkəmənin rəsmi dillərindən birində (ingilis və ya fransız), yaxud da Konvensiyanı ratifikasiya etmiş dövlətlərin birinin rəsmi dilində göndərə bilərsiniz (məsələn: azərbaycan, rus və digər). İlkin əlaqələri qurduqdan sonra inglis və ya fransız dilində yazışma aparacaq nümayəndə (məsələn, vəkil) olması məsləhət görülür.

• Əgər siz şikayət ərizəsini faksla göndərirsinizsə, eyni ərizəni daha sonra poçt vasitəsilə də göndərməlisiniz.

• Nəzərə alsaq ki, AİHM-nin binası Fransanın Strasburq şəhərində yerləşir, məhkəməyə müraciət etmək üçün Strasburqa getməklə şikayətə tez baxılmasına kömək etməyəcək və heç bir hüquqi məsləhət verilməyəcək. Yuxarıda göstərilən qaydalara müvafiq müraciət etməyiniz məsləhət görülür.

• Məhkəmənin Qeydiyyat şöbəsi sizin şikayət ərizənizlə bağlı olaraq əlavə sənəd, məlumat və ya izahat istəyə bilər.

• Ərizə formasının surətini alan kimi dərhal onu səliqəli və aydın şəkildə doldurub ən qısa vaxt ərzində Məhkəməyə göndərməlisiniz. Ərizə forması aşağıdakıları ehtiva etməlidir:

– Faktların və şikayət etdiyiniz məsələnin qısa təsviri;

– Pozulduğunu güman etdiyiniz Konvensiya müddəalarının qeyd olunması;

– Ölkə daxilində artıq müraciət etdiyiniz məhkəmə araşdırmalarının siyahısı;

– İşiniz üzrə müraciət etdiyiniz bütün qurumlar tərəfindən verilən qərarların surəti. Nəyə görə surəti? Çünki bu sənədlər sizə geri qaytarılmayacaq, ona görə də Məhkəməyə ancaq onların surətləri göndərilməlidir;

– Şikayət ərizəsini göndərən şəxs olaraq sizin və ya sizi təmsil edən şəxsin imzası.

• Əgər siz öz şəxsiyyətinizi gizli saxlamaq istəyirsinizsə, səbəbləri göstərərək dərhal Məhkəməni bu haqda xəbərdar etməlisiniz. Bundan sonra sizin xahişinizin təmin edilib-edilməməsini Məhkəmənin Prezidenti müəyyənləşdirəcək.

• Proseslərin bu mərhələsində sizin hüquqşünasla təmsil olunmağınıza ehtiyac yoxdur. Bununla belə əgər siz Məhkəməyə hər hansı nümayəndə vasitəsi ilə müraciət etmək istəyirsinizsə, ərizə forması ilə birlikdə həmin nümayəndəyənin sizin adınızdan fəaliyyət göstərə bilməsi üçün onun adına etibarnamə də göndərməlisiniz.

## Araşdırmanın əsas istiqamətləri nədən ibarətdir?

• Sizin işə heç bir ödəmə olmadan baxılacaq.

• Siz ancaq öz şəxsi xərclərinizi ödəməlisiniz (öz hüquqşünasınızın xidmət haqqı, tədqiqat və buna bənzər xərclər kimi).

• Şikayət ərizəniz Məhkəmə tərəfindən qəbul edildikdən sonra hüquqi yardım üçün müraciət edə bilərsiniz. Hüquqi yardım dərhal verilmir, onunla ancaq Məhkəmə araşdırmasının sonrakı mərhələsində təmin olunursunuz.

• Araşdırma yazılı şəkildə aparılır. Buna görə də Məhkəmədə, adətən, dinləmələr olmur və Məhkəmə tərəfindən verilən hər hansı qərar haqqında sizə yazılı şəkildə məlumat veriləcək[1].



**1. Avropa İnsan Hüquqları Məhkəməsi 2002 İ.Əliyev K.Abbasov səh 49.**

## Məhkəmədə araşdırma necə aparılır?

Birinci növbədə Məhkəmə sizin ərizəni tədqiq etməli və onun qəbul edilib-edilməyəcəyini müəyyənləşdirməlidir. Yəni şikayət Konvensiya tərəfindən müəyyən edilmiş konkret tələblərə uyğun olmalıdır *(bax: "Ərizə ilə məhkəməyə müraciət etmək üçün mən hansi şərtləri yerinə yetirməliyəm").* Əgər bu şərtlər təmin edilmirsə sizin ərizənizə rədd cavabı veriləcəkdir. Əgər siz Məhkəməyə bir neçə ərizə ilə müraciət etmisinizsə, Məhkəmə onlardan birini və ya bir neçəsini qəbul edərək dirgərlərinə rədd cavabı verə bilər.

Əgər sizin ərizəniz və ya şikayətlərinizdən biri haqda qəbul edilə bilməz qərarı verilibsə, bu qərar qətidir və ona yenidən bir daha baxılmayacaq.

Əgər sizin ərizəniz və ya şikayətlərinizdən biri haqda qəbul edilə bilər qərarı verilibsə, Məhkəmə ilkin olaraq tərəfləri (siz və haqqında şikayət edilən Dövləti) məsələni mehriban yolla həll etməyə sövq edir. Hər iki tərəf məsələni həll etmək üçün razılığa gəlməyə dəvət olunacaq. Əgər tərəflər bu şəkildə razılığa gəlməsələr, Məhkəmə şikayət ərizəsinə həqiqətdə baxacaq və Konvensiyanın müddəalarının doğrudan da pozulub pozulmamasını müəyyənləşdirəcək.

## Mən nə qədər gözləməliyəm?

Hazırda Məhkəməyə edilən müraciətlərin sayını nəzərə alaraq qeyd etmək olar ki, Məhkəmənin sizin işlə bağlı ilkin araşdırmanı aparması üçün azı bir il gözləmək məcburiyyətində qala bilərsiniz. Əgər ərizəçinin fiziki işgəncəyə məruz qalması ehtimalı haqqında məlumat varsa, bəzi ərizələrə üstünlük verilərək onlara təcili baxıla bilər.

## Mən nəyi əldə edəcəyimi ümid edə bilərəm?

Əgər Məhkəmə Konvensiyanın hər hansı müddəası ilə bağlı pozuntu aşkar edərsə, siz müəyyən formada dəymiş zərərin ödənilməsi üçün pul şəkilində "ədalətli kompensasiya" ilə təmin edilə bilərsiniz. Eyni zamanda Məhkəmə şikayət etdiyiniz Dövlətdən sizin bu işlə bağlı xərclədiyiniz bütün vəsaitin geri ödənilməsini tələb edə bilər. Əgər Məhkəmə müəyyən etsə ki, heç bir pozuntu olmayıb, siz heç bir əlavə ödəmə etməyəcəksiniz (məsələn, şikayət edilən Dövlət tərəfindən işlə bağlı xərclənən vəsaitlər).

*Diqqət yetirmək lazımdır:*

• Məhkəmənin milli qərarlarla bağlı yenidən qərar vermək və ya milli qanunları ləğv etmək kimi səlahiyyətləri yoxdur.

• Məhkəmə verdiyi hökmlərin icrasından məsuliyyət daşımır. Hökm oxunduqdan dərhal sonra yerdə qalan bütün məsuliyyət Avropa Şurası Nazirlər Komitəsinin üzərinə düşür. Bundan sonra hökmün icrası və hər hansı kompensasiyanın verilməsinə nəzarətlə bağlı Nazirlər Komitəsi səlahiyyət daşıyır.

## AİHM mənim üçün nəyi edə bilməz?

• Avropa İnsan Hüquqları Məhkəməsi (AİHM) milli məhkəmələrlə əlaqədar olaraq appelyasiya məhkəməsi kimi fəaliyyət göstərmir: o, işlərlə bağlı təkrar dinləmələr keçirmir; işə təkrar baxılmır; o, milli məhkəmələr tərəfindən verilən qərarları ləğv etmək, dəyişmək və ya işə yenidən baxmaq səlahiyyətinə malik deyil.

• Məhkəmə şikayət etdiyiniz hakimiyyət orqanından bilavasitə sizin adınızdan heç bir xahiş etmir.

• Məhkəmə sizə hüquqşünas tapmaqda köməklik göstərmir və onun sizə göstərdiyi xidmətlərə görə heç bir məvacib ödəmir.

• Avropa İnsan Hüquqları Konvensiyasından başqa heç bir hüquqi sənədin pozulması ilə bağlı Məhkəməyə müraciət edə bilməzsiniz. Məsələn Məhkəmə İnsan Hüquqları Üzrə Ümumi Deklarasiyanın və ya Əsas Hüquqlar Xartiyasının pozulması ilə bağlı şikayət ərizələrinə baxmır. Siz Strasburqda yerləşən Avropa İnsan Hüquqları Məhkəməsi ilə Lüksemburqda yerləşən Avropa İcmalarının Ədalət Məhkəməsini səhv salmamalısınız.

• Məhkəmə şikayətinizin ünvanlandığı Dövlətlə bağlı olaraq sizə heç bir hüquqi məlumat verə bilməz.

Avropa İnsan Hüquqları Məhkəməsi haqqında əlavə məlumat aşağıdakı internet ünvanından əldə edilə bilər: www.echr.coe.int

## Azərbaycanda Qadın hüquqları ilə bağlı fəaliyyət göstərən QHT-lər

Azərbaycanda qadın hüquqlarının müdafiəsi sahəsində bir sıra QHT ları fəaliyyət göstərir. Qadın Krizis Mərkəzi, «Təmiz Dünya» Vətəndaş Hüquqları Uğrunda İctimai Birlik, Əlil Qadınlar Cəmiyyəti, "Yuva" Humanitar Mərkəzi, Azərbaycanın QHT-nın Forumunun Qadın Bölməsi, KOALİSİYA – 1325» ŞƏBƏKƏSİ, Dilarə Əliyeva adına Qadın Hüquqlarının Müdafiə Cəmiyyəti, Azərbaycan Gender İnformasiya Mərkəzi, Hüquqşünas Qadınlar Asossiasiyası və s.

# ƏDƏBİYYAT SİYAHISI:


**1.** Azərbaycan Respublikası Konstitusiyası 1995-ci il 12 noyabr.
**2.** Azərbaycan Respublikası Ailə Məcəlləsi 28 dekabr 1999-cu il.
**3.** Azərbaycan Respublikası Mülki Məcəlləsi 28 dekabr 1999-cu il.
**4.** Azərbaycan Respublikası Mülki Prossesual Məcəllə28 dekabr 1999-cu il.
**5.** Əhalinin sağlamlığının müdafiəsi haqqında Qanun 26 iyun, 1997-ci il.
**6.** Azərbaycan Respublikasının Əmək Məcəlləsi.
**7.** Azərbaycan Respublikası Cəzaların İcrası Məcəlləsi (Məcəllə Azərbaycan Respublikasının 14 iyul 2000-ci il tarixli 908-IQ nömrəli Qanunu ilə təsdiq edilmişdir).
**8.** Azərbaycan Respublikası İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman) haqqında Qanun 28 dekabr 2001-ci il.
**9.** Avropa İnsan Hüquqları Məhkəməsi, İ.Əliyev K.Abbasov, 2002.
**10.** "İnsan hüquqlarının müdafiə mexanizmiləri", İ.Cavadova və Sahib Məmmədov.
**11.** BMT-nin müqavilə orqanlarına fərdi şikayətlərin verilmə qaydaları haqqında İradə Cavadova (İnsan Hüquqlarının Maarifləndirmə İB) Bakı 2008 səh 302.
**12.** İnsan Hüquqlarının müdafiəsi BMT sistemi, Avropa sistemi və ölkədaxli mexanizmlər Adiloğlu nəş Bakı 2004, səh 312.
**13.** İnsan hüquqları parlament üzvləri üçün vəsait Manfrea Novak səh 232.
**14.** İnsan Hüquqları bəşər rifahının təməli "İnam plüralizim Mərkəzi BDU nəş. Bakı 2001 Səh 607 səh.
**15.** Əmək pensiyaları haqqında Azərbaycan Respublikasının qanunu (7 fevral 2006-cı il).
**16.** Sosial müavinətlər haqqında Azərbaycan Respublikasının qanunu (7 fevral 2006-cı il).
**17.** Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında Azərbaycan Respublikasının qanunu (10 oktyabr 2006-cı il).
**18.** Sahibkarlıq fəaliyyəti haqqında Azərbaycan Respublikasının qanunu (15 dekabr 1992-ci il).
**19.** İntoduction to the international human rights regime by Manfred Nowak Boston p 365.
**20.** "Qəyyumluq və himayə İnstitutu: qanunvericilik və praktika" Mahmudov Cahangir Fəxrəddin oğlu http://www.azhumanrights.az/analytics.
**21.** www.scfwca.gov.az/az/reports/.
**22.** www. gender-az.org//.
**23.** http://www.echr.coe.int/ECHR/ .
**24.** www.coe.az.
**25.** http://www.dolu.biz.
**26.** http://www.aids.org/.
**27.** http:// www.aids.gov/.
**28.** http://www.unicef-irc.org/publications/pdf/digest7e.pdf.
**29.** http://xeber.azeri.net.
**30.** www.Biologiya.org.
**31.** http://anayam.az/content.php?page=123&nid=97.
**32.** www.azstat.org.
**33.** www.genderbasedviolence.az.
**34.** http://www.ayna.az/2009-12-26/cemiyyet/1612-TQDK-yekun-gender.
**35.** http://www.azhumanrights.az/analytics/187-q601yyumluq-v601-himay601-304 nstitutu.html Mahmudov Cahangir Fəxrəddin oğlu məqaləsi Əsasında.
**36.** http://95.86.135.60/news/society/62889.html.

## MÜƏLLİFLƏR



***Şəlalə Vəliyeva*** *(layihə koordinatoru və redaktor)*

Beynəlxalq hüquq ixtisasını fərqlənmə diplomu ilə bitirib. İnsan hüquqları sahəsində ekspert-təlimçidir. İnsan hüquqları və qadın hüquqları üzrə keçirilən beynəlxalq seminar, konfrans və təlimlərin, Azərbaycan Respublikasının müxtəlif dövlət orqanları tərəfindən təşkil olunan tədbirlərin iştirakçısı olmuşdur.



***Nərmin Kərimbəyova*** *(redaktor)*

Bakı Dövlət Universitetinin hüquqşünaslıq fakultəsinin məzunu (bakalavr dərəcəsi); Bolqarıstan Gender Araşdırmalar Mərkəzinin keçirdiyi Qadın hüquqları üzrə Beynəlxalq İnstitutun məzunudur. 2006-cı ildən etibarən beynəlxalq qeyri-hökumət təşkilatında insan hüquqları sahəsində bir neçə proqram üzrə Direktor vəzifəsində işləyir. Eyni zamanda qadın hüquqları üzrə müstəqil ekspert-təlimçi kimi çalışır.



***Günel Quliyeva*** *(müəllif; mövzuları: "Məişət zorakılığı və qadın hüquqları"; "Cinayət hüququ və qadın")*

Bakı Dövlət Universitetinin hüquq fakültəsinin bakalavr dərəcəsi və Esseks Universitetinin (Böyük Britaniya) Beynəlxalq insan hüquqları hüququ LLM proqramının magistr dərəcəsi üzrə məzunudur. İnsan hüquqlarının müdafiəsi sahəsində ixtisaslaşan Interights (Böyük Britaniya) təşkilatında birillik təcrübə keçib. Hüquqşünas kimi müxtəlif qurumlarda çalışıb, o cümlədən beynəlxalq və yerli məhkəmələrdə nümayəndə qismində fəaliyyət göstərib, ekspert kimi bir sıra layihələrə, o cümlədən qadın hüquqları sahəsində layihələrə cəlb olunub. Hazırda hüquqşünas kimi işləməklə yanaşı Bakı Dövlət Universitetinin hüquq fakültəsində dərs deyir. Hüquqi mövzularda məqalələrin, o cümlədən ABŞ-da nəşr olunan Eyes On The ICC jurnalında dərc olunmuş The Concept of Joint Criminal Enterprise and ICC Jurisdiction adlı yazının müəllifidir.



***Günel İsmixanova** (müəllif; mövzuları: "Ailə münasibətlərində qadınların hüquqları", "Qadınların sağlamlıq hüququ", "Milli və beynəlxalq hüquq müdafiə vasitələri")*

10 sentyabr 1982-ci ildə Laçın rayonunda anadan olmuşdur. Bakı Dövlət Universitetinin Beynəlxalq Hüquq ixtisası üzrə dissertantdır. Bir çox elmi məqalələrin müəllifidir. Bu məqalələrin əksəriyyəti isə qadın hüquqları, insan hüquqları, gender, məişət zorakılığı, insan alveri və s. sahələrə həsr olunmuşdur. Çoxsaylı təlim və beynəlxalq konfranslarda iştirak etmişdir. Evlidir, 1 qızı var.

***Nigar Hüseynova** (müəllif; mövzuları: "Qadınların əmək hüquqları" "Pensiya və sosial müavinatlar", "Vərəsəlik hüququ")*

Bakı Dövlət Universitetini hüquq üzrə magistr dərəcəsi ilə bitirib və on ildən artıq hüquqşünas kimi fəaliyyət göstərir. 2011-ci ildən başlayaraq ATƏT-in Məhkəmə Monitorinqi Layihəsində çalışır. Əsas fəaliyyət sahələri: insan hüquqları (qadın hüquqları da daxil olmaqla) və Avropa İnsan Hüquqları Məhkəməsidir.



***Arif Niftiyev** (rəssam-dizayner)*

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetini «Reklam işi üzrə» rəssamlıq ixtisasını bitirib. Respublika daxili sərgi iştirakçısı olub dörd beynəlxalq sərgidə iştirak edib, bir çox reklam işlərinin müəllifidir. Azərbaycan Rəssamlar

İttifaqının üzvüdür. Cəfər Cabbarlı adına Azərbaycanfilm studiyasında calışır

giz BMZ Federal Ministry for Economic Cooperation and Development

AZƏRBAYCAN RESPUBLİKASININ AİLƏ, QADIN VƏ UŞAQ PROBLEMLƏRİ ÜZRƏ DÖVLƏT KOMİTƏSİ

HÜQUQŞÜNAS QADINLAR ASSOSİASİYASI
AZƏRBAYCAN